Naxçıvan iqtisadi rayonu

(*Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonları*)

- **Naxçıvan şəhəri**
- **Babək**
- **Culfa**
- **Ordubad**
- **Sədərək**
- **Şahbuz**
- **Şərur**

Naxçıvan şəhəri

2004, 12-14 may

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
- Naxçıvan hava limanında qarşılanma
- Heydər Əliyev adına Beynəlxalq hava limanında yeni aerovağzal binası istifadəyə verilmişdir
- Naxçıvan Beynəlxalq hava limanının açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Prezident İlham Əliyev Naxçıvanda şəhidlər xiyabanını və Ümummilli Liderimiz Heydər Əliyevin büstünü ziyarət etmişdir
- Prezident İlham Əliyev üzgüçülük mərkəzinin tikintisi ilə tanış olmuşdur
- Prezident İlham Əliyev Respublika xəstəxanasında kompüter tomoqrafiyası kabinetinin açılış mərasimində iştirak etmişdir
- Naxçıvan Dövlət Universitetinin internet kitabxanası binasının açılışı
- Prezident İlham Əliyev AMEA-nın Naxçıvan bölməsinin yeni korpusunun açılışında iştirak etmişdir: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Prezident İlham Əliyev babasının məzarını ziyarət etmişdir
- Prezident İlham Əliyev "N" hərbi hissəsində yeni korpusun açılışında iştirak etmişdir: Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi
- Naxçıvanda əlillərin bərpa mərkəzinin açılışı
- Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyev adına orta məktəbin tikintisi ilə tanış olmuşdur
- Yeyinti sənayesi kompleksinin açılışı
- Vayxır su anbarı ilə tanışlıq
- Prezident İlham Əliyev Naxçıvanda Heydər Əliyev Muzeyi ilə tanış olmuşdur
- Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində müşavirə: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş mərasimdə iştirak etmişdir: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2004, 2 sentyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
- Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəbin açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Naxçıvan şəhərində üzgüçülük mərkəzinin açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Naxçıvanda Mülki Müdafiə Mərkəzi açılmışdır
- Naxçıvan MR Ali Məclisində müşavirə: Azərbaycan Prezidenti İlham Əliyevin giriş sözü
- Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

2005, 19-20 dekbar

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
- Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət və Gənclik Mərkəzinin açılışı
- Prezident İlham Əliyev Naxçıvan şəhərində kitab evinin açılışında iştirak etmişdir
- Heydər Əliyev su anbarının istifadəyə verilməsi mərasimi
- Heydər Əliyev adına Hərbi Liseylə tanışlıq: Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi
- Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş: Prezident İlham Əliyevin nitqi
- Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasi Ali Məclisində müşavirə: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi
- Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi
- Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

- Naxçıvana təbii qazın verilməsinə həsr olunmuş təntənəli mərasim: Azərbaycan və İran prezidentləri mərasimdə iştirak etmişlər: Prezident İlham Əliyevin çıxışı
- İctimaiyyətin nümayəndələri ilə görüş
- Ali Baş Komandan İlham Əliyev "N" hərbi hissəsində olmuşdur

2006, 20-21 dekabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
- Heydər Əliyev su anbarında elektrik stansiyası tikilmişdir
- Naxçıvan qaz-turbin elektrik stansiyası Muxtar Respublikanın energetika sisteminə qoşulmuşdur
- "Cahan Holding" şirkətlər qrupu fəaliyyətini genişləndirir
- 7 nömrəli orta məktəb Naxçıvan şəhərinin müasir ümumtəhsil müəssisəsidir
- Naxçıvan modul tipli elektrik stansiyası istifadəyə verilmişdir
- Ümummilli Liderin abidəsinin və Heydər Əliyev Muzeyinin açılış mərasimi
- Naxçıvanda Diaqnostika-Müalicə Mərkəzi istifadəyə verilmişdir: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan Ali Məclisində müşavirə: Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi
- Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

2007, 17 oktyabr

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri: Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət
- Azərbaycan Prezidenti Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbində olmuşdur
- Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin açılışı
- Naxçıvan şəhərindəki 14 nömrəli orta məktəb müasirliyi ilə seçilir
- Olimpiya İdman Kompleksi ilə tanışlıq
- Naxçıvan Dövlət Universitetinin incəsənət binasının - Konservatoriyasının açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

2008, 3-4 iyun

- Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
- Xarici işlər nazirliyinin Naxçıvan MR-dəkı idarəsinin yeni binası istifadəyə verilmişdir
- Dədə Qorqud meydanı və turizm mərkəzi ilə tanışlıq
- Naxçıvan Əyləncə-idman mərkəzinin açılışı
- Naxçıvan tibb məktəbinin binası yenidən qurulmuşdur
- Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin təməli qoyulmuşdur
- "N" hərbi hissəsi ilə tanışlıq
- Heydər Əliyev Muzeyi ilə tanışlıq
- Səfər başa çatdı

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
(12 may 2004-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Naxçıvan Muxtar Respublikasına səfərə yola düşmüşdür.

Dövlətimizin başçısını Heydər Əliyev adına beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRTAC
2004, 12 may

Naxçıvan hava limanında qarşılanma
(12 may 2004-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də günün birinci yarısında Naxçıvana gəlmişdir.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısını və onun xanımı Mehriban Əliyevanı Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladılar.

Milli geyimli qızlar respublikamızın rəhbərinə və onun xanımına gül dəstələri təqdim etdilər. Milli adətə uyğun olaraq üzərlik yandırıldı.

Hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı Azərbaycan əsgərlərini salamladı, onu qarşılamağa gəlmiş Muxtar Respublikanın yüksək vəzifəli şəxsləri ilə səmimi görüşdü.

AZƏRTAC
2004, 12 may

Heydər Əliyev adına Beynəlxalq hava limanında yeni aerovağzal binası istifadəyə verilmişdir
(12 may 2004-ci il)

AZƏRTAC xəbər verir ki, mayın 12-də Heydər Əliyev adına Beynəlxalq hava limanında yerli hava xətləri üçün nəzərdə tutulan aerovağzal binası istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən açılış mərasimində iştirak etmişdir.

Binanın qarşısına toplaşan mülki aviasiya işçiləri, paytaxt sakinləri dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən qırmızı lenti kəsdi, müasir standartlara cavab verən aerovağzal binası ilə yaxından tanış oldu.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov dövlətimizin başçısına məlumat verdi ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yenidən qurulmuş aerovağzal binasının açılışı ulu öndərimizin, müstəqil Azərbaycanın qurucusunun anadan olmasının 81-ci ildönümünə aviatorların hədiyyəsidir. Mülki aviasiyamızın bugünkü inkişafına görə Heydər Əliyevə borcluyuq. Aerovağzal kompleksinin təməlini 1981-ci ildə Heydər Əliyev qoymuşdur. Lakin sonrakı dövrdə tikinti uzanmış, nəhayət, tamamilə dayandırılmışdı. Yalnız Heydər Əliyev yenidən Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra kompleksin tikintisinin başa çatdırılması barədə qərar vermişdir.

Ümumi sahəsi 10,5 min kvadratmetr olan aerovağzal binası saatda 500 sərnişinə xidmət göstərəcəkdir. Kompleksdə mərkəzləşmiş istilik, soyutma və havalandırma sistemi, elektrik enerjisinə olan tələbatı ödəmək üçün gücü 1600 kVt olan iki transformator və 400 kVt-lıq iki dizel generatoru quraşdırılmışdır. Birinci və ikinci mərtəbələrin döşəmələri, əsasən, Avropa ölkələrindən və Türkiyədən gətirilmiş qranitlə üzlənmişdir ki, bu da binanın daxili görünüşünə xüsusi gözəllik verir.

Binanın ikinci mərtəbəsi, əsasən, böyük gözləmə salonundan ibarətdir. Burada 300 nəfərdən çox sərnişin üçün rahat oturacaqlar quraşdırılacaqdır. Qeydiyyatdan keçəndən sonra uçuşu gözləyən sərnişinlərdən ötrü salon da vardır. Aviasiya təhlükəsizliyi, hava nəqliyyatında polis və baş gömrük idarələri və ayrı-ayrı strukturlar üçün də şərait yaradılmışdır. Cənubi Koreyada istehsal edilən, hər birinin yükgötürmə qabiliyyəti 3 ton olan iki lift quraşdırılmış, mebel avadanlığı alınmışdır.

Türkiyənin Azərbaycanda qeydiyyatdan keçmiş "Eren İnşaat" şirkətinin apardığı tikinti işlərinə konsern 36,4 milyard manat vəsait xərcləmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev binada jurnalistlər üçün brifinq zalına, televiziya kanallarının çəkiliş qrupları üçün xüsusi kabinələrə, birinci mərtəbədə sərnişinlərin ixtiyarına verilmiş hər cür rahatlığı ilə seçilən gözləmə salonuna, məlumat bürosu köşklərinə, diktor otağına, itən baqajları saxlamaq üçün kameraya, kafeyə, VİP salonuna, müasir tərtibatı ilə seçilən "Şərəf salonu"na və digər xidmət sahələrinə baxdı, yaradılmış şəraitlə yaxından tanış oldu.

Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər mərasimdə iştirak edirdilər.

AZƏRTAC
2004, 12 may

Naxçıvan Beynəlxalq hava limanının açılış mərasimi

(12 may 2004-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verir ki, mayın 12-də Naxçıvan beynəlxalq hava limanının təntənəli açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Hava limanı binasının üzərindən Azərbaycanın dövlət bayrağı, xalqımızın ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin böyük portretləri, dövlətimizin başçısını salamlayan şüarlar yazılmış transparantlar asılmışdı.

Muxtar respublikanın mərasimə toplaşan on minlərlə sakini Prezident İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar. Onların əllərində ümummilli lider, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin portretləri, bu dahi şəxsiyyətin söylədiyi müdrik kəlamlar yazılmış şüarlar və Prezident İlham Əliyevin şəkilləri var idi.

Ümummilli liderimiz Heydər Əliyevin tövsiyəsi, tapşırığı sayəsində Türkiyənin "Eren port" şirkəti tərəfindən yüksək səviyyədə, beynəlxalq standartlara uyğun tikilmiş, muxtar respublikanın iqtisadi və sosial həyatında önəmli rol oynayacaq Naxçıvan beynəlxalq hava limanında eni 45, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı monolit betonla yenidən qurulmuş, müasir işıqlandırma sistemi ilə təchiz olunmuşdur. Mütəxəssislərin fikrincə, belə tikinti işləri MDB məkanında ilk dəfə burada tətbiq edilmişdir. Aerovağzal binası saatda 300 sərnişinə xidmət göstərməyə imkan verəcəkdir. Hava limanında uçuşları idarəetmə məntəqəsi, sahəsi 2 min kvadratmetr olan yük terminalı, hərəsi 400 tonluq iki yanacaq anbarı, iki istilik mərkəzi tikilmiş, transformatorlar, dizel generatorları quraşdırılmışdır. Aerovağzal binasının ikinci mərtəbəsi inzibati otaqlardan ibarətdir.

Hava limanının təntənəli açılışına həsr olunmuş mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

-Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Əziz mərasim iştirakçıları!

Bu gün Naxçıvan Muxtar Respublikasında, Azərbaycanın ayrılmaz parçası olan bu qədim torpaqda çox mühüm, əlamətdar bir hadisə baş verir. Zirvəsində ümummilli liderimizin dayandığı Azərbaycanın quruculuq salnaməsinə daha bir obyektin adı yazılır. Əsaslı yenidənqurma və tikinti işlərindən sonra Naxçıvan beynəlxalq hava limanı istifadəyə verilir. Müasir memarlığın ən mühüm elementlərini özündə cəmləşdirən bu yaraşıqlı hava limanı bilavasitə möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır, onun xeyir-duası, qayğı və himayəsi ilə tikilib ərsəyə gəlmişdir və ümummilli liderimizin quruculuq işlərinin daha bir nümunəsi və yadigarıdır.

Tikintisi üçün xüsusi müşavirə keçirdiyi, göstərişlər verdiyi, layihəsini dönə-dönə müzakirə etdiyi Naxçıvan beynəlxalq hava limanının istifadəyə verilməsi möhtərəm Heydər Əliyevin ən böyük arzularından biri idi. Bu gün xalqımızın böyük oğlunun bu arzusunun da gerçəkləşdiyi gündür. Müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın ümummilli lideri möhtərəm Heydər Əliyevin əziz xatirəsini yad etməyi xahiş edirəm.

(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu).

Mayın 10-da xalqımız möhtərəm Heydər Əliyevin anadan olmasının 81-ci ildönümünü geniş qeyd etdi. Heydər Əliyev - Azərbaycan mənəvi bağlılığı zaman keçdikcə daha da möhkəmlənir. Xalqımız öz sevimli liderinin adını və əməllərini daim yaşadacaq, onun özü qədər dövlət, xalq işini etibar etdiyi, güvəndiyi ən layiqli davamçısı olan ölkəmizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderimizin yolu ilə gedəcəkdir.

Cənab Prezident!

Möhtərəm Heydər Əliyev dühasının bəhrəsi olan, Sizin qayğınız sayəsində tamamlanan və istifadəyə verilən hava limanı Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinə ən layiqli töhfənizdir. Muxtar Respublikanın 80 illik yubileyinin keçirilməsi barədə verdiyiniz çox mühüm Sərəncama, yubiley münasibətilə istifadəyə verilən yeni obyektlərin açılışında şəxsən iştirakınıza və dövlətimizin başçısı kimi Muxtar Respublikaya ilk səfərinizə görə Sizə Naxçıvan Muxtar Respublikasının əhalisi adından və şəxsən öz adımdan dərin minnətdarlığımızı bildirirəm.

Hörmətli mərasim iştirakçıları!

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həlli möhtərəm Heydər Əliyevi daim düşündürmüşdür. Bu qayğının nəticəsidir ki, 1974-cü ildə Naxçıvanda ilk hava limanı tikilib istifadəyə verildi. 1800 metrlik uçuş-enmə zolağına malik hava limanı o vaxt avtobus marşrutlarının, dəmir yol nəqliyyatının müntəzəm işlədiyi dövrün tələbləri baxımından ehtiyacların ödənilməsinə hesablanmışdı. Lakin Dağlıq Qarabağa əsassız erməni iddiaları nəticəsində başlanan müharibənin zərbə dalğaları Naxçıvana dəyəndən, regionu Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokadaya alınandan sonra sərnişin, yük daşınması kimi vacib məsələlər kiçik tutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi.

Təsadüfi deyil ki, Bakı ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali tərəfindən "həyat yolu" adlandırılırdı. Hamı gözəl dərk edirdi ki, bu yolu, həyatı onlara möhtərəm Heydər Əliyev bəxş edibdir. Naxçıvan Muxtar Respublikası bugünkü mövcudluğu üçün də həmin dövrlərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən möhtərəm Heydər Əliyevə daim minnətdar olacaqdır.

Möhtərəm Heydər Əliyev Naxçıvan hava limanının genişləndirilməsi barədə iki dəfə qərar qəbul etmişdir. Limanın genişləndirilməsi məsələsi ilk dəfə 1992-ci ilin fevralında qaldırıldı. Məsələni Ali Məclisin rəyasət heyətinin iclasında xüsusi müzakirəyə çıxaran xalqımızın böyük oğlu Naxçıvan hava limanında uzunluğu 3300 metr olan uçuş-enmə zolağının tikilib istifadəyə verilməsinə nail oldu. Bu, həmin dövr üçün çox mühüm addım idi.

Hava limanının gücü müasir tələblərə cavab verdiyindən, ölkəmizin rəhbəri 2002-ci il avqustun 11-də onun genişləndirilməsi barədə qərar qəbul edərək, Muxtar Respublikanın Ali Məclisində xüsusi müşavirə keçirdi. Blokada ilə əlaqədar Naxçıvan sakinlərinin ölkəmizin digər yerlərində yaşayanlara nisbətən təyyarələrdən istifadəyə daha kəskin ehtiyac duyduqlarını bildirən möhtərəm Heydər Əliyev həmin müşavirədə demişdir:

"Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yəni yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır. Bunları nəzərə alaraq, mən belə bir qərara gəldim".

İnşasına 2002-ci il oktyabrın 1-də başlanan Naxçıvan beynəlxalq hava limanında tikinti və yenidənqurma işləri ümummilli liderimizin tapşırıqlarına uyğun şəkildə, yeni limanı necə görmək istədiyi barədə arzuları nəzərə alınmaqla aparılmışdır. Bölgənin sərt iqlim şəraitini nəzərə alaraq, hava limanının uçuş-enmə zolağı betondan hazırlanmışdır. Bu zolağın uzunluğu, genişliyi və möhkəmliyi müasir təyyarəqayırma sənayesinin ən son nailiyyətləri olan ağır təyyarələri qəbul etməyə imkan yaradır.

Qardaş Türkiyənin "Eren port" şirkəti hava limanında və aerovağzal kompleksində tikinti-quraşdırma işlərini ən müasir tələblər baxımından aparmışdır. Hava limanı saatda 300 sərnişinə xidmət göstərəcəkdir. Burada uçuşları idarəetmə məntəqəsi, VİP salonu, yük terminalı, yanacaq anbarı, yanğınsöndürmə binası, istilik mərkəzi, transformator yarımstansiyaları, su anbarları yaradılmışdır. Ən müasir işıq-siqnal sistemləri, yeni radiotexnika vasitələri quraşdırılmış, mühəndis-kommunikasiya xətləri çəkilmiş, ərazinin və xidmət sahələrinin genişlənməsi hesabına hava limanında əlavə olaraq 200-ə yaxın yeni iş yeri açılmışdır. Hava limanının tikintisini keyfiyyətlə və vaxtında başa çatdırdıqlarına görə "Eren port" şirkətinə və tikintidə çalışanların hamısına təşəkkürümüzü bildiririk.

Cənab Prezident, ötən ilin sentyabrında professor Əziz Əliyev tankerinin istismara verilməsi və Yaxt-klubun açılışı münasibətilə keçirilən mərasimdəki çıxışınızda demişdiniz: "Naxçıvanda yeni aeorvoğzal kompleksi və hava limanı tikilir. Hava limanı ən yüksək standartlara cavab verəcəkdir. Çünki blokada şəraitində yaşayan, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan cənab Prezidentin daim diqqət mərkəzində olmuşdur. Hökumət oraya daim diqqət göstərir, bundan sonra da göstərəcəkdir". Bu qayğının və diqqətin nəticəsidir ki, tikintisi başa çatdırılan hava limanına ölkəmizin Prezidentinin tapşırığı ilə beynəlxalq hava limanı statusu verilmişdir. Naxçıvanın blokada vəziyyəti ilə bağlı problemlərinə həssas münasibətinizə görə Sizə bir daha minnətdarlığımızı bildiririk. Diqqətinizə görə çox sağ olun.

"Azərbaycan Hava Yollari" dövlət konserninin baş direktoru Cahangir Əsgərovun çıxışı

-Möhtərəm cənab Prezident!

Əziz naxçıvanlılar!

Hörmətli xanımlar və cənablar!

Qədim Naxçıvan torpağında sizi böyük məmnunluq hissi ilə salamlayıram. İcazənizlə, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illik yubileyi, qarşıdan gələn 28 May - Respublika günü və Naxçıvan beynəlxalq hava limanının açılışı münasibətilə hamınızı ürəkdən təbrik edirəm.

Möhtərəm cənab Prezident!

İlk öncə, mülki aviasiya işçilərimizin dərin minnətdarlığını və xoş arzularını Sizə çatdırmağı özümə borc bilirəm. Çünki ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında imzaladığınız 2004-cü il 10 mart tarixli Fərman aviatorlarımızın ürəyincə olmuşdur. Bu gün beynəlxalq aeroporta Heydər Əliyevin adının verilməsindən çox haqlı olaraq qürur duyuruq.

Əziz mərasim iştirakçıları!

İki gün öncə ümummilli liderimiz, Azərbaycanın böyük oğlu Heydər Əliyevin anadan olmasının 81-ci ildönümünü qeyd etmişik. Hələ də bu tarixi günün – ulu öndərimizin doğum gününün xoş duyğularını yaşayırıq. Bu gün isə Heydər Əliyevin təşəbbüsü ilə yenidən qurulmuş Naxçıvan hava limanının açılış mərasiminə toplaşmışıq. Çox xoşbəxt adamlarıq ki, bu gün Heydər Əliyevin doğulduğu qədim diyarda, Naxçıvandayıq. Əlbəttə, mayın 12-i Naxçıvan beynəlxalq hava limanının istifadəyə verildiyi gün kimi tarixdə qalacaqdır.

Təqribən iki il əvvəl Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisində dediyi sözlər onun arzusunu bir daha açıq-aşkar əks etdirir. Ümummilli liderimiz demişdir: "Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yəni, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır. Bunları nəzərə alaraq, mən belə bir qərara gəldim".

Sevinirik ki, onun dediyi bu sözlər artıq həqiqətə çevrilmiş, bütünlüklə yenidən qurulmuş Naxçıvan hava limanı öz qapılarını dünyaya açmışdır.

Bu gün həm Naxçıvanda, həm də bütün Azərbaycanda bayramdır. Aviatorlarımız isə ikiqat bayram keçirirlər. Bildiyiniz kimi, Naxçıvan hava limanı bilavasitə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və şəxsi göstərişi ilə yenidən qurulmuşdur. Onun şəxsi nüfuzu, ardıcıl nəzarəti və tələbkarlığı nəticəsində qısa bir zamanda Naxçıvan hava limanında yenidənqurma işləri başa çatdırılmışdır. Biz bu gün bir daha dərindən dərk edirik ki, mülki aviasiyamızın infrastrukturunun dəyişilməsində Heydər Əliyevin xidmətləri olduqca müstəsna əhəmiyyətə malikdir.

Böyük öndərimizin işıqlı ideyaları, həyatı və şərəfli ömür yolu mülki aviasiyamızın tarixində yaşayır və bizim bütün uğurlarımızda həmişə davam edəcəkdir. Nə qədər ki, Azərbaycan var, Heydər Əliyev də daim ürəklərdə yaşayacaqdır.

Hamımız yaxşı bilirik ki, mülki aviasiyamızda baş vermiş bütün quruculuq işləri, dirçəliş və tərəqqi üçün, ilk növbədə, ümummilli liderimiz Heydər Əliyevə borcluyuq. Xüsusilə, Bakı beynəlxalq aerovağzal kompleksi şəxsən Heydər Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilmişdir. Bu kompleksin isə böyük bir tarixi vardır və onu heç vaxt unutmaq olmaz.

Bildiyiniz kimi, aerovağzal kompleksinin təməlini 1981-ci ildə Heydər Əliyev qoymuşdur. Çox təəssüf ki, sonrakı dövrdə tikinti yubanmışdır. Azərbaycan Respublikasına başçılıq edə bilməməsi ucbatından burada heç bir iş görülməmiş, tikinti tamamilə dayandırılmışdı. Yalnız Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra kompleksin tikintisinin başa çatdırılması barədə qərar vermişdir.

Əziz mərasim iştirakçıları!

Beş il əvvəl Bakıda aerovağzal kompleksinin açılış mərasimində Heydər Əliyevin iştirakını indi də xoş duyğularla xatırlayırıq. Ulu öndərimizin həmin mərasimdə dediyi sözlər bu gün üçün daha da aktual səslənir və böyük əhəmiyyət daşıyır. O demişdir: "Bu aerovağzal kompleksinin istifadəyə verilməsi sayəsində Azərbaycanın dünya ilə əlaqələri daha da sürətlənəcək. Mən əminəm ki, aerovağzal kompleksi bu qədər gözəl olduğu kimi, o qədər gözəl istismar olunacaqdır. Biz Azərbaycan Mülki Aviasiyasına, "Azal" Konserninə böyük qiymətə malik, hamımız üçün sevimli olan bir bina – aerovağzal kompleksi təqdim edirik. Onların vəzifəsi bundan səmərəli istifadə etmək, onu göz bəbəyi kimi qorumaqdan ibarətdir".

Ümummilli liderimizin 1999-cu il sentyabrın 30-da aerovağzal kompleksinin açılışı mərasimində dediyi bu sözlər indi hər bir mülki aviasiya işçisi üçün əməli fəaliyyət proqramıdır. Bu fəaliyyət proqramı artıq gündəlik vəzifəmizə çevrilmişdir.

Əziz naxçıvanlılar, sizin də vəzifəniz ondan ibarətdir ki, ulu öndərimizin dediyi kimi, Naxçıvan beynəlxalq hava limanından səmərəli istifadə edəsiniz, onu göz bəbəyi kimi qoruyasınız. Çünki bu hava limanı gələcək nəsillərə ümummilli liderimiz Heydər Əliyevdən qiymətli yadigardır.

Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edib, mülki aviasiya işçilərinin bir arzusunu Sizə çatdırmağı özümə borc bilirəm. Biz təklif edirik ki, hər il Heydər Əliyevin doğum günü ümumxalq bayramı kimi qeyd olunsun.

Əziz mərasim iştirakçıları!

Heydər Əliyevin qurucusu və memarı olduğu Azərbaycan mülki aviasiyası bu gün daha da inkişaf yolundadır və onun siyasi varisi olan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin diqqət mərkəzindədir. Prezidentimizin bu gün muxtar respublikaya gəlməsi və Naxçıvan beynəlxalq hava limanının açılış mərasimində iştirak etməsi onun mülki aviasiyamıza qayğısını bir daha sübut edir. Bu isə bizə böyük ümidlər verir.

Hörmətli mərasim iştirakçıları!

Mülki aviasiyamızın bugünkü tərəqqisi Heydər Əliyevin möhkəm iradəsinin, dərin zəkasının və müdrik siyasətinin qələbəsidir. Bu siyasəti müstəqilliyimizin on üçüncü ildönümündə ölkəmizin Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir, yeni Azərbaycanı daha yüksək zirvələrə inamla aparır. Elə buna görə də biz çox haqlı olaraq, böyük iftixar hissi keçiririk. Çünki bizim cənab İlham Əliyev kimi güclü, ədalətli, mərhəmətli Prezidentimiz vardır.

Yeri gəlmişkən, demək istəyirəm ki, bu gün Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev ölkəmizin tərəqqisi yolunda ardıcıl tədbirlər həyata keçirir. Regionların inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramı buna ən yaxşı sübutdur. Bu proqramın həyata keçirilməsinə kömək göstərmək bizim də əsas vəzifəmizdir.

Möhtərəm cənab Prezident, Sizə məruzə etmək istəyirəm ki, Naxçıvan beynəlxalq hava limanının yenidən qurulması layihəsi nəticəsində burada 200-dən çox yeni iş yeri açmışıq. Ümidvarıq ki, muxtar respublikanın əhalisi bu hava limanının bəhrəsini daha çox görəcəkdir. Bu isə Dövlət proqramının yerinə yetirilməsinə, az da olsa, bizim ilkin töhfəmizdir.

Möhtərəm cənab Prezident!

Bildiyiniz kimi, Naxçıvan hava limanının yenidən qurulması layihəsinin ümumi dəyəri 193,5 milyard manatdır. Bu vəsaitin 115 milyard manatı dövlət büdcəsindən ayrılmışdır. 63,5 milyard manatı isə "Azərbaycan Hava Yolları" Dövlət Konserninin daxili imkanları hesabına ödənilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan hava limanına beynəlxalq status verilmişdir. Bu status Naxçıvandan dünyanın istənilən ölkəsinə uçuşlar yerinə yetirməyə imkan yaradır.

Hörmətli cənab Prezident!

Çox işlər görülmüş, böyük inşaat proqramı yerinə yetirilmişdir. Bu gün Naxçıvan beynəlxalq hava limanı tanınmaz hala gəlmişdir. Əlbəttə, bu çox sevindiricidir. Ona görə də, icazənizlə, bu layihənin həyata keçirilməsində əməyi olan bütün mütəxəssislərə, qonşu Türkiyə inşaatçılarına, "Eren port" şirkətinə, Azərbaycan tərəfindən olan tikinti işçilərinə və inşaatda iştirak etmiş bütün insanlara minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Cənab Prezident, biz təhlükəsiz uçuşlar yerinə yetirməklə müstəqil Azərbaycanın tərəqqisi yolunda var gücümüzlə çalışacağıq. Yeri gəlmişkən, bəyan edirəm ki, biz, aviatorlar Azərbaycanın Prezidenti kimi Sizi dəstəkləyir və ətrafınızda sıx birləşirik. Bu fürsətdən istifadə edib, mülki aviasiyamıza qayğı göstərdiyinizə görə, "Azərbaycan Hava Yolları" Dövlət Konserninin 8 minlik kollektivi adından Sizə dərin minnətdarlığımı bildirirəm. Qarşıdan gələn Respublika günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, yeni, müstəqil Azərbaycanın tərəqqisi naminə böyük uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun.

"Eren Port" şirkətinin direktoru Gültəkin Erenin çıxışı

- Zati aliləri, çox hörmətli cənab Prezident İlham Əliyev!

Hörmətli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov!

Dəyərli qonaqlar, xanımlar və cənablar!

Bu gün mənim və şirkətim üçün çox əlamətdar bir gündür. Çünki iki ilə yaxındır inşa etdiyimiz Bakı aerovağzal kompleksi və Naxçıvan beynəlxalq hava limanı bu gün istismara verilir. Bununla da muxtar respublikanın hava qapısı dünya ölkələrinə açılır.

2002-ci il avqustun 11-də türk dünyasının böyük oğlu, Prezidentimiz Heydər Əliyevə Naxçıvan beynəlxalq hava limanı ilə bağlı layihəni və maketi göstərəndə məndən soruşmuşdu: Bu hava limanını 2003-cü ilin axırına qədər başa çatdıra biləcəksənmi?! Bunu məndən soruşan zaman bu müddətin çox qısa olduğunu özü də bilirdi. Mən də onun dəstəyinə və münasibətinə güvənərək, heç qorxmadan "bəli, Prezidentim", deyərək, söz verdim.

Tikinti işlərinə başlayan zaman hava şəraitinin 15-20 ildən çox bir vaxtda görünməyən şəkildə soyuq keçməsi səbəbindən işlərimizin 4 ay geçikməsinə baxmayaraq, bütün gücümüzü səfərbər edərək, rekord müddətdə, söz verdiyimiz vaxtda işi başa çatdırdıq. Prezidentə verdiyim sözü yerinə yetirməkdən böyük qürur duyuram. Əminəm ki, Prezidentimiz də bu an burada, hamımızın qəlbində qürurla xatırlanır.

İcazənizlə, görülən işlərlə bağlı məlumat vermək istəyirəm. İndi gördüyünüz aerovağzal binasının sahəsi 8600 kvadratmetrdir. İki mərtəbədən ibarətdir. Beton örtüklü uçuş-enmə zolağı isə 177 min 720 kvadratmetrdir. Gördüyünüz betonların arasında qoyulmuş tikinti materiallarının uzunluğu 80 kilometrdir. Biz bunu Yaponiyadan və Almaniyadan alıb gətirmişik.

Naxçıvan əhalisinə hədiyyə etdiyimiz bu hava limanını beynəlxalq standartlara uyğun tikmək üçün bütün işçi qüvvəsi səfərbər olunmuşdu. Bunun üçün yerli mütəxəssislərlə yanaşı, Türkiyədən və Avropadan da mütəxəssislər cəlb olunmuşdu. Türkiyənin Atatürk hava limanının tikintisində iştirak etmiş inşaatçılarımızın çoxu burada çalışmışdır. Tikintinin əvvəlindən sonunadək keçən 14 ay ərzində inşaat işlərində 700-ə yaxın insan çalışmışdır. Bunun 60 faizindən çoxu naxçıvanlı olmuşdur. Azərbaycanlı işçi və mütəxəssislərin sərf etdikləri vaxt 1 milyon 27 min saata bərabərdir.

Bu əsərin ortaya çıxması üçün lazım olan avadanlıq, cihaz və ləvazimatlar İngiltərədən, Fransadan, Danimarkadan, Almaniyadan, Rusiyadan, İrandan, Ukraynadan, Slovakiyadan, Koreyadan, Çindən, Yaponiyadan və Türkiyədən gətirilmişdir. Bu, doğrudan da böyük təşkilati iş olmuşdur. Eyni zamanda, xaricdən gətirilən materiallarla bərabər, yerli tikinti materiallarından da maksimum dərəcədə istifadə edilmiş, Azərbaycan iqtisadiyyatına xeyli gəlir verilmişdir.

Onu da bildirmək istəyirəm ki, şirkətimiz tərəfindən tikilən uçuş-enmə zolağından eynisi Atatürk hava limanında da yaradılmışdır. Ümumiyyətlə, görülən işlərdə hörmətli Cahangir Əsgərovun böyük rolu olmuşdur. Bizə göstərdikləri diqqət və qayğıya görə ona təşəkkür edirəm. O, hər bir işlə maraqlanmış, qarşıya çıxan problemləri həll etmişdir. Eyni zamanda, Naxçıvanda üzləşdiyimiz hər cür problemi çox qısa zamanda həll edən hörmətli Vasif Talıbova və onun müavinlərinə minnətdarlığımı bildirirəm. Bizimlə çiyin-çiyinə bu tikintinin başa çatdırılmasına çalışan bütün insanlara təşəkkür edirəm.

Mən özümü kənar ölkədə hiss etmədim. Bu barədə dahi şəxsiyyət, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" müdrik kəlamının nə qədər həqiqət olduğunu yerinə yetirdiyimiz işlərin nəticəsində də görmək olar. Tikinti dövründə bütün sahələrdə dostluq, qardaşlıq əhval-ruhiyyəsi hökm sürmüşdür. Bİz bunu təkbaşına görə bilməzdik, hamımız birlikdə gördük.

Hörmətli cənab Prezident!

Biz, ölkənizə gəlmiş bütün türk iş adamları Heydər Əliyevin bizə yaratdığı əlverişli şəraitin Sizin tərəfinizdən davam etdirilməsinin şahidiyik. Mən Sizə iş adamları və şirkətim adından ürəkdən gələn dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sizi, dünya ölkələrinin dövlət başçıları arasında ən cavan lideri görməkdən çox məmnunam və son dərəcə məsuliyyətli işinizdə Sizə müvəffəqiyyətlər diləyirəm.

Əminəm ki, beynəlxalq standartlara uyğun tikilmiş Azərbaycanın yeni hava qapısı – Naxçıvan beynəlxalq hava limanı vasitəsilə Avropaya və digər ölkələrə hava yolları açılacaq və bizim hava limanı dünya hava limanları arasında öz layiqli yerini tutacaqdır. Bu möhtəşəm hava limanının açılışı münasibətilə hamınızı bir daha ürəkdən təbrik edirəm. Xeyirli, uğurlu olsun!

X X X

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz naxçıvanlılar!
Əziz bacılar və qardaşlar!
Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmətimi, dərin məhəbbətimi bildirirəm.

Bu gün həyatımızda çox əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan hava limanı istifadəyə verilir. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu hava limanı bütün yüksək dünya standartlarına cavab verir. Burada gözəl aerovağzal kompleksi, uçuş-enmə zolağı, digər infrastruktur obyektləri tikilmişdir və bunlar yüksək səviyyədə inşa olunmuşdur. Mən xatırlayıram ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bu tikinti ilə əlaqədar çoxlu müşavirələr, görüşlər keçirilmişdir və tikinti başlayanda da inşaat işləri daim onun nəzarəti altında idi. O, çox istəyirdi ki, Naxçıvan üçün gözəl, Naxçıvana uyğun, Naxçıvana yaraşan bir hava limanı tikilsin və insanlara xidmət etsin. Bu gün biz buna nail olmuşuq. Heydər Əliyevin əsəri - yeni Naxçıvan hava limanı öz qapılarını açır.

Bu gün çox gözəl bir gündür. Amma eyni zamanda, kədərli bir gündür. Çünki bizim hamımızın istəyi, arzusu o idi ki, ümummilli liderimiz Heydər Əliyev özü bu hava limanının açılışında iştirak etsin, özü bu qırmızı lenti kəssin və hava limanına öz xeyir-duasını versin. Amma onun səhhəti belə bir imkan yaratmadı.

Bu giin Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim hamımız üçün böyük sınaqdır, hamımız üçlin böyük imtahandır, hamımız üçün böyük kədərdir, dərddir. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır. Heydər Əliyevin fəlsəfəsi, siyasəti yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, güclənir və bundan sonra da yaşayacaqdır.

Biz hamımız bu siyasətə sadiqik. Biz hamımız bu siyasəti davam etdirməliyik. Azərbaycanı hərtərəfli inki-şaf etdirməliyik. Azərbaycanı gücləndirməliyik, Heydər Əliyevin yolu ilə irəliyə aparmalıyıq. Mən əminəm ki, biz buna nail olacağıq. Xalq bu siyasəti dəstəkləyir. Xalq bu siyasətə alternativ siyasəti qəbul etmir və bi-zim gələcəkdə görəcəyimiz bütün işlərin uğurlu olması üçün bu, əsas şərtdir.

Bu hava limanı, eyni zamanda, Naxçıvanı digər yerlərlə, şəhərlərlə bağlayacaqdır. Azərbaycanın qədim torpağı Naxçıvan Azərbaycanın digər hissəsindən təcrid olunmuş vəziyyətdə, çətin blokada şəraitində yaşayır. Ona görə, əlbəttə, səmişinlər üçün hava yolu yeganə rabitə vasitəsidir.

Bu gün səhər Bakıda Heydər Əliyevin adını daşıyan beynəlxalq hava limanının yerli hava xətləri üçün aerovağzal binası, terminalı açılmışdır. Biz o açılışda iştirak etmişik. O terminal da, əsasən, naxçıvanlılara xidmət edəcəkdir, Naxçıvanda yaşayan insanlara ən yüksək səviyyədə xidmət edəcəkdir. Eyni zamanda, digər şəhərlərlə birbaşa uçuşların təşkil olunması nəzərdə tutulur. Naxçıvan hava limanına beynəlxalq status verilibdir. Bu statusdan istifadə edib digər marşrutlar üzərində işləmək mümkün olacaqdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, yaxın zamanlarda, gələn il Azərbaycana yeni, müasir təyyarələrin alınması da nəzərdə tutulubdur. Xaricdə istehsal olunan yeni müasir təyyarələr gətiriləcəkdir ki, bu da Öz növbəsində, insanlarımıza çox yüksək səviyyədə xidmət göstərməyə imkan verir.

Ümumiyyətlə, Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir. Bu, bizi çox sevindirir. Bizim hava yollarının fəaliyyəti yüksək səviyyədədir. Xəzər Dəniz Gəmiçiliyi çox böyük mənfəətlə, uğurla işləyir. Azərbaycan Dəmir Yolu İdarəsi uğurla işləyir, yeni avadanlıq, qatarlar alınır, bərpa işləri gedir. Azərbaycanda böyük avtomobil yollarının layihələri həyata keçirilir, yeni yollar salınır və yaxın zamanlarda Azərbaycanı bütün istiqamətlərə aparan yollar ən yüksək dünya standartlarına cavab verəcəkdir. Bu, çox mühüm bir amildir. Nəqliyyatın inkişafı ölkənin ümumi iqtisadi inkişafının göstəricisidir.

Bildiyiniz kimi, Azərbaycan son illər ərzində çox uğurla inkişaf edir, bu sahədə Azərbaycan bütün digər keçmiş sovet respublikalarını qabaqlayır. Azərbaycana böyük sərmayələr qoyulur, adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə, MDB və Şərqi Avropa məkanında birinci yerdədir. BÜtün bunlar Heydər Əliyevin siyasətinin nəticəsidir. Azərbaycanda son illər ərzində aparılan siyasi, iqtisadi, sosial islahatların nəticə-sidir.

Bu gün Azərbaycan çox inamla irəliyə gedir. Azərbaycanın çox gözəl perspektivləri vardır. Azər-baycanda insanların sosial vəziyyəti ildənilə yaxşılaşır, əmək haqları, pensiyalar artır. Bu proses bundan sonra da davam edəcəkdir. Azərbaycanın büdcəsi ildənilə artır və bizə imkan verir ki, belə gözəl binalar yaradaq. Əgər müstəqilliyimizin ilk illərində Azərbaycanda yaradılan müəssisələrin əksəriyyəti xarici kreditlərin hesabına idisə, indi əsas tikinti işləri öz hesabımıza aparılır. Bu onu göstərir ki, ölkəmizin imkanları var. Bizim böyük valyuta ehtiyatlarımız var.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 10 il ərzində aparılan uğurlu neft strategiyası bizə imkan verir ki, ölkəmizin valyuta ehtiyatları çoxalsın. Bu gün biz həmin strategiyanın əyani nəticələrini görürük. Neft sahəsində görülən işlər, Azərbaycana qoyulan sərmayələr, Azərbaycanda tikilən böyük, nəhəng neft-qaz kəmərləri bizə imkan verəcək ki, bir neçə ildən sonra ölkəmiz zəngin, qüdrətli ölkəyə çevrilsin. Bu, bizim məqsədimizdir, bizim siyasətimizdir. Gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə veriləndən sonra Azərbaycan öz iqtisadi potensialını çox sürətlə gücləndirəcəkdir. Bu da öz növbəsində, imkan verəcəkdir ki, sosial məsələlərə daha da böyük diqqət göstərilsin, əmək haqları qaldırılsın, pensiyalar, digər müavinətlər artırılsın. Bizim məqsədimiz budur. Heydər Əliyevin siyasəti budur. Xalqa, millətə xidmət etmək, ölkəmizi gücləndirmək, Azərbaycanın müstəqilliyini gücləndirmək Heydər Əliyev siyasətinin əsas istiqamətləridir. Biz bu siyasətə sadiqik.

Azərbaycan, demək olar ki, bölgədə ən dinamik inkişaf edən ölkədir. Qonşu dövlətlərlə müqayisədə görərik ki, bizim inkişaf ahəngimiz, iqtisadi potensialımız çox fərqlənir və getdikcə bu fərq daha qabarıq səkildə özünü büruzə verəcəkdir.

Planlarımız çoxdur. Azərbaycanda növbəti 5 il ərzində sosial-iqtisadi proqramların həyata keçirilməsi nəticəsində yüz minlərlə iş yerlərinin açılması nəzərdə tutulur. Əminəm ki, biz buna nail olacağıq. Biz nəzərdə tutulan bütün tədbirləri həyata keçirəcəyik.

Naxçıvan çox sürətlə inkişaf edir. Bu, bizim hamımızı sevindirir. Naxçıvan hər bir azərbaycanlı üçün əziz, doğma torpaqdır. Azərbaycanın qədim torpağıdır. Naxçıvanda son illər ərzində aparılan abadlıq, quruculuq işləri bizim hamımızı çox sevindirir. Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir.

Naxçıvan həmişə Heydər Əliyevin diqqət mərkəzində idi. Təkcə ona görə yox ki, Heydər Əliyevin vətənidir və Heydər Əliyev Naxçıvanda doğulmuşdur. Ona görə ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən diyardır. Əlbəttə, Naxçıvanın hərtərəfli güclənməsinə Heydər Əliyev həmişə böyük əhəmiyyət verirdi. Bu siyasət davam etdiriləcəkdir.

Mən bunu bir neçə dəfə qeyd etmişəm - Naxçıvana olan xüsusi münasibət bundan sonra da göstəriləcək və mən naxçıvanlıları daim, həmişə dəstəkləyəcəyəm.

Biz istəyirik ki, Naxçıvanda və Azərbaycanın digər bölgələrində insanlar daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, əmək haqları onları təmin etsin, onlar sosial cəhətdən daha güclü müdafiə olunsunlar. Bütün bu amillər bizim proqramlarımızın tərkib hissəsidir. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Əziz naxçıvanlılar!

Əziz dostlar!

Mən bu gün Naxçıvana gəlmişəm. Mən keçmişdə Naxçıvanda dəfələrlə olmuşam. Xüsusilə, 1990-1993-cü illərdə, Heydər Əliyev Naxçıvanda işləyəndə, yaşayanda burada dəfələrlə olmuşam, o çətin şəraiti görmüşəm. Soyuq, şaxtalı qışda insanların necə çətin şəraitdə yaşamasını görmüşəm. Köhnə hava limanından böyük çətinliklə dəfələrlə istifadə etmişəm.

Baxmayaraq ki, Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri idi, hava limanından hamı necə, biz də elə istifadə edirdik. Həmin o meydanda növbə gözləyər, növbə çatanda Bakıya balaca "YAK" təyyarəsi ilə gedərdik. Amma baxın, bu gün nə gözəl şərait yaradılıbdır. Bu şərait onu göstərir ki, ölkəmiz inkişaf edir, ölkəmiz yaşayır, ölkəmiz güclənir və bundan sonra da güclənəcəkdir.

Mən çox şadam, xoşbəxtəm ki, bu gün sizinlə birlikdəyəm, Azərbaycanın qədim Naxçıvan torpağındayam. Biz hələ bir neçə gün birlikdə olacağıq. Amma bundan sonra biz Bakıya qayıtsaq da, biləsiniz ki, bizim qəlbimiz buradadır, sizinlədir. Sizi bir daha təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

(Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı).

* * *

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan beynəlxalq hava limanının rəmzi açılışını bildirən lenti kəsdi, aerovağzal kompleksini gəzərək burada görülmüş işlərlə, sərnişinlər, habelə aviatorlar üçün yaradılmış şəraitlə ətraflı tanış oldu, 2002-ci il avqustun 11-də ümummilli liderimiz prezident Heydər

Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə hava limanının tikintisinə dair müzakirələrin videolent yazısına baxdı.

AZƏRTAC
2004, 12 may

Prezident İlham Əliyev Naxçıvanda şəhidlər xiyabanını və Ümummilli Liderimiz Heydər Əliyevin büstünü ziyarət etmişdir

(12 may 2004-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq hava limanının açılışından sonra Naxçıvan şəhərinə gəldi.

Çox qədim tarixi, böyük dövlətçilik ənənələri olan, orta əsrlərdə Şərqin nüfuzlu elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi tanınan Naxçıvan bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir. Səkkiz əsr bundan əvvəl isə Əcəmi Naxçıvani özünün məşhur sənət nümunələri ilə Şərqdə yeni bir memarlıq məktəbinin əsasını qoymuşdur.

Tarixin sərt sınaqlarından keçən bu qədim diyar XX əsrin sonlarında, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı hərbi təcavüz nəticəsində Naxçıvan yenidən ağır imtahanla üzləşdi. Paytaxt Bakı ilə nəqliyyat əlaqəsi tamamilə kəsilən, blokada şəraitində yaşamağa məhkum olan Naxçıvan həm də ermənilərin silahlı hücumlarına məruz qalırdı. Lakin böyük öndər Heydər Əliyevin Naxçıvana gəlişi bu qədim diyarın xilası, qurtuluşu oldu. Naxçıvan dözdü, vuruşdu, yaşadı, yenilməzliyini sübut etdi...

Mayın 12-də küçələrə çıxan naxçıvanlılar ən çətin məqamlarda onlara dayaq olan ümummilli liderimizin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə salamlayır, hörmət və ehtiramlarını bildirirdilər.

Qədim diyarın sakinləri Azərbaycan Prezidentini xalq qəhrəmanı Koroğlunun heykəli yanında böyük mehribanlıqla qarşıladılar. Prezident İlham Əliyev onlarla səmimiyyətlə görüşdü, ona göstərilən hörmətə görə dərin təşəkkürünü bildirdi.

Ağsaqqallar, ağbirçəklər dövlətimizin başçısına müstəqil Azərbaycan naminə uğurlar arzuladılar.

Sonra Prezident İlham Əliyev Şəhidlər xiyabanına gəldi, Vətənin azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş naxçıvanlıların məzarlarını ziyarət etdi.

Hərbi orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndi.

Respublikamızın rəhbəri sonra Əcəmi seyrangahına gəldi. Orta əsr Şərqinin ən böyük sənətkarlarından olan Memar Əcəmi Naxçıvaninin adını daşıyan bu seyrangahda naxçıvanlılar dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin burada
ucaldılmış büstünü ziyarət etdi, gül dəstəsi qoydu, xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısı sonra seyrangahı gəzdi. Azərbaycan rəhbərinə gələcəkdə burada görüləcək işlər barədə ətraflı məlumat verildi.

AZƏRTAC
2004, 12 may

Prezident İlham Əliyev üzgüçülük mərkəzinin tikintisi ilə tanış olmuşdur

(12 may 2004-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvanda, görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan küçədə inşa edilən Üzgüçülük Mərkəzində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

İnşaatçılar, yerli sakinlər və idmançılar respublikamızın rəhbərini hərarətlə qarşılayaraq, ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan razılıqlarını bildirdilər, digər sahələr kimi, bu sahənin də inkişafında, genişlənməsində və vüsət almasında böyük xidmətləri olan Prezident İlham Əliyevə dərin təşəkkürlərini çatdırdılar.

Ümumi sahəsi 2500 kvadratmetr olan, minlərlə insanın sağlamlığına xidmət edəcək Mərkəz barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, müasir Avropa memarlığı üslubunda tikilən bu bina ən yüksək tələblərə cavab verir. Avadanlıq, tikinti materialları, əsasən, İsveçrədən alınıb gətirilmişdir. Beynəlxalq səviyyəli yarışlarda çıxış edəcək idmançıların hazırlanması üçün Mərkəzdə hər cür şərait yaradılmışdır. İkinci mərtəbədə yerləşən, yüksək qonaqlar, rəsmi nümayəndələr üçün nəzərdə tutulan "Şərəf" tribunası yaraşığı ilə diqqəti cəlb edir.

Dövlətimizin başçısı "Azərsun holdinq" şirkətlər qrupu tərəfindən tikilən Mərkəzin ayrı-ayrı bölmələri ilə yaxından tanış oldu, Naxçıvan şəhərində belə bir obyektin yaradılmasından razılığını bildirdi, gələcəkdə burada beynəlxalq səviyyəli idmançıların hazırlanacağına ümidvar olduğunu söylədi.

Şirkətin təmsilçiləri bildirdilər ki, Mərkəzdə tamamlama işləri tezliklə başa çatdırılacaqdır.

Prezident İlham Əliyev şirkətin nümayəndələrinə və inşaatçılara uğurlar dilədi.

AZƏRTAC
2004, 12 may

Prezident İlham Əliyev Respublika xəstəxanasında kompüter tomoqrafiyası kabinetinin açılış mərasimində iştirak etmişdir

(12 may 2004-ci il)

Xəbər verdiyimiz kimi, mayın 12-də Naxçıvan Muxtar Respublikası xəstəxanasında istifadəyə verilmiş kompüter tomoqrafiyası kabinetinin təntənəli açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşan tibb işçiləri və şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə, mehribanlıqla qarşıladılar.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, burada yaradılmış müasir şəraitlə tanış oldu.

Yaponiyanın "Şimadzu" şirkətinin istehsalı olan avadanlıq respublikamızın rəhbəri tərəfindən xəstəxanaya hədiyyə edilmişdir və ən mürəkkəb xəstəliklərə düzgün diaqnoz qoymağa imkan verəcək, müayinə üçün xarici ölkələrə getməyə ehtiyac qalmayacaqdır. Burada xəstələrə pulsuz xidmət göstəriləcəkdir.

Prezident İlham Əliyev açılış mərasimindən sonra tibb işçiləri ilə görüşüb söhbət etdi, onların qayğıları ilə maraqlandı.

Səhiyyə işçiləri, ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını xatırladaraq dedilər ki, xalqımızın dahi oğlunun xidmətlərini heç zaman unutmayacaqlar. Eyni zamanda, bu müdrik şəxsiyyətin uzaqgörən daxili və xarici siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanın xoşbəxt gələcəyi üçün səylərini əsirgəməyəcəklər. Tibb işçiləri xəstəxanaya hədiyyə olunmuş avadanlığa görə minnətdarlıq etdilər, dövlətimizin başçısına xoş arzularını çatdırdılar.

Azərbaycan Prezidenti səmimi sözlərə görə təşəkkürünü bildirdi, muxtar respublika sakinlərinin sağlamlığının qorunması sahəsində bundan sonra da lazımi tədbirlərin görüləcəyini vurğuladı.

AZƏRTAC
2004, 12 may

Naxçıvan Dövlət Universitetinin internet kitabxanası binasının açılışı
(12 may 2004-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev mayın 12-də Naxçıvan Dövlət Universitetinin İnternet kitabxanası binasının açılış mərasimində iştirak etmişdir.

Mərasimə toplaşmış şəhər sakinləri, ziyalılar, müəllim və tələbələr dövlətimizin başçısını səmimiyyətlə və hərarətli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev binanın açılışını bildirən lenti kəsdi, kitabxananın ayrı-ayrı otaqları, fondu, oxu zalı ilə tanış oldu, İnternet otağında tələbələrlə görüşüb səmimi söhbət etdi, onların qayğıları, problemləri ilə maraqlandı.

Kompüter otağında Naxçıvan Dövlət Universitetinin tarixindən bəhs edən film göstərildi.

Dövlətimizin başçısı kitabxanadakı kompüter avadanlığı ilə də maraqlandı. Bildirildi ki, hazırda kitabxanada 26 ədəd ən müasir kompüter quraşdırılmışdır. Yeni texnologiyanın köməyi ilə kitabxana birbaşa kanal vasitəsilə İnternetə qoşulmuşdur. 1967-ci ildən fəaliyyət göstərən bu ali təhsil ocağının kitabxanasının əvvəlki binasında oxucular üçün müasir şərait olmadığından yeni binanın inşası zərurəti yaranmışdır. Kitabxananın 150 min nüsxəyə yaxın kitab fondu vardır. Qəzet və jurnal fondu isə təxminən 7,8 mindir. Dörd minədək müəllim və tələbə buradan gündəlik istifadə edir. Kitabxananın 260 nəfərlik oxu zalı vardır. Oxucular elektron informasiya vasitələrindən də istifadə edə bilirlər.

Prezident İlham Əliyev Naxçıvan Dövlət Universitetinə layiq kitabxananın yeni binasından, burada yaradılmış şəraitdən razılığını bildirdi.

AZƏRTAC
2004, 12 may

Prezident İlham Əliyev babasının məzarını ziyarət etmişdir
(12 may 2004-ci il)

Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev mayın 12-də babası Əlirza kişinin və dünyadan köçmüş digər doğmalarının məzarlarını ziyarət etmək üçün xanımı Mehriban Əliyeva ilə birlikdə Naxçıvanın köhnə qəbiristanlığına gələrək, onların xatirəsini ehtiramla yad etdi, məzarların üzərinə gül qoydu.

AZƏRTAC
2004, 12 may

Prezident İlham Əliyev "N" hərbi hissəsində yeni korpusun açılışında iştirak etmişdir

(12 may 2004-ci il)

Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev mayın 12-də Naxçıvandakı "N" hərbi hissəsində yeni korpusun açılış mərasimində iştirak etmişdir.

Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev dövlətimizin başçısına raport verdi.

Prezident, Ali baş komandan İlham Əliyev əsgərləri salamladı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra Ali baş komandan döyüş bayraqlarını təqdim etdi, şəxsi heyəti bu əlamətdar hadisə münasibətilə təbrik etdi.

Mərasimi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

-Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Qədim Naxçıvan torpağı unudulmaz günlərini yaşayır. Muxtar respublika ərazisində yerləşən bu hərbi hissənin korpusu tikinti və yenidənqurma işlərindən sonra ölkəmizin rəhbəri, Ali baş komandan cənab İlham Əliyevin bilavasitə iştirakı ilə xidməti istifadəyə verilir. Ölkəmizə qarşı əsassız ərazi iddialarından əl çəkməyən azğın düşmənlə üz-üzə dayanan Azərbaycan ordusunun Naxçıvan Muxtar Respublikası ərazisindəki qoşun hissələrinin gücləndirilməsi, müdafiə potensialının artırılması, hərbi təmayüllü yeni obyektlərin istifadəyə verilməsi ümummilli liderimizin ordu quruculuğuna qayğısının ən mühüm göstəricisi və real təzahürüdür.

Azərbaycanın bütün tarix boyu yetişdirdiyi ən qüdrətli dövlət xadimi, ümummilli lideri, milli ordumuzun və dövlətimizin qurucusu möhtərəm Heydər Əliyevin əziz xatirəsini bir daha yad edirik. Hər bir dövlətin müstəqilliyinin vacib şərti onun ordusunun olmasıdır. Azərbaycan ordusu da, necə deyərlər, boş yerdən yaranmamışdır. Bu siyasət ötən əsrin 70-ci illərindən başlanmışdır. Həmin dövrdə Azərbaycanın digər respublikalarla birlikdə vahid siyasi məkana daxil olmasına baxmayaraq, möhtərəm Heydər Əliyev ölkəmizin gələcək müstəqilliyini nəzərdə tutaraq, uzun müddətə hesablanmış addımlar atır, milli hərbi kadrların yetişdirilməsinə diqqəti gücləndirirdi. O dövrdə bu cür siyasət yeritmək böyük qətiyyət və iradə tələb edirdi.

Bu, o dövr idi ki, keçmiş imperiya çar Rusiyasının siyasətini davam etdirərək, azərbaycanlı gəncləri hərb sənətinə yaxın buraxmırdı. Orduda hərbi xidmət keçən azərbaycanlıların tam əksəriyyəti müasir hərbi texnikadan kənarda saxlanılır, ən çox istehsal işlərinə, tikintiyə cəlb olunurdular. Bakının özündə fəaliyyət göstərən iki ali hərbi məktəbin qapıları da, əslində, azərbaycanlıların üzünə bağlı idi. Bütün bunlara baxmayaraq, xalqımızın böyük oğlunun vətənə, onun gələcəyinə bağlı siyasəti öz bəhrəsini verdi.

Möhtərəm Heydər Əliyev Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbi yaratdı. Bakıdakı ali hərbi məktəblərə qəbulda azərbaycanlı tələbələrin sayını artırdı. Keçmiş Sovetlər Birliyinin qabaqcıl ali hərbi məktəblərinə azərbaycanlı gəncləri təhsilə göndərdi. Məhz bu potensial hesabına 30 il sonra müstəqil Azərbaycan ordusunun zabit heyəti formalaşa bildi.

Bugünkü mərasimdə bir daha yada salmağın, xatırlatmağın yeridir ki, Azərbaycan müstəqillik qazandıqdan sonra da o vaxtkı siyasi rəhbərlərin naşılığı, ordu işini bilməməsi, bəzən də xalqın milli maraqlarına zidd mövqe tutması ucbatından ordu quruculuğuna lazımi diqqət yetirilmirdi. Ölkənin müharibəyə cəlb edilməsinə baxmayaraq, peşəkar ordu əvəzinə, siyasi partiyaların dəstələri yaradılırdı. O dövrdə Vətənin müdafiəsi əliyalın könüllülərin, polis dəstələrinin, avtovağzallardan, bazarlardan yığılıb heç bir hazırlıq keçmədən avtobuslarla birbaşa cəbhə bölgələrinə göndərilənlərin öhdəsinə buraxılmışdı.

Bunun əksinə olaraq, həmin dövrdə Naxçıvanda milli ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atan ümummilli liderimiz Ali Məclisin sədri seçiləndən dörd gün sonra, 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaratmaqla, müdafiəni mərkəzləşdirilmiş qaydada təşkilinin əsasını qoydu. İlk dəfə Naxçıvanda təşkil olunan sərhəd dəstəsinin və Azərbaycanın dövlət bayrağı böyük şəxsiyyətin iştirakı ilə qaldırıldı. Hərb tariximiz üçün bu da maraqlı faktdır ki, ilk dəfə hərbi parad 1992-ci il oktyabrın 19-da Naxçıvanda keçirildi.

Xalqımızın böyük oğlunun apardığı məqsədyönlü siyasət nəticəsində sovet qoşunları muxtar respublika ərazisini tərk edərkən, bütün əmlakı, texnikanı və döyüş sursatını burada saxlamış, bu potensialın

sayəsində Naxçıvan Müdafiə Komitəsinin bazasında Azərbaycan ordusunun müvafiq strukturu yaradılmışdır. Həmin dövrdə motoatıcı briqada kimi fəaliyyətə başlayan hərbi hissə ümummilli liderimizin bilavasitə qayğısı nəticəsində milli ordu korpusu kimi fəaliyyət göstərir.

Qeyd olunanlar bir daha göstərir ki, Azərbaycan ordusunun bütün inkişaf mərhələləri, təşkilatlanması və bugünkü səviyyəyə gəlib çatması xalqımızın dahi rəhbərinin gərgin əməyinin nəticəsidir, bilavasitə onun adı ilə bağlıdır. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasına hər səfərində buradakı ordu hissələrində olur, müdafiənin təşkili ilə maraqlanır, öz tövsiyə və tapşırıqlarını verirdi. 2003-cü ildə muxtar respublikada yaradılmış "N" hərbi hissəsində olarkən möhtərəm Heydər Əliyev demişdir:

"Bizim buradakı hərbi hissələrimiz öz vəzifələrini bilirlər. Naxçıvan Muxtar Respublikasını hər an qorumağa qadirdirlər. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan ərazimizin parçalanması nəticəsində ağır vəziyyətdə olduğu halda, buradakı ordu hissələrimiz yaxşı səviyyədədir. Ancaq mən onların qarşısında vəzifələr qoydum. Bu vəzifələri yerinə yetirmək üçün isə onlara yardım lazımdır".

Cənab Prezident, ölkəmizin möhtərəm Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və hələ bundan sonra da uzun müddətə hesablanmış quruculuq siyasətinin davamçısı kimi Sizin böyük diqqət və qayğınız nəticəsində Naxçıvanda bu hərbi hissənin yenidən qurulması, Ali baş komandan olaraq, açılış mərasimində şəxsən iştirak etməyiniz bizə hədsiz sevinc gətirməklə yanaşı, məsuliyyətimizi də artırır. Əmin ola bilərsiniz ki, ordumuzun Naxçıvandakı hissələrində mənəvi əhval-ruhiyyə, Vətənə, Ali baş komandana sədaqət hissi, peşə və döyüş hazırlığı daim yüksələcəkdir.

Diqqətinizə görə sağ olun!

X X X

Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi

- Əziz əsgərlər, zabitlər, generallar!

Sizin hamınızı salamlayıram, seçdiyiniz şərəfli peşənizdə uğurlar arzulayıram.

On üçüncü ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Hər bir müstəqil dövlət üçün onun ordusu müstəqilliyin ən vacib əlamətlərindən biridir. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda, ordu demək olar, yox idi. Ayrı-ayrı dəstələrdən ibarət olan birləşmələr, təbii ki, ölkə qarşısında duran çox çətin vəzifələrin öhdəsindən gələ bilməzdilər. Azərbaycan çox çətin vəziyyətə düşmüşdür və bunun nəticəsində torpaqlarımız işğal olunurdu.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə, Azərbaycana qayıdışından, Prezident vəzifəsinə seçilməsindən sonra Azərbaycanda ordu quruculuğunda dönüş yarandı. O ildən başlayaraq, son on il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün demək olar ki, bizim ordumuz çox yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Ordumuzun qarşısında böyük vəzifələr durur. Ordumuz Azərbaycanın dövlət müstəqilliyini qoruyur, sərhədlərimizi qoruyur. Əminəm ki, bundan sonra da bu vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Azərbaycan müharibə vəziyyətindədir. Azərbaycan torpaqları işğal altındadır. Biz çalışırıq ki, bu münaqişəni, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Danışıqlar yolu ilə həll edək. Amma hələ ki, buna nail ola bilmirik. Eyni zamanda, biz daim orduya qayğı göstərməliyik, diqqət göstərməliyik, ordumuzu gücləndirməliyik. Bu siyasət bundan sonra da aparılacaqdır.

Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulmuş xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır. Azərbaycanın iqtisadi potensialı güclənir. Ölkə zəngin dövlətə çevriləcəkdir. Əlbəttə, bütün başqa sahələrlə yanaşı, ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Biz öz ordu, hərbi potensialımızı gücləndirməliyik. Artıq bu istiqamətdə çox önəmli addımlar atılır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə bu istiqamətdə çox önəmli, demək olar ki, həlledici addımlar atılmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma biz istəyirik ki, ordumuz daha da güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha da yaxşı olsun. Bu istiqamətdə də böyük işlər

görülür. Bu gün burada gördüyünüz yeni binalar, tikililər bir daha buna sübutdur. Orduya qayğı var və bundan sonra da olacaqdır.

Hər bir hərbi hissədə şərait yüksək olmalıdır. Burada, Naxçıvanda bu istiqamətdə çox böyük işlər görülür. Naxçıvanda yerləşən hərbi hissələr muxtar respublikanı çox möhkəm qoruyurlar və mən Ali baş komandan kimi burada aparılan işlərdən razıyam.

Naxçıvan çətin vəziyyətdə, blokada şəraitində yaşayır. Düşmənlə sərhəddə yaşayır. 1990-1993-cü illərdə erməni təcavüzkarları Naxçıvana da hücumlar etmişlər, belə cəhdlər göstərmişlər. Amma Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar onlara çox layiqli cavab verdilər, çox sarsıdıcı zərbələr endirdilər və düşməni yerinə oturtdular. O illər Naxçıvanın taleyi üçün həlledici illər olmuşdur. Heç kəs üçün sirr deyil ki, Ermənistanın qəsbkar siyasətinin bir istiqaməti ondan ibarət idi ki, Naxçıvanı da işğal altına salsınlar. Amma buna nail ola bilmədilər. Çünki Heydər Əliyev və xalq bunun qarşısını aldılar.

Mən bilirəm ki, ümummilli liderimiz Heydər Əliyev bundan sonra da daim Naxçıvan haqqında düşünürdü. Daim Naxçıvana böyük diqqət göstərirdi. O cümlədən Naxçıvanda yerləşən hərbi hissələrə böyük diqqət göstərilirdi. Bu istiqamətdə işlər davam etdiriləcək, hazırda əməli addımlar atılır və bundan sonra da atılacaqdır. Naxçıvanda yerləşən hərbi hissələr qarşıda duran bütün vəzifələri yerinə yetirməyə hazırdırlar və qadirdirlər. Bundan sonra görüləcək tədbirlərin nəticəsində isə burada çox güclü hərbi birləşmə yaranacaqdır.

Bütün bunları həyata keçirmək üçün, qarşıda duran məqsədlərə nail olmaq üçün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf etməlidir. Ümummilli liderimiz tərəfindən təməli qoyulmuş iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr bizə imkan verəcəkdir ki, yaxın zamanlarda ölkəmiz iqtisadi cəhətdən çox qüdrətli ölkəyə çevrilsin. Heç kəs üçün sirr deyil ki, iqtisadi cəhətdən zəif ölkələrdə güclü ordu olmur. Yalnız iqtisadi cəhətdən güclü olan ölkələr güclü orduya malik olurlar. Bizim də vəzifəmiz budur. Biz ölkəmizi gücləndirəcək, zənginləşdirəcəyik. Ölkəmiz sürətlə inkişaf edəcək və yaranmış iqtisadi potensial, o cümlədən bəlkə də, ilk növbədə, ordu quruculuğuna sərf olunacaqdır.

Ölkəmiz müharibə şəraitindədir. Bizim işimiz haqq işidir. Biz heç kəsin torpağını işğal etməmişik, heç kəsin də torpağında da gözümüz yoxdur. Bizim ərazi bütövlüyümüz pozulubdur, torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı, Azərbaycan ordusu hər an öz ərazi bütövlüyünü bərpa etmək üçün lazımi addımlar ata bilər. Bizim buna haqqımız çatır. Beynəlxalq hüquq normaları da bizə belə bir imkan yaradır. Ermənistan bütün beynəlxalq hüquq normalarını pozubdur. Artıq dünyada bu məsələ ilə əlaqədar ictimai rəy formalaşıbdır. Deyə bilərəm ki, bu ictimai rəy ədaləti əks etdirən rəydir, bizim üçün müsbət rəydir. Azərbaycanın tələbləri artıq böyük diqqətlə qarşılanır və biz görürük ki, beynəlxalq ictimaiyyət, dünyanın aparıcı ölkələri bu məsələyə daha ədalətli yanaşmağa başlamışlar.

Biz ümid edirik ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar yolu ilə bərpa olunacaqdır. Biz buna çalışacağıq və sülh danışıqlarına sadiqik. Ancaq, eyni zamanda, Azərbaycan xalqı heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər biz görsək ki, danışıqların heç bir nəticəsi yoxdur, bütün vasitələrdən istifadə edib torpaqlarımızı azad edəcəyik. Bunu etmək üçün güclü ordu lazımdır, vətənpərvərlik ruhu lazımdır, xalqın birliyi, iradəsi lazımdır. Bunların da hamısı var.

Azərbaycanda son 10 il ərzində Heydər Əliyev tərəfindən həyata keçirilən siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Ötən il keçirilən prezident seçkilərində xalq Heydər Əliyev siyasətinə, Heydər Əliyev ideologiyasına səs veribdir. Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Azərbaycanın rahat yaşaması üçün, xalqımızın rahat şəraitdə yaşaması üçün bu siyasət davam etdirilməlidir. Azərbaycanda ictimai-siyasi asayiş var, iqtisadi tərəqqi var, sosial məsələlər öz həllini tapır, ölkəmiz ildən-ilə güclənir. Bu gün Naxçıvanda olarkən bunu bir daha açıq-aydın görürük. Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irəliləyir. Burada aparılan abadlıq, quruculuq işləri məni çox sevindirir. Yeni binalar, müəssisələr, elm ocaqları, səhiyyə ocaqları, idman qurğuları yaradılır, demək olar ki, həyatımızın hər bir sahəsi Naxçıvanda inkişaf edir. O cümlədən ordu quruculuğu da. Burada Naxçıvan rəhbərliyinin xüsusi xidmətləri vardır. Mən buna görə onlara minnətdaram.

Əziz əsgərlər, zabitlər, generallar!

Mən sizi bir daha salamlayıram və Vətən uğrunda xidmətinizə görə sizə öz təşəkkürümü bildirirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

X X X

Sonra hərbi hissənin əsgərləri marş sədaları altında Ali baş komandanın qarşısından keçdilər.

Prezident İlham Əliyev müasir səviyyədə qurulmuş hərbi hissə ilə tanış oldu, əsgərlərin şəraiti ilə maraqlandı, yeni korpusun kazarması, ideoloji otağı, tibb məntəqəsi, qərargahı ilə tanış oldu, yeməkxanada əsgərlərlə birlikdə nahar etdi. Dövlətimizin başçısı burada görülən işləri yüksək qiymətləndirdi.

AZƏRTAC
2004, 12 may

Azərbaycan Prezident İlham Əliyev AMEA-nın Naxçıvan bölməsinin yeni korpusunun açılışında iştirak etmişdir

(12 may 2004-ci il)

Xəbər verdiyimiz kimi, mayın 12-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin yeni korpusunun təntənəli açılışına həsr olunmuş mərasim keçirilmişdir.

Güclü yağış yağmasına baxmayaraq, mərasimə toplaşmış minlərlə insan - müəllim və tələbələr, ziyalılar, şəhər ictimaiyyətinin nümayəndələri prezident ilham Əliyevi mehribanlıqla qarşıladılar.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz naxçıvanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizi bu yağışın altında çox saxlamaq istəmirəm. Amma eyni zamanda, öz ürək sözlərimi demək istəyirəm.

Mən bu gün səhərdən Naxçıvandayam. Naxçıvanda böyük quruculuq, abadlıq işləri görülür. Bu gün Naxçıvanda Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni hava limanı açıldı. Biz onun açılışmda iştirak etdik. O, bütün yüksək standartlara cavab verən hava limanıdır və naxçıvanlılara gözəl xidmət edəcəkdir. Naxçıvanda yeni kompüter tomoqrafiyası kabineti yaradılmışdır. İndi naxçıvanlılar müayinədən keçmək üçün başqa şəhərlərə, Bakıya, yaxud da xaricə getməyəcəklər, burada pulsuz olaraq müayinədən keçəcəklər.

Bu gün yeni kitabxana ilə tanış olduq. Universitetin gözəl kitabxanası öz qapılarını açdı. Demək olar ki, Naxçıvanda bütün dünya standartlarına cavab verən kitabxana yaradılıbdır. Eyni zamanda, hərbi hissədə olmuşam. Deyə bilərəm ki, bu hərbi hissə Azərbaycanda bütün hərbi hissələr üçün nümunə, örnək ola bilər. Çünki orada görülən işlər belə şəraiti yaradıbdır. Əsgərlər, zabitlər orada gözəl xidmət edirlər.

Bu gün Təbii Ehtiyatlar institutunun binasının açılışıdır, sabah digər tədbirlər də keçiriləcəkdir. Eyni zamanda bilirsiniz ki, Heydər Əliyevin təşəbbüsü ilə burada böyük məktəb binası tikilir. Əminəm ki, bu məktəb də Azərbaycanda bir nömrəli məktəb olacaqdır. Çünki o, Heydər Əliyevin adını daşıyacaq, çünki onun təməli Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Bu gün yeni üzgüçülük kompleksi ilə tanış olduq. Bu da xalqımıza xidmət edəcəkdir. Naxçıvanda digər tədbirlər də həyata keçirilir. Bu, məni çox sevindirir. Naxçıvan bizim hamımız üçün doğma diyardır, əziz vətəndir. Mənim atamın vətənidir. Demək, mənim də vətənimdir. Hər bir azərbaycanlının vətənidir.

Mən çox xoşbəxtəm, çox sevinirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan yaşayır, inkişaf edir. Burada yeni mədəniyyət ocaqları, səhiyyə ocaqları, insanlara xidmət edəcək müəssisələr yaradılır. Bu, belə də olacaqdır. Naxçıvan daim, bütün zamanlarda ümummilli liderimiz Heydər Əliyevin diqqət mərkəzində idi. Bu diqqət bundan sonra da göstəriləcəkdir.

Mən bu fürsətdən istifadə edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Onun yorulmaz fəaliyyəti nəticəsində burada böyük işlər görülübdür. Ümummilli liderimiz Heydər Əliyev hər dəfə Naxçıvana gələndə buradan böyük ruh yüksəkliyi ilə qayıdırdı. ikinci tərəfdən, əlbəttə, bura onun doğma vətənidir. Əlbəttə ki, burada keçirdiyi günlər onun üçün çox əziz idi.

Eyni zamanda, Heydər Əliyev görəndə ki blokada şəraitində, ağır vəziyyətdə yaşayan Naxçıvan - demək olar ki, Naxçıvan Azərbaycanın yeganə diyarıdır ki, buraya təbii qazın verilməsi hələ mümkün deyil, qışda havalar soyuq keçir, bəzi hallarda elektrik enerjisi veril-məsində problemlər yaranır, amma biz bütün bu məsafələri həll edəcəyik, görüləcək tədbirlər nəticəsində bu məsələlər öz əksini tapacaqdır - Naxçıvan çiçəklənir, inkişaf edir, burada abadlıq işləri gedir, bu onu çox sevindirirdi. Məni də çox sevindirir. Bu güclənən yağış da mənim sözümün qüvvətidir.

1990-1993-cü illərdə, Naxçıvanın ən çətin dövründə Heydər Əliyev naxçıvanlılarla birlikdə olubdur. O, Naxçıvana gəldi və naxçıvanlılar onu qorudular. Bundan sonra Heydər Əliyev Naxçıvanın rəhbərliyinə gəldi və o, naxçıvanlıları qorudu.

O dövrlərdə Heydər Əliyev xalqla bir idi. Heydər Əliyev - xalq birliyi imkan verir ki, Azərbaycan çox uğurla inkişaf etsin. Naxçıvan, blokada şəraitində yaşayan əziz diyarımız inkişaf edir, çiçəklənir, güclənir və bu ənənələr, bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bu gün mən də sizinlə bərabər bu yağışın altındayam. Amma mən bu yağışı hiss etmirəm. Sizin göstərdiyiniz qonaqpərvərliyi, istiqanlılığı, məhəbbəti görəndə mənə elə gəlir ki, sanki səmada günəş çıxıbdır. Mən sizin hamınıza bir daha öz dərin hörmət və ehtiramımı, məhəbbətimi bildirirəm. Sizə öz təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Naxçıvan bundan sonra da yaşayacaq, güclənəcək, zənginləşəcəkdir. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan əbədi yaşayacaqdır.

Sağ olun.

* * *

Sonra dövlətimizin başçısı İlham Əliyev bina ilə tanış oldu.

Azərbaycan prezidentinə məlumat verildi ki, bölmənin yeni korpusunda Təbii Ehtiyatlar institutu, Batabat Astrofizika Rəsədxanasının mərkəzi aparatı və Əlyazmalar Fondu yerləşir. Burada elmi kitabxana, nəşriyyat, arxiv, seysmoloji mərkəz vardır, elmi tədqiqat işləri aparılacaq 8 laboratoriya fəaliyyət göstərir. Yeni korpusda 200 nəfər çalışacaqdır.

AZƏRTAC
2004, 12 may

Naxçıvanda əlillərin bərpa mərkəzinin açılışı
(13 may 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 13-də, muxtar respublikaya səfərinin ikinci günü Naxçıvan şəhərində Əlillərin bərpa mərkəzinin təntənəli açılışında iştirak etmişdir.

Mərkəzin yaraşıqlı binası qarşısında toplaşmış minlərlə insan dövlətimizin başçısını böyük mehribanlıqla və hərarətli alqışlarla qarşıladılar.

Respublikamızın rəhbəri İlham Əliyev Mərkəzin açılışını bildirən lenti kəsdi, buradakı Heydər Əliyev guşəsi ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin ümumi sahəsi 1400 kvadratmetrdir. Burada hər ay 20 əlilin pulsuz müalicəsi üçün müxtəlif müalicə otaqları, trenajor salonu, hovuz, müasir standartlara cavab verən avadanlıqla təchiz olunmuş laboratoriya fəaliyyət göstərir.

AZƏRTAC
2004, 13 may

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyev adına orta məktəbin tikintisi ilə tanış olmuşdur

(13 may 2004-ci il)

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəbin binasının tikintisi ilə tanış olmuşdur.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, 1206 şagird yeri olacaq məktəbin tikintisini Türkiyənin "Uçar" şirkəti və yerli inşaatçılar aparırlar. Burada 67 sinif otağı, idman salonu, kitabxana, bufet və tibb məntəqəsi olacaqdır. Tikintiyə 4 milyon dollar vəsait ayrılmış, indiyədək bunun 2,2 milyon dolları xərclənmişdir. Üçmərtəbəli tədris korpusunda və idman salonunda tamamlama işləri başa çatmaqdadır. Ətraf abadlaşdırılmış, bulaq suyu çəkilmişdir.

Prezident İlham Əliyev məktəb binasının tikintisi ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.

AZƏRTAC
2004, 13 may

Yeyinti sənayesi kompleksinin açılışı
(13 may 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 13-də İqtisadi İnkişaf Nazirliyinin inşa etdirdiyi Naxçıvan Yeyinti Sənaye Kompleksinin təntənəli açılış mərasimində iştirak etdi.

Prezident İlham Əliyev kompleksin açılışını bildirən lenti kəsdi, burada Almaniyadan və İtaliyadan gətirilmiş avadanlıqla təchiz olunmuş sexləri gəzdi.

Dövlətimizin başçısına məlumat verildi ki, burada gündə 50 ton un üyüdülür və ondan çörək məmulatı, makaron və digər ərzaq məhsulları istehsal olunur. Kompleksdə 120 nəfər çalışır. Müasir avadanlıq alınmasına, habelə tikinti işlərinə 1 milyon 400 min dollar vəsait xərclənmişdir.

Azərbaycan rəhbəri İlham Əliyev istehsal prosesi ilə tanış oldu, işçilərlə söhbət etdi.

AZƏRTAC
2004, 13 may

Vayxır su anbarı ilə tanışlıq
(13 may 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev daha sonra Vayxır su anbarına gəldi.

Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə tikilən bu su anbarı muxtar respublikanın Babək və Şahbuz rayonları kəndlərinin suvarma suyuna olan ehtiyacını tam ödəyəcəkdir.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov burada işlərin gedişi barədə Prezident İlham Əliyevə ətraflı məlumat verdi. Bildirildi ki, su anbarının və magistral kanalların tikintisində indiyədək 90 milyard manatlıq iş görülmüşdür. Dəryaçada 100 milyon kubmetr su toplanacaq və bu, 16800 hektar əkin sahəsini suvarmağa imkan verəcəkdir. İndiyədək 2500 metrlik əsas kanalın 200 metrində, 5 kilometrlik sol sahil kanalının 4,5 kilometrində, 21,5 kilometrlik sağ sahil kanalının 12,6 kilometrində tikinti işləri başa çatdırılmışdır.

Prezident İlham Əliyev tikinti layihəsinin detalları ilə yaxından tanış oldu, burada elektrik stansiyasının inşası və digər məsələlərlə əlaqədar göstəriş və tövsiyələrini verdi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev Vayxır su anbarı ilə tanışlıqdan sonra qədim diyarın müqəddəs yerlərindən biri olan Əshabi Kəhf ziyarətgahına gəldi.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bu müqəddəs ocağı ziyarət etdilər, nəzir verdilər.

AZƏRTAC
2004, 13 may

Prezident İlham Əliyev Naxçıvanda Heydər Əliyev Muzeyi ilə tanış olmuşdur
(13 may 2004-ci il)

Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədən sonra Prezident İlham Əliyev şəhəri gəzərək, ümummilli liderimiz Heydər Əliyevə burada ucaldılacaq heykəlin yerini müəyyənləşdirmək üçün mütəxəssislərlə məsləhətləşmələr apardı.

Sonra Azərbaycan Prezidenti və xanımı Mehriban Əliyeva Naxçıvandakı Heydər Əliyev muzeyinə gəldilər.

Muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən fotolara, dahi rəhbərin uşaqlıq, gənclik illərindən qalan dəyərli nümunələrə baxdılar. Buradakı eksponatlar müstəqil Azərbaycanın qurucusunun 1969-cu ildən başlayaraq, respublikamıza rəhbərlik etdiyi uzun bir dövrün ayrı-ayrı tarixi məqamlarını, onun əfsanəvi həyatını əks etdirir. Ulu öndərimizin və onun ömür-gün yoldaşı Zərifə xanımın portretləri toxunmuş xalça və digər qiymətli eksponatlar diqqəti xüsusilə cəlb edir.

Muzeyin yeni eksponatları arasında Heydər Əliyevin Naxçıvan Pedaqoji Məktəbini əla qiymətlərlə qurtarması barədə 1939-cu ildə verilmiş diplom və 1951-ci ildə Azərbaycan Dövlət Universitetinə qəbul imtahanlarını əla qiymətlərlə verməsi barədə sənəd də vardır.

X X X

Prezident İlham Əliyev muzeylə tanışlıqdan sonra jurnalistlərə müsahibə verdi.

SUAL: Cənab Prezident, Siz dediniz ki, bu, Prezident seçkilərindən sonra Naxçıvana ilk səfərinizdir. Sizcə, Naxçıvan hesab etdiyiniz səviyyəyə çatıbmı? Siz, ilk növbədə, hansı mühüm işlərin görülməsini tapşırdınız?

CAVAB: Prezident kimi ilk səfərimdir. Amma keçmişdə mən Naxçıvanda dəfələrlə olmuşam. Naxçıvanın ən çətin dövrlərində də mən dəfələrlə burada olmuşam. Əlbəttə, Naxçıvanda gedən proseslər çox uğurludur. Burada gedən sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələrin yaradılması – bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir. Əlbəttə, bunlar məni razı saldı.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağın separatçı rejiminin qeyri-legitim rəhbərliyi Minsk qrupunun həmsədrlərinə, Ermənistan və Azərbaycan prezidentlərinə müraciət edərək, sülh sazişi imzalanana qədər atəşkəs rejiminə dair saziş haqqında bəyannamə imzalanmasını xahiş etmişdir. Sizcə, buna lüzum varmı?

CAVAB: Mən bunu eşitməmişəm. Zənnimcə, buna heç bir lüzum yoxdur. Atəşkəs rejimi davam edir və hər iki tərəf onu dəstəkləyir. Odur ki, belə sənədlərə lüzum yoxdur.

SUAL: Siz Naxçıvana gəlməzdən əvvəl İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi ilə görüşmüsünüz. Əgər mümkünsə, görüşün nəticələri barədə məlumat verin. İranın mövqeyində hər hansı irəliləyiş varmı?

CAVAB: Orada biz bir çox məsələləri, o cümlədən Naxçıvana qaz göndərilməsi, Naxçıvanın və digər rayonlarımızın elektrik enerjisinə tələbatını tam ödəmək üçün İranla Azərbaycan arasında yeni elektrik xətti çəkilməsi məsələsini müzakirə etdik. Xəzərlə bağlı məsələ də müzakirə olundu. Aparılan danışıqlar nikbinlik doğurur, bütün tərəflərin tez bir zamanda qarşılıqlı surətdə məqbul qərar tapmaq istəyi var. Ona görə də biz bu istiqamətdə bundan sonra da birlikdə işləyəcəyik.

SUAL: Cənab Prezident, Rusiya-Azərbaycan-İran elektrik xətlərinin birləşdirilməsi layihəsindən söhbət gedir. Sizin Rusiyaya səfəriniz zamanı bu barədə məlumat yayılmışdı. Çubaysın Azərbaycana səfəri barədə də danışılır. Ümumiyyətlə, bu barədə müzakirələr olubmu və bunun perspektivlərini necə görürsünüz?

CAVAB: Yox, belə müzakirələr olmayıbdır. Ola bilər, hansısa ekspertlərin səviyyəsində bu məsələ müzakirə edilib, amma, hələ qərar verilməyibdir. Bu, çox ciddi, mühüm məsələdir. Biz buna təkcə iqtisadi baxımdan yanaşa bilmərik. Gərək bütün başqa amillər təhlil edilsin. Ondan sonra biz öz fikrimizi bildirə bilərik. Hazırda bu istiqamətdə heç bir danışıqlar aparılmır.

SUAL: Cənab Prezident, ötən gün Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin görüşü olmuşdur. Bu barədə nə deyə bilərsiniz?

CAVAB: Hələ danışmamışam. Naxçıvanda o qədər çox işlər var ki, hələ bizim xarici işlər naziri ilə danışmamışam. Yəqin ki, bu axşam danışacağam.

SUAL: Cənab Prezident, Naxçıvana qaz verilməsi ilə bağlı razılıq əldə olunubmu?

CAVAB: Razılıq belədir ki, bu barədə İranla danışıqlar gedir. Bizim təklifimiz ondan ibarətdir ki, İran Naxçıvana istənilən həcmdə qaz versin, biz də gələcəkdə bu borcu qazla ödəyək, yaxud elektrik enerjisi ilə indi də ödəyə bilərik. İranın başqa təklifləri var. Gərək bu məsələ iqtisadi cəhətdən işlənilsin. Hər halda, ümid edirəm ki, prinsip etibarilə məsələ öz müsbət həllini tapacaqdır.

SUAL: Cənab Prezident, Sizin İrana səfəriniz gözlənilirmi? Ümumiyyətlə, belə məlumatlar yayılmışdır ki, Prezident Məhəmməd Xatəmi ilə birlikdə Siz Astara-Bakı avtomobil yolunun təməlqoyma mərasimində iştirak edəcəksiniz. Bu, nə vaxt olacaq, gözlənilirmi?

CAVAB: Bu məsələ də müzakirə olunubdur. İlkin layihə işlərinə artıq İran tərəfindən vəsait ayrılıbdır. Texniki-iqtisadi əsaslandırma hazırlanacaq, ondan sonra digər işlər də görüləcəkdir. Yəqin ki, bizim xarici işlər naziri İrana səfər edəcəkdir və hər iki dövlət başçısının səfərləri nəzərdə tutulur. Vaxtı hələ ki, bəlli deyildir.

SUAL: Cənab Prezident, Siz Malkolm Bryus ilə görüşmüsünüz. Onun hüquq müdafiəçiləri ilə görüşü zamanı işlətdiyi bəzi ifadələr var idi. Sizinlə görüşdə onun fikirləri nədən ibarət oldu? Hər hansı məsələ ilə bağlı narahatlığını bildirdimi?

CAVAB: Bilirsiniz, biz cənab Bryus ilə dəfələrlə görüşmüşük. İlk dəfə dekabr ayında görüşmüşdük, o vaxt bir az narahat idi. Azərbaycanda fəaliyyət göstərən hüquq müdafiəçiləri ona demişdilər ki, hökumət heç bir addım atmayacaq, hökumət sizə yalan məlumatlar ötürür. Buna oxşar digər fikirlər də deyilmişdi. Amma bu dəfə və ondan əvvəl Strasburqda görüş zamanı Malkolm Bryusun fikri çox müsbət idi. Yəni o da, biz də eyni fikirdəyik ki, aramızda konstruktiv dialoq gedir, bu məsələ öz həllini tapır. Azərbaycanın rəhbərliyi öz xoşniyyətli iradəsini göstəribdir. Əlbəttə, Malkolm Bryus belə bir söz işlədibdir: "Siz mənim işimi asanlaşdırırsınız".

Digər narahatlıqlar ola da bilər, olmaya da bilər. Bu barədə bir şey deyə bilmərəm. Onu deyə bilərəm ki, Avropa Şurası ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Təkcə bu məsələ ilə bağlı deyil, bütün istiqamətlərdə çox yüksək səviyyədədir. Ümid edirik ki, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Avropa Şurası siyasi qiymət verəcəkdir. Ona görə bütün məsələlər həll olunacaqdır.

SUAL: Cənab Prezident, Sizin xəbəriniz var, bir vaxtlar mətbuatda dövlət məmurları ilə bağlı yazılar verilir və deyilirdi ki, kimlərsə işdən də çıxarıla bilər. Ümumiyyətlə, bu məsələyə münasibətiniz necədir?

CAVAB: Mən bu məsələlərə çox mənfi yanaşıram. Hesab edirəm ki, bu, çox aşağı səviyyəli mübarizə üsuludur və özünə hörmət edən şəxslər buna getməməlidir. Əgər kimsə fikirləşir ki, hansısa qəzet məqaləsi ilə mənim fikrimə təsir edə bilər, o adamlar yanılırlar. Mən öz qərarlarımı müstəqil şəkildə qəbul edirəm. Qərarın qəbul edilməsi üçün səbəblər olmalıdır. Əlbəttə, qəzet yazısı, - xüsusilə də biləndə ki, bu, sifarişli yazıdır, - mənim fikrimə təsir edə bilməz.

SUAL: Cənab Prezident, Siz NATO-nun İstanbulda keçiriləcək zirvə toplantısında bu təşkilatın baş katibi ilə görüşəcəksiniz. İstanbulda Sizin hər hansı bəyanatınız gözlənilirmi?

CAVAB: Baxarıq, indidən bir şey deyə bilmərəm. NATO-nun baş katibi ilə görüş gözlənilir. Bizim əməkdaşlığımız çox uğurludur.

SUAL: Cənab Prezident, yaxın vaxtlarda hökumətdə dəyişikliklər gözlənilirmi? Siz bu gün nazirləri bir az danladınız. Gözlədiklərinizi nə idi, yəni hökumət nə etməli idi?

CAVAB: Bilirsiniz, mən heç vaxt heç kimə əsassız irad tutmuram. Əgər səbəb varsa, ancaq o təqdirdə iradımı bildirirəm. Hesab edirəm ki, bu, düzgün siyasətdir. Nazirlərə göstəriş verilmişdir ki, onlar Naxçıvanla bağlı məsələlərə diqqətlə yanaşsınlar. Buraya tez-tez gəlsinlər, beləliklə, gedən işlərə kömək etsinlər. Düzdür, onlar buraya gəlməsələr də, Naxçıvanda işlər sürətlə gedir və gedəcəkdir. Amma, əlbəttə, bir halda, vaxtilə cənab Prezidentin belə göstərişi olmuşdur, deməli, onlar bunu etməli idilər. Prezident seçkilərindən 7 ay keçibdir. Bir nəfər istisna olmaq şərtilə qalanları gəlməyiblər. Ona görə tələbim budur ki, onlar gəlsinlər. Digər məsələlər də olubdur.

SUAL: Cənab Prezident, Gürcüstanın yeni Prezidenti ilə yaxşı münasibətiniz var. Gürcüstanda vəzifələrdə qubernatorun azərbaycanlı müavinləri var idi. İndi onlar yoxdur. Yəni azərbaycanlılar, demək olar ki, vəzifələrə təyin edilmirlər. Eyni zamanda, orada yaşayan soydaşlarımızın gömrük problemi də var. Onların yaşaması Azərbaycanla bağlıdır. Yəni mal gətirib aparırlar. Bununla bağlı edilən müraciət Sizə çatdırılıbmı?

CAVAB: Yox, belə müraciət mənə çatdırılmayıbdır. Amma buna baxmayaraq, Gürcüstan Prezidenti ilə hər dəfə görüşəndə mən bu məsələni qaldırıram və müzakirələr aparılır. Artıq təhsil sahəsində əməli işlər görülür. Bilirsiniz ki, keçmişdə Azərbaycanda çap olunmuş dərsliklərlə bağlı orada süni şəkildə çətinliklər yaradılırdı. İndi artıq bu halların qarşısı alınıbdır. Tarix dərslikləri birgə hazırlanacaqdır. Bu da çox mühüm haldır. Digər məsələlər də öz həllini tapacaqdır.

Bilirsiniz ki, Gürcüstana yeni səfir təyin olunubdur. Səfirə çox ciddi tapşırıqlar verildi. Mən ümid edirəm ki, həm orada yaşayan azərbaycanlılar, həm də səfirliyin işçiləri soydaşlarımızın gündəlik problemlərinin həll olunması istiqamətində mühüm addımlar atacaqlar. Gürcüstanın Prezidenti də məni inandırıb ki, bu məsələlərə böyük diqqətlə yanaşacaqdır. Mənə verilən məlumata görə, artıq bəzi azərbaycanlılar məmur vəzifələrinə təyin ediliblər.

Əlbəttə, biz istəyirik ki, onların sayı çox olsun. Ümid edirəm ki, bundan sonra bu ənənə davam edəcəkdir. Bizim çox gözəl münasibətlərimiz var. Münasibətlərin çox gözəl, zəngin tarixi var. Gürcüstan Azərbaycan üçün çox önəmli dost ölkədir. Bizim strateji tərəfdaşımızdır. Gürcüstan-Azərbaycan münasibətləri gərək həmişə çox yüksək səviyyədə olsun.

SUAL: Cənab Prezident, Siz xarici ölkələrdə səfirliklərin açılması barədə hökumətə tapşırıqlar vermişdiniz. Bu istiqamətdə işlər nə yerdədir və cari ilin sonuna qədər neçə səfirliyin açılması nəzərdə tutulur?

CAVAB: Mənim tərəfimdən Milli Məclisə müraciətlər olub, Milli Məclis də qərar çıxarıbdır. Bəzi ölkələrdə təyin ediləcək səfirlərin aqremanları göndərilibdir. Bu elə məsələdir ki, gərək qarşı ölkədən təsdiq alaq. Yaxın zamanlarda olacaqdır.

SUAL: Cənab Prezident, Venesiya Komissiyasının Mərkəzi Seçki Komissiyası ilə bağlı tövsiyələrinə münasibətiniz necədir?

İLHAM ƏLİYEV: Hansı tövsiyələrə?!

JURNALİST: Mərkəzi Seçki Komissiyasının tərkibinin dəyişdirilməsi ilə bağlı.

İLHAM ƏLİYEV: Mən buna ehtiyac görmürəm. Mərkəzi Seçki Komissiyasının tərkibi Azərbaycandakı bütün siyasi spektrin nümayəndələrini əks etdirir. Azərbaycanda fəaliyyət göstərən partiyalar burada təmsil olunurlar. Hesab edirəm, Mərkəzi Seçki Komissiyası seçkilərdə çox fəal işlədi. Belə bir ehtiyac yoxdur.

SUAL: Cənab Prezident, Sizin burada insanlarla görüşünüz çox yaxşı qarşılanırdı. Bu, həm Prezidentlə əhali arasında münasibəti səmimiləşdirir, həm də məmurlarda qorxu yaradır ki, ölkə əhalisi Prezidentlə birbaşa danışa bilir. Yəni onlar daha məsuliyyətli olurlar. Prezident İlham Əliyev bölgələrdə bu işi davam etdirəcəkmi?

CAVAB: Əlbəttə, davam etdirəcəyəm. Bu, çox vacibdir. Həm məlumat mənbəyidir, həm də belə görüşlər mənə insanların əhval-ruhiyyəsinin hansı səviyyədə olmasından xəbər verir. Mən belə görüşləri başqa bölgələrdə də davam etdirəcəyəm. Yəni bölgələrə gedəcəyəm.

AZƏRTAC
2004, 14 may

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində müşavirə
(13 may 2004-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirdi.

Ali Məclisin sədri Vasif Talıbov muxtar respublikanın iqtisadi göstəriciləri barədə ətraflı məlumat verdi.

Prezident İlham Əliyev müşavirədə nitq söylədi.

Dövlətimizin başçısı muxtar respublikanın çətin günlərində ümummilli lider Heydər Əliyevin burada gördüyü böyük işlərdən, hazırda Naxçıvanda aparılan geniş quruculuq işlərindən danışdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bu gün müstəqil Azərbaycanın hər bir guşəsində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq tədbirləri görülür, abadlıq işləri aparılır. İqtisadi sahədə inkişaf artan ahənglə davam edir. Bütün bunlar möhtərəm Heydər Əliyevin yaratdığı sabitliyin bəhrələridir. Onun Azərbaycanın bütün bölgələrinin inkişaf etdirilməsi barədə qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsinin əyani təzahürləridir.

Hörmətli cənab Prezident!

Vaxtınızı çox almamaq üçün, möhtərəm Heydər Əliyevin muxtar respublikaya 1999-2002-ci illərdəki səfərlərindən sonra həyata keçirilmiş tədbirlər, görülmüş işlər barədə qısa məlumat vermək istəyirəm.

Əhalinin güzəranının yaxşılaşdırılması ilə bağlı tədbirlərin görülməsi davam etdirilmiş, sosial infrastrukturun inkişafına, hərbi quruculuğa diqqət artırılmış, vəsaitlər, əsasən, bölgələrin, sərhəd və dağ kəndlərinin inkişafına, şəhərlərin və rayon mərkəzlərinin abadlaşdırılmasına yönəldilmişdir.

İqtisadi və sosial inkişafı xarakterizə edən əsas göstəricilər 2000-ci illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Əgər 2000-ci ildə 430 milyard manatlıq ümumi məhsul istehsal edilmişdisə, 2003-cü ildə 2 dəfədən çox artaraq, 911 milyard manata çatdırılmışdır. Bu müddət ərzində sənaye məhsul istehsalı 1,4 dəfə, tikintidə əsaslı kapital qoyuluşu 5,4 dəfə, nəqliyyat xidmətinin həcmi 2,5 dəfə artmışdır. Əhalinin pul gəlirləri 187 milyard manatdan 855 milyard manata çatmış, onun nominal həcmi xeyli yüksəlmişdir.

Bütün kateqoriyalar üzrə kənd təsərrüfatı məhsulu istehsalı 2000-ci ildə 207 milyard manat təşkil etmişdisə, ötən il bu göstərici 359 milyard manat olmuş və ya 1,7 dəfə artmışdır. Xüsusi mülkiyyətə olan marağın nəticəsidir ki, muxtar respublikanın bütün təsərrüfat kateqoriyaları üzrə 1 aprel 2004-cü ilə qaramalın sayı 83 min başa, davarın sayı isə 535 min başa çatmışdır. 2002-ci ilin müvafiq dövrü ilə müqayisədə qaramalın sayı 20 min baş, davarın sayı isə 149 min baş artmışdır.

Daxili bazarın tələbatını nəzərə alan təsərrüfatçılar 2003-cü ildə bir sıra əsas məhsulların istehsalını artırmışlar. Belə ki, 14 min ton kartof, 53 min ton tərəvəz, 42 min ton bostan məhsulları, 28 min ton meyvə yığılmışdır. 2000-ci illə müqayisədə kartof istehsalı 1,2 dəfə, tərəvəz 1,9 dəfə, bostan məhsulları 1,2 dəfə, meyvə istehsalı isə 3,7 faiz çox olmuşdur.

Son dörd ildə taxılçılıqda məhsuldarlıq hər hektarda 29,2 sentnerdən 37,4 sentnerə çatdırılmış və ya 8,2 sentner artmışdır. Ümumiyyətlə, taxılçılıq muxtar respublikada özünü ən perspektivli sahələrdən biri kimi təsdiq edə bilmişdir. 2003-cü ildə 46 min hektar əkin sahəsinin 21 min 886 hektarında, yaxud 46,9 faizində dənli və paxlalı bitkilər yetişdirilmişdir. Həmin sahələrdən 81 min ton məhsul, o cümlədən 73 min ton buğda və arpa, 4 min tondan çox dənli paxlalılar, 4200 ton qarğıdalı yığılmışdır.

Müqayisə üçün demək istəyirəm ki, keçmiş Sovetlər Birliyi dövründə muxtar respublikanın taxılçılıq sahəsindəki ən yüksək göstəricisi 1987-ci ildə qeydə alınmışdı. O zaman 27 min ton taxıl istehsal olunmuşdu. Hazırda taxıl istehsalı o dövrlə müqayisədə 2,7 dəfə, 2000-ci ilə nisbətdə isə 1,5 dəfə artmışdır. Lakin bu, son həddeyildir. Taxılçılığın inkişafı ilə bağlı şərait, daxili bazarın formalaşması, 10-dək un dəyirmanının tikilib istifadəyə verilməsi, bir dəyirmanda isə tikinti işlərinin aparılması bu sahəyə marağı daha da artıracaqdır. Muxtar respublikada taxılçılığın inkişafının bir səbəbi də məhsuldar toxum bazasının yaradılması, xüsusilə hörmətli akademikimiz Cəlal Əliyevin yüksək məhsuldar buğda sortlarından geniş istifadə olunmasıdır. Bu amil taxılçılığın iqtisadi səmərəsinin artırılmasına müsbət təsir göstərmişdir.

Aqrar bölmədə sənaye əhəmiyyətli şəkər çuğunduru istehsalının da özünəməxsus yeri vardır. Möhtərəm Heydər Əliyevin tapşırığına əsasən, 1992-ci ildə təcrübə-sınaq məqsədi ilə əkilməyə başlayan şəkər çuğunduru sahələri sonrakı illərdə xeyli artmışdır. Əgər 1995-ci ildə 7 min ton şəkər çuğunduru istehsal edilmişdisə, 2003-cü ildə 18,4 dəfə çox, yəni 129 ton məhsul götürülmüşdür.

Dövlət proqramında blokada şəraitində yaşayan muxtar respubikanın elektrik enerjisinə olan tələbatının tam ödənilməsi, qaz təchizatı sisteminin yenidən qurulması, yeni istehsal sahələrinin yaradılması və bərpası, sosial infrastrukturun və turizmin inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsi kimi vacib sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Dağlıq ərazilərdə kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi, muxtar respublikada üzümçülüyün, taxılçılığın, heyvandarlığın, ipəkçiliyin, tərəvəzçiliyin, arıçılığın inkişafına dair tədbirlərin həyata keçirilməsi, yüngül sənaye və emal müəssisələrinin bərpası, suvarma əkinçiliyinin genişləndirilməsi sahəsində müəyyənləşdirilmiş tədbirlər uzun müddətə hesablanmış fəaliyyət proqramıdır.

Ölkə rəhbərinin qayğısı imkan verir ki, gələcəkdə muxtar respublika əhalisinin bəzi məhsullara olan tələbatını öz daxili imkanlarımız hesabına ödəyə bilək. Hazırda bu istiqamətdə tədbirlər görülür. Artıq bu gün Naxçıvan Muxtar Respublikasında tələbatdan çox meyvə, tərəvəz, bostan, arıçılıq və heyvandarlıq məhsulları istehsal olunur. Blokada ilə əlaqədar onların kənara aparılması və satışının təşkil edilməsində problemlərimiz var. Amma vaxt var idi ki, bu məhsullar daxili tələbatı ödəyə bilmirdi, çətinliklər yaranırdı.

Əvvəllər olduğu kimi, 2003-cü ildə və cari ilin ötən dövründə sosial təyinatlı obyektlərin tikintisi diqqət mərkəzində saxlanılır. Bu dövrdə istifadəyə verilən 300-dək obyektin, quruculuq və abadlaşdırma işlərinin 85 faizi sosial xarakterli olmuşdur. 2390 yerlik 10 məktəb binası tikilib istifadəyə verilmişdir. 2004-cü ildə də təhsil vacib sahə kimi qalır. 3120 yerlik 10 məktəb binasının, Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə və hüquq fakültəsi üçün 600 yerlik yeni tədris korpusunun tikintisi aparılır. Sizin qayğı və himayənizlə Naxçıvan şəhərinin Babək məhəlləsində ümummilli liderimiz, möhtərəm Heydər Əliyevin adını daşıyan, müasir tələblərə cavab verən 1200 yerlik məktəb binasının tikintisi muxtar respublikanın təhsilinə əvəzsiz töhfənizdir. Bu xüsusi qayğınıza görə, Sizə bir daha ehtiramımızı bildiririk.

Ötən dövrlərdə elmin inkişafı, ali təhsil müəssisələrinin fəaliyyətinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin rəyasət heyəti və elmi tədqiqat institutları üçün 2 bina əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, Naxçıvan Dövlət Universitetində iki yeni fakültə, iki kafedra yaradılmış, 3 yeni ixtisas açılmışdır. Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan filialı müstəqil instituta çevrilmiş, bu tədris ocağının maddi-texniki bazası xeyli yaxşılaşmışdır.

Təhsillə yanaşı mədəniyyətin, səhiyyənin inkişafına da diqqət artırılmışdır. 2003-cü ildə Naxçıvanda elan olunmuş Heydər Əliyev ilinin ölkələrarası əlaqələrin və mədəni mühitdə ən mühüm göstəricisi qardaş Türkiyənin Qars şəhərində ümummilli liderimizin abidəsinin ucaldılması və onun adını daşıyan parkın salınmasıdır. Həmçinin Mömünə xatın, Qarabağlar türbə və minarə kompleksləri bərpa olunmuş, Naxçıvan Dövlət Dram Teatrında, 2 rayon tarix-diyarşünaslıq muzeyində, xalça muzeyində əsaslı yenidənqurma və bərpa işləri aparılmış, Culfa rayonundakı Xanəgah kompleksinin, Naxçıvan şəhərindəki Şərq hamamının bərpası davam etdirilmiş, kənd və rayonlardakı 2 uşaq musiqi məktəbində, kinoteatr və klublarda, şəhidlər kompleksində yenidənqurma işləri görülmüş, Şahbuz qəsəbəsində soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır.

Əhaliyə göstərilən səhiyyə xidməti yaxşılaşdırılmış, akademik Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikasının binasında, fizioterapiya xəstəxanasının duzlaq şöbəsində əsaslı təmir işləri aparılmış, həmin tibb müəssisələri ən müasir avadanlıqla təchiz edilmişdir. Naxçıvan Muxtar Respublikasının xəstəxanasında naftalanla müalicə şöbəsi yaradılmış, rentgen aparatları alınaraq quraşdırılmışdır.

Ötən dövrlərdə bədən tərbiyəsi və idmana xüsusi diqqət yetirilmişdir. Muxtar respublikada istifadəyə verilən yeni məktəb binalarının hamısında idman salonu və açıq idman meydançaları yaradılır. Sizin təşəbbüsünüz və himayənizlə yaradılan Olimpiya idman kompleksi və Üzgüçülük Mərkəzi muxtar respublikada idmanın inkişafına, gənc nəslin sağlam böyüməsinə ən böyük qayğıdır. 2003-cü ilin iyun və iyul aylarında Naxçıvanda 4 qitənin 30 ölkəsindən gəlmiş 77 gənc şahmatçının iştirakı ilə 20 yaşadək gənclər arasında dünya çempionatının keçirilməsi müstəqil Azərbaycanın idman tarixində ən mühüm hadisələrdən birinə çevrilmişdir.

Cənab Prezident, bütün bunlara görə Sizə bir daha dərin minnətdarlığımızı bildiririk. Muxtar respublika iqtisadiyyatının inkişafında islahatların aparılması və özəlləşdirmə prosesi həlledici əhəmiyyətə malikdir. Bu prosesin əsası möhtərəm Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründə qəbul

olunan qərarlarla qoyulmuşdur. Muxtar respublikada 536 min hektar torpaq sahəsindən, 56 min hektarı əhalinin xüsusi mülkiyyətinə, 302 min hektarı bələdiyyələrin mülkiyyətinə verilmiş, 177 min hektar isə dövlət mülkiyyətində saxlanılmışdır.

Kiçik müəssisələrin özəlləşdirilməsi başa çatmaqdadır. Ticarət, ictimai-iaşə sahələri və digər xidmət obyektləri iş adamlarının əlində cəmləşmişdir. Bu gün muxtar respublikada əhalinin 76,5 faizi qeyri-dövlət bölməsində çalışır. Ümumi məhsul istehsalının 86 faizi özəl bölmənin payına düşür. Bu göstərici sənaye istehsalında 63 faiz, nəqliyyatda 71 faiz, kənd təsərrüfatında isə 99,8 faiz təşkil edir. Bütövlükdə məhsul istehsalında dövlət bölməsində 39 faiz, qeyri-dövlət bölməsində isə 49 faiz artım əldə edilmişdir. 2003-cü ildə dövlət mülkiyyətində olan müəssisələrin sayı 5,5 faiz azaldığı halda, özəl müəssisələrin sayı 13,1 faiz artmışdır. Özəl bölmənin inkişafı nəticəsində təkcə 2003-cü ildə 500-ə yaxın yeni iş yeri açılmışdır. Sədərək və Şahbuz rayonlarında fəaliyyətə başlayan tikiş sexləri, Naxçıvan, Culfa, Babək və Şərur rayonlarında istifadəyə verilən un dəyirmanları, çörək və makaron məmulatı istehsalı müəssisələri 80 nəfərin işlə təmin olunmasına şərait yaratmışdır.

Möhtərəm Heydər Əliyevin himayəsi və qayğısı ilə yaradılan AMEA-nın Naxçıvan bölməsinin fəaliyyətə başlaması, beynəlxalq hava limanının istifadəyə verilməsi, Vayxır dəryaçasının tikintisinin aparılması, muxtar respublikada 57 yeni icra nümayəndəliyinin yaradılması, Ordubad milli parkının və Şahbuz dövlət qoruğunun təşkil edilməsi, cənab Prezident, Sizin himayənizlə Naxçıvan Muxtar Respublikasında yeni Kəngərli rayonunun yaradılması hesabına 2285 nəfər sakinə yeni iş yerləri açılmışdır.

Ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə əlaqədar olaraq, yeni müəssisələrin yaradılması və yaxud bərpası, sahibkarlığın inkişafı, aparılan tikintilər və istifadəyə verilən obyektlərin nəticəsində 4 min nəfərə yaxın adamı daimi və ya müvəqqəti iş yerləri ilə təmin etmək mümkün olmuşdur.

Qısa çıxışda muxtar respublikada ötən dövr ərzində görülən bütün işləri əhatə etmək mümkün deyildir. Əmək tutumlu sahələrin yaradılması, görülən tədbirlər, əldə edilən nailiyyətlər barədə məlumat verməklə problemlərin olmadığını demək niyyətində deyilik. İş olan, quruculuq olan yerdə problemlərin olması təbiidir.

Cənab Prezident, əsas odur ki, onların həll ediləcəyinə inanırıq, çünki SİzinSizin rəhbərliyinizlə biz bütün zamanların sınağından çıxmış möhtərəm Heydər Əliyevin yolu ilə gedirik.

Çıxışımı Prezident İlham Əliyevin aşağıdakı fikirləri ilə tamamlamaq istəyirəm: Bizdə bütün imkanlar, təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək, bir nöqtəyə vuraraq, Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Diqqətinizə görə sağ olun.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev müşavirədə geniş nitq söylədi.
(Dövlətimizin başçısının nitqi qəzetin birinci səhifəsində dərc olunur).

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Hörmətli müşavirə iştirakçıları!

İkinci gündür mən Naxçıvandayam. Prezident seçkilərin-dən sonra ilk dəfədir ki, Naxçıvana gəlmişəm və bu iki günün ərzində gördüklərim məni çox sevindirir. Naxçıvanda böyük quruculuq işləri davam edir.

Naxçıvan çətin şəraitdə yaşayan bir diyardır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan blokada şəraitində yaşayır. Azərbaycanın bütün başqa regionlarından fərqli olaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın bağlantısı yoxdur. Yalnız hava yolu vasitəsilə əlaqə var. Bütün bunları nəzərə alaraq, möhtərəm prezidentimiz, xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi və bilavasitə tapşırığı ilə Naxçıvanda beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. Biz dünən onun açılışını təntənəli şəkildə qeyd etdik.

Deyə bilərəm ki, bu hava limanı ən yüksək dünya standartlarına cavab verir, sərnişinlərə gözəl xidmət göstərəcəkdir və gələcəkdə yeni təyyarələrin alınması da nəzərdə tutulubdur. Beləliklə, Naxçıvanla Bakı arasında əlaqələr, digər şəhərlərlə əlaqələr daha da etibarlı olacaqdır.

Naxçıvanda son illər ərzində görülən işlərin əsası 1990-cı illərin əvvəlində qoyulmuşdur. O vaxt xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana gəlmişdi. Naxçıvanlılar onu rəhbər seçmişdilər və burada quruculuq işləri başlanmışdı. Siz hamınız o günləri yaxşı xatırlayırsınız. Mən də yaxşı xatırlayıram. Çünki 1990-1993-cü illərdə Naxçıvanda dəfələrlə olmuşdum, o çətin, ağır şəraiti görmüşdüm. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində bu gün Naxçıvan öz dirçəliş dövrünü yaşayır.

Naxçıvanın sosial-iqtisadi göstəriciləri çox yüksəkdir. Muxtar respublikanın ümumi daxili məhsulü ildən-ilə artır, sənaye potensialı, yerli istehsal artır, mühüm sosial məsələlər öz həllini tapır. Əlbəttə, görülən bütün bu işlərin təməli məhz o illərdə qoyulmuşdur. Amma təbii ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana hakimiyyətə qayıtmasından sonra bütün ölkədə yeni dövr - quruculuq, yaradıcılıq dövrü başladı. Əgər Azərbaycanın, o cümlədən Naxçıvanın inkişaf ahənginə nəzər salsaq, görərik ki, 1996-cı ildən sonra çox sürətli artım var. Ölkəmiz sürətlə inkişaf edir, ümumi daxili məhsul artır. Sərmayələrin qoyuluşuna görə Azərbaycan ön sıralardadır. Azərbaycanın beynəlxalq nüfuzu artıbdır. Ölkəmizdə iri, dünya miqyaslı beynəlxalq layihələr həyata keçirilir.

Bir sözlə, Azərbaycan regionda öz mövqelərini möhkəmləndiribdir. Regional məsələlərdə Azərbaycanın sözü həlledicidir. Əlbəttə, bu, bizə imkan verir ki, öz siyasətimizi daha da inamla həyata keçirək.

Bu yaxınlarda Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair xüsusi fərman verilmişdir. Eyni zamanda, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı da qəbul olunubdur. Amma bu iki gündə Naxçıvanda açdığımız müəssisələr onu göstərir ki, bu sosial-iqtisadi inkişaf proqramı Naxçıvanda çoxdan həyata keçirilir.

Baxın, burada muxtar respublikanın həyatı, gələcəyi üçün əhəmiyyətli müəssisələr, infrastruktur obyektləri yaradılır, çox yüksək səviyyədə yollar salınır, hava limanı istifadəyə verilibdir. İdman kompleksləri, üzgüçülük hovuzu, mədəniyyət obyektləri tikilir. Deyə bilərəm ki, idman kompleksləri, universitet binası ən müasir avadanlıqla təchiz olunmuş, internetə qoşulmuş kitabxana, Əlillərin Bərpa Mərkəzi, digər obyektlər bütün dünya standartlarına cavab verir. Bu, onu göstərir ki, sosial məsələlərin həllinə böyük önəm verilir, hər bir sahədə inkişaf var.

Bizim ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri yeni iş yerlərinin açılmasıdır. Bu istiqamətdə də Naxçıvanda çox gözəl işlər görülür. Bu gün açılışında iştirak etdiyimiz sənaye kompleksində çoxlu yeni iş yerləri yaradılıbdır. İnsanlar işlə təmin olunubdur. Eyni zamanda, yerli istehsalın potensialı artır. Bizim məqsədimiz ondan ibarətdir ki, imkanımız çatan sahələr-də yerli istehsalı gücləndirək, idxalı azaldaq. Əlbəttə, Azərbaycanda istehsal edilməyən məhsullar, təbii ki, idxal olunmalıdır. Amma Azərbaycanda istehsal olunan məhsulların buraxılması Naxçıvanda da inkişaf etməlidir. Bu gün mənə verilən məluma-ta görə, Naxçıvan özünü, demək olar, böyük həcmdə təmin edir. Bu ənənələr, bu meyllər davam edəcəkdir. Naxçıvan da-ha da inkişaf edəcək. Burada yeni sənaye müəssisələri, yeni infrastruktur obyektləri tikiləcəkdir.

Heydər Əliyevin təşəbbüsü ilə Vayxır su anbarının, demək olar ki, yenidən qurulmasına başlanmışdır. Oraya böyük həcmdə sərmayə qoyulur və bu gün biz gördük ki, işlər necə uğurla davam edir. Bu, imkan verəcək ki, kənd təsərrüfatı inkişaf etsin. Bir sözlə, görülən bütün bu işlər gələcəkdə imkan verəcək ki, Naxçıvan çox uğurla inkişaf edə bilsin. Bizim məqsədimiz ondan ibarətdir ki, Naxçıvan maksimum dərəcədə özünü bütün cəhətlərdən təmin edə bilsin. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Naxçıvanın əsas problemlərindən biri elektrik enerjisi məsələsidir. Bilirsiniz ki, buraya elektrik enerjisinin əsas hissəsi xaricdən gəlir. Naxçıvana 140 meqavat həcmində elektrik enerjisi verilir. Onun yalnız 20 meqavatı daxildə istehsal olunur. Qalanı isə Türkiyə və İrandan alınır. Bizim planlarımız, proqramlarımız var. Bu istiqamətdə işlər aparırıq ki, Naxçıvanı elektrik enerjisi ilə tam şəkildə təmin etmək üçün yeni layihələr həyata keçirək. Biz bu yaxınlarda həmin məsələ ilə ciddi məşğul olmuşuq. Mən "Azərenerji"nin prezidenti Pirverdiyevə göstərişlər vermişəm. Sizə deyə bilərəm ki, artıq İranla çox önəmli danışıqlar aparılır. İranla elektrik enerjisi mübadiləsi həyata keçirilir. Düzdür, onun həcmi o qədər də böyük deyildir. Nə qədərdir?

Etibar PİRVERDİYEV ("Azərenerji" SC-nin prezidenti):

Cənab prezident, cəmi 200 meqavatdır.

İlham ƏLİYEV: Yay ərzində ildə 200 meqavatdır. Amma görüləcək işlərin nəticəsində biz bunu 700 meqavata çatdıra bilərik. Belə olan halda, Naxçıvanın elektrik enerjisinə olan tələbatı tam ödəniləcəkdir.

Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır. Əlbəttə, əgər Naxçıvanla Azərbaycan arasın-da əlaqə olsaydı, buraya qaz vermək bizim üçün problem olmazdı. Çünki Azərbaycanda ildə 5 milyard kubmetrdən çox qaz hasil edilir. Eyni zamanda, 4 milyard kubmetrdən artıq idxal olunur. Naxçıvanın tələbatı 350-400 milyon kubmetrdir. Bunu təmin etmək problem deyildir. Problem odur ki, biz bu qazı Naxçıvana verə bilmirik. Belə olan halda, əlbəttə, başqa yollar arayırıq ki, bu məsələni də həll edək. Mən ümid edirəm ki, bu məsələni həll edəcəyik. Bu məsələ öz həllini taparsa, əlbəttə ki, Naxçıvanda yeni müəssisələrin yaradılması prosesi daha da sürətlə gedəcəkdir. Bizim məqsədimiz bundan ibarətdir.

Ordu quruculuğu sahəsində burada çox böyük işlər görülür. Mən dünən hərbi hissədə olarkən öz çıxışımda qeyd elədim ki, bu hərbi hissə Azərbaycanın hər bir hərbi hissəsi Üçün nümunə, örnək ola bilər. Əsgərlərlə bir yerdə olduq, yemək yedik, yemək də çox dadlı idi. Orada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycanın Ordusu məhz bu cUr olmalıdır.

Əlbəttə, görülən bütün bu işlərin səbəbi vardır. İlk növ-bədə, xalqımızın Ümummilli lideri Heydər Əliyevin Naxçıvana münasibətini xatırlatmaq istəyirəm. O, həmişə deyirdi ki, Naxçıvana xüsusi münasibət olmalıdır. Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşayır, ona görə Naxçıvana xüsusi diqqət olmalıdır. Özü də daim bu diqqəti göstərirdi. Digər tərəfdən, siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz.

Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu - abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir. Buna görə mən sizə öz minnətdarlığımı bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, Naxçıvana bu vaxta qədər Azərbaycan rəhbərliyi tərəfindən göstərilmiş diqqət, qayğı bundan sonra da göstəriləcəkdir. Bu, Heydər Əliyevin siyasətidir və mən də bu siyasəti davam etdirirəm.

Yadımdadır, prezident Heydər Əliyev Naxçıvanda olarkən Bakıdan gəlmiş nazirlərə göstəriş vermişdi ki, onlar vaxtaşırı Naxçıvana gəlsinlər, burada məsələlərlə məşğul olsunlar, lazımi köməyi də göstərsinlər. Mən bu gün nazirləri tənqid etmək fikrində deyiləm. Amma deyə bilərəm ki, mənə verilən məlumata görə, prezident seçkilərindən sonra bura-ya daxili işlər naziri Ramil Usubovdan başqa heç bir nazir gəlməyibdir. Bu, yaramaz bir haldır. Prezident seçkilərindən 7 ay keçib və bu 7 ay ərzində Usubovdan başqa heç bir nazir buraya gəlməyibdir.

Hörmətli nazirlər, bəlkə də, bu gün bunun yeri deyil, amma mən istəyirəm biləsiniz: Heydər Əliyevin hər bir sozü bizim üçün qanundur. Əgər o, belə deyibsə, bundan sonra da belə olacaqdır. Mən sizdən tələb edirəm ki, Heydər Əliyevin sizə verdiyi tapşırıqları yerinə yetirəsiniz və vaxtaşırı, rübdə azı bir dəfə buraya gələsiniz, bütün məsələlərlə məşğul olasınız, lazımi köməyi göstərəsiniz ki, işlər daha da sürətlə getsin. Mən ümid edirəm ki, növbəti dəfə bu tapşırığı verməli olmayacağam.

Görülən bütün işlər məni çox sevindirir. Çox sevindirir ki, doğma vətənimiz belə uğurla inkişaf edir. İnsanların rifah halı yaxşılaşır, gəlirləri artır. Son illər ərzində Azərbaycanda aparılan sosial-iqtisadi islahatların nəticəsində bütün sahələrdə çox dinamik inkişaf müşahidə olunur.

Azərbaycan bazar iqtisadiyyatı prinsipləri ilə irəliləyir. Bu, bizim siyasətimizdir. Dünya təcrübəsi bunu göstərir ki, başqa alternativ yoxdur. Yalnız və yalnız bazar münasibətləri prinsipləri əsasında qurulmuş iqtisadiyyat uğurlar əldə edir. Amma, eyni zamanda, Azərbaycanda sosial məsələlərə böyük önəm verilir. Mən bu barədə bir necə dəfə fikirlərimi bildirmişəm.

Baxmayaraq ki, iqtisadiyyatımız bazar prinsipləri əsasında qurulub, büdcəmizin böyük hissəsi sosial məsələlərin həllinə yönəldilir. Bu, onu göstərir ki, sosial məsələlər, başqa sözlə, insanlara olan qayğı daim diqqət mərkəzindədir. Bu siyasət davam edəcəkdir. Azərbaycanda hələ çətin vəziyyətdə yaşayan insanların sayı az deyildir. Onların arasında ən çətin vəziyyətdə olan soydaşlarımız qaçqın-köçkün insanlardır. Onların vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görülür.

Bilirsiniz ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Neft Fondundan 70 milyon dollar vəsait ayrılmışdır ki, qaçqınlar, köçkünlər üçün yeni müasir evlər, binalar, şəhərciklər tikilsin. Bu binalar tikilir. Biləsuvar rayonunda belə bir şəhərciyin açılışında mən iştirak etmişdim. Bu siyasət

davam etdirilir. Artıq mənim fərmanlarımla müəyyən tədbirlər planı nəzərdə tutulub ki, yaxın zamanlarda digər qaçqın-köçkünlər üçün də oxşar şərait yaradılacaqdır.

Amma bu, məsələnin həlli deyildir. Məsələnin həlli ondadır ki, Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarından geri çəkilsin və qaçqınlar, köçkünlər doğma torpaqlarına qayıtsınlar. Bu istiqamətdə böyük səylər göstərilib, danışıqlar aparılıbdır. Düzdür, hələ ki, danışıqların heç bir nəticəsi yoxdur. Amma Azərbaycanın mövqeləri günbəgün möhkəmlənir. Bu gün beynəlxalq təşkilatlardan gələn xəbərlər, dəyişən mövqelər bizdə nikbinlik hissi oyadır. Artıq dünya ictimaiyyəti bu məsələ ilə əlaqədar daha ədalətli mövqe tutubdur. Aparıcı beynəlxalq təşkilatlar öz mövqelərini açıq-aydın ortaya qoyurlar. Ümid edirəm ki, görülən bütün bu işlərin nəticəsində ədaləti əks etdirən, beynəlxalq hüquq normalarına əsaslanan sülh müqaviləsi mümkün olacaqdır. Hər halda, biz çalışırıq və əlimizdən gələni edirik ki, buna nail olaq. Amma bilirsiniz ki, Azərbaycanın prinsipləri var və biz bu prinsiplərdən geri çəkilməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğal olunmuş torpaqlar azad edilməli, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu prinsiplərin əsasında biz istənilən danışıqları apara bilərik. Amma bu prinsiplərin xaricində biz heç vaxt heç bir razılaşmaya gedə bilmərik.

Biz məsələni sülh yolu ilə həll etmək əzmindəyik. Amma eyni zamanda, hər an hazır olmalıyıq ki, bu məsələni bütün digər vasitələrlə həll edək. Azərbaycanın iqtisadi potensialı ildən-ilə artır, güclənir. Bu gün Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən üç dəfə çoxdur. Amma Heydər Əliyevin əsəri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilən-dən, digər önəmli layihələr həyata keçiriləndən sonra, əlbəttə, Azərbaycanın büdcəsi daha böyük olacaq, iqtisadi potensialı güclənəcəkdir. Bu da imkan verəcəkdir ki, Azərbaycanın hər bir sahəsi inkişaf etsin, güclənsin. Mən əminəm ki, vaxt gələcək, Azərbaycanın torpaqları azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Əziz dostlar!

Bir daha qeyd etmək istəyirəm ki, bu iki gün mənim üçün çox xoş keçir. Mən yenə 1990-cı illərin əvvəlində Naxçıvanda atamla birlikdə keçirdiyim günləri xatırlayıram. Onun sizə olan məhəbbətini xatırlayıram. Naxçıvanlıların Heydər Əliyevə göstərdiyi dəstəyi xatırlayıram. Mən xatırlayıram ki, o, Moskvada böyük təzyiqlərə məruz qalmışdı. Bakıya gəldi. O vaxt Sovet İttifaqı Kommunist Partiyasının əlaltıları ona Bakıda da qalmağa imkan vermədilər. Doğma vətəni Naxçıvana gəldi və naxçıvanlılar onu qorudular, dəstəklədilər, özlərinə rəhbər seçdilər.

Heydər Əliyev burada, bu binada işləmişdir. Bu bina da mənim üçün çox əzizdir. Çünki mənim yadımdadır ki, Naxçıvana atamı görməyə gələndə səhərdən-axşama qədər onu bu binada gözləyirdim ki, işi nə vaxt qurtaracaq, evə gedəcəyik. Ona görə bütün bu xatirələr məndə yaşayır. Bu xatirələr mənim üçün çox əzizdir.

Mən bilirəm və siz də bilirsiniz ki, Heydər Əliyev burada əsasını qoyduğu bütün layihələrin həyata keçirilməsini, özünün də gəlib onların açılışında iştirak etməsini necə istəyirdi. Bilirəm, Vasif Talıbovdan dəfələrlə soruşurdu ki, hava limanının inşası necə gedir. Məndən soruşurdu ki, idman qurğularını nə yaxt açacaqsınız, bunu niyə belə yubadırsınız, nə vaxt olacaq. Ürəkdən istəyirdi, tələsirdi ki, onların açılışlarında iştirak etsin və belə də olmalı idi. Amma bəzi hallarda həyatda ədalətsizliklər də baş verir. Əfsuslar olsun ki, o, bunları görmədi.

Amma, eyni zamanda, mən bilirəm, bəzən insan təsəlli axtarır. O gördü ki, onun işi davam etdirilir, onun əsəri olan müstəqil Azərbaycan yaşayır, onun yolu ilə gedir. Gördü ki, xalq o siyasəti dəstəkləyir. Bizim hamımızın borcudur ki, Heydər Əliyevin siyasətini yaşadaq, davam etdirək, Azərbaycanı onun yolu ilə irəliyə aparaq.

Sizi bir daha salamlayıram. Sizə yeni uğurlar, yeni qələbələr, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

(Azərbaycan prezidenti İlham Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə sürəkli alqışlarla qarşılandı).

AZƏRTAC
2004, 14 may

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş mərasimdə iştirak etmişdir

(14 may 2004-ci il)

Azərbaycan Prezidenti İlham Əliyev mayın 14-də Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının salonuna toplaşanlar – Azərbaycanın, o cümlədən muxtar respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Mərasim iştirakçıları xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov muxtar respublikanın 80 illiyi haqqında məruzə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə geniş nitq söylədi. Dövlətimizin başçısı qədim tarixə malik diyarın bugünkü inkişaf səviyyəsinə çatmasında ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini, diqqət və qayğısını vurğuladı, bu siyasətin gələcəkdə də davam etdiriləcəyini bildirdi. Azərbaycan Prezidenti son illərdə diyarın sosial-iqtisadi, mədəni tərəqqisində əldə olunmuş uğurları, muxtar respublika rəhbərliyinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdi.

Rəsmi hissədən sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrı aktyorlarının ifasında şair Nəriman Həsənzadənin "Atabəylər" tarixi dramının tamaşası göstərildi.

X X X

Həmin gün Naxçıvandakı qonaq evində dövlətimizin başçısının şərəfinə rəsmi ziyafət təşkil olundu.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev mayın 14-də Naxçıvana səfərini başa çatdıraraq Bakıya yola düşdü.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi muxtar respublika Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər mehribanlıqla yola saldılar.

X X X

Prezident İlham Əliyev mayın 14-də gecə Bakıya gəldi. Respublikamızın rəhbərini Heydər Əliyev adına beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz naxçıvanlılar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Naxçıvan Muxtar Respublikasının 80-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı və uğurlar arzulayıram.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan qədim diyardır. Naxçıvanın çox qədim tarixi vardır. 3500 il bundan əvvəl insanlar burada yaşamış və yaratmışlar. Eyni zamanda, Naxçıvanın çox zəngin dövlətçilik tarixi vardır. Naxçıvan Atabəylər, Eldəgizlər dövlətinin paytaxtı olmuşdur. Bütün dövrlərdə

Naxçıvan Azərbaycan üçün dayaq olmuş, arxa olmuşdur. Heydər Əliyev demişkən, naxçıvanlılar çox cəsarətli insanlardır. Onlarda milli qürur, milli şüur hissi çox yüksəkdir.

Naxçıvan Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmişdir. Naxçıvan Azərbaycana və dünyaya xalqımızın ümummilli lideri Heydər Əliyevi bəxş etmişdir.

Heydər Əliyev bütün dövrlərdə xalqa, millətə, dövlətə xidmət etmişdir. O, hakimiyyətə gəlməzdən əvvəl Azərbaycan müttəfiq respublikalar arasında ən aşağı səviyyədə idi. İqtisadi və sosial göstəriciləri digər respublikalardan çox geri qalırdı. Amma 1982-ci ildə Heydər Əliyev Moskvaya gedəndə Azərbaycan bütün sovet respublikaları arasında birinci yerdə idi. Məhz o illərdə Azərbaycanda yeni sənaye müəssisələri, istehsalat kompleksləri, mədəniyyət ocaqları, müasir Azərbaycan üçün mühüm rol oynayan böyük potensial yaranmışdır. Əgər o illərdə bu potensial yaradılmasaydı, müstəqillik əldə etdikdən sonra ölkəmiz daha çətin vəziyyətə düşə bilərdi. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılmışdır - infrastruktur yeniləşmiş, ölkəmiz üçün önəmli rol oynayan neft sənaye-si yenidən qurulmuşdur. Bu gün Azərbaycanın neft potensialını müəyyən edən infrastruktur məhz o illərdə yaradılmışdır. Heydər Əliyev bütün vasitələrdən istifadə edərək çalışırdı ki, Azərbaycanda yeni müəssisələr tikilsin, ölkəyə texnologiyalar gətirilsin, yeni iş yerləri açıl-sın. Məhz onun fəaliyyəti nəticəsində 1982-ci ildə Azərbaycan 15 müttəfiq respublika arasında birinci yerdə idi. Bu, bir daha göstərir ki, iş olan yerdə nəticə də olur.

Eyni zamanda, deməliyəm ki, bu tarix sonralar da təkrar olunmuşdur. 1987-ci ilədək Azərbaycanın inkişaf sürəti yüksək idi. Amma 1987-ci ildən 1993-cü ilədək ölkəmiz çox çətin bir vəziyyətə düşdü. O vaxt Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, respublika rəhbərliyinin fəaliyyətsizliyi ucbatından çox ağır və çətin vəziyyət yaranmışdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ən çətin vəziyyətdə yaşa-yan ölkəyə çevrilmişdi. Təsadüfi deyil ki, 1991-93-cü illərdə Azərbaycan çox ağır bir şəraitdə yaşayırdı.

1990-cı ildə Heydər Əliyev Naxçıvana qayıtdı. O, burada naxçıvanlılarla birlikdə çox ağır və çətin şəraitdə yaşadı və işlədi. Həmin illər Naxçıvan üçün çox çətin, muxtar respublikanın gələcəyi üçün həlledici bir dövr idi. Heydər Əliyevin nüfuzu, beynəlxalq təcrübəsi, iradəsi həmin illər Naxçıvanı qorudu. Heç kəs üçün sirr deyil ki, Ermənistanın təcavüzü Naxçıvana da istiqamətləndirilmişdi. Onların plan-larında buranın da işğalı var idi. Ermənilər Naxçıvana hücumlar etmişdilər. Amma naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında bütün bu hücumların qarşısını aldılar. Naxçıvan yaşadı və burada sülh və əmin-amanlıq təmin olundu.

Xalqın tələbi ilə Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıtdı. O illərdən etibarən yenidən Azərbaycanda dirçəliş dövrü başladı - müharibəyə son qoyuldu, atəşkəs rejimi tətbiq edildi, inkişaf üçün gözəl şərait yaradıldı, asayiş bərpa olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi və xalqımız rahat yaşamağa başladı. Əgər biz yenidən qonşu ölkələri, keçmiş sovet respublikalarını Azərbaycanla müqayisə etsək, görərik ki, bu son on il ərzində ölkəmiz Heydər Əliyevin rəhbərliyi ilə geniş mənada bölgədə liderə çevrilmişdir. Bütün digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycanın inkişaf sürəti çox yüksəkdir. Ölkəmizdə geniş islahatlar aparılır, ümumi daxili məhsulun həcmi ildən-ilə artır, Azərbaycana böyük inam və hörmət vardır. İqtisadiyyatımıza böyük həcmdə sərmayələr qoyulur. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bütün başqa qonşu ölkələrdən irəlidədir. Biz bu liderliyi saxlayırıq və əminəm ki, əldən verməyəcəyik.

Azərbaycanda ölkəmiz, region və bütün dünya üçün çox mühüm olan layihələr həyata keçirilir. Heydər Əliyevin neft strategiyası öz gözəl nəticələrini verməkdədir. Bu strategiya uğurla həyata keçirilir. Neft sənayesində minlərlə yeni iş yerləri açılmış, bu sahəyə böyük həcmdə sərmayələr cəlb olunmuşdur. Bu sərmayələrin nəticəsində ölkədə çox geniş infrastruktur, kommunikasiya-nəqliyyat layihələri həyata keçirilir. Azərbaycanın neft sənayesinin uğurlu inkişafı ölkəmizin gələcəyi üçün mühüm bir amildir.

Azərbaycanın büdcəsi ildən-ilə artır. Heç kəs üçün sirr deyil ki, bu artım, ilk növbədə, neft sektorunun hesabına baş verir. 1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdanda dövlətin xəzinəsində 1 manat da, pul yox idi, xəzinə tamamilə boş idi. Ölkə, demək olar ki, müflisləşmişdi. Bu gün isə Azərbaycanın valyuta ehtiyatları 1 milyard 500 mil-yon dollara bərabərdir. Bu, yalnız və yalnız Heydər Əliyevin apardığı siyasətin nəticəsində baş vermişdir. Bütün bu siyasət davam edir. Azərbaycanda geniş özəlləşdirmə proqramı həyata keçirilir, iqtisadi islahatlar aparılır, sosial məsələlərə böyük diqqət göstərilir, əməkhaqları və pensiyalar ildən-ilə artırılır və bundan sonra da artırılacaqdır. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

Ölkəmiz dinamik surətdə inkişaf edir və bu inkişafı vətəndaşlarımız öz gündəlik həyatında hiss etməlidirlər. Ən çətin vəziyyətdə yaşa-yan soydaşlarımız qaçqınlar və məcburi köçkünlərdir. Onlar üçün də imkan daxilində yeni şərait yaradılır, valyuta ehtiyatlarından istifadə edilərək yeni şəhərciklər, qəsəbələr salınır, xəstəxanalar və məktəblər tikilir. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Sosial baxımdan ən az müdafiə olunan insanlara diqqət artırılacaqdır.

Azərbaycan digər istiqamətlərdə də çox uğurlar əldə edir. Bildiyiniz kimi, 1993-cü ilə qədər ölkəmiz informasiya blokadası şəraitində yaşayırdı. Azərbaycan haqqında məlumat, demək olar ki, dünya ictimaiyyətinə çatdırılmırdı. Çatdırılan cüzi informasiyalar isə mənfi xarakter daşıyırdı. Biz bu blokadanı yara bildik və bu gün Azərbaycan dünya birliyində öz layiqli yerini tuta bilmişdir. İndi Azərbaycan müxtəlif beynəlxalq təşkilatların fəal üzvü və iştirakçısıdır. Bu təşkilatların ölkəmizə olan münasibəti də məhz Heydər Əliyevin diplomatiyası sayəsində çox yüksək səviyyədədir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar beynəlxalq təşkilatların mövqeyi göstərir ki, onlarda bu məsələ barədə aydın bir fikir də vardır. Fakt ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, bu işğalın nəticəsində ölkəmizdə 1 milyon qaçqın və köçkün vardır. Bizim haqlı tələbimiz ondan ibarətdir ki, ərazi bütövlüyümüz bərpa olunsun. Ümidvaram ki, Azərbaycan bundan sonra da beynəlxalq təşkilatlarda fəal rol oynayacaq və bu istiqamətdə yeni addımlar atılacaqdır. Son iki gün ərzində Naxçıvanda səfərdə olarkən mən öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapa bilər.

Gələcəkdə bizim böyük planlarımız var. Bizi böyük işlər gözləyir. Biz Heydər Əliyev siyasətini davam etdirməliyik. Bu yaxınlarda imzalanmış fərmanlar məhz bu məqsədə xidmət edir. Son on il ərzində Azərbaycanda görülmüş işlər davam etdirilməlidir. Bunun üçün bütün imkanlar vardır. Azərbaycanın təbii sərvətləri, çox gözəl coğrafi-siyasi vəziyyəti vardır. Regionda ölkəmizin iştirakı olmadan heç bir beynəlxalq layihə həyata keçirilə bilməz. Azərbaycanda çox peşəkar kadrlar, mütəxəs-sislər vardır. Ən önəmlisi isə, xalqın dəstəyi və Heydər Əliyevin siyasəti vardır.

Mən Azərbaycanın gələcəyinə çox nikbin baxıram. Hamımız bilirik ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkəmiz üçün çox önəmli rol oynayan layihələr yaxın zamanlarda Azərbaycana daha yüksək səviyyədə xidmət etməyə başlayacaqdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəməri inşa edən beynəlxalq konsorsium ona Heydər Əliyevin adını vermişdir. Kəmər istismara verildikdən sonra Azərbaycan bundan çox böyük mənfəət götürəcəkdir. Ölkəmizə böyük həcmdə valyuta axını təmin olunacaqdır. Bu bizə Azərbaycanı hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir. Yeni infrastruktur layihələri, sosial proqramlar həyata keçiriləcəkdir. İqtisadi inkişafın daha da sürətlə artımı təmin olunacaqdır. Bir sözlə, bu amillər həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcəkdir.

Burada Heydər Əliyevin ordu quruculuğu sahəsində müstəsna xidmətləri qeyd olundu. Hələ 1970-ci illərdə Bakıda Cəmşid Naxçıvanski adına məktəbin yaradılması göstərir ki, o dövrdə Ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət olacağını və güclü orduya ehtiyac olacağını görürdü. Bu istiqamətdə də çox böyük işlər görülür. Ali baş komandan Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda çox güclü ordu yaradılmışdır. Əgər 1993-cü ilə qədər bizdə ordu yox idisə, indi Silahlı Qüvvələrimiz müasir standartlara cavab verir və qarşıda duran bütün vəzifələri yerinə yetirməyə qadirdir. Biz çalışacağıq ki, ordumuzu daha da gücləndirək, peşəkarlığını daha da artıraq.

Mən üçüncü gündür ki, Naxçıvandayam. Çox sevinirəm ki, bu qədim diyar belə sürətlə inkişaf edir. Çətin vəziyyətdə, blokada şəraitində yaşa-yan Naxçıvan uğurla inkişaf edir. Bu inkişaf bütün sahələri əhatə edir. Naxçıvanda ümumi daxili məhsulun artımı çox yüksəkdir. Ümumi daxili məhsulda özəl sektorun payı 85 faiz təşkil edir. Deməliyəm ki, bu göstərici Azərbaycan üzrə 75 faizdir. Naxçıvan bu sahədə də liderdir və əmi-nəm ki, bu liderliyini gələcəkdə də əldən verməyəcəkdir.

Baxın, son iki gün ərzində nə qədər yeni müəssisə, obyekt istifadəyə verilmişdir. Onların tikilib istifadəyə verilməsi yalnız Heydər Əliyevin dəstəyi nəticəsində mümkün olmuşdur. Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir.

Naxçıvanda sosial məsələlərə böyük diqqət göstərilir. Əlillərin Bərpa Mərkəzi, digər sosial obyektlər istifadəyə verilmişdir və yüksək səviyyədə fəaliyyət göstərir. Kompüter tomoqrafiyası kabineti açılmışdır. İndi naxçıvanlılar müayinədən keçmək üçün başqa şəhərlərə getməyəcək, burada ən yüksək

səviyyədə və pulsuz müayinə olunacaqlar. Biz elektron kitabxananın açılışında iştirak etdik. Bu kitab-xana çox gözəl və müasir binada yerləşir. Bina həm gözəl memarlıq üslubunda tikilmiş, həm də yüksək səviyyədə təchiz olunmuşdur. Dünən Naxçıvanda böyük sənaye kompleksi açıldı. Bu kompleks muxtar respublikanın tələbatını ödəyəcəkdir. Məqsədimiz budur ki, Azərbaycanın da, Naxçıvanın da istehsal etdi-yi məhsullar daxili tələbatı ödəsin, yerli istehsal güclənsin. Bu, belə olarsa, idxal da azalar, habelə yeni iş yerləri açılar. Yeni iş yerlərinin açılması bizim siyasətimizin əsas istiqamətidir. Mən çox sevinirəm ki, son aylar ərzində Azərbaycanın hər bir yerində yeni iş yerləri açılır, yerli icra orqanları və sahibkarlar bu məsələyə böyük diqqətlə yanaşırlar. Bilirlər ki, dövlət bu istiqamətdə onların fəaliyyətini dəs-təkləyəcəkdir.

Naxçıvan üçün böyük əhəmiyyət kəsb edən Vayxır su anbarı tikilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bu obyekt də Heydər Əliyevin əsəridir. O, Naxçıvanda olarkən müvafiq tapşırıqlar vermişdir, vəsait ayırmışdır. Bu vəsaitin hesabına Vayxır su anbarı tikilir. Mən dünən oraya baş çəkdim, vəziyyətlə tanış oldum və işlərin çox yüksək səviyyədə aparıldığını gördüm. Bu obyekt Naxçıvanın gələcəyi üçün, kənd təsərrüfatının inkişafı üçün çox vacibdir. Digər məsələlər də öz həllini tapır. Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır.

Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm.

Biz hamımız - mən də, Vasif Talıbov da, sizlər də Heydər Əliyevin komandasıyıq. Hamımız Heydər Əliyevin övladlarıyıq və gərək elə işləyək ki, onun adını daim uca tutaq.

Mən yenə də 1990-93-cü illərə qayıtmaq istəyirəm. O vaxt Heydər Əliyev naxçıvanlılarla birlikdə yaşayırdı, çalışırdı, böyük işlər görürdü. Mən də tez-tez Naxçıvana gəlirdim, qısa da olsa, onunla birlikdə olurdum. Onun hər bir uğura, görülən hər bir işə necə sevindiyini görürdüm. Vasif Talıbov burada dedi ki, Azərbaycanın dövlət simvolu olan milli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmışdır. O vaxt Bakıda Azərbaycan Sovet Sosialist Respublika-sının bayrağı dalğalanırdı. Naxçıvan isə milli bayrağımızı qaldırmışdı. Ondan sonra qardaş Türkiyənin iştirakı və köməyi ilə "Ümid" körpüsli tikildi. Bu körpü, həqiqətən, Naxçıvan üçün həyat körpüsünə çevrildi. Çünki bir tərəfdən, Ermənistanın blokadası, digər tərəf-dən isə Azərbaycanın o vaxtkı rəhbərliyinin ögey münasibəti, təzyiqlər naxçıvanlıların həyatını daha da çətinləşdirirdi. Amma bütün bunlara baxmayaraq, naxçıvanlılar öz liderini qorudular, heç bir təzyiq onlara təsir etmədi və axıra qədər Heydər Əliyevi dəstəklədilər. Sonra Heydər Əliyev Bakıya getdi, orada işləməyə başladı. Ancaq hamımız bilirik ki, onun ürəyi, qəlbi həmişə naxçıvanlılarla bir yerdə idi. Onun qəlbində Naxçıvanın xüsusi yeri vardı.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən təcrid olunmuş vəziyyətdə yaşayır. Naxçıvan Heydər Əliyevin doğma vətənidir. Mən də bu hisslərlə yaşayıram. İstəyirəm biləsiniz ki, mənim də qəlbimdə Naxçıvanın xüsusi yeri var və bu yer çox böyükdür. Bu torpaq mənim də vətənimdir, mə-nim övladlarımın da vətənidir. Əminəm ki, biz - Heydər Əliyevin davamçıları Naxçıvanı da, Azərbaycanı da Heydər Əliyevin yolu ilə inamla yeni qələbələrə doğru aparacağıq.

Bir daha bu gözəl bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Naxçıvan və naxçıvanlılar!

Yaşasın Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan!

(Azərbaycan prezidenti İlham Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə sürəkli alqışlarla qarşılandı).

AZƏRTAC
2004, 14 may

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
(2 sentyabr 2004-ci il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də səhər Naxçıvan Muxtar Respublikasına gəlmişdir.

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, Naxçıvan şəhərinin beynəlxalq hava limanında dövlətimizin başçısını Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.

Milli geyimli qızlar Prezidentə gül dəstələri təqdim etdilər.

Dövlət başçısını salamlamaq üçün hava limanının qarşısına minlərlə adam toplaşmışdı. Prezident İlham Əliyev hava limanından birbaşa ümummilli liderimiz Heydər Əliyev adına orta məktəbin açılış mərasiminə yola düşdü. Respublikamızın rəhbərini qarşılamaq üçün on minlərlə insan küçələrə çıxmışdı. Prezident İlham Əliyev avtomobildən düşərək onlarla səmimiyyətlə görüşdü və naxçıvanlıların ona göstərdikləri diqqətə görə dərin təşəkkürünü bildirdi.

AZƏRTAC
2004, 2 sentyabr

Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəbin açılış mərasimi
Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir
(2 sentyabr 2004-ci il)

Sentyabrın 2-də Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan orta məktəbin təntənəli açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

On minlərlə şəhər sakini dövlətimizin başçısını qarşılamaq üçün məktəbin ətrafına toplaşmışdı. Onlar Prezident İlham Əliyevi hərarətli alqışlarla və mehribanlıqla qarşıladılar.

Yeni istifadəyə verilən məktəb binasının önündə ümummilli liderimiz Heydər Əiyevin heykəli ucaldılmışdır. Heykəlin müəllifi Azərbaycanın xalq rəssamı akademik Ömər Eldarovdur. Prezident İlham Əliyev heykəlin üzərindən ağ örtüyü götürdü və abidənin önünə gül dəstəsi qoydu.

Mərasimi giriş sözü ilə Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Bu gün Naxçıvan Muxtar Respublikasının həyatında unudulmaz günlərdən biridir. Ölkə Prezidentinin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə "Bilik günü" elan edilmiş və ümumtəhsil məktəblərinin 1-4-cü siniflərində 5 günlük tədris həftəsi tətbiq olunmuş, sonrakı mərhələdə isə bütün ümumtəhsil məktəblərinin 5 günlük təhsilə keçməsi qərara alınmışdır.

Ölkə rəhbərinin təsdiq etdiyi 2005-2007-ci illərdə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı təhsilin keyfiyyətinin daha da gücləndirilməsinə xidmət edən təhsil və informasiya mühitinin yaradılmasına yönəldilmişdir. Bu proqramla ümumtəhsil məktəblərində texniki inqilab həyata keçiriləcəkdir. Üç il ərzində hər 33 şagird bir müasir kompüter dəsti ilə təmin olunacaqdır. Belə bir şəraitdə, təhsil müəssisələrində təlimin keyfiyyətinin yüksəldilməsinə yönəldilən mühüm dövlət sənədlərinin qəbul edildiyi dövrdə Heydər Əliyev adına məktəbin istifadəyə verilməsi böyük sevinc və iftixar hissi doğurur. Bu, sadəcə bir məktəbin istifadəyə verilməsi, təhsil hadisəsi deyildir. Bu, umummilli liderimizin təşəbbüsü ilə tikilən və onun adına ucaldılan ən layiqli abidədir. Bu abidənin - Heydər Əliyevin adını daşıyan məktəbin istifadəyə verilməsi münasibətilə mərasim iştirakçılarını, muxtar respublikanın bütün təhsil işçilərini ürəkdən təbrik edirəm. Təhsili, gənc nəslin yetişdirilməsini himayəyə götürdüyünə görə, Naxçıvan məktəblilərinə, müəllimlərə və valideynlərə belə gözəl və yaraşıqlı müasir təhsil ocağı hədiyyə etdiyinə görə ölkə Prezidenti hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyevin iştirak etməsi böyük etimad nümunəsidir. Bu, eyni zamanda, xalqımızın ümummilli lideri möhtərəm Heydər Əliyev tərəfindən təhsilə dövlət qayğısının bu gün də davam etməsinin daha bir ifadəsidir. Azərbaycan təhsilinin inkişafı möhtərəm Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu dahi şəxsiyyətin fəaliyyəti ölkə həyatının elə mühüm məqamlarını əhatə edir ki, bunu bütövlükdə inkişaf erası adlandırmaq olar. Bu inkişafda maarifçilik, milli kadrların yetişdirilməsi, təhsilin dövlət siyasəti səviyyəsinə qaldırılması mühüm yer tutur. Möhtərəm Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan təhsili sürətlə inkişaf etməyə başladı. Aparılan gərgin işin, 1970-ci illərdən başlayaraq isə ümumtəhsil və ali məktəb binalarının tikilməsinin, hər il min nəfərə yaxın azərbaycanlı gəncin Rusiyanın qabaqcıl ali məktəblərinə göndərilməsinin, pulsuz dərsliklərin verilməsinin nəticəsi idi ki, qısa müddətdə Azərbaycan ən müasir dəyərlərə söykənən sivil dövlətlərin sırasına çıxdı, əhalisinin təhsil və elmi səviyyəsinə görə qabaqcıl və inkişaf etmiş ölkəyə çevrildi.

Təhsil hər bir ölkənin və xalqın həyatında mühüm yer tutur. Təəssüf ki, bu vacib məsələ 1988-1993-cü illərdə unuduldu. Naşı siyasətçilər digər sahələrdə olduğu kimi, təhsildə də formalaşmış müsbət ənənələri dağıtmağa başladılar. Onlar başa düşə bilmədilər ki, Azərbaycanın bütöv bir nəsli təhsildə Heydər Əliyev ənənələrinin, Heydər Əliyev məktəbinin yetişdirmələridir. Bu xalq daim Heydər Əliyev irsinə sadiq qalacaqdır. Nə qədər Azərbaycan var, Heydər Əliyev də yaşayacaq və var olacaqdır.

Ümummilli liderimizin xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da təhsilin ənənələri bərpa edildi. Təhsilin müstəqil dövlətçilik prinsipləri əsasında və beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulmasına şərait yaradıldı. Hələ 1995-ci ildə, ölkə iqtisadiyyatının çətin dövründə möhtərəm Heydər

Əliyev deyirdi ki, müəllimlik sənətini, müəllim işini və zəhmətini həmişə yüksək qiymətləndirirəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, müəllimə xərcləməlidir. Bu mənim prinsipial mövqeyimdir.

Ümummilli liderimizin müəyyənləşdirdiyi təhsil siyasəti bu gün ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təkcə 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında 2390 şagird yeri olan 10 məktəb binası tikilərək istifadəyə verilmişdir. Cari ildə ölkə Prezidentinin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramına uyğun olaraq, Şərur rayonundakı Təzəkənddə 110 yerlik məktəb binası tikilib istifadəyə verilmişdir. 3274 yerlik 11 yeni məktəb binasında tikinti, 2600 yerlik 5 məktəb binasında isə əsaslı təmir və yenidənqurma işləri aparılır. Bu il muxtar respublikanın ümumtəhsil məktəblərinə 114 yeni dəst kompüter verilmişdir.

Açılışına toplaşdığımız bu yeni məktəb binası da təhsilə göstərilən qayğının daha bir ifadəsidir. Əvvəllər Naxçıvan şəhərinin Babək məhəlləsində məktəbyaşlı uşaqların çoxluğu, burada orta məktəbin olmaması nəzərə alınaraq, həmin ərazidə uşaq bağçasının 1 korpusu məktəb üçün uyğunlaşdırılmışdı. Cəmi 200 nəfər üçün uyğunlaşdırılmış və şəraitsiz olan həmin məktəbdə 697 şagird təhsil alırdı ki, bu da təhsilin keyfiyyətinə mənfi təsir göstərirdi.

Ölkə rəhbəri cənab İlham Əliyevin himayəsi ilə ucaldılan Heydər Əliyev adına məktəb Naxçıvan təhsilinə əvəzsiz töhfədir. 3 mərtəbəli məktəbdə 67 sinif otağı, kompüter, hərbi hazırlıq otağı, laboratoriyalar, kitabxana, idman salonu, basketbol və futbol meydançaları, tibb məntəqəsi, bufet-yeməkxana şagirdlərin istifadəsinə verilir.

Cənab Prezident, Siz bu ilin may ayında muxtar respublikaya etdiyiniz tarixi səfər zamanı Heydər Əliyev adına məktəbin tikintisi ilə yaxından maraqlanmış, dəyərli tövsiyə və tapşırıqlarınızı verərək demişdiniz: "Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda böyük məktəb binası tikilir. Əminəm ki, bu məktəb Azərbaycanda bir nömrəli məktəb olacaqdır. Çünki o, Heydər Əliyevin adını daşıyacaqdır. Çünki onun təməli Heydər Əliyev tərəfindən qoyulmuşdur". Təhsil işçiləri tövsiyənizə əməl edərək və milli təhsilimizin tərəqqisi naminə çalışaraq, müstəqil dövlətimizin gələcəyi üçün həqiqi vətənpərvər gənclər yetişdirəcəklər. Heydər Əliyev məktəbinin məzunu olmaq, bu məktəbdə dərs keçmək hər bir gənc üçün böyük şərəf, bu məktəbdə dərs demək, pedaqoji fəaliyyət göstərmək isə hər bir müəllim üçün böyük etimad və ciddi məsuliyyət olacaqdır.

Diqqətinizə görə sağ olun.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Əziz naxçıvanlılar, bacılar və qardaşlar!

İcazə verin, sizləri, Azərbaycanın ayrılmaz hissəsi olan bu gözəl diyarda yaşayan, çalışan bütün insanları Azərbaycan neftçiləri adından ürəkdən salamlayım, hamınıza cansağlığı, xoşbəxtlik, gözəl həyat, firavanlıq və səadət arzulayım. Bu təntənəli mərasim münasibətilə hamınızı ürəkdən təbrik edirəm.

Sentyabr ayı tədris ilinin başlanğıcıdır. Azərbaycan Prezidentinin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramına uyğun olaraq, respublikamızın rayon və şəhərlərində yeni obyektlər istifadəyə verilir. O cümlədən yeni tədris ocaqları tikilir. Ancaq bu gün keçirilən mərasim mənasına və mahiyyətinə görə digərlərindən qat-qat üstün və əhəmiyyətlidir. Çünki açılışına toplaşdığımız bu məktəb ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Bu məktəbin tikilməsi və Naxçıvanın gənc nəslinin burada biliklərə yiyələnməsi onun ən böyük arzusu idi. Yadımdadır ki, bu təşəbbüs irəli sürüləndə mənə möhkəm tapşırdı ki, bu məktəb başqa məktəblərə oxşamamalıdır və müasir tipli bir məktəb olmalıdır. Burada müəllimlərin səylə işləməsi və şagirdlərin biliklərə həvəslə yiyələnməsi üçün bütün şərait yaradılmalıdır.

Mən bu gün çox şadam ki, bu mərasimdə iştirak edirəm.

Ümumiyyətlə, Azərbaycanda elə bir region yoxdur ki, Heydər Əliyev oraya qayğı göstərməsin və oranın inkişafı üçün səy göstərməsin. Azərbaycan iqtisadiyyatında elə bir sahə yoxdur ki, Heydər Əliyev onun inkişafına rəhbərlik etməsin. Belə sahələrdən biri də neft bölməsidir. Bildiyiniz kimi, Heydər Əliyev 1969-cu ildə respublikamıza rəhbərliyə başlayandan sonra neft sənayesinin inkişafı üçün böyük işlər görmüşdür. Bu gün bizim əldə etdiyimiz nailiyyətlərin hamısı, mövcud sənaye və infrastruktur potensialı məhz bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Azərbaycan müstəqillik qazandıqdan sonra neft sənayesində aparılan işlər də ümummilli liderimizin əsasını qoyduğu yeni neft strategiyası sayəsində mümkün olmuşdur.

Biz fəxr edə bilərik ki, Azərbaycan, Bakı şəhəri Heydər Əliyevin xidmətləri sayəsində yenidən dünyanın neft mərkəzinə çevrilmişdir. Bu gün ölkəmizdə irimiqyaslı layihələr – "Azəri-Çıraq-Günəşli" və Bakı-Tbilisi-Ceyhan kimi böyük layihələr həyata keçirilir. "Şahdəniz" yatağının inkişafı, Cənubi Qafqaz boru kəmərinin çəkilməsi artıq reallıqdır. Bütün bunlar üçün biz Heydər Əliyevə minnətdarıq. Bizim borcumuzdur ki, biz onun adını həmişə yüksək tutaq və ideyalarını həyata keçirək.

Bu gün mən həyəcan hissi keçirirəm. Eyni zamanda, çox xoşbəxtəm, ona görə ki, onun tapşırıqlarını yerinə yetiririk. Bu dahi şəxsiyyətin əziz xatirəsi həmişə bizim ürəyimizdə yaşayacaqdır. Sağ olun.

Heydər Əliyev adına orta məktəbin müəllimi Gülnaz Sadıqovanın çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Cənab Prezident, icazə verin, qədim Naxçıvan torpağının ziyalıları, ulu öndərimiz Heydər Əliyevin adını daşıyan məktəbin müəllim kollektivi adından ata yurdunuzda Sizi salamlayım və Sizə "Xoş gəlmisiniz!" deyim.

Bu gün biz tarixi bir gün yaşayırıq. Maarifpərvər xalqımız, muxtar respublikanın elmi pedaqoji ictimaiyyəti fərəhli bir hadisənin – təhsilimizin himayəçisi, müstəqil Azərbaycanın ilk Xalq müəllimi, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan məktəbin açılışına toplaşmışdır. Azərbaycan təhsili çağdaş dünyamızın böyük siyasi xadimi, müstəqil dövlətimizin memarı, qurucusu, ümummilli liderimiz Heydər Əliyevin qayğısı və himayəsi sayəsində inkişaf etmiş və etməkdədir. Möhtərəm Heydər Əliyevin "Hər şey məktəbdən başlayır","Təhsil millətin gələcəyidir", "Gələcəyimiz təhsilli insanların çiyinləri üzərində qurulacaqdır" kəlamları bu gün biz təhsil işçilərinin fəaliyyəti proqramı və devizidir. Müstəqillik yolu ilə inamla irəliləyən ölkəmizin çoxminlik müəllimlər ordusu da Heydər Əliyevin ideyaları ətrafında sıx birləşərək, quruculuq və inkişaf prosesinə öz töhfələrini verməyə çalışır.

Son 10 ildə muxtar respublikada məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, təlimin müasir tələblər səviyyəsində qurulması və yeniləşdirilməsi sahəsində uğurlar qazanılmaqdadır və bu istiqamətdə tədbirlər davam edir. Aydın məsələdir ki, uşağın təhsil və tərbiyə aldığı yer – məktəb müvafiq standartlara və tələblərə cavab verməlidir. Bunun üçün dünya standartlarına uyğun məktəb binalarının tikilməsi dövlətin diqqət mərkəzindədir, bu qayğının bariz nümunəsi göz önündədir. Cənab Prezident, təşəbbüsçüsü ümummilli liderimiz olan möhtəşəm bu təhsil məbədi Sizin qayğınız və himayənizlə həyata vəsiqə alır.

Bu gün mən ikiqat sevinc hissi yaşayıram. İftixar və qürur hissi duyuram ki, pedaqoji fəaliyyətimdə ilk addımı məhz ulu öndərimizin adını daşıyan bu müqəddəs ocaqda atıram. Biz təhsil müəssisəsində öz işimizə yaradıcı yanaşmaq, üzərimizə düşən vəzifəni yerinə yetirmək üçün daha səylə çalışmalıyıq. Çünki bizim təhsili, təhsil işçilərini qiymətləndirən, onlara qayğı göstərən Sizin kimi Prezidentimiz var.

Cənab Prezident, mən riyaziyyat-informatika müəllimiyəm. Fürsətdən istifadə edərək, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında imzaladığınız Sərəncama görə dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bu yaraşıqlı, bu möhtəşəm təhsil ocağını bizə hədiyyə etdiyiniz üçün, icazə verin, Naxçıvanın bütün pedaqoji ictimaiyyəti adından Sizə dərin minnətdarlığımı bildirim. Məktəbin kollektivi və pedaqoji ictimaiyyətimiz adından Sizi əmin edirəm ki, biz ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sadiq qalacaq, onu davam etdirəcək, bütün bilik və bacarığımızı xalqımıza layiq, onu irəli apara biləcək vətəndaşların yetişdirilməsinə həsr edəcəyik.

X X X

Rəsmi hissədən sonra Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan orta məktəbin açılışını bildirən qırmızı lenti kəsdi. Sonra Prezident İlham Əliyev məktəbin sinif otaqları, kitabxanası, laboratoriyası, idman salonu, bufet-yeməkxanası ilə yaxından tanış oldu. Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov dövlətimizin başçısına məktəb haqqında ətraflı məlumat verdi.

Məktəblə tanışlıqdan sonra bu təhsil ocağının qarşısında toplaşmış şagirdlər ümummilli liderimiz Heydər Əliyevə və Prezident İlham Əliyevə həsr olunmuş şeirlər söylədilər:

Ömrü boyu elimə dayaq oldu o,

Dövlətimə nurlu mayak oldu o,
Könüllərdə bir dahi tək qaldı o,
Heydər baba qəlbimizdə yaşayır.
Yorulmadan qurdu kəndlər, şəhərlər,
Üzümüzə açdı nurlu səhərlər,
Bu yüksəliş düşmən ruhu zəhərlər,
Heydər baba qəlbimizdə yaşayır,
Məktəbimiz Heydər adı daşıyır.
Hər vaxt qaldı millətinin dərdinə,
Gün ağladı öz elinə, yurduna,
Bax, qürrələn ləyaqətli oğluna,
Heydər baba qəlbimizdə yaşayır,
Məktəbimiz Heydər adı daşıyır.
Zaman bizi imtahana çəksə də,
Heydərsizlik qəlblərə qəm əksə də,
Ayrılıqdan xalq göz yaşı töksə də,
Heydər oğlu İlhamımız var indi.

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz naxçıvanlılar!
Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Heydər Əliyevin adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu məktəbin açılışı çox əlamətdar hadisədir. Əvvəla, ona görə ki, bu məktəb xalqımızın ümummilli liderinin adını daşıyır. Digər tərəfdən, bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu, həm memarlıq baxımından gözəl binadır, eyni zamanda, burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Natiq Əliyev öz çıxışında qeyd etdi ki, bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun. O, bu məktəbin dünya standartlarına cavab verməsini istəyirdi. Bu gün biz hamımız çox şadıq ki, məktəb Heydər Əliyevin istədiyi kimi tikilmiş və istifadəyə verilmişdir. Deyə bilərəm ki, bu məktəb indi təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda bir nömrəli məktəbdir.

Heydər Əliyev xalqımız üçün ən çətin anlarda onunla birlikdə idi. Naxçıvanın ən ağır dövrlərində o, naxçıvanlılarla birlikdə burada yaşamış və işləmişdir. Naxçıvanı xalqla birgə qorumuş və bu qədim diyarın inkişafına nail ola bilmişdir. Naxçıvan blokada şəraitində yaşadığı dövrdə Türkiyə ilə muxtar respublika arasında "Ümid" körpüsünün tikintisi də məhz Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilmişdir. Bu körpü indi də Naxçıvan üçün həyati əhəmiyyət kəsb edir. O zamanlar körpü Naxçıvanın dünya ilə yeganə əlaqə vasitəsi idi. Naxçıvanın ən ağır vəziyyətində Heydər Əliyev bu diyarın digər sahələrdəki problemləri ilə də məşğul olur, onları həll edirdi, Naxçıvanı dünyada tanıdırdı. Təsadüfi deyil ki, həmin illər beynəlxalq təşkilatlarda, digər mötəbər qurumlarda Naxçıvan haqqında kifayət qədər məlumat var idi.

Naxçıvanın ağır blokada şəraitində yaşaması da dünya ictimaiyyətinə məlum idi.

Azərbaycan çətin vəziyyətə düşdükdən sonra xalq yenə də öz liderinə müraciət etdi və 1993-cü ildə Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Bakıda vəziyyət çox ağır idi. Ölkəmiz böyük təhlükə ilə üzləşmişdi. Heydər Əliyevin qətiyyəti, iradəsi, müdrikliyi Azərbaycanı bu bəladan xilas etdi. Həmişə xalqın iradəsinə arxalanmış lider on il ərzində ölkəmizi irəli apardı. Azərbaycan inkişaf dövrünü yaşadı. Ölkəmizdə bütün sahələrdə inkişaf prosesi başlandı. Beynəlxalq aləmdə yerimiz möhkəmlənmişdir və bu gün Azərbaycan dünyada tanınan bir ölkədir. Azərbaycan bölgədə və dünyada öz mövqelərini

gücləndirmişdir. Ölkəmiz iqtisadi inkişaf baxımından çox sürətlə irəli gedir, regionda liderdir. İqtisadi göstəricilərinə görə Azərbaycan bir çox inkişaf etmiş ölkələri də qabaqlayır.

On il ərzində Heydər Əliyev tərəfindən Azərbaycanda aparılmış iqtisadi islahatlar öz gözəl nəticələrini vermişdir. Xalqımız ildən-ilə daha yaxşı yaşayır, insanların rifahı yaxşılaşır, sosial məsələlər öz həllini tapır, maaşlar, təqaüdlər vaxtlı-vaxtında ödənilir və onların həcmi artır. Bildiyiniz kimi, bu yaxınlarda bu istiqamətdə çox önəmli addımlar atılmışdır - minimum əmək haqqı artırılmış, büdcədən maliyyələşdirilən təşkilatların işçilərinin maaşları qaldırılmışdır. Bu siyasət bundan sonra da aparılacaqdır. Bu, bizim üçün prioritet istiqamətdir. Azərbaycanın hərtərəfli inkişafı, regionların inkişafı və eyni zamanda, sosial məsələlərin həlli başlıca vəzifələrdir. Bütün bunları həyata keçirmək üçün, əlbəttə ki, ölkənin güclü iqtisadiyyatı olmalıdır. Əgər iqtisadiyyat olmasa, heç bir sosial proqramı həyata keçirmək mümkün olmayacaqdır. Ona görə də bu gün iqtisadi inkişaf məsələlərinə xüsusi əhəmiyyət verilir. Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların inkişaf proqramı da məhz bu məqsədə xidmət edir. Çox sevindirici haldır ki, prezident seçkilərindən ötən dövr ərzində Azərbaycanda 70 mindən çox yeni iş yeri açılmış, onlardan 50 mini daimi, 20 mini isə müvəqqəti iş yerləridir. Bu onu göstərir ki, aparılan iqtisadi və sosial siyasət öz nəticələrini verməkdədir.

Bütün bu uğurların əsası 1993-cü ildə qoyulmuşdur. Əgər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəlməsəydi, iqtisadi islahatları aparmasaydı, Azərbaycanı dünya birliyində tanıtmasaydı, onun yerini möhkəmləndirməsəydi, bu gün hər hansı bir iqtisadi uğurdan söhbət gedə bilməzdi. Eyni zamanda, bizim iqtisadi inkişafımızın əsas səbəblərindən biri də Heydər Əliyevin neft strategiyasıdır. Burada qeyd olundu ki, on il bundan əvvəl 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyev Azərbaycanda neft strategiyasını həyata keçirməyə başladı.

Bu on il ərzində həm ölkəmizə böyük həcmdə xarici sərmayə qoyuldu, həm də infrastruktur yaradıldı, yeniləşdi, neft sənayesində on minlərlə yeni iş yerləri açıldı və orada çalışanların əmək haqqı çox yüksəkdir. Neft strategiyamız bizə imkan verib ki, Azərbaycanda Neft Fondu yaradılsın, burada vəsait toplansın və bu vəsait də şəffaf şəkildə sərf olunsun. Bu gün Azərbaycanın ildən-ilə artan büdcəsinin müəyyən hissəsi Neft Fondunun hesabınadır. Gələcəkdə, Heydər Əliyevin adını daşıyan və onun tərəfindən həyata keçirilən böyük, irimiqyaslı Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsindən sonra ölkə iqtisadiyyatı daha da güclənəcəkdir.

Neft strategiyasının nəticələrindən biri də bu məktəbdir. Əgər Azərbaycan Dövlət Neft Şirkəti Heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyasından bəhrələnməsəydi, əlbəttə ki, bu məktəb də tikilə bilməzdi. Bu məktəbə kifayət qədər vəsait qoyulmuşdur.

Azərbaycanın son on ildə və bu gün də bütün sahələrdə inkişafının əsas səbəbi məhz 1993-cü ildə Azərbaycan xalqının tutduğu, seçdiyi yoldur. Biz bu yola sadiqik. Bu siyasət davam etdirilir. Azərbaycan prezident seçkilərindən keçən dövr ərzində də bu yolla gedir. Xarici siyasətimiz də, eyni zamanda, ölkə daxilində islahatlar da həmin ümumi istiqamət çərçivəsində aparılır. Mən dəfələrlə demişəm ki, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur. Məhz bu siyasət Azərbaycanı çox parlaq gələcəyə aparacaqdır, ölkəmiz ildən-ilə güclənəcək, xalqımız ildən-ilə daha yaxşı yaşayacaqdır. Bu, bizim siyasətimizin əsas vəzifəsidir. Mən bunu bəyan etmişəm və bu gün də bəyan edirəm ki, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar və yaşayacaqlar.

Heydər Əliyev, bütün başqa sahələrə olduğu kimi, təhsil sahəsinə də çox böyük diqqət göstərmişdir və təsadüfi deyildir ki, indi də bizim büdcəmizin 20 faizi, yəni ən böyük hissəsi təhsil sahəsinə sərf olunur. Azərbaycanda Heydər Əliyev tərəfindən, onun təşəbbüsü ilə həyata keçirilən proqram bu gün də davam etdirilir. Kütləvi surətdə yeni məktəblərin tikilməsi, köhnə məktəblərin təmiri nəzərdə tutulur. Bu, çox önəmli proqramdır və həyata keçirilir. Məktəb bilik deməkdir, maarif deməkdir, savad deməkdir. Biz çalışmalıyıq ki, gənclərimiz savadlı, bilikli, tərbiyəli olsunlar. Buna nail olmaq üçün həm ailədə, həm də məktəbdə uşaqlarımız çox yaxşı, vətənpərvərlik ruhunda tərbiyə edilməli və əlbəttə ki, yüksək biliklərə malik olmalıdırlar. Çünki bilik tərəqqinin əsasıdır.

Müasir dünyada bilik və yeni texnologiyalar olmasa, uğur qazanmaq mümkün deyildir. Bu, həm insanlar üçün, həm də ölkə üçün çox çətindir. İnkişaf etmiş ölkələrə nəzər salsaq, görərik ki, onların tərəqqisini, eyni zamanda, ümumi daxili məhsulun artımını xeyli dərəcədə müəyyən edən texnologiyalar, yeni metodikalar, elmdə əldə olunan nailiyyətlərdir. Bütün bunların da əsası məktəbdə qoyulur. Məktəb bu proseslərdə çox önəmli rol oynayır.

Təsadüfi deyildir ki, biz Azərbaycanda bu sahəni inkişaf etdirmək üçün ardıcıl tədbirlər görürük. Burada qeyd olundu ki, bu sahədə müvafiq sərəncamlar imzalanmış və 2005-2007-ci illərdə ölkənin bütün

məktəblərində kompüter sinifləri təşkil edilməsi ilə əlaqədar proqram qəbul olunmuşdur. Azərbaycanda 4554 ümumtəhsil məktəbi var. Üç il ərzində hər bir məktəbdə kompüter sinfi yaradılacaq, onlar şagirdlərimizin dünyada gedən prosesləri operativ şəkildə izləməsi üçün İnternetə qoşulacaqdır. Beləliklə, şagirdlərin öz səviyyələrini qaldırmaq imkanı olacaqdır. Ümid edirəm ki, digər proqramlarla yanaşı, bu proqram da uğurla həyata keçiriləcəkdir. Bu günə qədər Azərbaycanda nəzərdə tutulmuş bütün tədbirlər, proqramlar uğurla reallaşdırılmışdır. Onları həyata keçirmək üçün bizdə bütün lazımi şərait vardır. Qeyd etdiyim kimi, Azərbaycan sürətlə inkişaf edir, bu sürət 2005-ci ildə daha da yüksək olacaqdır. Bu isə bizə bütün sahələri dinamik inkişaf etdirmək imkanı verəcəkdir.

Əziz dostlar, mən sizi bir daha Heydər Əliyevin adını daşıyan bu gözəl məktəbin açılışı münasibətilə ürəkdən təbrik edirəm, burada təhsil alacaq şagirdlərə, çalışacaq müəllimlərə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

Sağ olun.

AZƏRTAC
2004, 2 sentyabr

Naxçıvan şəhərində üzgüçülük mərkəzinin açılış mərasimi
(2 sentyabr 2004-ci il)

Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Naxçıvan şəhərindəki Üzgüçülük Mərkəzinin təntənəli açılış mərasimində iştirak etmişdir.

Mərasimə toplaşmış on minlərlə şəhər sakini dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.

Təntənəli mərasimi Ali Məclisin sədri Vasif Talıbov açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün Naxçıvan Muxtar Respublikasının əhalisi, gəncləri üçün olduqca əlamətdar bir gündür. Ölkəmizin rəhbəri İlham Əliyevin himayəsi və qayğısı ilə tikilən yeni idman kompleksi - Üzgüçülük Mərkəzi gənclərin istifadəsinə verilir. Bu, gənclərə olan xüsusi qayğının ifadəsidir.

Hörmətli İlham Əliyev bu ilin may ayında muxtar respublikaya səfəri zamanı Üzgüçülük Mərkəzində də tikintinin gedişi ilə maraqlanmış, burada ən yüksək tələblərə cavab verən şəraitin yaradılmasını tapşırmışdı. Ölkə rəhbərinin tapşırığı yerinə yetirilmiş və müasir Avropa memarlığı üslubunda tikilən Üzgüçülük Mərkəzi ən yeni avadanlıqla təchiz edilərək istifadəyə verilir. Bu xüsusi qayğıya və diqqətə görə hörmətli İlham müəllimə gənclərimiz və idmançılarımız adından dərin minnətdarlığımızı bildiririk.

İdman sabitliyin olduğu, iqtisadiyyatın ardıcıl inkişaf etdiyini ölkədə tərəqqi edir. Müstəqil Azərbaycan inkişafa və tərəqqiyə, əmin-amanlığa qovuşduğuna görə adı tarixə qızıl hərflərlə yazılmış möhtərəm Heydər Əliyevə borcludur. Xalqımız bundan sonra da bu dahi şəxsiyyətin, xilaskarın və qurucu liderin adını daim məhəbbətlə xatırlayacaq və yad edəcəkdir.

Son illərdə ölkəmizdə bədən tərbiyəsi və idmanın əsrə bərabər inkişaf yolu keçməsi möhtərəm Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyətinin nəticəsidir. Ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı nəticəsində Azərbaycan idmanı misli görünməmiş yüksəliş yoluna çıxdı.

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

- Əziz naxçıvanlılar!

Əziz dostlar, idmançılar!

Bu gün Naxçıvanda yeni idman qurğusu istifadəyə verilir. Yeni üzgüçülük kompleksi tikilib Naxçıvan idmançılarının, bütün naxçıvanlıların sərəncamına verilir. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm. Əminəm ki, naxçıvanlılar bu kompleksdən səmərəli istifadə edəcəklər. Burada həm idmançılar öz məşqlərini keçirəcək, eyni zamanda, sadə insanlar, bəlkə də, idmana o qədər yaxın olmayanlar da buraya gəlib öz sağlamlıqlarını bərpa edəcək, möhkəmlədəcəklər. Çünki üzgüçülük insanın sağlamlığı üçün ən faydalı idman növlərindən biridir. Mən ümid edirəm ki, bu kompleks çox səmərəli işləyəcək və naxçıvanlılar da ondan səmərəli istifadə edəcəklər.

İdman Azərbaycanda artıq böyük ictimai amilə çevrilmişdir. İdman hər bir ölkənin potensialını, gücünü, səviyyəsini göstərir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə idmana böyük diqqət və qayğı göstərilir. Bu da təbiidir. Çünki inkişaf etmiş ölkələrdə iqtisadiyyat güclüdür, maddi imkanlar var, idmana, onun inkişafına vəsait ayrılması daha asandır. Azərbaycan isə 1990-cı illərin əvvəllərində çox çətin vəziyyətə düşmüşdü. Ölkəmiz iqtisadi cəhətdən zəif idi, tənəzzülə uğrayırdı və demək olar ki, iflic vəziyyətində idi. Bütün sahələr kimi, idman da yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda rəhbərliyə qayıdışından sonra inkişaf etməyə başladı. Çətin iqtisadi vəziyyətə baxmayaraq,

xalqımızın lideri tərəfindən idmana daim diqqət və qayğı göstərilirdi və beləliklə, Azərbaycanda idmanın inkişafının təməli qoyulmuş oldu.

Ondan sonrakı illərdə bu inkişaf daha sürətlə getməyə başladı. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idmançılarımız müxtəlif yarışlarda uğurla çıxış edirlər, ölkəmizə qələbələr qazandırırlar. Beynəlxalq turnirlərdə, dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında Azərbaycanın bayrağı qaldırılır, dövlət himni səslənir. Bu yaxınlarda keçirilmiş Afina Yay Olimpiya oyunlarında da idmançılarımız, bizim olimpiya komandamız çox uğurla çıxış etmiş, 5 medal - 1 qızıl, 4 bürünc medal qazanmış və Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışdır.

Azərbaycanda idmanın əksər növləri inkişaf edir. Müxtəlif idman növləri üzrə bizim həm olimpiya, həm də dünya çempionlarımız vardır. Çox sevindirici haldır ki, uşaqlar, yeniyetmələr idmana böyük maraq göstərirlər. İdman bölmələrinə olan axın, uşaq və yeniyetmələr tərəfindən olan maraq onu göstərir ki, Azərbaycanda idman hərtərəfli inkişaf edir. Təbii ki, bizə Olimpiya oyunlarında və dünya çempionatlarında qələbələr lazımdır.

Çünki bu, ölkənin səviyyəsini və potensialını göstərir, Azərbaycanı dünyada daha da yaxşı tanıdır və xalqımıza böyük sevinc gətirir. Xalqımız bundan qürur hissi duyur.

Amma bununla yanaşı, bizə idmanın kütləviliyi lazımdır. Hər bir gəncin, yeniyetmənin, uşağın idmanla məşğul olması və öz sağlamlığını möhkəmləndirməsi lazımdır. Çünki idman sağlamlıq deməkdir, həyat deməkdir. Mən bütün gənclərə, bütün insanlara idmanla məşğul olmağı məsləhət görürəm. Bunu etmək üçün Azərbaycanda gözəl şərait yaradılmışdır. Ölkəmizin müxtəlif yerlərində yeni idman kompleksləri tikilib istifadəyə verilir. Beləliklə, təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində bu şərait yaradılır və bundan sonra da yaradılacaqdır. Növbəti beş idman kompleksinin tikilməsi nəzərdə tutulur və onlar tikiləndən sonra müxtəlif bölgələrdə, o cümlədən Naxçıvanda da idmanla məşğul olmaq üçün daha yaxşı şərait yaradılacaqdır.

Bildiyiniz kimi, Milli Olimpiya Komitəsinin təşəbbüsü ilə həyata keçirilən proqram çərçivəsində Bakıdan sonra ilk olimpiya idman kompleksi iki il bundan əvvəl Naxçıvanda tikilmişdir. Bu gözəl binanın açılışında xalqımızın ümummilli lideri Heydər Əliyev iştirak edirdi və öz ürək sözlərini demişdir. Yadımdadır ki, bu kompleksin açılışından sonra o, bədii proqrama tamaşa edərkən dedi ki, mən nə qədər sevinirəm ki, mənim doğma yurdumda, vətənimdə - Naxçıvanda belə bir gözəl kompleks tikilibdir və sən də bunun təşəbbüskarı olmusan. Ona görə mən sənə minnətdaram. Bu sözlər mənim üçün çox əzizdir. Bu gün də eşidəndə ki, bu kompleks çox səmərəli fəaliyyət göstərir, insanlar idmanla məşğul olmaq üçün ondan səmərəli istifadə edirlər - mən çox sevinirəm. Əminəm ki, Heydər Əliyev də çox sevinərdi ki, bu kompleks insanlara xidmət edir.

Üzgüçülük Kompleksi də məhz bu məqsədi daşıyır, yəni buraya gələn hər bir vətəndaş ondan səmərəli istifadə etsin, dincəlsin, məşq eləsin. Bu, həm də inkişaf deməkdir, yeni infrastrukturun yaradılması deməkdir. Azərbaycanda bütün sahələrdə - iqtisadiyyatda, nəqliyyatda yeni infrastruktur yaradılır. Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan hava limanının açılışı da Azərbaycan üçün böyük bir hadisə olmuşdur. İndi bu hava limanı dünya standartlarına cavab verir.

Bildiyiniz kimi, bu yaxınlarda mən Almaniyada rəsmi səfərdə olarkən orada "Aerobus" şirkəti ilə Azərbaycan arasında saziş imzalanmışdır. Dörd aerobus tipli yeni təyyarənin alınması nəzərdə tutulur. Bu barədə saziş imzalandı və hesab edirəm ki, bir ildən sonra, bəlkə daha tez, aerobuslar Azərbaycana gətiriləcək və Naxçıvandan Bakıya, Bakıdan Naxçıvana uçan sərnişinlər dünyanın bir nömrəli təyyarələrindən istifadə edəcəklər.

Azərbaycanda böyük işlər görülür. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmuş iqtisadi inkişaf sürətlə davam edir, yeni müəssisələr, iş yerləri açılır, yeni idman qurğuları istifadəyə verilir. Yeni yaradılan hər bir müəssisə dünya standartlarına cavab verir. Azərbaycan xalqı buna layiqdir. Azərbaycan vətəndaşları gərək ən yüksək səviyyədə olan idman qurğularından istifadə etsinlər, ən yüksək tələblərə cavab verən hava limanına daxil olsunlar və təhlükəsizlik baxımından ən etibarlı təyyarələrdən istifadə etsinlər. Biz bütün bunları xalq üçün, onun daha yaxşı, xoşbəxt yaşaması üçün edirik. Çalışırıq ki, insanlarımızın rifah halı günü-gündən, ildən-ilə yaxşılaşsın.

Bu Üzgüçülük Kompleksi memarlıq baxımından da gözəl binadır. Biz buna xüsusi diqqət yetirmişik və istəyirdik ki, bu bina Naxçıvana əlavə bir yaraşıq versin. Çox şadam ki, kompleks memarlıq baxımından da çox yaraşıqlıdır və buradan keçən hər bir insan binanın görkəmindən zövq alacaqdır.

Əziz dostlar! Bu kompleksin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizi əmin etmək istəyirəm ki, həm Milli Olimpiya Komitəsinin prezidenti kimi, həm də Azərbaycan Respublikasının

Prezidenti kimi bundan sonra da Azərbaycanın daha da inkişafı üçün və güclənməsi naminə, dünya birliyində mövqeyinin daha da möhkəmlənməsi üçün, Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün, uşaqların daha firavan böyüməsi və yaxşı tərbiyə alması, yaxşı məktəblərdə oxuması üçün, bir sözlə, ölkəmizin tərəqqisi və güclənməsi, onun zəngin və qüdrətli dövlətə çevrilməsi naminə əlimdən gələni əsirgəməyəcəyəm.

x x x

Azərbaycan Prezidenti İlham Əliyev Üzgüçülük Mərkəzinin açılışını bildirən lenti kəsdi, üzgüçülük hovuzuna, yardımçı otaqlara baxdı.

x x x

Dövlətimizin başçısı Üzgüçülük Mərkəzi ilə tanışlıqdan sonra jurnalistlərə müsahibə verdi.

SUAL: Cənab Prezident, Naxçıvana Sizin ilk səfəriniz çox maraqla qarşılanmışdı. Bu isə qısa müddət ərzində buraya ikinci səfərinizdir...

CAVAB: Yadınızdadırsa, may ayında burada olarkən, məktəbə baş çəkdik, inşaat işləri ilə tanış olduq və qərara gəldik ki, məktəb hazır olanda mən onun açılışına gələcəyəm. Mən də, bilirsiniz ki, öz sözümə həmişə sadiqəm və indi də məktəbin açılışına gəlmişəm. Əlbəttə, bu fürsətdən istifadə edərək, Naxçıvanda digər obyektlərə, o cümlədən üzgüçülük kompleksinə, Mülki Müdafiə Mərkəzinə də baş çəkdim.

Bu günün ikinci yarısında Ali Məclisdə müşavirə keçiriləcəkdir. Bir daha gördüm ki, ötən müddət ərzində Naxçıvan daha da gözəlləşmiş, daha da abadlaşmışdır. Burada gedən abadlıq, quruculuq işləri məni çox sevindirdi. İstərdim ki, Azərbaycanın hər bir yerində səliqə ilə, məhəbbətlə, böyük istəklə bu səviyyədə işlər görülsün.

Naxçıvan Azərbaycanın qədim torpağıdır, Azərbaycanın strateji yeridir və hamımız çalışmalıyıq ki, Naxçıvanı hərtərəfli - həm iqtisadi, həm hərbi cəhətdən, həm də digər cəhətlərdən gücləndirək ki, insanlar burada daha da yaxşı, rahat yaşasınlar.

SUAL: Cənab Prezident, yaxın günlərdə Sizin Parisə səfəriniz gözlənilir. Bu səfərin tarixini öyrənmək olarmı və səfər zamanı ikitərəfli görüşlər keçirəcəksinizmi?

CAVAB: Bu səfər işgüzar xarakter daşıyır. İkitərəfli görüşlərin isə sentyabrın birinci ongünlüyündə keçirilməsi gözlənilir.

SUAL: Cənab Prezident, Rusiyanı, Moskvanı son həftə ərzində terror dalğası bürümüşdür. Bu haqda nə deyə bilərsiniz?

CAVAB: Mən Rusiyanın dövlət başçısı cənab Putinə başsağlığı verdim. Bu, böyük bəladır, böyük təhlükədir. Azərbaycan terrorizmdən əziyyət çəkmiş ölkədir. Biz yaxşı bilirik ki, bu nədir. Terrorizmlə mübarizə aparmaq çox çətindir. Bütün qüvvələr birləşməli, bütün ölkələr birləşməlidir və bütün dünyada terror aktlarına qarşı mübarizə aparılmalıdır.

Biz Rusiyada son günlər ərzində törədilmiş terror aktlarını qətiyyətlə pisləyirik. Bu, vəhşilik aktlarıdır. Xüsusilə də məktəbin zəbt edilməsi, orada adamların ölməsi hər bir normal insanı hiddətləndirir. Biz ümid edirik ki, bu böhran tezliklə öz həllini tapacaq, girov saxlanılan insanlar azadlığa buraxılacaqlar.

SUAL: Cənab Prezident, bu günlərdə Siz dörd ölkəyə səfir təyin olunması ilə əlaqədar qərar qəbul etdiniz. Bu barədə nə deyə bilərsiniz?

CAVAB: Bu mənim səlahiyyətimdir və bilirsiniz ki, Prezident kimi bir neçə ölkədə səfirliklərin açılması ilə bağlı qərar qəbul etmişəm. Hesab edirəm ki, bu vacib qərardır, Azərbaycan dünyada daha fəal olmalı, öz mövqeyini müdafiə etməlidir. Bizim xaricdə nümayəndəliklərimizin sayı azdır, buna görə də ondan çox yeni səfirliyin açılması nəzərdə tutulmuşdur. O ki qaldı Həsən Həsənovun və Tamerlan Qarayevin səfir təyin edilməsinə, onların hər ikisi diplomatik fəaliyyətdə olublar. Həsən Həsənov uzun illər Azərbaycanın BMT-dəki nümayəndəsi olub, xarici işlər naziri vəzifəsində çalışıbdır. Onun böyük diplomatik təcrübəsi var və mən hesab edirəm ki, hər bir təcrübədən istifadə etmək lazımdır. Eyni zamanda, Tamerlan Qarayev də uzun illər Çində səfir işləyib və Azərbaycanı ləyaqətlə təmsil edibdir.

Mən seçkilərdən əvvəl və sonra demişdim ki, hər bir vətəndaş mənim üçün əzizdir. Mən keçmişlə bu günün arasında görünməyən bir xətti görürəm. Keçmişdə çox səhvlər olub, Azərbaycan vətəndaş müharibəsi həddində olubdur. Mən cinayət törətmiş şəxsləri də azad etmişəm. Ona görə yox ki, hesab

edirəm onlar siyasi məhbusdur. Yox, mən öz fikrimdə qalıram və Avropa Şurasının nümayəndələrinə də demişdim ki, əfv etdiyim insanların bəziləri siyasi məhbus deyillər. Mən Azərbaycanda qarşıdurma əhval-ruhiyyəsinin aradan götürülməsini istəyirəm. Bizim qarşımızda yeni vəzifələr durur, ölkəmizi inkişaf etdirməliyik, insanlarımızı səfərbər etməliyik. Biz milli barışığa nail olmuşuq və gərək bunu gücləndirək. Ona görə bu mənim təklifimdir ki, keçmiş ədavət və ziddiyyətlər tarixdə qalsın. Bu, mənim niyyətimdir. Əgər qarşı tərəf bunu eşidirsə, mən şadam, əgər eşitmirsə, günah qarşı tərəfdədir.

SUAL: Cənab Prezident, yaxın zamanlarda əfv fərmanı gözləmək olarmı?

CAVAB: Olar.

SUAL: Cənab Prezident, MDB dövlət başçılarının Astanada keçiriləcək sammitində Rusiya ATƏT-də olan ikili standartlarla əlaqədar məsələ qaldırmağı planlaşdırır. Bununla əlaqədar Sizin fikrinizi bilmək olarmı?

CAVAB: Əgər mən hələ də bu danışıqlardan imtina etməmişəmsə, deməli mən bunların nəticəsinə də ümid edirəm. Yadınızdadırsa, mən dəfələrlə bəyan etmişdim ki, mən sadəcə olaraq, imitasiya naminə danışıqlarda iştirak etmək niyyətində deyiləm. Əgər nə vaxtsa görsəm ki, danışıqların səmərəsi yoxdur və onların gələcəyinə inanmıram, o vaxt Azərbaycan birinci olaraq danışıqlardan imtina edəcəkdir. İndi isə deyə bilərəm ki, danışıqların davam etdirilməsinə zərurət vardır. Danışıqlar gedir, xarici işlər nazirləri görüşürlər. Əlbəttə, siz onlara sual verəndə bəzən narazı qalırsınız ki, cavab vermirlər və verə də bilməzlər. Çünki, danışıqlar məxfi xarakter daşıyır. Biz hələlik bir nəticəyə gələ bilməmişik. Ancaq danışıqlar konkret mövzular ətrafında aparılır. Ümid etmək istəyirəm ki, danışıqların nəticəsi olacaqdır. Azərbaycanın torpaqları azad olunacaq və ərazi bütövlüyü bərpa ediləcəkdir.

SUAL: Yəni lazımi formada desək, danışıqlarda müəyyən irəliləyişlər varmı?

CAVAB: Lazımi formada Məmmədyarov deyib və məruzə edib. Mən onun məruzəsini dinlədim. Ona görə də bu fikirdəyəm ki, danışıqlar davam etdirilməlidir.

SUAL: Cənab Prezident, Qarabağ Azadlıq Təşkilatının üzvlərinə hakim cəza kəsdi. Siz Prezident İlham Əliyev kimi deyil, vətəndaş İlham Əliyev kimi bu qərarla razısınızmı?

CAVAB: Yaxşı sual verdiniz. Prezident kimi, əlbəttə, mən məhkəmənin q ərarına qarışa bilmərəm və qarışmaq da istəmirəm. Amma bir vətəndaş kimi hesab edirəm ki, verilən bu cəza onların etdiyi hərəkətlərə adekvat deyildir. Həddindən artıq böyük cəzadır və mən bir vətəndaş kimi bu qərarı dəstəkləyə bilmərəm. Hesab edirəm ki, növbəti məhkəmə instansiyasında bu qərara yenidən baxılmalıdır. Mən tövsiyə edərdim ki, Apellyasiya Məhkəməsinə müraciət edilsin və ümid etmək istəyirəm ki, burada bu məsələ öz həllini tapar.

Eyni zamanda, qanun hamı üçün bir olmalıdır. Hansısa təşkilatı və yaxud insanı ideallaşdırmaq da lazım deyildir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanda səlahiyyətli qurumlar və şəxslər iş aparırlar. Prezident, xarici işlər naziri, müdafiə naziri və bütün digər müvafiq qurumlar bu işi necə aparmağı bilirlər. Onlar nə vaxt hansı addımı atmaq lazım olduğunu yaxşı bilirlər. Ona görə də cəmiyyətdə də bu cür təşkilatlara adekvat münasibət olmalıdır. Biz heç kimin ətrafında qəhrəman obrazı yaratmamalıyıq, heç kimin fəaliyyətini şişirtməməliyik. Əlbəttə, ictimai təşkilatın öz mövqeyi var. Amma hər şey qanun çərçivəsində olmalıdır. Biz hüquqi dövlət qururuq və qanunun aliliyinin tərəfdarıyıq. Ona görə də hər bir vətəndaş qanuna hörmətlə yanaşmalıdır. Amma, yenə də deyirəm, çıxarılan bu hökm həddindən artıq ağırdır və bir vətəndaş kimi mən hökmlə razı deyiləm. Ümid edirəm ki, bu məsələ öz ədalətli həllini tapacaqdır.

SUAL: Cənab Prezident, Avropa Şurasında Azərbaycanla bağlı məsələ müzakirə olunacaqmı?

CAVAB: Ümid edirəm ki, bu müzakirələr konstruktiv şəkildə aparılacaqdır. Avropa Şurası ilə Azərbaycan arasında heç bir problem yoxdur. Əslində, bu keçmişdə də olmayıbdır. Mən bu məsələ ilə bilavasitə məşğul olan insan kimi bilirdim ki, bizim aramızda əlbəttə ki, fikir ayrılığı, müxtəlif məsələlərə fərqli baxışlar vardı. Amma hər hansı bir ziddiyyətdən, qarşıdurmadan söhbət getmirdi. Əlbəttə, bəzi müxalifət mətbuatı bunu şişirdirdi. Amma mən bilirdim ki, bu belə deyil. İndiki mərhələdə bizim Avropa Şurası ilə münasibətlərimiz daha da inkişaf edir, Azərbaycanda aparılan siyasi, iqtisadi islahatlar bəyənilir. Bu, məni çox sevindirir. Mən gözləyirəm ki, öhdəliklərin yerinə yetirilməsi məsələsi işçi qaydada müzakirə ediləcək, bu zaman tövsiyələr və müəyyən tənqidlər də olacaq və mən buna təbii baxıram.

SUAL: Cənab Prezident, Naxçıvan 12 ildir ki, blokada şəraitdə yaşayır. Bununla belə, burada böyük uğurlar əldə olunmuşdur. Sizcə, Naxçıvana qəhrəman şəhər adı verməyin vaxtı gəlib çatmayıbmı?

CAVAB: Bilirsiniz, bu, köhnə praktikadır. Biz gərək Sovet İttifaqının təcrübəsindən əl çəkək. Bu adlar heç nəyi təcəssüm etdirmirdi. Qəhrəmanlıq insanın ürəyində, həyatında olmalıdır. Öz doğma şəhərinə

və ölkəsinə münasibətində olmalıdır. Naxçıvan hər bir azərbaycanlı üçün əziz diyardır. Azərbaycanın qədim torpağıdır. Bu diyar blokada şəraitində, Azərbaycandan ayrı düşmüş vəziyyətdə yaşayır. Buna baxmayaraq, naxçıvanlılar bütün dövrlərdə olduğu kimi, indi də Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edirlər. Buradakı inkişaf bizi çox sevindirir. Həm iqlim, həm də coğrafi baxımdan ən çətin vəziyyətdə yaşayan Azərbaycanın bu bölgəsi çox sürətlə inkişaf edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev də Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, o, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü. Həmin siyasət bu gün də həyata keçirilir. Mən çox şadam ki, Naxçıvanda yerli orqanlar tərəfindən görülən gözəl işlər, eyni zamanda, dövlət tərəfindən göstərilən diqqət öz bəhrəsini verir. Naxçıvan daha da gözəlləşəcək, daha da güclənəcəkdir.

SUAL: Cənab Prezident, Siz Prezident Xatəmi ilə görüşdən sonra Şimal-Cənub dəhlizi ilə bağlı tam məlumat açıqlamadınız. Ümumiyyətlə, bu barədə müzakirə oldumu?

CAVAB: Əlbəttə, müzakirə olundu. Bu məsələdə bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Biz də maraqlıyıq, İranda da maraqlıdır ki, o dəhliz işləsin, Azərbaycan da buna qoşulsun və bu istiqamətdə müəyyən addımlar atılıb, danışıqlar aparılıbdır. Bu, bizim üçün çox vacibdir. Azərbaycandan nə qədər çox yollar keçərsə, bir o qədər bizim xeyrimizədir. Bu məsələ, ola bilər ki, hansısa sənəddə öz əksini tapmayıbdır. Amma çox ciddi müzakirə olunubdur.

Yeri gəlmişkən, onu da qeyd etmək istəyirəm ki, səfər çərçivəsində Naxçıvana aid vacib məsələlər müzakirə edilmişdir. İmişli-Parsabad yeni elektrik xəttinin çəkilişi İranla Azərbaycan arasında olan enerji mübadiləsinin həcmini təxminən üç dəfə artıracaqdır. Bilirsiniz ki, indi Azərbaycandan İrana verilən enerjinin əvəzinə İran Naxçıvana enerji verir. Amma bu, kifayət deyildir. Yeni xəttin çəkilişi o həcmi təxminən 4-5 meqavat artıracaqdır. Bu da faktiki olaraq, Azərbaycanda yeni bir elektrik stansiyasının tikilməsinə bərabərdir. Həmin layihənin reallaşdırılması iki ildən sonra başa çatmalıdır. Ondan sonra Naxçıvan elektrik enerjisindən korluq çəkməyəcəkdir.

Naxçıvana təbii qaz verilməsi məsələsi də müzakirə olunmuşdur. Biz belə qərara gəldik ki, İrandan Naxçıvana qaz verilməsi gələn ilin sonundan başlanacaqdır. Yenə də mübadilə yolu ilə, bunun əvəzində Azərbaycan Astaradan İrana qaz verəcəkdir. Bu məsələ burada da müzakirə olunacaqdır. Beləliklə, əgər bütün bu razılaşmalar həyatda öz əksini taparsa, Naxçıvanın qazla, işıqla təminatı iki ildən sonra tam həll olunacaqdır.

Sağ olun.

x x x

Üzgüçülük Mərkəzinin qarşısında gənc idmançılar və heydərçilər Prezident İlham Əliyevə öz ürək sözlərini söylədilər. Gənc heydərçilərin nümayəndəsi FƏRƏH TAĞIYEVA dövlətimizin başçısına müraciətlə dedi:

- Möhtərəm cənab Prezident!

Qədim Naxçıvan diyarına xoş gəlmisiniz. 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilməyinizlə ölkə idmanının tarixində uğurlu səhifələrin başlanğıcı qoyuldu. Siz bu illər ərzində Azərbaycan idmanının yüksəlişi naminə çox böyük işlər görmüsünüz. Respublikanın müxtəlif şəhər və rayonlarında yeni idman qurğularının, olimpiya komplekslərinin tikilməsi idmanın inkişafına güclü təkan verdi. Sizin idmana, idmançılara göstərdiyiniz qayğı beynəlxalq yarışlarda uğurlu nəticələr qazanılmasının əsasını qoydu. Azərbaycan idmançılarının 2000-ci il Sidney və bu günlərdə başa çatmış Afina olimpiadalarında uğurlu çıxışları Sizin gördüyünüz işlərin bəhrəsidir.

Cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin ideyalarının layiqli davamçısı kimi Siz gəncliyə qayğını həmişə diqqət mərkəzində saxlayırsınız. Bu gün qarşısına toplaşdığımız Üzgüçülük Mərkəzi, iki il əvvəl istifadəyə verilmiş Naxçıvan Olimpiya Kompleksi də Sizin əməyinizin məhsuludur. Cənab Prezident, Naxçıvan gəncləri adından Sizə bir daha xoş gəlmisiniz deyirik və söz veririk ki, yaxşı oxuyacaq, Vətənimizin şərəfini həmişə uca tutacaq, Sizin hədiyyə etdiyiniz bu idman qurğularından səmərəli istifadə edərək, idmanda uğurlar qazanacağıq.

Gənc idmançı ELVİN ƏSGƏROV isə ürək sözlərini belə ifadə etdi:

- Cənab Prezident, Afina Yay Olimpiya oyunlarında idmançılarımızın 1 qızıl və 4 bürünc medal qazanaraq 202 dövlət arasında 50-ci yeri tutmaları Sizin idmançılara göstərdiyiniz diqqət və qayğının nəticəsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı kimi Sizin qayğınız sayəsində Azərbaycan idmançıları dünya miqyasında yüksək nəticələr göstərməyə nail olmuşdular. Cənab

Prezident, Siz təkcə paytaxtda deyil, regionlarda da idmanın inkişafına qayğı göstərirsiniz. Muxtar respublika Sizin bu diqqətinizi həmişə hiss edir. Sizin təşəbbüsünüzlə iki böyük idman kompleksi yaradılmışdır. Mən idmanın güləş növü ilə məşğul oluram və biz bu komplekslərdən səmərəli istifadə edirik. Naxçıvan gəncləri adından Sizə xoş gəlmisiniz deyirəm və bizə göstərdiyiniz qayğıya görə təşəkkürümü bildirirəm.

x x x

Azərbaycan Prezidenti İlham Əliyev onlarla səmimi görüşdü və dərin təşəkkürünü bildirdi.

x x x

Sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində geniş müşavirə keçirildi.

AZƏRTAC
2004, 2 sentyabr

Naxçıvanda Mülki Müdafiə Mərkəzi açılmışdır
(2 sentyabr 2004-ci il)

AZƏRTAC-ın müxbirləri xəbər verirlər ki, sentyabrın 2-də Müdafiə Nazirliyinin Naxçıvan Mülki Müdafiə Mərkəzinin təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Mərkəzin rəisi polkovnik-leytenant Kərəm Zellabdinov Ali baş komandan İlham Əliyevə raport verdi.

Ali baş komandana məruzə edildi ki, Mülki Müdafiə Mərkəzi regional şöbədən, mülki müdafiə postlarından və mülki müdafiə sərhəd dəstəsindən ibarətdir.

Regional şöbə baş vermiş fövqəladə halların nəticələrinin operativ şəkildə aradan qaldırılması üçün qəza-axtarış işlərinin aparılmasını təşkil edir, mülki müdafiə tədbirləri hazırlayır və həyata keçirir. Mülki müdafiə qrupları, yerli icra hakimiyyəti orqanlarının, istehsal və sosial təyinatlı obyektlərin mülki müdafiə heyətini hazırlayır. Bu qüvvələr qısa müddət ərzində səfərbər olunaraq, xilasetmə işlərinin aparılması, fövqəladə halların nəticələrinin aradan qaldırılması işlərini yerinə yetirir.

Dövlətimizin başçısına məlumat verildi ki, regionda güclü zəlzələ baş verərsə, bunun muxtar respublikaya, o cümlədən su anbarlarının bəndlərinə də mənfi təsiri ola bilər. Bundan əlavə Şahbuz, Culfa və Ordubad rayonlarının dağətəyi kəndlərində torpaq sürüşməsi ehtimalı da vardır. Ermənistan ərazisindəki atom elektrik stansiyası da təhlükə mənbəyidir. Fövqəladə hallar baş verəcəyi təqdirdə Muxtar Respublikanın Nazirlər Kabineti yanında fəaliyyət göstərən Fövqəladə Hallar Komissiyasında və rayon fövqəladə hallar komissiyalarında dərhal operativ qaydada idarəetmə məntəqələri yaradılacaq və onlar fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə məşğul olacaqlar.

Sonra Prezident İlham Əliyev regional şöbənin qərargahı, texniki park və anbarla tanış oldu, mülki müdafiə üçün lazım olan texniki vasitələrlə maraqlandı. Dövlətimizin başçısı muxtar respublikada mülki müdafiə sahəsində görülən işlərdən razı qaldığını bildirdi.

AZƏRTAC
2004, 2 sentyabr

Naxçıvan MR Ali Məclisində müşavirə
(2 sentyabr 2004-ci il)

Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasında səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 2-də Ali Məclisdə müşavirə keçirmişdir.

Dövlətimizin başçısı müşavirəni giriş sözü ilə açdı.

Azərbaycan Prezidenti İlham Əliyevin
giriş sözü

- Mən Naxçıvana gəlmişəm. Burada çox gözəl tədbirlər keçirildi, Heydər Əliyevin adını daşıyan məktəb açıldı. Bilirsiniz ki, bu məktəb xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Çox şadam ki, məktəb bu gün açıldı və Naxçıvana gözəl xidmət edəcəkdir. Mən orada açılışda dedim ki, bu, Azərbaycanda son zamanlar tikilmiş məktəblərdən ən gözəlidir və yaxşı avadanlıqla da təchiz olunmuşdur.

Naxçıvan inkişaf edir və burada sürət çox yüksəkdir, çox gözəl abadlıq, quruculuq işləri gedir. Mən bunu may ayında burada olarkən qeyd etmişdim. Bu gün də demək istəyirəm ki, bir neçə ay ərzində irəliləyiş yenə də müşahidə olunur. Küçələr abadlaşır, yeni müasir binalar tikilir. Əlbəttə ki, bu bizim hamımızı çox sevindirir. Naxçıvanın uğurlu inkişafı hamımız üçün, bütövlükdə Azərbaycanın gələcəyi üçün çox mühüm amildir.

Naxçıvanın infrastrukturu güclənir, hava limanının tikintisi başa çatmışdır. Keçən dəfə onu açdıq. Bu gün hava limanı sərnişinlərə çox yaxşı xidmət göstərir. Yeni təyyarələrin alınması nəticəsində, ümumiyyətlə, Naxçıvanın təkcə Bakı ilə deyil, xarici ölkələrlə də hava əlaqələri genişlənəcəkdir.

Hər bir ölkənin, regionun, şəhərin inkişafı üçün enerji daşıyıcıları mühüm rol oynayır. Bilirsiniz ki, Azərbaycanda iqtisadiyyat, ümumiyyətlə, sürətlə inkişaf edir. İnkişaf etmiş ölkələrlə müqayisədə biz görürük ki, Azərbaycanda artım sürəti daha yüksəkdir. Əlbəttə, çoxlu problemlər də var və bunlar öz həllini tapır. Yeni müəssisələr, fabriklər yaradılır. Yeni iş yerləri açılır. Mən bu gün qeyd etdim ki, prezident seçkilərindən keçən dövr ərzində 70 min yeni iş yeri açılmışdır. Onlardan 50 mini daimi iş yerləridir. Bu onu göstərir ki, biz düz yoldayıq. İqtisadiyyatımızı çox böyük səmərə ilə inkişaf etdiririk. Gələcək perspektivlər də çox gözəldir. Müasir Azərbaycanın Heydər Əliyev tərəfindən hazırlanmış neft strategiyası uğurla həyata keçirilir. Gələn il Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləcəkdir ki, bu da ölkənin hərtərəfli inkişafı üçün çox gözəl və deyə bilərəm ki, yeni bir şərait yaradacaqdır.

Biz bütün bu proqnozları bilirik. Bilirik ki, Azərbaycan çox böyük iqtisadi potensiala malik olacaqdır. Bu, bizə imkan verəcəkdir ki, ölkəmizi hərtərəfli inkişaf etdirək. Energetika sektoru inkişaf etdirilməlidir. Bu istiqamətdə Azərbaycanda işlər görülür. Yeni elektrik stansiyaları istifadəyə verilir. Növbəti stansiyaların tikintisi üçün lazımi tədbirlər görülür. Bu yaxınlarda mən Almaniyada rəsmi səfərdə olarkən bu məsələ də müzakirə olundu. Azərbaycanda 500 meqavat gücündə yeni elektrik stansiyası tikiləcəkdir.

Bildiyiniz kimi, bu sahədə Naxçıvanın problemləri çoxdur. Naxçıvan uzun illərdir blokada şəraitində yaşayır. Buraya Azərbaycan ərazisindən təbii qazın verilməsi mümkün deyildir. Elektrik enerjisinin verilməsi də Naxçıvanın tələbatını tam şəkildə ödəmir. Ona görə Naxçıvanı həm təbii qazla, həm də elektrik enerjisi ilə tam təmin etmək üçün müvafiq tədbirlər görülübdür. Bunun nəticəsində, indi demək olar ki, Naxçıvanı tam həcmdə elektrik enerjisi və qazla təmin etmək üçün yeni şərait yaradılıbdır. Ona görə mən istəyirəm ki, biz bu barədə məlumatı dinləyək. Nəzərdə tutulan tədbirlər haqqında məlumatları dinləyək və bu barədə fikir mübadiləsi aparaq. İlk növbədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu dinləyək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

- Möhtərəm Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial inkişafı möhtərəm Heydər Əliyevin adı, gərgin əməyi və yorulmaz fəaliyyəti ilə bağlıdır. Ümummilli liderimizin Azərbaycana rəhbərliyi dövründə Naxçıvan Muxtar Respublikası nəinki özünün yüksək inkişafına nail olmuşdur, eyni zamanda, erməni işğalından, əhalisinin qaçqın-köçkün həyatı yaşamasından, muxtariyyətinin ləğv olunması, ərazisinin isə

güzəştə gedilməsi kimi məkrli niyyətlərdən də xilas olmuş, mübarizə apararaq müasir səviyyəyə gəlib çatmışdır.

Naxçıvan Muxtar Respublikasının əhalisi daim öz xilaskarını – möhtərəm Heydər Əliyevi minnətdarlıqla yad edir, onun müqəddəs ruhu qarşısında dərin ehtiramla baş əyir. Ümummilli liderimizin səyi və təşəbbüsü ilə ötən əsrin 70-ci illərində Naxçıvanın xilasına, əhalinin məskunlaşmasına və firavanlığına yönəlmiş mühüm tədbirlərdən biri də Muxtar Respublikaya təbii qaz kəmərinin çəkilməsi idi. 1978-1980-ci illərdə Şuşa-Laçın-Biçənək-Naxçıvan yüksək təzyiqli magistral qaz kəmərinin çəkilməsi o dövrün inanılmaz gerçəkliklərindən biri idi. Qaz kəməri mürəkkəb relyefə malik dağlıq ərazilərdən keçirilərək Naxçıvana çatdırılmışdı. 1804 kilometrlik kəmərin 226 kilometri yüksək, 672 kilometri orta, 905 kilometri isə aşağı təzyiqli idi.

Həmin dövrdə Naxçıvan şəhərində və Şərur rayonunda operatorlar evi, 5 yerdə avtomatik qazpaylayıcı stansiya tikilmişdi. Təbii qaz qurğularının ümumi gücü 340 milyon kubmetr təşkil edirdi. Naxçıvan şəhərinə ilk dəfə 1980-ci ildə təbii qaz verilmiş, sonra isə Babək, Şahbuz qəsəbələri, Culfa, Şərur, Ordubad şəhərləri təbii qazla təmin olunmuşdu. Babək rayonunun 35, Şərurun 17, Şahbuzun 23, Culfanın 6 və Ordubad rayonunun isə 9 kəndi qazlaşdırılmışdı. Bütövlükdə muxtar respublika üzrə 4 şəhərə, 2 şəhər tipli qəsəbəyə və 91 kəndə qaz verilmiş, 29 mindən artıq mənzil mavi yanacaqla təmin edilmişdi. Bunun 12223-ü şəhər və şəhər tipli qəsəbələrin, 16819-u kənd yaşayış məntəqələrinin payına düşürdü. 1991-ci ildə təbii qazdan 33330 abonent istifadə edirdi. Bunun 3384-ü məişət abonentləri, 19-u kommunal müəssisələri, 207-si təşkilatlar, 20-si isə sənaye obyektləri idi. Geniş ərazini əhatə edən qazlaşdırma sahəsində infrastruktur sürətlə inkişaf etmiş, yeni iş yerləri yaradılmış, əhalinin güzəranı xeyli yaxşılaşmışdı.

Möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasından dərhal sonra Dağlıq Qarabağ ətrafında başlanan müharibənin dalğaları Naxçıvan Muxtar Respublikasını da əhatə etdi. Möhtərəm Heydər Əliyevin ifadəsi ilə desək, bu dövrün Naxçıvanı təklənmiş, hər cür qayğıdan məhrum olunmuş bir adanı xatırladırdı. Muxtar respublikaya Ermənistan ərazisindən keçib gələn avtomobil və dəmir yolları, radiorele və elektrik xətləri 1991-ci ildən başlayaraq kəsildi. 1992-ci ilin yanvarından isə yüksəktəzyiqli magistral qaz kəmərinin fəaliyyəti Ermənistan tərəfindən dayandırıldı. Beləliklə, Naxçıvan Muxtar Respublikası hərtərəfli iqtisadi və informasiya blokadasına salındı. Təkcə təbii qazın nəqlinin dayandırılması hesabına muxtar respublika iqtisadiyyatına milyard manatlarla ziyan vurulmuşdur.

Möhtərəm Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşayaraq siyasi fəaliyyət göstərməsi diyarı növbəti bəlalardan xilas etdi. Xalqımızın böyük oğlunun Naxçıvanın xilası uğrunda fəaliyyətinin bir istiqaməti də muxtar respublikanın energetika və yanacaq probleminin həllinə yönəlmişdi. 1992-ci ilin avqustunda möhtərəm Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış protokolun bir bəndi də Naxçıvan Muxtar Respublikasının təbii qaz yanacağına olan tələbatını ödəmək üçün İran ərazisindən qaz kəmərinin tikintisi haqqında idi. Bu barədə möhtərəm Heydər Əliyev deyirdi: "Naxçıvanın qazla təmin olunması mühüm məsələdir. Vaxtilə çox böyük çətinliklərə sinə gərərək, çox böyük vəsait sərf edərək, Naxçıvana qaz kəməri çəkdirmişəm. Naxçıvanda yaşayanlar bunun nə qədər böyük əhəmiyyəti olduğunu heç vaxt unutmayacaqlar. İndi, təəssüf ki, biz bu qazdan məhrum olmuşuq. Qaz kəməri Naxçıvanda artıq işləmir. Naxçıvanın qaz təchizatını biz İran İslam Respublikası vasitəsilə həyata keçirməsək, yaxın vaxtlarda Naxçıvana qaz gətirmək mümkün olmayacaqdır. Bu, təkcə bizim üçün yox, gələcək nəsillər üçün də əhəmiyyətli məsələdir. Ona görə də bu işlə məşğul olmağı mən özümə şərəf hesab edirəm. Əgər vaxtilə Naxçıvana qaz çəkilməsində mənim xidmətim olubsa, indi də bu işi həll etməyi özümə borc bilirəm".

Ümummilli liderimizin müəyyənləşdirdiyi siyasi xətt, inkişaf konsepsiyası onun işinin davamçısı, hörmətli İlham Əliyev tərəfindən də ləyaqətlə həyata keçirilir. Ölkə Prezidenti 2004-cü il may ayının 12-də Naxçıvana səfəri zamanı Muxtar Respublikanın problemlərinin həlli istiqamətində ardıcıl tədbirlərin görüləcəyini qeyd edərək demişdir: "Naxçıvan Azərbaycanda yeganə yerdir ki, buraya təbii qazın verilməsi hələ mümkün deyil. Qışda havalar soyuq keçir. Bəzi hallarda elektrik enerjisinin verilməsində problemlər yaranır. Amma biz bütün bu problemləri həll edəcəyik. Görüləcək tədbirlər nəticəsində bu məsələlər öz həllini tapacaqdır".

Möhtərəm Prezident, Sizin dəvətinizlə İran İslam Respublikasının Prezidenti cənab Xatəminin Bakıya rəsmi səfəri zamanı imzalanmış müqaviləyə əsasən, 48 kilometrlik məsafədə Culfa-Naxçıvan yüksəktəzyiqli magistral qaz kəmərinin çəkilməsi və Naxçıvana İrandan təbii qazın verilməsi qərara alınmışdır. Bu, Naxçıvan Muxtar Respublikasının təbii qaz yanacağına olan tələbatının tam ödənilməsinə, fəaliyyəti qismən dayanmış 20-yə yaxın sənaye və emal müəssisəsinin, istilik sistemlərinin işə salınmasına,

yeni istehsal sahələrinin yaradılmasına, eyni zamanda, muxtar respublikanın energetika probleminin tam həll edilməsinə imkan yaradacaqdır. Bu, çox mühüm tarixi xidmət möhtərəm Heydər Əliyevlə başlanan quruculuq xəttinin yeni şəraitdə davam etdirilməsinin əyani təzahürüdür. Naxçıvana təbii qaz kəmərinin çəkilməsinə və muxtar respublikanın qaz yanacağı ilə təchiz olunmasına həsr edilmiş xüsusi müşavirənin keçirilməsi blokada vəziyyətində yaşayan diyarın problemlərinin həllinə nə qədər həssaslıqla yanaşmağınızın, diqqət və qayğı göstərməyinizin daha bir parlaq ifadəsidir.

Hörmətli İlham müəllim, Sizin iştirakınızla keçirilən bu müşavirə muxtar respublikanın quruculuq salnaməsinə qızıl hərflərlə daxil olacaqdır. Bu tarixi missiya bütün Naxçıvan Muxtar Respublikası əhalisinin, bundan sonrakı nəsillərin də qəlbində özünə əbədi yer tapacaqdır.

İcazə verin, bu diqqət və qayğıya görə muxtar respublikanın bütün əhalisi adından və öz adımdan Sizə dərin minnətdarlığımızı bildirim. Əmin edim ki, Sizinlə olan Naxçıvan Muxtar Respublikasının əhalisi bundan sonra da ümummilli liderimizin müəyyənləşdirdiyi yolla gedəcək, ölkəmizin tərəqqisi naminə çalışacaqdır. Diqqətinizə görə sağ olun!

X X X

Sonra "Azəriqaz" Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikova söz verildi.

"Azəriqaz" Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikovun çıxışı

- Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Yanacaq-energetika sektoru hər bir ölkənin iqtisadiyyatında xüsusi yer tutmaqla yanaşı, əhalinin sosial vəziyyətinə və məişət şəraitinə də böyük təsir göstərir.

Bu baxımdan iqtisadiyyatın və əhalinin elektrik enerjisi və təbii qazla təminatı böyük əhəmiyyət kəsb edir. Ona görə də bu məsələlər daim Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi strategiya sayəsində Azərbaycanda qaz sənayesi günün tələblərinə uyğun formalaşmış və fəaliyyət imkanlarını genişləndirmişdir.

Təbii qaz Azərbaycanın milli sərvətidir, ölkənin daxili və xarici iqtisadi siyasətində mühüm yer tutur. Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması xalqımızın xoşbəxtliyidir. Bu gün xalqımızın yaxşı yaşaması, ölkəmizin inkişaf etməsi üçün ən əsas amildir, - deyə bəyan edən ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrün hər anında neft və qaz sənayesinin problemlərini daim diqqət mərkəzində saxlamış, sahənin dinamik inkişaf etdirilməsinə xüsusi əhəmiyyət vermişdir. Qaz təsərrüfatının 80 illik tarixində respublikamızın intensiv qazlaşdırılması məhz ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyə başladığı dövrə təsadüf edir. Belə ki, 1970-ci illərdən başlayaraq, Azərbaycan Respublikasının qazlaşdırılması yeni mərhələyə qədəm qoymuşdur. 1969-cu ilin sonunda respublika rəhbərinin tapşırığı ilə Azərbaycanın qaz təminatının baş sistemi hazırlanmışdı. Baş sistemə əsasən, respublikanın qaz şəbəkələri strukturunun müəyyən edilməsi, şəhərlərə və rayon mərkəzlərinə, qəsəbə və kəndlərə qaz kəmərlərinin çəkilişi, ucqar yaşayış məntəqələrinin qazla təmin olunması nəzərdə tutulmuşdu. 1970-ci illərin axırında artıq respublikamızın böyük hissəsi qazlaşdırılmışdı. Ulu öndərimiz Heydər Əliyevin bilavasitə göstərişi ilə 1980-ci illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasını təbii qazla təmin etmək üçün diametri 700 millimetr olan Yevlax-Naxçıvan magistral qaz kəməri çəkilmişdi. Qeyd etmək lazımdır ki, 1969-1982-ci illərdə çəkilən qaz kəmərləri arasında iqtisadi və sosial əhəmiyyətinə görə çox mühüm obyekt olan Yevlax-Xankəndi-Laçın-Şahbuz-Naxçıvan magistral qaz kəməri dünya təcrübəsində relyef şəraitinə görə çəkilişi çətin sayılan qaz kəmərlərindən biri idi.

Burada deyildiyi kimi, 1804 kilometr uzunluğunda olan və muxtar respublikanın iqtisadiyyatında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında böyük əhəmiyyət kəsb edən kəmərin çəkilməsi 33 min mənzilin qazla təmin edilməsinə imkan vermişdi. Lakin bildiyiniz kimi, bədnam qonşularımızın təcavüzkar siyasəti nəticəsində, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası 1992-ci ilin axırlarından başlayaraq enerji blokadasına alındı və təbii qazın verilməsi də dayandırıldı. Həmin vaxt Naxçıvan Muxtar Respublikasına ümummilli liderimiz Heydər Əliyev rəhbərlik edirdi. Kəskin kontinental iqlimi olan Naxçıvan MR-də qış ayları sərt keçdiyindən təcili tədbirlərin görülməsi zərurəti meydana çıxmışdı. İlk növbədə, Türkiyə və İrandan elektrik enerjisinin alınmasına başlandı. İran İslam Respublikası ilə təbii qaz təchizatı barəsində danışıqlar aparıldı.

1992-ci ildə ümummilli liderimiz Heydər Əliyevin İrana səfəri zamanı Xoy-Culfa qaz kəmərinin çəkilməsi və Naxçıvanın təbii qazla təmin edilməsi barədə protokol imzalanmışdı. Ümummilli liderimizin başladığı işin məntiqi sonluğu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəvəti ilə İran İslam Respublikasının Prezidenti cənab Seyid Məhəmməd Xatəminin ölkəmizə rəsmi səfəri zamanı "Azəriqaz" Səhmdar Cəmiyyəti və İran Milli Qaz Satışı Şirkəti arasında imzalanmış təbii qaz mübadiləsi haqqında müqavilə olmuşdur. Cənab İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin xəttini rəhbər tutaraq, bütün sahələrdə olduğu kimi, ölkəmizin yanacaq-energetika kompleksinin inkişafı üçün də çox böyük işlər görür. İmzalanmış həmin müqavilə də cənab İlham Əliyevin şəxsi təşəbbüsünün və gərgin əməyinin nəticəsidir. 14 illik fasilədən sonra Naxçıvan MR-ə təbii qazın verilməsinin bərpası həm siyasi, həm iqtisadi, həm də sosial əhəmiyyətli məsələdir, Prezidentimiz İlham Əliyevin bu bölgəyə böyük diqqət və qayğısının təzahürüdür.

Bir neçə kəlmə də imzalanmış müqavilə və onun həyata keçirilməsi məqsədi ilə görüləcək tədbirlər haqqında demək istərdim. Müqaviləyə əsasən, 2005-ci ilin sentyabr ayından başlayaraq, 20 il ərzində hər il 350 milyon kubmetr təbii qaz mübadilə olunacaqdır. Bunun üçün, Araz çayını keçməklə İrandan diametri 400 millimetr olan yüksəktəzyiqli magistral qaz kəməri çəkmək nəzərdə tutulur. Bu kəmər vasitəsilə ildə 850 milyon kubmetr qaz veriləcəkdir. Digər tərəfdən, həmin kəmərin çəkilişindən sonra qazın həcmini və həmçinin keyfiyyət göstəricilərini müəyyən edən laboratoriya və nəzarət ölçü məntəqəsinin tikilməsi nəzərdə tutulur. Naxçıvana veriləcək qazın ölçülməsi İran tərəfdə aparılacaqdır.

İLHAM ƏLİYEV: Amma bizim nümayəndələr orada olacaqlar...

ƏLİXAN MƏLİKOV: Bəli, hər ayın axırında bizim nümayəndələr orada olacaq, qazın həcmini və keyfiyyət göstəricilərini birlikdə araşdıracaqlar.

Ay ərzində hansı təzyiq və nəticələr olarsa, o barədə müvafiq qeyd aparılacaqdır. Digər tərəfdən, qazpaylayıcı stansiyadan mövcud Şahbuz-Şərur-Sədərək qaz kəmərini birləşdirən 12 atmosfer təzyiqində 6 kilometr uzunluğunda 500 mm-lik kəmər çəkmək nəzərdə tutulur.

İLHAM ƏLİYEV: Qazpaylayıcı stansiya var idi?

ƏLİXAN MƏLİKOV: Bəli, var, orada bərpa işləri aparılmalıdır. Ola bilər ki, aralarındakı məsafə az olduğuna görə, bu stansiyanı və Naxçıvandakı qazpaylayıcı stansiyanı bir paylayıcı stansiya ilə əvəz edək.

İLHAM ƏLİYEV: Amma magistral qaz kəmərinə qədər qazpaylayıcı stansiya yoxdur, tikilməlidir.

ƏLİXAN MƏLİKOB: Xeyr, yoxdur, tikilməlidir. Buradan gələcəkdə elektrik stansiyasını təbii qazla təmin etmək məqsədi ilə 11 kilometrlik qaz kəməri də çəkilməlidir.

İLHAM ƏLİYEV: Ümumiyyətlə, neçə kilometr qaz kəməri çəkilməlidir?

ƏLİXAN MƏLİKOV: Ümumilikdə 50 kilometr uzunluğunda yeni qaz kəməri çəkilməlidir. Mövcud Şahbuz-Şərur-Sədərək qaz kəmərinin vəziyyəti nisbətən yaxşıdır. Biz burada müayinə işləri aparmaqla kəmərin bəzi yerlərini sahmana salacağıq.

İLHAM ƏLİYEV: Təzyiq nə qədər olacaq?

ƏLİXAN MƏLİKOV: Təzyiq təxminən 12 atmosfer olacaqdır. Mövcud Culfa, Ordubad qaz kəmərindən də istifadə edəcəyik. Burada 12 atmosfer təzyiqli 200 mm-lik kəmər müayinə olunacaqdır.

Naxçıvan şəhərinin uzun müddət istifadəsiz qalmış qazpaylama şəbəkəsi bərpa olunmalıdır. Bu məqsədlə biz dünyada qəbul olunmuş müasir texnologiyadan istifadə etməyi nəzərdə tutmuşuq. Belə ki, Naxçıvan şəhərinin qazpaylama şəbəkəsini polietilen borulardan istifadə etməklə yenidən quracağıq. "Azəriqaz"ın bu işdə müəyyən qədər təcrübəsi vardır. Gəncə şəhərinin qazpaylama şəbəkəsinin bir hissəsini də polietilen borularla bərpa etmişik. Ümummilli liderimiz Heydər Əliyev 2002-ci ilin sentyabrında Gəncə ictimaiyyəti ilə görüşü zamanı belə bir müasir texnologiyadan istifadə olunmasını bəyənmiş və gələcəkdə onun geniş tətbiqini tövsiyə etmişdi.

Naxçıvan şəhərinin qazpaylama şəbəkəsinin bərpası zamanı tam həcmdə şəhərdaxili, binadaxili və mənzildaxili qaz kəmərlərinin çəkilişini, bütün abonentlər üçün qaz sayğaclarının quraşdırılmasını nəzərdə tutmuşuq.

Möhtərəm Prezident, qazın həm qənaətlə istifadə olunması, həm də dəqiq uçotunun aparılması çox vacib məsələdir. Bununla Bakı şəhərində də, respublikanın digər şəhər və rayonlarında da məşğul oluruq. Biz təcrübədə müəyyən etmişik ki, sayğaclar qoyulan yerdə qazdan təxminən iki dəfəyə yaxın qənaətlə istifadə etmək olar. Hesablanmış normaya əsasən qaz verildikdə ona qənaət olunmur, amma sayğac qoyulanda, hesad edirəm ki, sayğacdan keçən qazın ödənişi olacaqdır. Bu yolla qənaət təmin edilir. Sayğac olan abonentlərdə ödəniş 90 faizdən yuxarıdır. Biz nəzərdə tutmuşuq ki, Naxçıvan şəhərində 23 min

abonenti qazla təmin edək. Şəhər qazla tam təmin olunacaqdır. Gələcəkdə digər şəhər və rayonların da kommunikasiyalarını yoxlamalıyıq. Müəyyən xırda təmir işləri aparmaqla qaz təchizatı tədricən təmin olunacaqdır.

İLHAM ƏLİYEV: Gələn ilin sonuna kimi bütün bu işlər görülərsə, İrandan qaz aldıqda bütün Naxçıvan Muxtar Respublikasını təmin etmək mümkün olacaq, yoxsa...

ƏLİXAN MƏLİKOV: Naxçıvan şəhəri qazla təmin olunacaqdır. Digər şəhər və rayonları qazla təmin edən kəmərləri də müayinə edirik. Əgər onlarda vəziyyət normal olarsa, həmin yerlərə qazın verilməsi mümkün olacaqdır.

İLHAM ƏLİYEV: Çalışaq ki, o vaxta qədər muxtar respublika üzrə bütün bu işlər görülsün. Bir il vaxtımız var. İndi bu barədə danışacağıq, ola bilsin ki, vəsait də ayrılacaqdır.

ƏLİXAN MƏLİKOV: Müqaviləyə əsasən, Azərbaycan tərəfinin İrana təhvil verəcəyi qazın təzyiqi minimum 50 atmosfer olmalıdır. Bu məqsədlə hələ 1971-ci ildə istismara verilmiş uzunluğu 211 kilometr olan 1000/1200 mm-lik Astara-Qazıməmməd qaz kəmərindən istifadə edilməlidir. "Azəriqaz" Səhmdar Cəmiyyəti keçən il öz vəsaiti hesabına həmin kəməri müayinə edib, bəzi yerlərdə əsaslı təmir işləri aparılıbdır. Həmin kəməri 15 atmosfer təzyiqlə yoxlayaraq, qazı 12 atmosfer təzyiqlə Astaraya çatdıracağıq. Kəmərdə təzyiqi 50 atmosferə çatdırmaq məqsədi ilə kompressor stansiyasının tikilməsi nəzərdə tutulmuşdur. Astarada qazı İrana təhvil verdiyimizə görə, əsas ölçü işləri bizdə aparılacaqdır. Eyni zamanda, qazın keyfiyyətini təmin edən laboratoriya olacaqdır.

Bütün bu işlər 2005-ci il sentyabrın 1-dək görülməli, obyektlər istifadəyə verilməlidir. İlkin hesablamalara görə, Naxçıvan Muxtar Respublikasının təbii qazla təmin edilməsi məqsədi ilə kəmər şəbəkəsinin bərpasına və İran Milli Qaz Satışı Şirkəti ilə bağlanmış müqaviləyə əsasən Astaradan İrana təbii qazın nəqlinə 185,785 milyard manat və ya 37,132 milyon ABŞ dolları vəsait tələb olunur. Bu vəsaitin 20 milyon dolları Naxçıvanda görüləcək işlərə, qalan hissəsi isə qaz kompressor stansiyasının və laboratoriyanın tikintisinə sərf ediləcəkdir.

Möhtərəm cənab Prezident!

Ümummilli liderimiz Heydər Əliyevin siyasətinin bu gün də uğurla davam etdirilməsinin daha bir sübutu, Sizin fərmanla təsdir edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" olmuşdur.

Dövlət proqramının əsas məqsədi Azərbaycan Respublikasının regionlarında sahibkarlığın inkişafını sürətləndirərək əmək ehtiyatlarından, mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, yeni iş yerlərinin açılmasına, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Naxçıvan MR-ə təbii qazın verilməsinin dayandırılması ilə əlaqədar qaz təsərrüfatının 470 işçisindən 340-ı uzunmüddətli məzuniyyətə getmiş və bəziləri isə işdən çıxmışdır. Muxtar respublikaya təbii qazın verilməsinin bərpası ilə əlaqədar işçilərin sayı təxminən 500 nəfərə çatdırılacaqdır. Buna görə də biz qaz təsərrüfatı işçiləri adından Sizə öz minnətdarlığımızı bildiririk. Hazırda burada, qaz təsərrüfatında 130 nəfər çalışır.

Muxtar respublikada kommunikasiyalar, əsas magistral qaz kəmərləri qorunub saxlanılmışdır. Bu, böyük məsələdir və bizim işlərimizi xeyli irəli salacaqdır. Əsas rəhbər işçilər də qalmışdır.

Möhtərəm Prezident! "Azəriqaz" QSC-nin kollektivi adından Sizi əmin edirəm ki, Naxçıvan Muxtar Respublikasının qaz təminatının bərpası işləri vaxtında yerinə yetiriləcək və 14 illik fasilədən sonra, 2005-ci ilin qış mövsümündə əhali mavi yanacaq alacaqdır.

İLHAM ƏLİYEV: Siz qeyd etdiniz ki, bu il 400 mm-lik magistral kəmər tikiləcəkdir. Amma Şərur-Şahbuz kəməri 500 mm-lik olacaqdır.

ƏLİXAN MƏLİKOV: 500 mm-lik kəmər 12 atmosfer təzyiqdə olacaqdır.

İLHAM ƏLİYEV: 400 mm-lik kəmər ildə 800 milyon kubmetr qaz verəcəkdir. Bu, Naxçıvan MR üçün böyük bir həcmdir. Naxçıvanın bu gün qaza tələbatı 350 milyon kubmetrdir. Amma biz nəzərə almalıyıq ki, Naxçıvan MR inkişaf edəcəkdir. Burada yeni müəssisələr, fabriklər və zavodlar olacaqdır. Gələcəkdə, Naxçıvanın qazla təchizatı sabitləşdikdən sonra burada elektrik stansiyası da tikiləcəkdir. Ona görə də mən hesab edirəm ki, bu kəməri 500 mm-lik edək. Bu, imkan verəcəkdir ki, buraya 1,3 milyard kubmetr qaz verilsin, problem birdəfəlik həll olunsun. Onda xərclər bir qədər artacaqdır. Amma eybi yoxdur, bunu edək ki, sonra hər şey qaydasında olsun.

Naxçıvanda görüləcək işlərin həcmi 20 milyon dollar, Astarada isə 17 milyon dollar olacaqdır. Bəs, Astarada bu işləri nə vaxt görməliyik? Bunun üçün hansı müddət qoyulub?

ƏLİXAN MƏLİKOV: Sentyabr ayından başlayaraq biz qazı İrana verməliyik, oktyabr ayından isə Naxçıvanda İran qazı qəbul olunacaqdır. Burada bir narahatçılıq ondadır ki, kompressorun tikintisinə müyyən qədər vaxt tələb olunur.

İLHAM ƏLİYEV: Yəni kompressor alınacaq, quraşdırılacaqdır. Bu işlər paralel aparılacaqdır. Bunun üçün vəsait varmı?

ƏLİXAN MƏLİKOV: Bəli.

İLHAM ƏLİYEV: Siz paylayıcı xətlərə diqqət yetirin. Əsas itkilər xətlərin nasaz vəziyyətdə olmasından yaranır. Ona görə bütün xətlərə gərək yenidən baxılsın. Polietilen borulardan istifadə edin ki, itki az olsun.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, respublikanın digər rayonlarında biz qaz kəmərlərinin bərpasına başladıq. Bütün işləri həmin metodla aparacağıq. Ayrı-ayrı xətləri, şəbəkələri sınaqdan keçirməliyik. Harada sızma, itki varsa, bunu aradan qaldırmalıyıq.

İLHAM ƏLİYEV: İlk qrafik sizdə təsdiq olunub, nədən başlayacaqsınız?

ƏLİXAN MƏLİKOV: Bəli, təsdiq olunubdur. Biz Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ilə görüş keçirmiş, görəcəyimiz işləri birlikdə müzakirə etmişik. İndi bizim üçün ən vacib məsələ odur ki, yaxın vaxtlarda müsabiqə elan edək. Buna müəyyən vaxt gedəcəkdir. Sonra paralel olaraq həm "Azəriqaz" tərəfindən bütün işləri həyata keçirəcəyik, həm də müsabiqənin qalibi ilə müqavilə bağlayacağıq.

İLHAM ƏLİYEV: Əsas hansı işləri görəcəksiniz?

ƏLİXAN MƏLİKOV: Magistral qaz kəmərinin, laboratoriya və qazpaylayıcının tikintisi aparılacaq, paralel olaraq digər işlər görüləcəkdir. Bütün işləri ayrı-ayrı hissələrə bölmüşük. Eyni zamanda, mövcud qaz kəmərlərini müayinə edəcəyik.

Naxçıvan Muxtar Respublikasında bizim qaz istismar birliyimiz var, amma onun bazası yoxdur. Ona görə burada texniki bazanın yaradılmasını, kadrların hazırlanmasını nəzərdə tutmuşuq. Baza müasir texnika ilə təmin olunmalı, operator otaqları, dispetçer məntəqələri tikilməlidir. Bütün bunlar layihədə göstərilmişdir.

İLHAM ƏLİYEV: Naxçıvanın digər rayonlarına qazı necə verəcəksiniz? Təkcə rayon mərkəzlərinə verəcəksiniz, yoxsa?..

ƏLİXAN MƏLİKOV: İlk növbədə, rayon mərkəzlərinə veriləcəkdir. Bu, layihədə nəzərdə tutulubdur. Gələcəkdə isə kəndlərə verilə bilər.

İLHAM ƏLİYEV: Xətlər varmı?

ƏLİXAN MƏLİKOV: Köhnə xətlər, paylayıcı kəmərlər var, ancaq onlar yoxlanacaqdır.

VASİF TALIBOV: Cənab Prezident, torpaq altındakı xətlərin, demək olar ki, hamısını dəyişmək lazımdır. Çünki artıq 20 ildir çəkilmişdir. Naxçıvanda torpaqda şoranlığın çoxluğu onların çürüməsinə səbəb olubdur. Ona görə də dəyişmək lazımdır.

İLHAM ƏLİYEV: Lazımdır, çünki sonra qəza, başqa hallar da ola bilər.

VASİF TALIBOV: Müəyyən hissəsi qorunub saxlanılıb, təmir işləri aparılıbdır.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, boruların üzərindəki izolyasiya xarab oldusa, onu başqa şeylə əvəz etmək olmur.

İLHAM ƏLİYEV: Əlbəttə, gərək xətlər yenidən çəkilsin. O vaxt, ötən əsrin 1980-ci illərində burada kəndlərin neçə faizi qazlaşdırılmışdı?

ƏLİXAN MƏLİKOV: Ümumilikdə 33 min abonent qazla təmin olunurdu. Bunun 10,8 mini Naxçıvan şəhərində, qalanı isə digər şəhər və rayonlarda idi.

VASİF TALIBOV: Cənab Prezident, o zaman 4 şəhərə və iki şəhərtipli qəsəbəyə, 207 kənddən isə 95-nə qaz verilirdi.

İLHAM ƏLİYEV: Deməli, haradasa, 100 məntəqəyə verilmirdi. Yəni xətlər yox idi. ƏLİXAN MƏLİKOV: Bəli, yox idi, qazlaşma aparılmamışdı.

İLHAM ƏLİYEV: Indi siz bunu hansı qaydada edəcəksiniz, yəni təkcə mövcud olan xətləri bərpa edəcəksiniz, yoxsa olmayan kəndlərə də xətt çəkəcəksiniz?

ƏLİXAN MƏLİKOV: Həmin yerlərin qazlaşdırılması üçün yenidən hesabat aparılmalıdır. Bu, layihəyə daxil deyildir.İLHAM ƏLİYEV: Mən başa düşürəm, layihədə yoxdur. Orada mövcud olan xətlərin dəyişdirilməsi və təmiri nəzərdə tutulmuşdur. Amma eyni zamanda, siz qalan kəndlərə də baxın. O vaxt eləməyiblər, yəqin vaxt olmayıbdır. Sonra da yollar bağlanıbdır.

ƏLİXAN MƏLİKOV: Qazlaşdırılmayan məntəqələrdə müəyyən işlər görülməsi nəzərdə tutulubdur.

İLHAM ƏLİYEV: 100-dən artıq məntəqə qalır, onları da nəzərdə tutun. Əgər onlara da qaz verilərsə, yəqin ki, 350 milyon kubmetr qaz çatmaz.

ƏLİXAN MƏLİKOV: Biz nəzərdə tutmuşuq, danışıqlar yolu ilə həcmi artırmaq olar. İLHAM ƏLİYEV: Bilirəm, müqavilədə 500 milyon kubmetrə qədərdir. Amma ondan sonra lazım olarsa, daha çox artırmaq olar. Yəni mən soruşuram ki, Naxçıvanı müasir səviyyədə, bütün əhalini tam həcmdə qazla təmin etmək üçün tələbat nə qədərdir?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, 500 milyon kubmetr. 100 milyon kubmetrə qədəri sənaye üçün nəzərdə tutulubdur. Bu, sənayenin inkişafından da asılıdır. İLHAM ƏLİYEV: Əlbəttə, sənaye də nəzərdə tutulubdur. Amma nəzərə almalıyıq ki, İranla elektrik enerjisi mübadiləsi də gözlənilir. Naxçıvana elektrik enerjisi verilməsinin həcmi də artırılacaqdır. Sənayenin bir hissəsi də elektrik enerjisi ilə işləyəcəkdir. Bu amil də var.

ƏLİXAN MƏLİKOV: Bəli. Evlərin qızdırılması üçün də işlər aparılır. Bunun üçün qazanxanaların qaz yanacağına keçməsini nəzərdə tutmuşuq.

Cənab Prezident, yeri gəlmişkən, bir məsələni də demək istəyirəm. Naxçıvanda təxminən 8 min abonent çoxmərtəbəli binalarda yaşayır. O binalardakı daxili qaz xətləri, demək olar, tamamilə sıradan çıxıbdır, təzələnməlidir. Biz layihədə bunları nəzərə almışıq.

İLHAM ƏLİYEV: Yəqin evlərdə qaz cihazları yoxdur.

ƏLİXAN MƏLİKOV: Yoxdur. Bunlar hansı vəsaitlə alınmalıdır. Ola bilsin, ümumi büdcənin, yaxud, muxtar respublikanın büdcəsi hesabına.

İLHAM ƏLİYEV: Naxçıvan Muxtar Respublikasının büdcəsi o qədər də böyük deyildir.

ƏLİXAN MƏLİKOV: Naxçıvan şəhərinin özündə binadaxili xətlərin təzələnməsi və cihazlar alınması üçün 6 milyard manat vəsait lazımdır.

İLHAM ƏLİYEV: Yəni qaz plitələrinin quraşdırılması üçün.

ƏLİXAN MƏLİKOV: Bəli.

VASİF TALIBOV: Cənab Prezident, burada balondan da istifadə olunur. Müəyyən problemlər yaranır.

İLHAM ƏLİYEV: Siz bütün bunları ümumi smetada nəzərdə tutun. Çünki Naxçıvanın büdcəsinin hesabına etmək olmaz.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, aydındır.İLHAM ƏLİYEV: Binalardakı daxili xətlər də dəyişdirilməlidir. Onların əksəriyyəti çürüyübdür. Təzyiq necə olacaq, əsas odur ki, təzyiq yaxşı olsun.

ƏLİXAN MƏLİKOV: Nəzərdə tutulan layihədə qaz binaya qədər orta təzyiqdə gəlir. Binanın girişində tənzimləyici qoyulur və tələb olunan təzyiqlə paylanır.

İLHAM ƏLİYEV: Gözəl izah edirsiniz, amma əsas odur ki, plitəni yandırmaq üçün təzyiq kifayət etsin. Çünki bəzi hallarda Bakıda da, başqa rayonlarda da qaz zəif gəlir. Demək, zəif gəlirsə, onda yemək bişirmək də mümkün olmur. Əsas göstərici budur ki, əhali razı olsun. Əlbəttə, qazın verilməsi vacibdir, biz də bunu edirik. Amma bir halda ki, bunu veririk, gərək elə verək ki, əhalini qane etsin. Ona görə siz bunu da nəzərdə saxlayın. Başqa sözünüz var?

ƏLİXAN MƏLİKOV: Xeyr.

İLHAM ƏLİYEV: Sizin sualınız var?

VASİF TALIBOV: Xeyr.

İLHAM ƏLİYEV: Kiminsə sualı, hansısa təklifi varmı?! Yoxdur.

X X X

Prezident İlham Əliyev müşavirədə yekun nitqi söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
yekun nitqi

- Burada deyildi, Əlixan Məlikov da qeyd etdi ki, bu layihə üzərində uzun illərdir iş gedirdi. Keçmişdə də İranla bizim aramızda aparılmış bütün danışıqlarda bu məsələ, demək olar ki, həmişə gündəliyə salınıbdır və bunun müxtəlif variantları var idi. Bilirsiniz ki, keçmişdə Azərbaycanın o qədər də böyük imkanı yox idi ki, bu məsələni mübadilə yolu ilə həll etsin. Çünki bizim öz qaz hasilatımız tələbatımızı ödəmir və belə olan halda, əlbəttə, onu başqa ölkəyə ötürmək də olmurdu. Amma artıq bir neçə ildir ki, xüsusi proqram çərçivəsində Rusiyadan təbii qazın alınması təşkil edilibdir. Alınan qazın həcmi ildən-ilə artır. Biz ildə bir milyard kubmetrdən başlamışdıq. İndi Rusiyadan alınan təbii qazın həcmi ildə

5,5 milyard kubmetrdir. Onu da qeyd etməliyəm ki, bu qazı Azərbaycan Dövlət Neft Şirkəti öz pulu hesabına alır və faktiki olaraq, təmənnasız, pulsuz həm "Azərenerji"yə - elektrik stansiyalarına ötürür, eyni zamanda, "Azəriqaz"a da imkan verir ki, Neft Şirkəti tərəfindən hasil edilən qazı əhaliyə versin.

Bir sözlə, bu gün Azərbaycan bütün mənbələrdən - daxili və xarici mənbələrdən ildə təxminən 10 milyard kubmetr qaz əldə edir. Keçmişdə, ötən əsrin 80-ci illərində Azərbaycan, demək olar ki, təbii qaza olan bütün tələbatını ödəyirdi. Bu gün isə 10 milyard kubmetr qaz alırıq, amma hələlik əhalinin və müəssisələrin ehtiyaclarını tam həcmdə ödəyə bilmirik.

Onu da qeyd etməliyəm ki, Rusiyadan alınan hər 1000 kubmetr qazın qiyməti 52 dollardır. Əgər biz dollarla hesablasaq, Azərbaycanın daxilində hər 1000 kubmetr 8 dollara satılır. Bu isə onu göstərir ki, dövlət, yəni Dövlət Neft Şirkəti Azərbaycanda bütün qaz istehlakçılarına böyük həcmdə subsidiyalar verir. Bəlkə də çox adam bilmir, amma həqiqət budur. Əgər biz Azərbaycanda hasil edilən qazın hər 1000 kubmetrinin qiymətini 52 dollardan hesablasaq, görərik ki, əhaliyə və müəssisələrə verilən qazın dəyəri 600 milyon dollara bərabərdir. Azərbaycan dövləti hər il əhaliyə və müəssisələrə 600 milyon dollarlıq qazı subsudiya formasında verir. Düzdür, bu məbləğin müəyyən hissəsi yığılır, amma çox hissəsi yığılmır. "Azəriqaz" ildə nə qədər qaz pulu yığır?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, 250 milyard manat.

İLHAM ƏLİYEV: 250 milyard manat, yəni 50 milyon dollar. "Azərenerji" də bu qədər yığırdı. İndi də təxminən o qədər yığır. Yəni biz 600 milyon dolların əvəzində cəmi 100 milyon dollar yığırıq. Yığılan bu vəsaitin də böyük əksəriyyəti "Azərenerji" ilə "Azəriqaz"ın daxili ehtiyaclarına sərf olunur.

Dövlət Neft Şirkəti ildə "Azərenerji"yə təxminən 2 milyon ton mazut da verir, bunun qiyməti, haradasa, 300 milyon dollar, bəlkə də çox edir. Yəni, biz mazutda da 300 milyon dollar itiririk. 600 milyon dollar qazda, 300 milyon dollar mazutda, bu, 900 milyon edir. Bunun müqabilində "Azəriqaz"la "Azərenerji" 100 milyon dollar yığır. Elədir?!

NATİQ ƏLİYEV (ARDNŞ-ın prezidenti): Cənab Prezident, dövlət az qala 1 milyard dollar itirir.

İLHAM ƏLİYEV: Bəli, 1 milyard dollar. Bizim büdcəmiz bu il 1 milyard 500 milyon dollar idi. Sonra biz bunu artırıb 1 milyard 600 milyon dollar etdik. Yəni, Azərbaycan 1 milyard dollar dəyərində subsudiya verir. Heç bir ölkədə belə deyil. Bu, bir daha onu göstərir ki, bizim siyasətimiz, ilk növbədə, sosialyönümlü siyasətdir. Azərbaycan bazar iqtisadiyyatı prinsiplərini çox yüksək tutur. Biz bu prinsiplərə sadiqik və Azərbaycanda özəl sektor, sahibkarlıq inkişaf edir, yeni müəssisələr yaradılır. Özəl sektorun ümumi daxili məhsulda həcmi 75 faizdir. Amma eyni zamanda, Azərbaycanda 1 milyard dollar dəyərində sosial proqramlar həyata keçirilə bilər, mövcud olan bütün başqa problemlər öz həllini tapa bilərdi. Amma biz bu vəsaiti əhaliyə qaz və işıq şəklində veririk. Sonra isə qazın və işığın pulunu ala bilmirik. Hətta bu pulu 100 faiz yığsaq belə, yenə o xərclərin 20 faizini də ödəmir.

Bəlkə də bu məsələnin indiki müşavirəyə birbaşa aidiyyəti yoxdur. Amma mən bunu, sadəcə, ona görə deyirəm ki, hamı bilsin ki, bu nə qədər böyük yükdür. Belə olan halda, əlbəttə, biz - "Azərenerji" və "Azəriqaz" - haqlı olaraq tələb etməliyik ki, qaz və işıq pulları vaxtlı-vaxtında ödənilsin. Çünki bu, dözülməz bir haldır. Heç bir başqa ölkədə 8 dollara 1000 kubmetr qaz tapmaq mümkün deyildir. Qonşu ölkələrə, MDB ölkələrinə baxın. Orada qazın 1000 kubmetrinin qiyməti 80-100 dollardır. Türkiyədə 120 dollardır. Gürcüstanda da o qədərdir. Amma Azərbaycanda 8 dollardır. Bu, ciddi məsələdir. Əlbəttə, bu məsələyə baxılmalıdır və biz buna baxacağıq.

Mən yenə də bizim məsələyə qayıtmaq istəyirəm. Əvvəllər Azərbaycanın İranla məsələni mübadilə yolu ilə həll etməyə imkanı yox idi. İndi belə imkanlarımız var. İrana mübadilə yolu ilə veriləcək 300-400 milyon kubmetr qaz Azərbaycan tərəfindən ya daxildə hasil ediləcək, ya da xaricdən alınacaqdır. Yenə təxminən o qiymətə. Biz bunu edirik və etməliyik. Azərbaycanda təbii qaza olan tələbat tam şəkildə ödənilməlidir, elektrik enerjisinə olan tələbat da ödənilməlidir. Bu məqsədlə yeni elektrik stansiyaları tikilir. Yaponiyanın krediti hesabına "Şimal" elektrik stansiyası tikilibdir, ona böyük vəsait ayrılıbdır. Azərbaycan gərək o krediti, borcu gələcəkdə qaytarsın.

Sumqayıtda 500 meqavat gücündə yeni stansiyanın tikintisi nəzərdə tutulur. O da kredit hesabınadır. Kredit o deməkdir ki, vaxt gələcək, o vəsait qaytarılmalıdır. Amma energetika təhlükəsizliyi bizim üçün çox vacibdir.

Bu gün Azərbaycan, bəlkə də, yeganə ölkələrdən biridir ki, elektrik enerjisi baxımından heç kimdən asılı deyildir. Düzdür, biz xaricdən elektrik enerjisi də, qaz da alırıq, amma eyni zamanda, xam nefti də ixrac edirik. Rusiyadan qazı alırıq, Rusiyaya neft ixrac edirik. Əgər o qazı almasaq, nefti də ixrac

etməyəcəyik. O nefti bizim zavodlarımızda emal edib, mazuta çevirib yenə də elektrik enerjisinin istehsalına yönəldəcəyik. Bu baxımdan Azərbaycan əlverişli vəziyyətdədir.

Yenə də qeyd etməliyəm ki, bu vəziyyəti hamımız üçün xalqımızın ümummilli lideri Heydər Əliyev yaratmışdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda neftayırma zavodlarının yenidən qurulması, bərpası nəticəsində, yeni qurğuların tikilməsi nəticəsində çox güclü infrastruktur yaradıldı. Əgər o neft emalı zavodları olmasaydı, əlbəttə, Azərbaycan çox çətin vəziyyətə düşərdi. Əgər Mingəçevirdə Azərbaycan DRES-i tikilməsəydi,- hansı ki, elektrik enerjisinin böyük əksəriyyətini verir, -Azərbaycan bu gün çox çətin vəziyyətdə olardı.

Naxçıvanı qazla, işıqla təmin etmək bizim prioritet məsələmizdir. Biz bu barədə qərarlar qəbul etmişik. Onu da qeyd etməliyəm ki, İranla elektrik enerjisi mübadiləsi məsələsi də öz həllini tapıbdır. İmişli-Parsabad yeni xəttinin çəkilməsi nəzərdə tutulur və o çəkiləndən sonra iki ölkə arasında elektrik enerjisi mübadiləsi 700 meqavata çatacaqdır. Belə olan halda biz Naxçıvanı tam şəkildə elektrik enerjisi ilə təmin edə biləcəyik. Bu layihə təxminən iki ilə başa çatacaq və ümid edirəm, 2006-cı ildə Naxçıvanda qaz, işıq problemi aradan qaldırılacaqdır. Bu da imkan verəcək ki, insanlar rahat yaşasınlar, Naxçıvanın sərt qışına dözə bilsinlər və Naxçıvan iqtisadi cəhətdən daha da inkişaf etsin. Yeni müəssisələr, zavodlar, fabriklər yaransın. Yəni enerji həyat, inkişaf deməkdir.

Mən çox şadam ki, bu məsələlər bu gün burada müzakirə olundu. Naxçıvanlılar da bunu bilməlidirlər. Bu yaxınlarda burada işlərə başlanacaqdır. Mən istərdim ki, burada görüləcək işlərdə yerli kadrlar çox fəal iştirak etsinlər. Bu tikintilərdə maksimum dərəcədə yerli camaat işləsin. Çünki bunlar böyük işlərdir. Həm magistral kəmərlər, həm də paylayıcı xətlər, binadaxili xətlər və sair. Ümid edirəm ki, bir il ərzində "Azəriqaz" bütün məsələləri həll edəcək və bir ildən sonra, 2005-ci ilin sonlarında biz Naxçıvana ilk qazın verilməsini qeyd edə bilərik. Hər halda, əldə edilmiş razılaşmalar bunu deməyə əsas verir.

Qeyd etməliyəm ki, İranla Azərbaycan arasında bu məsələdə çox gözəl əməkdaşlıq var. Siz bilirsiniz ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəmi mənim dəvətimlə Azərbaycana səfər etmişdir. Bir sıra çox vacib sənədlər imzalanmışdır. Ölkələrimiz arasında olan iqtisadi əlaqələr güclənir, ticarətin həcmi artır. Qaz, elektrik enerjisi mübadiləsi hər iki tərəf üçün çox faydalı layihələrdir. İstəyirəm, onu da biləsiniz.

Azərbaycan yay aylarında İrana elektrik enerjisi verir. Bu da İrana kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və yığımı üçün lazımdır. Biz isə İrandan elektrik enerjisini qış aylarında alırıq. İrandan Naxçıvana qaz alacağıq. Azərbaycandan, Astaradan İrana qaz verəcəyik. Yəni bunlar hər iki tərəf üçün faydalı razılaşmalardır. Mən çox məmnunam, şadam ki, nəhayət, bu məsələlər öz həllini tapıbdır.

Onu da bildirmək istəyirəm ki, danışıqlar əsnasında Ordubad su elektrik stansiyasının tikintisi də müzakirə olunmuşdur. Bilirsiniz ki, bu, Naxçıvanın enerji təhlükəsizliyi və müstəqilliyi üçün çox vacib bir layihədir. O layihə barədə uzun illərdir söhbət gedir. Biz şifahi qaydada razılaşdıq ki, bu məsələ ilə əlaqədar gələcəkdə danışıqlar aparılsın. Ümid edirəm ki, bu məsələ də öz həllini tapa bilər. Əgər biz bunu da etsək, Naxçıvan üçün əlavə 42 meqavat elektrik enerjisi əldə edə bilərik. Əlbəttə, İrandan mübadilə yolu ilə gələn elektrik enerjisi, qaz Naxçıvanın bütün tələbatını ödəyəcəkdir. Amma biz istəyirik Naxçıvanın özündə elə bir infrastruktur yaradılsın ki, tam müstəqil şəkildə, heç kəsdən asılı olmayaraq öz tələbatını ödəsin.

Keçən dəfə, may ayında burada olarkən biz Vayxır su anbarının tikintisinə baş çəkdik, vəziyyətlə tanış olduq. Vasif Talıbov təklif etmişdi ki, orada kiçik bir elektrik stansiyası tikilsin. Mən də Bakıya qayıdarkən dərhal hökumətə müvafiq göstərişlər verdim. Düzdür, orada tikiləcək stansiyanın gücü cəmi 4,5 meqavat olacaqdır. Amma yenə də. Vasif Talıbov deyir ki, Şahbuza cəmi 7 meqavat elektrik enerjisi verilir. O da oradan veriləcəkdir. Düzdür, əlavə xərc tələb edəcək, amma biz bunu etməliyik.

Azərbaycanın iqtisadiyyatı ildən-ilə güclənir. Bizim büdcəmiz ilbəil artır. Bu ilin büdcəsi dəyişiklikdən sonra 1 milyard 600 milyon dollar səviyyəsindədir. Gələn il daha da artmalıdır. Mən hökumət qarşısında belə bir vəzifə qoymuşam ki, ciddi surətdə artmalıdır. Bunu etmək üçün imkan var, daxili mənbələr var. Yeni müəssisələr yaradılır, yeni zavodlar, fabriklər yaradılır. Onların hamısı vergi ödəməlidir. Azərbaycana böyük sərmayələr qoyulur. Gələn il bizim ümumi daxili məhsulumuzun artımı, haradasa, 12-13 faizdən yuxarı olmalıdır. Bu il təxminən 11 faizdir. Bu bizə imkan verəcək ki, büdcəmiz artsın. Belə olan halda vəsait də olacaqdır. Vəsait də gərək səmərəli işlədilsin. Yığılan vəsait, əldə olunan gəlirlər gərək, ilk növbədə, infrastrukturun yaranmasına, insanlarımızın daha da rahat yaşamasına, sosial məsələlərin həllinə sərf olunsun.

Düzdür, mən qeyd etdim ki, enerji sektorunda biz 1 milyard dollar dəyərində əhaliyə və müəssisələrə subsidiya edirik. Amma bu, həm də bizim niyyətimizi göstərir. Bu, təkcə sözdə deyil, əməldədir. Biz deyəndə ki, hər şey xalq üçün, millət üçün - bunun təzahürü məhz budur.

Mən bir daha demək istəyirəm ki, görüləcək işlər həm Naxçıvan, həm də Azərbaycan üçün çox vacibdir. Ümid edirəm ki, "Azəriqaz" və yerli icra orqanları bu məsələ ilə ciddi məşğul olacaqlar, nəzərdə tutulmuş qaydada bir il ərzində bütün görüləcək işlər yerinə yetiriləcək və Naxçıvan nəhayət, təbii qazla təmin olunacaq, tam şəkildə elektrik enerjisi ilə, işıqla təmin ediləcəkdir. Sağ olun.

AZƏRTAC
2004, 3 sentyabr

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
(19 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 19-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Dövlətimizin başçısının şərəfinə Naxçıvan beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər qarşıladılar. Milli geyimli oğlan və qız Prezidentə gül-çiçək təqdim etdilər.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Hava limanına gəlmiş minlərlə naxçıvanlı Prezident İlham Əliyevi hərarətlə salamladı.

AZƏRTAC
2005, 19 dekabr

Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət və Gənclik Mərkəzinin açılışı
(19 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, dekabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin hələ sağlığında burada ucaldılmış abidəsini ziyarət etdi və gül dəstəsi qoydu.

Sonra Əcəmi seyrəngahı yaxınlığında yerləşən Gənclik Mərkəzinin təntənəli açılışı oldu. Buraya toplaşan on minlərlə insan dövlətimizin başçısını alqışlarla qarşıladı.

Prezident İlham Əliyev Gənclik Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və onunla tanış oldu. Məlumat verildi ki, 400 yerlik salonu olan bu mədəniyyət ocağında gənclər üçün kinofilmlər nümayiş etdiriləcək, konsertlər, tamaşalar təşkil olunacaqdır. Mərkəz ən müasir tələblərə cavab verir.

Prezident İlham Əliyev Mərkəzin salonuna gəldi, burada "Ulu torpaq, ulu öndər" filminə baxdı. Filmdə əbədiyaşar Prezident Heydər Əliyevin gənclərlə görüşləri, yeni idman obyektlərinin açılışı, eləcə də Naxçıvan Muxtar Respublikasına səfərləri zamanı keçirdiyi tədbirlərdəki çıxışları, Ali Məclisdə keçirdiyi görüşlər və müşavirələr öz əksini tapmışdır.

AZƏRTAC
2005, 19 dekabr

Prezident İlham Əliyev Naxçıvan şəhərində kitab evinin açılışında iştirak etmişdir
(19 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, dekabrın 19-da Naxçıvan şəhərində Kitab evinin açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, Kitab evi ilə tanış oldu.

Üçmərtəbəli binanın birinci mərtəbəsində məktəb ləvazimatı, dərsliklər, ikinci mərtəbədə Naxçıvanda istehsal olunan məktəbli geyimləri, idman ləvazimatı satılır. Üçüncü mərtəbədə isə müxtəlif ədəbiyyat, o cümlədən bədii əsərlər, uşaq ensiklopediyası, qanun topluları, ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən kitablar toplanmışdır.

Dövlətimizin başçısı Kitab evinin əhalinin maariflənməsi işinə çox böyük töhfə verəcəyini bildirdi, müasir tələblərə uyğun tikilən binanın Naxçıvan şəhərini gözəlləşdirdiyini vurğuladı.

Sonra Prezident İlham Əliyev buraya toplaşan sakinlərlə görüşüb söhbət etdi, problemləri ilə maraqlandı. Sakinlər onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.

X X X

Dekabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binasında müşavirə keçirilmişdir.

Müşavirəni Prezident İlham Əliyev giriş nitqi ilə açdı.

Sonra Ali Məclisin sədri Vasif Talıbov və "Azəriqaz" Səhmdar Cəmiyyətinin prezidenti Əlixan Məlikov məruzə etdilər.

Prezident İlham Əliyev müşavirədə yekun nitqi söylədi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana səfəri davam edir.

AZƏRTAC
2005, 19 dekabr

Heydər Əliyev su anbarının istifadəyə verilməsi mərasimi
(19 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, dekabrın 19-da Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev su anbarı istifadəyə verilmişdir. Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir. Mərasimə toplaşan minlərlə insan dövlətimizin başçısını hərarətlə və böyük mehribanlıqla qarşıladı.

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev su anbarının və magistral kanalların planı ilə tanış oldu. Məlumat verildi ki, su anbarı vasitəsilə ətraf rayonların yaşayış məntəqələri su ilə təmin olunacaqdır. Suvarılacaq 16 min hektarın 6 min hektarı əkin dövriyyəsinə yeni daxil edilmiş sahələrdir və bu, yerli əhali tərəfindən yüksək qiymətləndirilir. Kanallar üzərində 60 qurğu yerləşdirilmişdir. 100 milyon kubmetr su tutumu olan bu anbarın tikintisinə 1980-ci ildə, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdı. Lakin o, Moskvaya getdikdən sonra inşaat işləri yarımçıq qalmışdı. Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu nəhəng obyektin tikintisi bərpa olunmuşdur.

Prezident İlham Əliyev su anbarının istifadəyə verilməsini bildirən düyməni basdı və su boru vasitəsilə kanallara axdı. Prezident bu prosesi böyük maraqla izlədi və bu mənzərəli yerdə xatirə şəkli çəkdirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu su anbarı əhalini su ilə təmin etməklə yanaşı, həm də elektrik enerjisinə olan tələbatı qismən ödəyəcəkdir. Eyni zamanda, burada turizmin və çay balıqçılığının inkişafı üçün də imkanlar yaradılacaq, yeni iş yerləri açılacaqdır. Ətraf sahələr yaşıllığa qərq olacaqdır.

Prezident İlham Əliyev mərasimə toplaşanlarla görüşdü, onları bu tarixi hadisə münasibətilə təbrik etdi. Sakinlər su anbarının istifadəyə verilməsini ulu öndərin Naxçıvana göstərdiyi diqqət və qayğının daha bir təzahürü kimi qiymərtləndirdilər, onun tarixi xidmətlərini xatırlatdılar. Dahi şəxsiyyətin siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən məmnunluqlarını ifadə etdilər.

AZƏRTAC
2005, 19 dekabr

Heydər Əliyev adına Hərbi Liseylə tanışlıq

(19 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev dekabrın 19-da Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseylə tanış olmuşdur.

Ali baş komandanı müdafiə naziri general-polkovnik Səfər Əbiyev və liseyin rəisi general-mayor Rasim Əliyev qarşıladılar.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin liseyin həyətində ucaldılmış büstünün önünə gül qoydu.

Sonra Ali baş komandan kursantları salamladı. Azərbaycanın Dövlət himni səsləndirildi.

Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev liseyin kursantları qarşısında nitq söylədi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi

- Əziz kursantlar!

Mən sizi salamlayıram, sizə cansağlığı, uğurlar arzulayıram.

Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Ulu öndər Heydər Əliyev bütün dövrlərdə - 1970-ci illərdə Azərbaycanda rəhbərlik etdiyi dövrdə və ondan sonra, 1990-cı illərdə müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi vətəninə ləyaqətlə xidmət etmişdir. Bütün dövrlərdə onun həyat və fəaliyyəti xalqa xidmət etməkdən ibarət olmuşdur. 1970-ci illərdə Azərbaycanda çox güclü, iqtisadi və sənaye potensialı yaradılmışdır. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda fabriklər, zavodlar, kənd təsərrüfatının inkişafına təkan verən infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir. Azərbaycan müttəfiq respublikalar arasında qabaqcıl yerlərdə idi. Ancaq 1980-ci illərin sonundan başlayaraq və 1990-cı illərin əvvəllərinə qədər Azərbaycana rəhbərlik etmiş səriştəsiz, bacarıqsız, xəyanətkar rəhbərlər Azərbaycanı çox bərbad vəziyyətə salmışdılar. Azərbaycan keçmiş sovet respublikaları arasında birinci yerdən axırıncı yerə düşmüşdü. Bu, bir daha onu göstərir ki, tarixdə bu şəxsiyyətin rolu çox önəmlidir. Xüsusilə keçid dövründə yaşayan ölkələrdə. Liderin, birinci şəxsin, Prezidentin fəaliyyəti və rolu o ölkənin inkişafını müəyyən edir. Ya ölkə inkişaf edir, möhkəmlənir, güclənir, ya da ki, tənəzzülə uğrayır.

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdandan sonra ölkədə bütün istiqamətlərdə güclü inkişafa təkan verildi. Azərbaycanda iqtisadi islahatlar aparılmağa başladı, ölkəmiz beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirdi. Azərbaycan çox böyük həcmdə xarici investisiyalar cəlb etmişdi və ölkənin hərtərəfli inkişafı başlanmışdı. 1990-cı illərin ortalarında, demək olar ki, xaos və böhranın bütün qalıqları aradan götürülmüşdü və iqtisadi inkişaf başlanmışdı. Əgər bu dinamikaya nəzər salsaq görərik ki, 1995-96-cı illərdən başlayaraq bu günə qədər Azərbaycanın iqtisadiyyatı çox yüksək sürətlə inkişaf edir.

Biz bunu bütün istiqamətlərdə hiss edirik, o cümlədən təhsil sahəsində. Bildiyiniz kimi, 1970-ci illərdə ulu öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yarandı. Bu, keçmiş sovet respublikalarında analoqu olmayan bir məktəb idi. İndi Azərbaycan ordusunda xidmət edən zabitlərin, generalların bir çoxu məhz o məktəbin məzunlarıdır. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Amma Heydər Əliyev sanki bu müstəqilliyi görürdü, gələcəyi görürdü ki, bir gün Azərbaycan müstəqil olacaq və müstəqil Azərbaycana ordu lazım olacaq və o orduda xidmət edən peşəkar kadrlar lazım olacaqdır. Cəmşid Naxçıvanski adına məktəbin Azərbaycanın müstəqil ordusunun formalaşmasında çox böyük xidməti olmuşdur və bu, indi də davam edir.

1998-ci ildə isə Naxçıvanda, yenə də Heydər Əliyevin təşəbbüsü ilə, Cəmşid Naxçıvanski adına hərbi məktəbin filialı açıldı.

Keçən il isə mənim Sərəncamımla artıq bu filial Heydər Əliyev adına hərbi liseyə çevrildi. Bu gün burada çox gözəl şərait yaradılıbdır. Yaxşı oxumaq, hərbi işi mənimsəmək üçün gözəl imkanlar var, ən müasir səviyyədə korpuslar tikilib istifadəyə verilib, avandanlıqla təchiz olunubdur. Bir sözlə, əminəm ki, burada kursantlar yaxşı oxumaq, yaxşı bilik almaq üçün, hərbi işi öyrənmək üçün yaxşı imkanlara malikdirlər.

Bütövlükdə təhsil sahəsinə çox böyük diqqət göstərilir və göstərilməlidir. Hər bir ölkənin, hər bir millətin inkişafında bilik, savad ən böyük rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsini təhlil edərkən bunu görürük. Hansı ölkələr daha sürətlə inkişaf edir, hansı ölkələrdə elmi-texniki tərəqqi özünü daha qabarıq büruzə verir? O ölkələrdə ki, təhsilə böyük investisiyalar qoyulub, büdcə xərcləri nəzərdə tutulub və insanlar biliklidi, savadlıdırlar.

Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Bu bizim siyasətimizi göstərir, bizim prioritetlərimizi göstərir. Düzdür, biz bu sahədə bütün ehtiyaclarımızı ödəyə bilmirik. Bu da təbiidir. Çünki təhsil sisteminə çox böyük həcmdə investisiyalar qoyulmalıdır. Azərbaycanda 4500-dən çox ümumtəhsil məktəbi var. Onların böyük əksəriyyəti artıq çox yararsız vəziyyətdədir. Təmirə ehtiyac var, yeni məktəblərin tikilməsinə ehtiyac var və bu proqram həyata keçirilir. Təkcə bu il Azərbaycanda 130 yeni məktəb tikilib və təmir olunubdur. Gələn il də bu, nəzərdə tutulur. Azərbaycanda bütövlükdə təhsil infrastrukturu yeniləşməlidir.

Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinfi yaradılacaq və internetə çıxış təmin olunacaqdır. Çünki bizim gənclərimiz, şagirdlərimiz, kursantlarımız dünyada baş verən bütün hadisələri bilməlidirlər, yeni müasir informasiya texnologiyalarına yiyələnməlidirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə etməlidirlər. Bunu etmək üçün əlbəttə ki, kompüterləşmə proqramı öz rolunu oynayacaqdır.

Eyni zamanda, Azərbaycanda ordu quruculuğuna da böyük diqqət göstərilir. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda, demək olar ki, nizami ordu yox idi. Ayrı-ayrı silahlı birləşmələr, müxtəlif siyasi qurumlara tabe olan dəstələr mövcud idi. Ordu quruculuğu prosesi məhz 1993-cü ildən sonra başlandı. Bu gün Azərbaycanda çox güclü, nizami ordu var. Ordunun hazırlığı çox yüksək səviyyədədir və maddi-texniki bazası da möhkəmlənibdir. Bu siyasət açıq şəkildə aparılır, bəyan edilir. Bu siyasətin real nəticələri Azərbaycanda hərbi xərclərin artmasıdır. Əgər 2004-cü ildə hərbi xərclər 175 milyon dollar səviyyəsində idisə, 2006-cı ildə 600 milyon dollar səviyyəsində olacaqdır. Orduya ayrılan xərclər iki ildə dörd dəfə artırılır.

Bu, bizim siyasətimizi əks etdirən rəqəmlərdir. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda, biz ordumuzu gücləndirməliyik. Ordumuzu gücləndirmək üçün, əlbəttə, iqtisadi imkanlar olmalıdır. Ona görə bizim iqtisadi proqramlarımız, regionların sosial-iqtisadi inkişaf proqramlarımız icra edilir. Azərbaycanda güclü iqtisadiyyatın yaranması bizim müstəqil ölkə kimi yaşamağımız deməkdir. Müstəqil ölkə kimi yaşamaq üçün gərək müstəqil siyasət aparasan. Bu gün Azərbaycan, sözün əsil mənasında, müstəqil siyasət aparır və bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının milli maraqları üzərində qurulubdur. İqtisadi imkanlar artdıqca orduya ayrılan xərclər daha da artacaqdır. 600 milyon dollar çox xərc deyil, biz müdafiə xərclərimizi bundan sonra da artıracağıq. Elə etməliyik ki, bu sahədə heç bir vəsait problemi, yaxud da ki, çatışmazlıq olmasın. Yenə də deyirəm, Azərbaycan müharibə şəraitində yaşayır. Bizim torpaqlarımız işğal altındadır və əminəm ki, hərbi potensialın güclənməsi danışıqlar prosesində də öz rolunu oynayacaqdır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Bizim danışıqlarda iştirakımız bunu bir daha göstərir. Biz istəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun, işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxsın və bir milyondan artıq soydaşımız öz doğma torpaqlarına qayıda bilsin. Ancaq eyni zamanda, biz güclü ordu yaratmalıyıq, güclü hərbi potensial yaratmalıyıq ki, istənilən anda öz doğma torpaqlarımızı azad edə bilək.

Danışıqlar 10 ildən artıqdır ki, davam edir, nəticə də yoxdur. Düzdür, ümidlər var, hələ ki, tükənməyib və məhz buna görə də Azərbaycan bu günə qədər danışıqlarda iştirak edir. Biz danışıqlar prosesini axıra qədər sınamalıyıq. Yəni danışıqlar resursundan sona qədər istifadə etməliyik. Ancaq əgər görsək ki, bunun heç bir əhəmiyyəti yoxdur, biz başqa variantları da nəzərdən keçirməliyik.

Azərbaycan öz mövqelərini möhkəmləndirir. Bizim ölkəmiz bölgədə lider dövlətə çevrilibdir. İqtisadi potensialımız artır, siyasi çəkimiz artır, beynəlxalq aləmdə nüfuzumuz artır. Ordumuz da güclənir, daha da güclü olmalıdır, daha da hazırlıqlı olmalıdır və istənilən anda torpaqların azad olunmasında iştirak etməlidir. Bizim siyasətimiz bundan ibarətdir və mən çox sevinirəm ki, Azərbaycanda həm ordumuzun maddi-texniki bazası möhkəmlənir və həm də peşəkar ordu kadrları yetişir.

Bax, bu liseydə dərs alan, təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyünü hərb yolu ilə bərpa olunmasında iştirak edəcəklər. Bu proseslər paralel şəkildə getməlidir: peşəkar ordu və güclü

maddi-texniki baza. Bu gün Azərbaycanda biz bunu görürük. Bizim iqtisadi potensialımız artdıqca bunu daha da böyük həcmdə, böyük səviyyədə edəcəyik.

Əziz kursantlar, bir daha sizi ürəkdən salamlayıram, arzu edirəm ki, yaxşı oxuyasınız, yaxşı, gözəl biliyə malik olasınız və doğma ölkəmizin inkişafında fəal iştirak edəsiniz. Sağ olun.

X X X

Sonra liseyin hərbi marşı ifa olundu. Kursantlar təntənəli marşla Ali baş komandanın qarşısında keçdilər.

Prezident İlham Əliyev liseyin tədris mərkəzi, qərargahı ilə tanış oldu. 450-dək kursant və zabit üçün nəzərdə tutulan yataqxananın ayrı-ayrı otaqlarına baxdı və buradakı şəraiti yüksək qiymətləndirdi.

Ali baş komandana məlumat verildi ki, kursantlar liseyi bitirəndən sonra Bakıdakı ali təhsil ocaqlarına göndərilirlər. Liseydə texniki fənlər üzrə müxtəlif sinif otaqları, idman, konfrans salonları, kitabxana, kompüter otağı fəaliyyət göstərir. Dövlətimizin başçısı liseydə yaradılmış Heydər Əliyev guşəsinə də baxdı və fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Əziz kursantlar, Heydər Əliyev adına liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Biz, ulu öndərin davamçıları Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq.

Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
19.12.2005, Naxçıvan".

Sonra Ali baş komandan liseyin yeməkxanası ilə tanış oldu, kursantlara verilən yeməklərin keyfiyyəti ilə maraqlandı.

AZƏRTAC
2005, 20 dekabr

Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimi və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş
(19 dekabr 2005-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev hava limanından Naxçıvan şəhərinin mərkəzində tikiləcək Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün tikinti meydançasına yola düşdü.

Yolboyu şəhərin minlərlə sakini dövlətimizin başçısını səmimiyyətlə salamlayırdı.

Muxtar respublika Ali Məclisinin sədri Vasif Talıbov Prezident İlham Əliyevə məlumat verdi ki, 1385 kvadratmetr sahəsi olacaq 5 mərtəbəli Diaqnostika-Müalicə Mərkəzində reanimasiya şöbəsi, stasionar şöbələr də fəaliyyət göstərəcəkdir. Tikinti işləri bir il ərzində başa çatdırılacaq və burada ən müasir standartlara cavab verən avadanlıq quraşdırılacaqdır.

Prezident İlham Əliyev tikintinin təməlinin qoyulduğunu bildirən gilizi bünövrəyə atdı və ilk beton qarışığını tökdü.

X X X

Sonra Naxçıvan şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.

Görüşü Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

- Möhtərəm Prezident!

Ölkə rəhbəri kimi muxtar respublikaya – bu qədim yurda hər səfəriniz unudulmaz günlər kimi yadda qalır, əhalini daha böyük nailiyyətlərə, quruculuğa, tikib-yaratmağa sövq edir. Əgər Naxçıvana birinci səfərinizdən müasir standartlara cavab verən beynəlxalq hava limanı, hərbi hissənin yeni korpusu və xidmət infrastrukturları, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi üçün yeni institut binası, Əlillərin Bərpa Mərkəzi, Yeyinti sənayesi kompleksi kimi mühüm sosial və müdafiə əhəmiyyətli obyektlər həyata vəsiqə aldısa, ikinci səfəriniz zamanı ulu öndərimizin adını daşıyan məktəbin, Naxçıvan üzgüçülük mərkəzinin, Mülki müdafiə regional mərkəzinin açılışını etdiniz.

Bu qədim yurda yaraşıq verən tikililər, muxtar respublikanın rayonlarında, kənd yerlərində inşa olunan onlarca məktəb, səhiyyə obyekti, emal müəssisələri, əlillər, qaçqın və köçkünlər üçün evlər, inzibati binalar Naxçıvanda Sizin yadigarlarınızdır, davam və inkişaf etdirdiyiniz Heydər Əliyev quruculuq xəttinin bəhrələridir.

Bu gün onların sırasına daha bir vacib obyekt - Naxçıvan Diaqnostika Mərkəzi daxil olur. Cənab Prezident, muxtar respublika sakinlərinin sağlamlığına ən böyük bir töhfə olan bu obyektin tikintisi üçün Sizə naxçıvanlıların sonsuz minnətdarlığını və dərin ehtiramını bildirirəm.

Qurub-yaratmaq, əhalinin qayğısına qalmaq ulu öndərimizin dövlətçilik fəaliyyətinin üstün istiqaməti, idarəetmə fəlsəfəsi idi. Aqillərin belə bir kəlamı var: "Əgər hökmdarlar müdrik olsaydı, bəşəriyyət necə də xoşbəxt olardı". Azərbaycan xalqı xoşbəxtdir ki, onun belə bir müdrik rəhbəri, ümummilli lideri vardır. Bu gün Azərbaycan əldə etdiyi bütün nailiyyətlərə görə möhtərəm Heydər Əliyevə borcludur. Ulu rəhbərimiz olduqca qısa zaman kəsiyində əsrlərə bərabər işlər gördü. Müstəqil Azərbaycan dövlətini yaratdı, onun inkişafının ən üstün istiqamətlərini müəyyənləşdirdi. Təkcə xalqı xoşbəxt etməyin yolunu göstərmədi, həm də bu yolun əsasını qoydu. Bu, quruculuq yolu Heydər Əliyev yoludur. Xalqımız, dövlətimiz bu yolla gedərək, ölkə rəhbəri hörmətli İlham Əliyevin rəhbərliyi altında bu yolu davam etdirərək, hər gün yeni uğur qazanır, yeniliyə, tərəqqiyə qovuşur. Azərbaycan inkişaf etdikcə, Heydər Əliyevin siyasəti, adı və ənənələri də yaşayır.

Bu unudulmaz gündə bütün uğurlarımızın təminatçısı olan ümummilli liderimizin əziz xatirəsini bir daha yad edirik.

Azərbaycan ümummilli liderimizin şah əsəridir. Bu əsərin son 35 illik tarixini vərəqləsək, aydın görmək mümkündür ki, möhtərəm Heydər Əliyev daim xalqı, onun rifahını düşünmüşdür.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə - ötən əsrin 70-ci illərində həyata keçirilən sosial siyasət xalqın mədəniyyətinin, tarixi ənənələrinin bərpası ilə yanaşı, irimiqyaslı tədbirlərin həyata keçirilməsini, səhiyyə - sağlamlıq müəssisələrinin yaradılmasını da nəzərdə tuturdu.

Keçmiş imperiyanın aqrar əlavəsi olan, əhalisi yoxsulluq şəraitində yaşayan, geridə qalmış respublikada bütün bunları həyata keçirmək isə ilk baxışda asan deyildi. Lakin ümummilli liderimizin qətiyyəti, iradəsi nəticəsində Azərbaycan geriliyin daşını atdı, iqtisadiyyatı inkişaf edən, əhalisinin güzəranı yaxşılaşan lider respublikaya çevrildi. Bu dövrdə aparılan məqsədyönlü siyasət nəticəsində ölkə həyatının bir çox sahələri kimi, tibb elmi və səhiyyə də sürətlə inkişaf etdi. Səhiyyə şəbəkəsi genişləndirildi, tibbi kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər qazanıldı. Təkcə Bakıda yox, rayonlarda və ən ucqar kəndlərdə də yeni xəstəxana və dispanserlər, tibb məntəqələri yaradıldı.

1987-ci ildə ümummilli liderimiz siyasi hakimiyyətdən istefa verəndən sonra ölkə həyatında geniş mənada sosial fəlakət başlandı. Müəssisələr, xəstəxanalar dağıdıldı. Əlillərə, veteranlara, ziyalılara münasibət dəyişdi. Ölkəni məhvə aparan bu mənfur siyasətə, dağıdıcı psixologiyaya ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə son qoyuldu. Azərbaycan yenidən öz doğru yoluna - Heydər Əliyev quruculuq xəttinə qayıtdı.

Yeni şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasını ümummilli liderimiz belə müəyyənləşdirmişdi: "Strateji xəttimiz - sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur".

Bu yol bu gün ümummilli liderimizin quruculuq xəttinin davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Möhtərəm Heydər Əliyev 2002-ci ildə Naxçıvana səfəri zamanı demişdi: "Mən istəyirəm ki, mənim arzum, istəklərim Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım və arzularım yerinə yetirilsin". Cəmi bir il sonra, 2003-cü ildə Azərbaycan xalqına məşhur Müraciətində ümummilli liderimiz bu planları, arzuları yerinə yetirəcək şəxsiyyətin İlham Əliyev olduğunu bəyan edərək deyirdi: "O, yüksək intellektli və praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcəkdir".

Artıq üçüncü ildir ki, hörmətli Prezidentimiz ümummilli liderimizin ümidlərini şərəflə doğruldur. Xalqın ona olan inam və etimadını doğruldur.

Xalq inamı birdən-birə yaranmır. Bu, konkret işə və nəticəyə söykənir.

Bu inamın kökündə hörmətli İlham müəllimin siyasətçi və millət vəkili kimi Avropa Şurası Parlament Assambleyasındakı gərgin və səmərəli fəaliyyəti, daim ölkəmizin milli maraqlarından çıxış etməsi dayanırdı.

Bu inamın kökündə Milli Olimpiya Komitəsinin Prezidenti kimi gördüyü işlər dayanırdı. Qısa müddətdə görülən tədbirlər nəticəsində Azərbaycan əvvəllər beynəlxalq yarışlara çətinliklə vəsiqə qazanan ölkədən beynəlxalq yarışların keçirildiyi ölkəyə çevrildi. Bakıda və ölkəmizin regionlarında, o cümlədən Naxçıvanda olimpiya idman kompleksləri, üzgüçülük mərkəzləri, digər idman obyektləri tikilib gənclərin sərəncamına verildi.

Bu inamın kökündə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi kifayət qədər mürəkkəb bir şəraitdə Azərbaycanın milli və iqtisadi maraqlarına cavab verən neft müqavilələrinin reallaşdırılmağa başlanmasına nail olması dayanırdı.

Bu sahələrdə liderliyə nail olan və onun qorunub saxlanmasını təmin edən möhtərəm Prezidentimiz Azərbaycanın regionda da lider ölkəyə çevrilməsini təmin etmişdir.

Bu, yeni şəraitdə Heydər Əliyev yolunun davam etdirilməsinin ən gözəl nümunəsidir.

Ümummilli liderimizin müəyyənləşdirdiyi quruculuq proqramı bütün sahələrdə, o cümlədən sosial inkişaf sahəsində də davam etdirilir. Ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəldilmiş yeni mərhələnin əsasını qoymuşdur. İqtisadiyyat inkişaf etdikcə, özəlləşdirmə prosesləri dərinləşdikcə, sosial məsələlərə diqqət daha da artır. Bu məsələdə ardıcıl siyasət yeridilməsinin vacibliyini bildirən ölkə Prezidenti demişdir: "Prezident Heydər Əliyevin siyasəti nəticəsində əldə edilmiş uğurlar bizə imkan verir ki, Azərbaycanda ən çətin vəziyyətdə olan xəstələrə, əlillərə böyük qayğı və diqqət göstərək. Bu siyasət bizə imkan verir ki, lazımlı, xəstələrə kömək edəcək müəssisələr tikilsin, istifadəyə verilsin. Azərbaycanda bu siyasət davam edəcəkdir. Buna alternativ ola bilməz".

Möhtərəm Prezident!

Siz ölkəmizin rayonlarına hər səfərinizdə vacib sosial obyektlərin açılışında və ya təməlqoyma mərasimlərində iştirak edirsiniz, onlara xeyir-dua verirsiniz. 2004-cü ildə Naxçıvana səfəriniz zamanı Sizin

tapşırığınızla ayrılmış vəsait hesabına alınmış və Naxçıvan Respublika xəstəxanasında quraşdırılmış Yaponiya istehsalı olan kompüter tomoqrafiya aparatının istifadəyə verilməsi mərasimində iştirakınız bu sahəni şəxsi nəzarətə götürməyinizin əyani ifadəsi idi. Bu gün daha vacib bir obyektin - Naxçıvan Diaqnostika Mərkəzinin təməlinin qoyulmasında iştirak etdiniz. Bütün bunlar əsası ümummilli liderimiz tərəfindən qoyulan xəttin - insanların sağlamlığının qorunması, buna hər cür qayğı göstərilməsi kimi dövlət siyasətinin davam etdirilməsinin nümunəsidir.

Bu, nəinki Naxçıvan Muxtar Respublikasında, hətta ətraf regionlarda da analoqu olmayan bir mərkəz olacaqdır. Naxçıvanda diaqnostika mərkəzinin tikilməsi müayinə üçün başqa ölkələrə müraciət edən xəstələrə muxtar respublika ərazisində yüksək tibbi xidmət göstərilməsinə şərait yaradacaqdır. Bu, blokada şəraitində yaşayan, ölkəmizin əsas ərazisinə gediş-gəliş imkanı məhdud olan muxtar respublika əhalisi üçün çox böyük diqqət və qayğı deməkdir. Bu diqqətə və yüksək dövlət qayğısına görə Sizə bir daha minnətdarlığımızı bildiririk.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə nitq söylədi.

Prezident İlham Əliyevin
nitqi

- Əziz naxçıvanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə dərin hörmət və məhəbbətimi bildirirəm. Mən çox şadam ki, bu gün yenidən Naxçıvandayam, qədim Naxçıvan torpağındayam, sizinlə birlikdəyəm. Azərbaycanın bütün bölgələri sürətlə inkişaf edir, o cümlədən Naxçıvan xüsusilə böyük sürətlə inkişaf edir. Uzun illər ərzində blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri gedir, yeni müəssisələr yaranır, yeni iş yerləri açılır, sosial obyektlər inşa edilir. Bir sözlə, Naxçıvan yaşayır və sürətlə inkişaf edir. Bu, məni çox sevindirir. Çünki mən istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi, hər bir iqtisadi zonası sürətlə inkişaf etsin, bu yüksək inkişaf sürəti daha da artsın və nəticə etibarilə Azərbaycan xalqı daha da yaxşı yaşasın.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Bütün dövrlərdə siz bunu hiss edirdiniz. Xüsusilə, 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özünə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir.

1993-cü ildən sonra, Azərbaycan xalqı Heydər Əliyevi Prezident vəzifəsinə seçəndən sonra Azərbaycanın bütün istiqamətlərində inkişafı başladı. Düzdür, o vaxt Azərbaycanda geniş, dərin böhran müşahidə olunurdu. Çünki Azərbaycanı 1990-cı illərin əvvəllərində çətin vəziyyətə salan qüvvələr faktiki olaraq, ölkəmizi idarəolunmaz hala gətirib çıxarmışdı. Ölkədə xaos, hərc-mərclik, anarxiya, iqtisadi tənəzzül hökm sürürdü. Sabitlik pozulmuşdu, vətəndaş müharibəsi başlanmışdı. O çətin anlarda xalq Heydər Əliyevin ətrafında birləşərək, öz siyasi liderinə dəstək verərək, Azərbaycanı bu çətin vəziyyətdən çıxara bilmişdi. Ondan sonra Azərbaycanın tarixi yalnız və yalnız inkişafla bağlı oldu, quruculuqla bağlı oldu. Azərbaycanda iqtisadi tənəzzülün qarşısı alındı və bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bütün istiqamətlərdə Azərbaycanda inkişaf var və biz çalışmalıyıq ki, bunu daha da genişləndirək.

Naxçıvanın sosial-iqtisadi həyatında Heydər Əliyevin 1990-cı illərdəki fəaliyyəti bizim hamımıza çox yaxşı bəllidir və tanışdır. Məhz ulu öndərin təşəbbüsü ilə Naxçıvan beynəlxalq aeroportu tikilib istifadəyə verildi və bu gün dünyanın ən ağır yük təyyarələrinin qəbul olunmasına imkanlar var. Bunun nə demək olduğunu hamımız yaxşı başa düşürük. Bu aeroport məxsusi xarakter daşıyır və Naxçıvanın uzun illər, əsrlər boyu normal yaşamasını təmin edəcəkdir.

Eyni zamanda, ulu öndərin təşəbbüsü ilə Naxçıvanda çoxlu məktəblər, digər sosial infrastruktur yarandı. Vayxır su anbarı onun təşəbbüsü ilə inşa edildi və bu gün istismara veriləcəkdir.

Vayxır su anbarının Naxçıvanın kənd təsərrüfatının inkişafında çox böyük rolu var. Nəzərə alsaq ki, "Aqrolizinq" Səhmdar Cəmiyyətinin xətti ilə artıq kənd təsərrüfatı texnikası gətirilmişdir, yaxın zamanlarda kənd təsərrüfatının inkişafı daha da geniş vüsət alacaqdır.

Bu siyasət bu gün də davam edir - Naxçıvana daim diqqət və qayğı olmalıdır. Naxçıvan blokada şəraitində yaşayır, Azərbaycanın əsas hissəsindən ayrı yaşayır və hər bir qurum, hər bir nazirlik, hər bir təşkilat Naxçıvana xüsusi diqqət və qayğı göstərməlidir. Bu, Heydər Əliyevin siyasəti olubdur, bu, mənim siyasətimdir və mən onu bundan sonra da davam etdirəcəyəm.

Bu günlərdə Naxçıvanın həyatında çox önəmli hadisələr baş verir. Uzun fasilədən sonra, 15 ildən sonra Naxçıvana təbii qazın verilməsi təmin olunubdur. 15 il naxçıvanlılar qazsız yaşadılar. Çətin şəraitdə, qışda soyuqda, şaxtada yaşadılar, ancaq bütün bu çətinliklərə baxmayaraq, dözdülər və nəhayət biz Naxçıvana qazın verilməsinə nail olduq. Bir il bundan əvvəl İran ilə Azərbaycan arasında imzalanmış sazişə əsasən, böyük işlər görüldü, bütün müvafiq tədbirlər görüldü və bu günlərdə Naxçıvana qazın verilməsi təmin olundu. Deyə bilərəm ki, bu, tarixi bir hadisədir. Bu, Naxçıvan Muxtar Respublikasının inkişafına verilən çox böyük təkandır. Hər bir inkişafın təməlində enerji daşıyıcıları - qaz, elektrik enerjisi və digər yanacaq növləri dayanır. Onlar olmayan halda heç bir inkişaf mümkün deyil, heç bir yeni müəssisə yaradıla bilməz, heç bir bina tikilə bilməz. Çünki hər şey buna bağlıdır. Ümid edirəm ki, Naxçıvana verilən təbii qaz yaxın zamanlarda həm əhaliyə xidmət edəcək, həm də sənaye potensialının möhkəmlənməsində və güclənməsində öz rolunu oynayacaqdır. Eyni zamanda, Naxçıvan Elektrik Stansiyasında təmir-bərpa işləri aparılır və ümid edirəm ki, bir neçə aydan sonra stansiya işə düşəcəkdir. Stansiya təxminən 50 meqavat gücündədir. Gələn il Naxçıvanda 10 ədəd modul tipli elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Bu da haradasa, əlavə 90 meqavat elektrik enerjisi verilməsini təmin edəcəkdir. Bir sözlə, gələn il Naxçıvanda istehsal olunacaq elektrik enerjisinin həcmi haradasa, 140-150 meqavat səviyyəsinə çatacaqdır. Nəzərə almalıyıq ki, Vayxır su anbarında da kiçik həcmli su elektrik stansiyası tikilir. Bu gün isə Naxçıvanda yalnız 10 meqavat elektrik enerjisi istehsal olunur. Qalan hissəsi İrandan və Türkiyədən alınır. Yəni əlavə 140-150 meqavat gücün təmin edilməsi Naxçıvanda elektrik enerjisi problemini tamamilə aradan qaldırmalıdır və gələcəkdə onun davamlı inkişafına gözəl şərait yaradacaqdır. Bütün bu işlər bir məqsəd güdür. O da ondan ibarətdir ki, Naxçıvan daha da güclənsin, Naxçıvanda insanlar daha yaxşı yaşasınlar, onların bütün məsələləri öz həllini tapsın.

Bildiyiniz kimi, sosial sahəyə də böyük diqqət göstərilir və bu gün bu gözəl Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimi bunun çox bariz nümunəsidir. Qısa müddət ərzində, bir il ərzində bu diaqnostika mərkəzi tikilməlidir və burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bizim siyasətimiz həmişə sosial yönümlü olmuşdur. Heydər Əliyev siyasəti sosial yönümlü olub, mənim də siyasətim bundan ibarətdir. Çünki biz xalq üçün yaşayırıq, xalq üçün işləyirik və elə etməliyik ki, xalq bütün məsələlərdə özünü rahat hiss etsin. Heç bir çətinliyi olmasın.

Mən ümid edirəm ki, naxçıvanlılar xəstələnməyəcəklər, naxçıvanlılar çox sağlamdırlar. Amma adam hərdənbir xəstələnəndə də, gərək normal şəraitdə müayinədən keçsin, müalicə olunsun.

Burada dünyada mövcud olan ən yüksək avadanlıq quraşdırılacaqdır. Bu, həm memarlıq baxımından gözəl bina olacaq, eyni zamanda, burada cərrahiyyə şöbəsi də açılacaqdır. Ürək-damar xəstəlikləri müalicə ediləcək, süni böyrək aparatı, ən müasir diaqnostika avadanlığı olacaqdır. Bir sözlə, bundan sonra tibbi xidmət almaq üçün nə Bakıya, nə də xaricə getməyə ehtiyac qalmayacaqdır.

Sosial sahəni möhkəmləndirmək, gücləndirmək bizim böyük vəzifəmizdir. Eyni zamanda, bildiyiniz kimi, həkimlərin maaşı 30 faiz qaldırılıbdır. Bu meyillər davam edəcəkdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə bütün bu məsələlər öz həllini tapacaqdır. Ona görə iqtisadi inkişafın təmin olunması, Azərbaycanda işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması bizim prioritet məsələlərimizdir.

Mən çox şadam ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından dünyada lider dövlətdir. 2005-ci ilin on bir ayında bizim iqtisadiyyatımız 25 faiz artıbdır. Müqayisə üçün deyə bilərəm ki, ən inkişaf etmiş ölkələrdə bu göstərici 2-3 faizdir, bəlkə də o ölkələrlə Azərbaycanı müqayisə etmək düzgün olmaz, çünki həmin ölkələrdə bütün mümkün olan resurslardan artıq istifadə olunubdur. Amma, adətən, biz özümüzü keçmiş postsovet ölkələri ilə müqayisə edirik. Deyə bilərəm ki, MDB məkanında ümumi daxili məhsulun artımı orta hesabla 2005-ci ildə haradasa, 5, 6, 7 faiz olmuşdur. Azərbaycanda isə 25 faizdir. Sənaye istehsalı 30 faiz artıb, yoxsulluq 10 faiz azalıbdır. Gələn il də azalmalıdır, Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır. Son iki il ərzində 300 mindən artıq yeni iş yeri açılıbdır. Qarşımıza qoyduğumuz bütün proqramlar həyatda öz əksini tapır. Azərbaycanda uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı

Proqramı özünün nəticələrini verməkdədir və mən heç şübhə etmirəm ki, yaxın illərdə, yaxın gələcəkdə bu inkişaf daha da sürətlə gedəcəkdir.

Heydər Əliyevin neft strategiyası uğurla icra edilir. Bu gün təməlini qoyduğumuz diaqnostika mərkəzinin tikintisini də mən Azərbaycan Dövlət Neft Şirkətinə tapşırmışam. Bir müddət bundan əvvəl belə bir təşəbbüs irəli sürmüşdüm ki, Dövlət Neft Şirkəti Azərbaycanın bütün bölgələrində müasir diaqnostika-müalicə mərkəzləri inşa etməlidir. İndi bizim gəlirlərimiz artıb, Heydər Əliyevin neft strategiyası artıq öz gözəl nəticələrini verməkdədir. Bizim büdcəmiz artıq 4 milyard dollara çatıbdır. Belə olan halda, əlbəttə ki, bütün bu vəsaitlər ilk növbədə, sosial sahəyə yönəldilməlidir. Mən hesab edirəm ki, gələcəkdə bu proseslər daha da sürətlə gedəcəkdir. Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir, gələn il istismara veriləcəkdir. Ondan sonra Azərbaycan xəzinəsinə hər il milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsait xalqın rifah halının yaxşılaşmasına, Azərbaycanda güclü infrastrukturun yaranmasına, möhkəmlənməsinə yönəldiləcəkdir. Məktəblər, xəstəxanalar, yollar, elektrik stansiyaları tikmək, qaz xətləri çəkmək - bütün bunlar bizim planlarımızdadır. Son iki ilin təcrübəsi onu göstərir ki, qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunur. Biz öz işimizi proqram çərçivəsində aparırıq, düşünülmüş strategiya və taktika çərçivəsində aparırıq. Belə olan halda, nəticələr də var.

Düzdür, ölkədə problemlər də çoxdur.

Bu problemlərin əsası sosial xarakterli problemlərdir. Yoxsulluq, işsizlik – bunlar da həll edilir. Bunları həll etmək üçün güclü iqtisadiyyat olmalıdır. Bizim büdcəmiz gələn il 70 faiz artacaqdır. Onun böyük hissəsi maaşların qaldırılmasına, pensiyaların, tələbələrin təqaüdlərinin və digər kateqoriyadan olan insanların əmək haqlarının qaldırılmasına yönəldiləcəkdir. Minimum əmək haqqı Azərbaycanda ildə iki dəfə qaldırılır. Əlbəttə ki, bu səviyyə bu gün bizi qane edə bilməz. Çünki minimum əmək haqqı insanın minimum tələbatını ödəməlidir. Hələ ki, buna imkanımız yoxdur. Amma o da olacaqdır. Azərbaycanda artıq orta əmək haqqı 130-140 dollardır. MDB ölkələrinə nəzər salsaq görərik ki, biz ən qabaqcıl yerlərdəyik. Bir sözlə, Azərbaycanın uğuru, inkişafı üçün bütün lazımlı tədbirlər görülür, bütün proqramlar tərtib olunur və icra mexanizmləri də mövcuddur. Bunu etmək üçün siyasi iradə lazımdır, o da bizdə var. Xalqın dəstəyi lazımdır, o da var. Xalqla iqtidar arasında birlik lazımdır, o da var.

Azərbaycanda iqtisadi inkişafla bərabər, siyasi proseslər də çox uğurla gedir. Azərbaycanda sabitlik qorunub saxlanılır, Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. İki il bundan əvvəl, Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimində çıxış edərkən demişdim ki, mən Heydər Əliyev siyasətinə sadiq olacağam, bu yoldan heç vaxt dönməyəcəyəm və Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Bu gün mən hesab edirəm ki, iki il ərzindəki təcrübə, görülən işlər onu göstərdi ki, biz faktiki işlərlə, əməli addımlarla sübut etdik ki, bu gün Azərbaycanda bu siyasət yaşayır və əbədi yaşayacaqdır.

Hər bir ölkənin inkişafında ən mühüm rol oynayan başlıca amil sabitlikdir, əmin-amanlıqdır. Azərbaycanda bu, qorunub saxlanılır, Azərbaycan uğurla inkişaf edir. Azərbaycanda iqtisadi məsələlər həllini tapır və eyni zamanda siyasi proseslər də müsbət istiqamətdə gedir. Bu istiqamətdə atılmış çox dəyərli addım bu yaxınlarda keçirilmiş parlament seçkiləridir. Parlament seçkiləri Azərbaycanda demokratiyanın inkişafı, vətəndaş cəmiyyətinin, vətəndaş həmrəyliyinin möhkəmlənməsi işində çox mühüm bir hadisə idi, mühüm bir proses idi. Mən çox şadam ki, Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə keçdi. Seçkilər ərəfəsindəki, həm də seçkilərdən sonrakı bütün proseslər bir daha onu göstərdi ki, Azərbaycan xalqı öz seçiminə sadiqdir. Parlament seçkilərində bizim siyasətimizə verilən səslər, verilən dəstək bizi daha da gücləndirir. Mənə daha da böyük güc verir və bütün islahatları - siyasi və iqtisadi islahatları, sosial islahatları daha da inamla aparacağıq. Azərbaycan xalqının iradəsi parlament seçkilərində öz əksini tapdı. Azərbaycanlılar, Azərbaycan vətəndaşları real işə səs verdilər, real siyasətə səs verdilər, görülən işlərə səs verdilər. Boş vədlərə yox, yalan sözlərə yox, böhtana yox, uydurmaya yox, təxribata yox! Azərbaycan xalqı azərbaycançılığa səs verdi. Ona səs verdi ki, Azərbaycanın taleyi, Azərbaycanın müqəddaratı Azərbaycanda həll olunsun. Ona səs verdi ki, Prezident bu islahatları daha da cəsarətlə aparsın. Ona səs verdi ki, Azərbaycanda gedən bu müsbət işlər davam etdirilsin. İqtisadi sahədə, siyasi sahədə, sosial sektorda, ordu quruculuğunda, regionların inkişaf strategiyasında - haraya baxsaq bu inkişafı, bu irəliləyişi görərik. Mən istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin. Amma buna vaxt lazımdır. O vaxt da uzaqda deyildir.

Heydər Əliyevin Azərbaycan tarixində gördüyü işlərin, demək olar ki, hamısı bu gün davam etdirilir. Onun neft strategiyası Azərbaycana böyük uğurlar gətirəcək, böyük imkanlar açacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik. Xalq bizim bütün qərarlarımızda iştirak etməlidir, öz sözünü deməlidir və mən şübhə etmirəm ki, bundan sonra da belə olacaqdır.

Əziz dostlar mən bir daha sizi ürəkdən salamlayıram. Mən doğrudan da çox şadam ki, bu gün yenidən Naxçıvandayam, sizinlə birlikdəyəm. Naxçıvan hər bir azərbaycanlı üçün çox əziz, doğma yerdir. Mənim üçün çox əziz, doğma yerdir. Mənim atamın vətənidir, mənim vətənimdir. Biz hamımız çalışmalıyıq ki, Naxçıvan həmişə yaşasın, inkişaf etsin, çiçəklənsin!

Prezident seçkilərindən sonra bu, mənim Naxçıvana üçüncü səfərimdir. Bundan sonra bu səfərlər daha da çox olacaqdır, daha da böyük tədbirlərdə iştirak edəcəyik. Hər dəfə Naxçıvana gələndə ümid edirəm ki, yeni, gözəl obyektin açılışında, yaxud da ki, təməlqoyma mərasimində iştirak edəcəyik. Naxçıvan inkişaf edəcək, naxçıvanlılar daha da yaxşı yaşayacaqlar, Azərbaycan xalqı irəliyə gedəcəkdir!

Sağ olun!

(Dövlətimizin başçısının nitqi diqqətlə dinlənildi və dəfələrlə alqışlarla qarşılandı).

AZƏRTAC
2005, 20 dekabr

Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət

(20 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin hələ sağlığında burada ucaldılmış abidəsini ziyarət etdilər və gül dəstələri qoydular.

İranın dövlət başçısı ulu öndər Heydər Əliyevin ölkələrimiz arasında dostluq münasibətlərinin yaranmasında və inkişaf etdirilməsindəki xidmətlərini xatırladaraq, dahi şəxsiyyətə Allahdan rəhmət dilədi.

Sonra dövlət başçıları Əcəmi seyrəngahını gəzdilər. Onlar açıq səma altında yaradılmış muzeyə maraqla baxdılar. Burada Naxçıvanın qədim tarixinə aid nadir tapıntılar, müxtəlif eksponatlar Azərbaycanın tarixi, mədəniyyəti haqqında ətraflı təsəvvür yaradır. Xalqımızın qədim mədəniyyətə malik olduğunu sübut edən bu eksponatlar təkcə Azərbaycan xalqının yox, bütövlükdə Şərq xalqlarının tarixini yaşadır.

Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII əsrdə yaratdığı və təkcə milli memarlığımızın deyil, ümumən Şərq memarlığının incilərindən sayılan Mömünə xatın türbəsini seyr etdilər. Prezidentlərə Atabəylər dövlətinin tarixinə dair ekspozisiya barədə məlumat verildi. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgiz, onun arvadı Mömünə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan buradakı sərdabədə dəfn olunmuşlar.

Naxçıvan Dövlət Xalça Muzeyi, burada saxlanılan el sənəti nümunələri ilə tanışlıq da dövlət başçılarında xoş təəssürat yaratdı. Bildirildi ki, Azərbaycanın qədim xalçaçılıq sənətinin ənənələri bu gün də yaşadılır.

Gəzinti başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə İran Prezidenti Mahmud Əhmədinejad sağollaşdılar və İranın dövlət başçısı öz ölkəsinə yola düşdü.

X X X

Əcəmi seyrəngahına toplaşan sakinlər Prezident İlham Əliyevə yaxınlaşaraq onunla görüşdülər, muxtar respublikanın sosial-iqtisadi inkişafına göstərdiyi böyük diqqət və qayğıya, o cümlədən təbii qazın verilməsinə görə, habelə ulu öndərin siyasətini davam etdirdiyinə görə dərin minnətdarlıqlarını bildirdilər.

Dövlətimizin başçısı səmimi münasibətə görə təşəkkürünü bildirərək, tarixi hadisə - Naxçıvana mavi yanacağın verilməsi münasibətilə sakinləri bir daha təbrik etdi, muxtar respublikada gedən abadlıq, quruculuq işlərini, iqtisadi inkişafı yüksək qiymətləndirdi və bu qədim diyarda yaşayan insanlara bundan sonra da diqqət göstəriləcəyini vurğuladı.

AZƏRTAC
2005, 20 dekabr

Naxçıvana təbii qazın verilməsinə həsr olunmuş təntənəli mərasim Azərbaycan və İran prezidentləri mərasimdə iştirak etmişlər

(20 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə dekabrın 20-də təntənəli mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad mərasimdə iştirak edirdilər.

"Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətin yeni binası qarşısına toplaşan sakinlər dövlət başçılarını alqışlarla qarşıladılar.

Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad ilk qazın verilməsini bildirən məşəli alovlandırdılar. Bununla da Naxçıvan əhalisinin təbii qaza olan 15 illik həsrətinə son qoyuldu. Sakinlər bu tarixi hadisəni böyük sevinclə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Mahmud Əhmədinejad "Naxçıvanqaz" MMC-nin binasının rəmzi açılışını bildirən lenti kəsdilər, burada İrandan Naxçıvana çəkilmiş qaz xəttinin baş planına, kəmərin keçdiyi ərazinin xəritəsinə, eləcə də evlərdə quraşdırılacaq qaz piltələrinə və sayğaclara baxdılar.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad mərasimdə çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bu gün çox tarixi bir gündür, çox gözəl bir gündür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu, 15 ildən sonra Naxçıvana qaz verildi. Bu, çox böyük hadisədir, tarixi bir hadisədir. Bu münasibətlə mən sizin hamınızı təbrik edirəm.

Bir il bundan əvvəl iki dost, qardaş ölkə arasında saziş imzalandı ki, mübadilə yolu ilə Naxçıvan qazla təmin olunsun. Bir ildən sonra biz bu gözəl mərasimi keçiririk. Bu gün bizimlə bərabər bu mərasimdə İran İslam Respublikasının Prezidenti hörmətli dostum, qardaşım Mahmud Əhmədinejad iştirak edir. Xahiş edirəm, onu salamlayaq.

Naxçıvana qazın verilməsi iki ölkə arasında olan əlaqələrin təzahürüdür, onun nəticəsidir. İranla Azərbaycan arasında çox yaxın münasibətlər vardır. Bu gün keçirdiyimiz görüşdə bir daha əmin olduq ki, həm siyasi, həm iqtisadi, mədəni, həm də bütün başqa sahələrdə bizim aramızda qarşılıqlı anlaşma var, inam var, gözəl əməkdaşlıq var. Bu, çox vacibdir. Çünki qonşular arasında münasibətlər məhz belə olmalıdır. Məhz bu münasibətlərin nəticəsində birgə layihələr icra olunur, birgə məsələlər öz həllini tapır.

Naxçıvana İrandan təbii qazın verilməsi bu istiqamətdə atılmış çox böyük bir addımdır. Ancaq son addım deyildir. Bundan sonra böyük birgə layihələr icra olunacaq, enerji mübadiləsi məsələsi öz həllini tapacaqdır. Bilirsiniz ki, İrandan gələn qazla işləyən elektrik stansiyaları bu yaxınlarda işə düşəcəkdir və biz Naxçıvanı elektrik enerjisi ilə tamamilə təmin etmək iqtidarında olacağıq. Bu, bir daha onu göstərir ki, siyasi iradə olan yerdə, qarşılıqlı maraq olan yerdə və dostluq, qardaşlıq münasibətləri olan yerdə istənilən məsələ öz həllini tapır.

Bu gün təbiət də bizim tərəfimizdədir. Mən dünən Naxçıvana uçanda bir neçə saat Bakıda gözlədim. Çünki Bakıda hava buludlu idi, dumanlı idi. Bu gün də fikirləşirdim ki, bizim qonağımız gələndə görəsən hava necə olacaq, problem yaranmayacaq? Görürsünüz ki, hava da açıldı. Bu, gözəl bayramdır. Bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Naxçıvan bundan sonra da inkişaf etsin, çiçəklənsin, möhkəmlənsin. Naxçıvanda insanlar yaxşı yaşasınlar, onların sosial problemləri öz həllini tapsın. Elektrik enerjisi, qaz təchizatı, sosial infrastrukturun inkişafı - bütün bunlar görülən işlərin nəticələridir.

Əziz naxçıvanlılar, bu bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

İran Prezidenti Mahmud Əhmədinejadın çıxışı

-Bismillahir-rəhmanir-rəhim!

Mən çox şadam ki, bir memorandum və razılaşmanın nəticəsinə yetişməyin bayramında sizin yanınızdayam və bu mərasimdə iştirak edirəm. Çox şadam ki, indi burada qaz şölələndi və bundan sonra Naxçıvan əhalisi bu nemətin rahatlığından tam istifadə edəcəkdir. Mənim burada olmağım iki ölkə arasında olan möhkəm, dərin əlaqələrin daha da genişlənməsini göstərir. Bu əlaqələr nəticəsində iki ölkənin xalqları, hökumətləri arasında münasibətlərin günbəgün genişlənməsinin şahidi olacağıq.

On il bundan əvvəl Naxçıvanda bir görüşüm olubdur. Çox istərdim ki, Naxçıvana yenə də gəlim və buranın inkişafının şahidi olum. Allaha şükür olsun ki, sizin respublikanız günbəgün inkişafdadır. Buna görə sizi və əziz qardaşımı, cənab Əliyevi təbrik edirəm.

Bu gün cənab Əliyevə və mətbuat nümayəndələrinə də dedim ki, biz Azərbaycanla əlaqələrin genişlənməsinə heç bir məhdudiyyət qoymuruq. İstəyirdim, Naxçıvana gəlim və Sizinlə görüşüm. Allaha şükür edirəm ki, mənim niyyətimi gerçəkləşdirdi və bu istəyimə çatdım.

Çox sevinirəm ki, sizin şad üzlərinizi görürəm və sizi yaxından ziyarət edirəm. Arzulayıram ki, iki ölkə arasında səfərlər daha da artsın və daha yaxşı razılaşmalara nail olaq.

Sizi təbii qazın verilməsi ilə əlaqədar bir daha təbrik edirəm. Mübarək olsun və sizin üçün xeyirli olsun deyir, hamınızı Allaha tapşırıram.

X X X

Dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın şərəfinə ziyafət verildi.

AZƏRTAC
2005, 20 dekabr

İctimaiyyətin nümayəndələri ilə görüş

(20 dekabr 2005-ci il)

Mətbuat konfransı başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad muxtar respublika Ali Məclisinin binası qarşısında Naxçıvan şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşdülər. Ağsaqqallar, gənclər, məktəblilər dövlət başçılarını səmimiyyətlə salamladılar və onların qədim Naxçıvana gəlmələrindən sevinc duyduqlarını bildirdilər.

Prezident Mahmud Əhmədinejad Naxçıvan sakinlərinə təşəkkür edərək, müasir dünyada elmə, mədəniyyətə, təhsilə yüksək qiymət verildiyini söylədi, gələcək nəsillərin savadlı olması üçün gənclərin yaxşı oxumasını tövsiyə etdi. O, yaxşı təhsil almaq üçün şəraitin olmasının zəruriliyini vurğulamaqla yanaşı bildirdi ki, müəyyən dövrdən sonra dövləti indiki gənclərin idarə etməsi üçün onların savadlı olması, yüksək təhsil alması vacibdir.

Prezident İlham Əliyev Azərbaycanda elmə, təhsilə, gənclərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışdı. Dövlətimizin başçısı məhz bu məqsədlə ən ucqar kəndlərdə, o cümlədən ötən gün Şərur rayonunun Ayrınc kəndində müasir tələblərə cavab verən orta məktəb binasının istifadəyə verildiyini xatırlatdı, Azərbaycanın məktəblərinin kompüterlərlə təchiz olunması üçün tədbirlər görüldüyünü bildirdi.

AZƏRTAC
2005, 20 dekabr

Ali Baş Komandan İlham Əliyev "N" hərbi hissəsində olmuşdur

(20 dekabr 2005-ci il)

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Silahli Qüvvələrin Ali baş komandanı İlham Əliyev dekabrın 20-də səhər Naxçıvandakı "N" hərbi hissəsində olmuşdur.

Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Ali baş komandana hərbi hissənin görüşə hazır olması barədə raport verdi. Əsgər paltarı geymiş oğlan və qızlar Azərbaycan Prezidentini salamladılar, gül dəstələri təqdim etdilər.

Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev şəxsi heyətin Ali baş komandanın gəlişi şərəfinə düzülməsi barədə raport verdi. Azərbaycan Prezidenti əsgərləri salamladı. Hərbi orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı İlham Əliyev hərbi hissəyə döyüş bayrağını təqdim etdi, şəxsi heyəti bu münasibətlə təbrik etdi.

Sonra şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçdi. Ali baş komandan hərbi hissənin döyüş texnikası, əsgər yataqxanası, tədris otaqları ilə tanış oldu, Heydər Əliyev guşəsinə baxdı.

Prezidentə məlumat verildi ki, hərbi hissənin yeni binasında əsgər yeməkxanası, tibb məntəqəsi, poçt vardır, əsgərlər üçün lazım olan bütün şərait yaradılmışdır. Hazırda hissənin ərazisində yeni stadion tikilir, idman qurğuları quraşdırılır. Şəhərcikdə yaşayan hərbçi ailələri üçün yeni yaşayış binası inşa olunmuş, istirahət parkı salınmışdır. Hərbi hissənin ərazisində 10 minə qədər bəzək və meyvə ağacları əkilmişdir.

Sonra Azərbaycan Prezidenti, Ali baş komandan İlham Əliyev hərbi hissənin növbətçi divizionunda hava hücumundan müdafiə sistemi ilə tanış oldu, silahlara, texnikaya baxdı, döyüş növbəsində duran hərbçilərlə görüşdü.

AZƏRTAC
2005, 20 dekabr

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasi Ali Məclisində müşavirə

(20 dekabr 2005-ci il)

Xəbər verdiyimiz kimi, dekabrın 19-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir.

Müşavirəni Prezident İlham Əliyev giriş nitqi ilə açdı.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Axşamınız xeyir.

Bu gün Naxçıvanda Naxçıvan üçün, Azərbaycan üçün bir neçə tədbirdə birlikdə iştirak etdik. Bir daha gördüm ki, Naxçıvan inkişaf edir, burada böyük işlər görülür, həm respublikanın iqtisadi potensialı güclənir, yeni müəssisələr, fabriklər, iş yerləri açılır, həm də sosial xarakterli tədbirlər, tikinti işləri çox geniş vüsət alıbdır. Bu, məni çox sevindirir. Çünki Azərbaycanın inkişafı məhz bundadır: iqtisadi potensialın möhkəmlənməsi və sosial problemlərin həlli. Hər iki istiqamətdə Naxçıvanda çoxlu uğurlar var və mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm.

Keçən il mən iki dəfə Naxçıvanda olmuşdum. Bir ildən artıqdır ki, gəlmişdim buraya və bu müddətdə böyük dəyişiklikləri görürəm: yeni tikintilər, müasir, çox böyük zövqlə tikilmiş binalar, abadlıq, quruculuq işləri. Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var.

Xüsusilə, mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm. Bunu təkcə mən yox, Naxçıvana gələn hər bir qonaq, hər bir xarici nümayəndə, vətəndaş qeyd edir. Bu, məni çox sevindirir. Mən əminən ki, gələcəkdə bu gözəl işlər davam etdiriləcəkdir.

Bu illərdə Naxçıvanın gələcək perspektivləri müəyyən olunur. Hamımız bilirik ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana həmişə böyük diqqət, qayğı göstərirdi. Məhz onun təşəbbüsü ilə bu nəhəng, böyük layihələr ərsəyə gəldi. Əlbəttə, biz hamımız çalışmalıyıq, əlimizdən gələni edək ki, Naxçıvan daha da möhkəmlənsin, müasirləşsin, zənginləşsin və burada güclü potensial yaransın.

Mən bu gün qeyd etdim ki, hər bir bölgənin inkişafında enerji daşıyıcılarının rolu ən önəmli xarakter daşıyır. Bu baxımdan 2005-2006-cı illər burada ciddi dönüş illəri olacaqdır. Çünki gələn il təxminən 140-150 meqavat əlavə gücün işə salınması böyük bir nailiyyətdir. Deyə bilərəm ki, Azərbaycanda bütövlükdə son illər ərzində, 5-6 ildə təxminən 500-600 meqavat əlavə güc işə salınıbdır. Naxçıvanda isə bir ildə 140-150 meqavat olacaqdır. Buraya İranla mübadilə yolu ilə təbii qazın verilməsi həm sosial, həm iqtisadi amildir. Eyni zamanda, mən göstəriş verdim ki, Naxçıvanda iki asfalt zavodu qurulsun və yolların salınması üçün lazım olan texnika da gətirilsin. Mənim bu məsələyə dair müvafiq sərəncamım var, vəsait ayrılıbdır və burada yol tikintisi daha da sürətlə gedəcəkdir. Bilirsiniz ki, bu, indi bizim prioritet məsələmizdir. Gərək hər bir ən ucqar kəndə yol çəkilsin. Bunu etmək üçün əlbəttə ki, texnika, vəsait lazımdır. Onların hər biri var. Bu gün Azərbaycanın iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Bizim büdcəmiz artır. Təbii ki, bütün infrastruktur layihələrinə ayrılmış xərclər artır. Sosial məqsədlərə ayrılmış xərclər artır. Maaşlar, pensiyalar və sair qaldırılır.

Naxçıvan üçün önəmli olan digər məsələ Azərbaycanın qalan ərazisi ilə hava körpüsünün normal fəaliyyətidir. Bəzi hallarda buna təbiət də müdaxilə edir. Məsələn, bu gün mən də, haradasa, 3 saat gecikdim. Çünki hava dumanlı idi, təyyarə gələ bilmirdi. Ancaq bu, əlbəttə, təbiət məsələsidir. Bu da faktdır ki, Azərbaycanda, o cümlədən Naxçıvanda iqtisadi-sosial inkişaf gücləndikcə, təbii ki, uçuşların sayı da artmalıdır. Mənə verilən məlumata görə, indi gündə 4 reys vardır. Mən göstəriş verdim ki, bu uçuşların sayı artırılsın. Bu gün "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoruna göstəriş verdim ki, bu məsələyə baxılsın. O, mənə dedi ki, artıq məsələ öz həllini tapıbdır.

CAHANGİR ƏSGƏROV ("Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru): Bəli, cənab Prezident.

İLHAM ƏLİYEV: Nə vaxtdan artacaqdır?

CAHANGİR ƏSGƏROV: Yanvarın 1-dən.

İLHAM ƏLİYEV: Əlbəttə, gələcəkdə bu da kifayət etməyəcəkdir. Çünki mən əminəm ki, uçuşlar daha da çox lazım olacaqdır. Bəlkə bu məqsədlə əlavə təyyarələr də alınmalıdır. Hər halda, bu məsələyə də baxarsınız.

Bu gün həm Şahbuz rayonunda, həm də Naxçıvan şəhərində sosial infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimləri keçirilmişdir. Bu da çox gözəl haldır, ümumi inkişafın göstəricisidir. Naxçıvanda ən müasir standartlara cavab verəcək yeni Diaqnostika-Müalicə Mərkəzi tikiləcəkdir. Şahbuzda isə ucqar dağ kəndində çox gözəl məktəb tikilibdir, bu gün onun açılışını etdik. Gənclik Mərkəzi, Kitab evi - bütün bunlar məni çox sevindirir. Bir daha demək istəyirəm ki, bu, inkişafın təzahürüdür, əlamətidir.

Azərbaycanın bütün bölgələrində inkişaf gedir. Biz bunu təmin etmək üçün çox dəyərli proqramlar təsdiq etmişik və onları həyata keçiririk. Əlbəttə, yeni məsələlər də ortaya çıxır. Çünki heç bir proqramda bütün məsələləri əks etdirmək mümkün deyildir. Proqramlar konseptual xarakter daşıyır, eyni zamanda, təbii ki, orada görüləcək konkret işlər də təsdiq edilir. Ancaq həyat bir yerdə dayanmır, yeni məsələlər ortaya çıxır, həllini tələb edən yeni məqamlar ortaya çıxır. Ona görə mən istərdim ki, bugünkü toplantıda bunları müzakirə edək və əgər ehtiyac olarsa, əlavə tədbirlərin görülməsi üçün lazımi addımları ataq.

Yəqin yadınızdadır, keçən il sentyabr ayında biz Naxçıvana qazın verilməsi məsələsini müzakirə etdik. O vaxt haradasa bir ay keçmişdi ki, İranla bizim aramızda müqavilə imzalanmışdı. Biz dərhal burada müşavirə keçirdik, "Azəriqaz"a, yerli orqanlara göstərişlər verildi və bir il ərzində artıq buna nail olduq. İndi, 15 illik fasilədən sonra Naxçıvana təbii qazın verilməsinə başlanıbdır.

Onu da bilirsiniz ki, bütün abunəçilərə pulsuz, hədiyyə olaraq qaz plitələri də verildi. Həm hündür mərtəbəli binalarda, həm də fərdi evlərdə yaşayanlara. "Azəriqaz"ın sədri mənə məruzə edərək demişdi ki, belə bir xahişlər, müraciətlər olubdur. Dedim ki, bunu mütləq həll edin.

Biz o müşavirədə qazın verilməsi məsələsini müzakirə edirdik və yadımdadır, demişdim ki, bu, birinci mərhələdir. Birinci mərhələ ondan ibarətdir ki, keçmişdə qazlaşdırılmış evlərə, məntəqələrə qazın verilməsinə nail olaq. Ondan sonra, ikinci mərhələdə qazlaşdırılmamış məntəqələrə, kəndlərə qazın verilməsi olacaqdır. Biz bu gün birinci mərhələni demək olar ki, həll etdik. Ona görə indi ikinci mərhələ gəlir. Sonra üçüncü mərhələ həll olunacaqdır. Beləliklə, bütün muxtar respublika sakinləri təbii qazla təmin olunacaqlar. Ona görə, biz bu gün gərək bu məsələ ilə məşğul olaq.

Bir sözlə, görülən bütün işlər, əldə olunmuş uğurlar bir daha onu göstərir ki, biz düz yoldayıq. Naxçıvanda görülən işlər, əldə edilmiş uğurlar bir daha bunu sübut edir. Geniş abadlıq, quruculuq işləri gedir və biz hamımız çalışmalıyıq əlimizdən gələni edək ki, Naxçıvana kömək göstərək.

Bilirsiniz ki, mən bütün nazirlərə göstəriş vermişəm ki, onlar ulu öndər Heydər Əliyevin tapşırığını unutmasınlar. Çünki Heydər Əliyev tapşırıq vermişdi ki, bütün nazirlər vaxtaşırı Naxçıvana gəlməlidir, muxtar respublikanın rəhbərliyi ilə daim əlaqə saxlamalıdır və onlardan tələb olunan bütün işləri görməlidirlər. Amma sonra eşitdim ki, bir fasilə yarandı. Ona görə ciddi göstəriş verdim ki, bu praktika bərpa olunsun. Bütün qurumlar, nazirliklər gərək bu işdə fəal iştirak etsinlər.

İndi isə mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova söz verirəm.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxış

- Möhtərəm cənab Prezident!

Ümummilli liderimizin yolu ilə gedən Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu gün Sizin rəhbərliyinizlə hərtərəfli inkişafa nail olmuşdur. Qəbul etdiyiniz "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, bu inkişaf dinamik xarakter almışdır və hər il artan sürətlə davam edir.

Muxtar Respublikanın inkişafını əks etdirən göstəricilər son iki ildə daha da yaxşılaşmışdır. Təkcə bir faktı qeyd edim ki, cari ilin 11 ayında ümumi daxili məhsul istehsalında, sənaye, tikinti və kənd təsərrüfatında, xarici ticarət dövriyyəsində əldə olunan göstəricilər 2004-cü ilin illik göstəricilərini ötüb keçmişdir. Bu ilin 11 ayında ümumi daxili məhsulun həcmi ötən ilin 11 ayı ilə müqayisədə 25,1 faiz artaraq, 1 trilyon 339 milyard 775 milyon manat olmuşdur.

Təbii ehtiyatlardan və imkanlardan istifadə olunmaqla sənayenin inkişaf etdirilməsi diqqət mərkəzindədir. 11 ayda 190 milyard 753 milyon manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da ötən ilin illik göstəriciləri ilə müqayisədə 62 milyard 978 milyon manat çoxdur. Yeni emal və sənaye

müəssisələrinin tikilməsi davam etdirilir. İlin əvvəlindən bəri 14 müəssisə tikilmiş, 6 istehsal sahəsində isə inşaat işləri davam etdirilir.

Bu ilin 11 ayında 14 sənaye müəssisəsi istifadəyə verilmiş, bunlarda 259 yeni iş yeri açılmışdır. 6 sənaye müəssisəsinin tikintisi isə davam etdirilir. Tikinti sektorunda işlərin həcmi hər il artır. Bu ilin əvvəlindən bəri tikintidə bütün maliyyə mənbələri hesabına 506 milyard 791 milyon manatlıq sərmayədən istifadə olunmuşdur. Bu, 2004-cü ilin illik göstəricilərindən 105 milyard 810 milyon manat çoxdur.

Hər il olduğu kimi, bu il də məktəblərin tikintisi diqqət mərkəzində saxlanmış, 3724 şagird yerlik 16 orta məktəb binası tikilmiş, 594 şagird yerlik 1 orta məktəb binası isə əsaslı təmir olunmuşdur. Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusu tikilmiş, Milli Elmlər Akademiyası Bioresurslar İnstitutunun və Naxçıvan Musiqi Kollecinin binaları əsaslı təmir olunmuşdur.

Əhalinin sağlamlığının qorunmasına diqqət artırılmışdır. Bu il Kəngərli rayonunda 40 çarpayılıq yeni xəstəxana binası, 15 kənddə tibb məntəqələri tikilmiş, 11 kənddə sağlamlıq mərkəzləri yaradılmış, muxtar respublika Uşaq xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin binaları yenidən qurulmuşdur. Culfa rayonunda "Darı dağ" arsenli su müalicəxanası tikilib istifadəyə verilmişdir.

Mədəniyyətin inkişafı da diqqət mərkəzindədir. Naxçıvan şəhərində yeni Kitab evi tikilmiş, Ordubad rayon mədəniyyət evi, Yusif Məmmədəliyevin ev muzeyi, Naxçıvan şəhərində Gənclik Mərkəzinin binası əsaslı təmir olunmuşdur. Culfa rayonunda Xanəgah abidə kompleksi, Naxçıvandakı tarixi cümə məscidi əsaslı təmir və bərpa olunur. Heydər Əliyev muzey kompleksində yenidənqurma işləri aparılır.

Bu ilin 11 ayında 37 inzibati bina tikilmiş, 28-i isə əsaslı təmir olunmuşdur. Qaçqın və məcburi köçkünlər üçün 100 fərdi yaşayış evi tikilərək istifadəyə verilmişdir. Müharibə əlilləri üçün Naxçıvan şəhərində 36 mənzilli yaşayış binası, ayrı-ayrı rayonlarda 3 fərdi mənzil tikilmişdir.

Əhali tərəfindən tikilən fərdi yaşayış evlərinin ümumi sahəsi 2004-cü ilin 11 ayı ilə müqayisədə 45,5 faiz artaraq, 40 min 267 kvadratmetr olmuşdur.

Yolların təmirinə və yeni yolların salınmasına diqqət artırılmışdır. Naxçıvan şəhərinin Heydər Əliyev prospektində və Nizami küçəsində asfalt örtüyünün təzələnməsi başa çatmışdır. Culfa-Ordubad magistral avtomobil yolu bərpa olunur. 3 körpü tikilərək, 1 körpü isə əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Ümumiyyətlə, 100 kilometrə yaxın şəhər, kənd yollarına və magistral yola yeni asfalt salınmışdır.

15 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında energetika, nəqliyyat və rabitə sektorlarının fəaliyyətindən çox şey asılıdır. Cari ildə energetika sektorunun inkişaf etdirilməsi, əhalinin elektrik enerjisi və təbii qazla təminatının yaxşılaşdırılması sahəsində mühüm işlər görülmüşdür. Ölkə Prezidentinin himayəsi ilə İrandan Naxçıvana təbii qazın nəqli bərpa olunmuşdur. Culfa-Naxçıvan yüksəktəzyiqli magistral qaz kəməri, Naxçıvan-Cəhri kəmərinin, habelə şəhərdaxili qaz xətlərinin çəkilişi başa çatdırılmış, çoxmərtəbəli binalarda daxili qaz xətləri çəkilmişdir. Həmçinin bütün rayon mərkəzlərini mavi yanacaqla təmin etmək üçün mövcud qaz xətləri əsaslı təmir olunmuşdur.

Möhtərəm Prezident!

Ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə əfsanə sayılan Naxçıvana qaz kəmərinin çəkilməsini reallığa çevirdisə, bu gün Siz bu siyasətin tükənməz yaradıcı gücünü bir daha nümayiş etdirdiniz: mürəkkəb geosiyasi şəraitə baxmayaraq, Naxçıvana yeni təbii qaz kəməri çəkməklə bu qədim yurdun xilasına imza atdınız. Bu həyati əhəmiyyətli məsələyə göstərdiyiniz böyük diqqət və qayğıya görə Sizə bir daha Naxçıvan əhalisinin minnətdarlığını çatdırıram.

Muxtar respublikanın elektrik təchizatını yaxşılaşdırmaq məqsədi ilə mövcud istilik elektrik stansiyasında turbinlərin qaz yanacağına keçirilməsini təmin etmək üçün tədbirlər görülür. Heydər Əliyev su anbarında 4,5 meqavat gücündə su elektrik stansiyasının tikintisi yaxın vaxtlarda başa çatacaqdır.

Türkiyə Respublikasından daxil olan elektrik enerjisinin istifadəçilərə yüksək keyfiyyətlə və minimum itki ilə verilməsini təmin etmək üçün Şərur rayonunda 80 meqavat gücündə ikidövrəli yeni transformator yardımçı stansiyası tikilmiş, Sədərək rayonunda 10, Babək rayonunda isə 16 meqavat gücü olan yeni yardımçı stansiyada tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

Cari ilin 11 ayında nəqliyyat sektorunda yük və sərnişin daşımalarında əhəmiyyətli artım müşahidə olunmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə yük və sərnişin daşınması müvafiq olaraq 6,3 faiz və 12,7 faiz artmışdır.

Rabitə müəssisələri də əhaliyə və təşkilatlara göstərilən xidmətin həcmini artırmışdır. On bir ayda 10 milyard 79 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da ötən ilin 11 ayı ilə müqayisədə 1 milyard 726 milyon manat çoxdur. Avtomat telefon stansiyalarının nömrə tutumu 41200-ə çatmışdır.

Muxtar Respublikada kəndlərin inkişafı əsas diqqət yetirilən sahələrdən biridir. Əhalinin 70 faizdən çoxu kənddə yaşayır. Ümumi daxili məhsul istehsalının üçdə biri kənd təsərrüfatının payına düşür. Bu sahənin inkişafı istər əhalinin zəruri məhsullara olan tələbatının ödənilməsində, istərsə də mövcud emal müəssisələrinin ahəngdar işinin təmin olunmasında böyük əhəmiyyətə malikdir. Ona görə də muxtar respublika iqtisadiyyatında aqrar sektorun inkişafına üstün istiqamət verilir. Təkcə bu ilin 11 ayı ərzində 2004-cü ilin illik göstəricisi ilə müqayisədə 34 milyard 477 milyon manat çox, yəni 424 milyard 751 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Hər il olduğu kimi, bu il də taxılçılığın inkişafı aparıcı sahə kimi qalmışdır. 2005-ci ildə 24 min 150 hektar sahədən 93 min 206 ton taxıl götürülmüş, məhsuldarlıq hər hektardan 38,6 sentner olmuşdur. Ötən ilin göstəriciləri ilə müqayisədə taxıl istehsalı 9 min 650 ton artmışdır.

Taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına da diqqət yetirilir. Cari ildə kartof əkilmiş 1990 hektar sahədən 26 min 318 ton və ya hər hektardan 132 sentner məhsul götürülmüşdür. Məhsul istehsalı ötən illə müqayisədə 9 min 260 ton, məhsuldarlıq isə 25,8 sentner artmışdır.

2005-ci ilin 11 ayında meyvə bağlarından 36 min 432 ton meyvə yığılmışdır ki, bu da 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. Muxtar respublikada istehsal olunmuş meyvə və tərəvəzin yerli tələbatdan çox olması onun ixracına da imkan vermişdir. Belə ki, bu ilin 11 ayında 843 ton meyvə-tərəvəz ixrac olunmuşdur.

Muxtar respublikada bitkiçiliklə yanaşı, heyvandarlıqda da inkişaf sürəti yüksəkdir. 2005-ci ilin ötən dövrü ərzində qaramalın sayı keçən ilin müvafiq dövründəkindən 7795 baş artaraq 91 min 880 başa çatmış, davarların sayı isə 69 min 885 baş artaraq 574 mindən çox olmuşdur.

Bunun sayəsində muxtar respublikanın daxili bazarında heyvandarlıq məhsullarının qiyməti sabit olaraq qalır.

Bütövlükdə kənd təsərrüfatının inkişafını stimullaşdıran əsas amil bu sahə üzrə emal müəssisələrinin yaradılması hesabına tələbatın artmasıdırsa, ikinci tərəfdən yeni texnikaların alınaraq gətirilməsi və meliorasiya tədbirlərinin görülməsidir.

Təkcə 2005-ci ildə muxtar respublikaya 14 ədəd kombayn, 11 ədəd traktor, 9 ədəd kotan, ümumiyyətlə 55 adda kənd təsərrüfatı texnikası gətirilərək, lizinq yolu ilə mülkiyyətçilərə verilmişdir.

Kənd təsərrüfatında meliorasiya işlərinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi davam edir. 2005-ci ilin ötən dövrü ərzində muxtar respublikada 4 yeni nasos stansiyası tikilmiş, 2 nasos stansiyası əsaslı təmir olunmuş, 5 subartezian quyusu qazılmışdır. Bu müddətdə 3 kəhriz bərpa olunmuşdur. 3 kəhrizdə isə bərpa işləri davam etdirilir. Naxçıvançay üzərində inşa olunan Heydər Əliyev su anbarı 16 min 830 hektar sahənin suvarılmasına imkan verəcəkdir ki, bunun da 6 min 919 hektarı əkin dövriyyəsinə yeni cəlb olunan torpaqlardır. Bu isə əlavə məhsul istehsalı, yeni iş yerləri deməkdir.

Hazırda muxtar respublikada dağ kəndlərinin inkişafı, zəruri infrastrukturun yaradılması diqqət mərkəzindədir. Yollar çəkilir, körpülər salınır, tikilən məktəblərdə bir qayda olaraq həkim məntəqələri də istifadəyə verilir. Dağlıq ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi üçün müxtəlif layihələr həyata keçirilir, kənd əhalisinə kreditlər, arı ailələri, məhsuldar toxum sortları, müxtəlif meyvə tingləri, kənd təsərrüfatı alətləri verilir.

Muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılmasına, özəl bölmənin inkişafına hərtərəfli yardım göstərilir. Həyata keçirilən islahatlar öz nəticəsini verməkdədir. Təkcə bir faktı göstərmək kifayətdir ki, cari ilin 11 ayında ümumi daxili məhsulun 81 faizi özəl bölmədə istehsal olunmuşdur. Sənayedə özəl bölmənin payı 72 faiz, kənd təsərrüfatında 99 faiz, nəqliyyatda 78 faiz, ticarətdə 99,9 faiz təşkil etmişdir. Bütün bu görülən işlərin mərkəzində bir məqsəd dayanır: əhalinin rihaf halının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, məşğulluq səviyyəsinin yüksəldilməsi.

Yeni iş yerlərinin açılması ilə əlaqədar qarşımıza qoyduğunuz vəzifələrin icrası olaraq məlumat vermək istəyirəm ki, 2003-cü il oktyabrın 1-dən 2005-ci ilin oktyabrın 1-dək olan dövrdə 16 min 65 yeni iş yeri yaradılmışdır. Bunun 7716-sı 2005-ci ilin 11 ayı ərzində açılmışdır. Bunlardan 3935-i daimi iş yerləridir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması sosial-iqtisadi inkişafın əsas göstəricisidir. Əgər 2004-cü ilin 11 ayında muxtar respublikada əhalinin pul gəlirlərinin həcmi 948 milyard 259 milyon manat olmuşdusa, cari ilin 11 ayında nominal pul gəlirlərinin həcmi 303 milyard manatdan çox artaraq, 1 trilyon

251 milyard 890 milyon manat təşkil etmişdir. Adambaşına pul gəlirlərinin həcmi isə 3 milyon 341 min manata çatmışdır.

Antiinflyasiya tədbirləri ilə əlaqədar olaraq, hər həftənin şənbə günləri Naxçıvan şəhərində kənd təsərrüfatı məhsullarının satış-yarmarkası təşkil edilmişdir. Bunun nəticəsində əhali kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən ucuz qiymətə əldə edə bilmişdir. Cari ilin iyun ayından etibarən keçirilən hər yarmarkada istehlakçılara 60-70 milyon manatlıq kənd təsərrüfatı məhsulu satılmışdır. Bu gün muxtar respublikada orta aylıq əmək haqqı 426 min manat təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 27,8 faiz çoxdur.

Cənab Prezident, Sizin tərəfinizdən minimum əmək haqqının 3 dəfə qaldırılması, həmçinin ayrı-ayrı kateqoriya inzibati orqan işçilərinin, alimlərin, aspirantların, ali və orta ixtisas təhsil məktəblərinin tələbə və şagirdlərinin təqaüdlərinin, habelə elmi və fəxri adlara görə verilən təqaüdlərin artırılması muxtar respublikada 40 min 859 nəfərə şamil olunmuşdur.

Aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin artmasına da səbəb olmuşdur. Əgər 2004-cü ildə xarici ticarət dövriyyəsinin ümumi həcmi 39 milyon 73 min ABŞ dolları olmuşdusa, bu ilin 11 ayında müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan əməliyyatlar nəticəsində 52 milyon 893 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Bu da keçən ilin illik göstəricisi ilə müqayisədə 13 milyon 820 min ABŞ dolları və ya 35,4 faiz artım deməkdir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı büdcə daxilolmalarının həcminə də təsir göstərmişdir. 2005-ci ilin 11 ayı ərzində Naxçıvan Muxtar Respublikasının büdcəsinə bütün mənbələr hesabına 93 milyard 770 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2004-cü ilin büdcəsinin müvafiq göstəricisindən 16 milyard 772 milyon manat çoxdur.

Möhtərəm Prezident, bir məsələni də qeyd edim ki, muxtar respublikanın büdcəsi Sizin diqqət və qayğınızla hər il artmışdır. Belə ki, 2004-cü ildə muxtar respublikanın büdcəsi 241 milyard 137 milyon manat, 2005-ci ildə 351 milyard 650 milyon manat olmuş, 2006-cı ildə isə 514 milyard 247 milyon manat müəyyən edilmişdir.

Naxçıvan şəhərinin büdcəsi isə artıq altıncı ildir ki, subsidiyasız planlaşdırılır. Tikinti-abadlıq işlərinin həcminin və saxlanma xərclərinin ildən-ilə artmasına baxmayaraq, Naxçıvan şəhərində aparılan işlərin maliyyələşməsində heç bir problem yaranmamışdır.

Həyata keçirilən quruculuq tədbirləri, yeni iş yerlərinin açılması bir vaxtlar iş ardınca Bakıya və digər şəhərlərə gedən yerli sakinlərin geri qayıtmasına səbəb olmuşdur. Belə ki, təkcə bu ilin 11 ayında əvvəllər muxtar respublikanı tərk etmiş 1145 ailə geri qayıtmışdır. Eyni zamanda, 2005-ci ilin ötən dövrü ərzində muxtar respublikada satılmış mənzil və ya fərdi yaşayış evlərinin 324-ü geri qayıtmış ailələr tərəfindən alınmışdır. Ötən 11 ayda muxtar respublika əhalisinin sayı 3849 nəfər artaraq 376 min 531 nəfər olmuşdur. Bütün bunlar blokada şəraitinin çətinliklərinə baxmayaraq, ümummilli liderimizin inkişaf strategiyasının, bu xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin konkret bir regionda nəticələridir.

Diqqətinizə görə sağ olun.

"Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikovun çıxışı

-Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bu gün biz xüsusilə əlamətdar bir tədbirə - 15 illik fasilədən sonra blokada şəraitində olan, lakin tam həyatı ilə yaşayan və çalışan, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi münasibətilə toplaşmışıq. Cənab Prezident, mən "Azəriqaz" QSC-nin çoxminlik kollektivi adından böyük fərəh və iftixar hissi ilə Sizə məruzə edirəm ki, verdiyiniz tapşırığın birinci mərhələsi uğurla həyata keçirilmişdir.

Belə ki, 2004-cü ilin avqust ayından bu işə başlanmış və onun hər bir icra mərhələsində bilavasitə Sizin, möhtərəm cənab Prezident, verdiyiniz tapşırığa və müəyyən etdiyiniz müddətlərə müvafiq təsdiq edilmiş proqramla işlərin həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasının əhalisinin mənzillərinə mavi yanacaq verilmişdir ki, bu da sərt iqlimi olan Muxtar Respublika üçün xüsusilə vacibdir.

Naxçıvan Muxtar Respublikasının qaz təminatı layihəsi texnoloji baxımdan çox mürəkkəb bir layihədir və bunu nəzərə alaraq, layihənin icrası aşağıdakı prinsiplər əsasında həyata keçirilir.

Birincisi, layihənin mərhələ-mərhələ həyata keçirilməsi, ikincisi, Muxtar Respublikada mümkün olan ərazilərdə mövcud nəqletmə sistemindən istifadə etmək, üçüncüsü, qaz borularının istismarı hər hansı

bir şəkildə texniki təhlükəsizlik baxımından qeyri-mümkün hesab edildikdə, boruların yenidən çəkilməsi və avadanlığın təzələnməsi, dördüncüsü, qaz təsərrüfatı infrastrukturunun bərpa edilməsində mümkün qədər dünya standartlarına cavab verən texnologiyalardan və avadanlıqdan istifadə edilməsi. Yuxarıda qeyd olunan prinsiplərə əsasən, işlərin icra müddətləri aşağıdakı kimi nəzərdə tutulmuşdur: birinci mərhələ 2005-ci ilin sonuna qədər, ikinci mərhələ 2006-cı il, üçüncü mərhələ 2007-ci il.

Birinci mərhələdə Naxçıvan Muxtar Respublikasında qaz təminatının bərpası layihəsi çərçivəsində qısa bir müddətdə 70 kilometrə qədər yüksək təzyiqli və 250 kilometrə qədər orta və aşağı təzyiqli qaz kəmərləri çəkilmişdir. Bu kəmərlər bir çox hallarda çətin və mürəkkəb relyefli ərazilərdən çəkilmişdir.

Bundan əlavə, ölçü qovşaqlarının, qazpaylayıcı stansiyaların tikintisi, şəhər və rayon mərkəzlərinin qazlaşdırılması həyata keçirilmişdir. Qaz təminatının bərpası ilə eyni vaxtda əhali abonentlərin mənzilləri və evləri mətbəx sobaları və qaz sayğacları ilə təmin olunmuşdur. Bu mərhələdə 11 minə yaxın əhali abonent qazla təmin ediləcəkdir.

Cəmi bir il ərzində Astarada analoqu olmayan irihəcmli, mürəkkəb texnologiyası olan və sutkada 2 milyon kubmetr təbii qazı 55-57 atmosfer təzyiqlə nəqletmə sisteminə ötürən kompressor stansiyası tikilmişdir.

Təbii qazın keyfiyyətinin kimyəvi tərkibini müəyyən edən xüsusi laboratoriya və dünya standartlarının tələblərinə cavab verən ölçü qovşağı da tikilib istismara verilmişdir. Lakin layihənin ən mühüm komponenti Azərbaycan və İran sərhədindəki Araz çayından qaz kəmərinin çəkilməsidir. Belə ki, Araz çayının boru keçən hissəsinin uzunluğunun cəmi 290 metr olduğuna baxmayaraq, xüsusi bənd tikilmiş, birinci mərhələdə çayın bir hissəsində, sonra isə həmin üsulla ikinci hissəsində qaz kəməri çəkilmişdir.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bağlanmış müqaviləyə əsasən, orta hesabla 350 milyon kubmetr təbii qazın verilməsi və tələbat artdıqca 500 milyon kubmetrə çatdırılaraq, Naxçıvan Muxtar Respublikasına təhvili nəzərdə tutulmuşdur. Birinci mərhələnin ümumi dəyəri 246,9 milyard manat təşkil edir ki, bunun da 84,3 milyard manatı büdcədən, qalan 162,6 milyard manatı "Azəriqaz" Səhmdar Cəmiyyəti vəsaiti hesabına icra olunmuşdur. Cənab Prezident, bu layihənin birinci mərhələsinin belə bir qısa müddətdə həyata keçirilməsi şəxsən Sizin gündəlik diqqət və qayğınızın nəticəsidir.

Layihənin ikinci mərhələsində həyata keçiriləcək işlər əsasən aşağıdakılardır:

1. Rayon mərkəzlərində yerləşən fərdi evlərə təbii qazın verilməsi üçün birinci mərhələdə çəkilmiş əsas magistral qaz kəmərlərindən daşıyıcı, paylayıcı və daxili qaz xətlərinin çəkilməsi. Cəmi 10828 evdə mətbəx qaz sobalarının və qaz sayğaclarının quraşdırılması;

2. Vaxtilə qazlaşdırılmış yaşayış məntəqələrinə, kəndlərə daşıyıcı, paylayıcı və daxili qaz xətlərinin çəkilməsi və qaz sayğaclarının quraşdırılması. Bu evlərin sayı 31 min 939-dur. Bu mərhələdə təbii qazın verilməsi üçün bütün boru xətləri yenidən çəkilir, onların üzərində şkaflar və digər qaz tənzimləyiciləri, eyni zamanda, qaz sayğacı quraşdırılır. İkinci mərhələdə cəmi 42 min 767 abonent qazla təmin olunacaqdır.

İkinci və üçüncü mərhələlər üzrə "Azəriqaz" Səhmdar Cəmiyyəti tərəfindən Texniki-iqtisadi hesabat hazırlanıb və bu mərhələnin icrası üçün tələb olunan vəsait 144 milyard manat səviyyəsində müəyyən edilmişdir.

Möhtərəm cənab Prezident, tələb olunan vəsaitin Naxçıvan Muxtar Respublikasına ayrılması məqsədəuyğun olardı. Belə ki, işlərin bu qaydada həyata keçirilməsi bir sıra maliyyə məsələləri ilə bağlı əlavə dəyər vergisi, gömrük və digər rüsumların Naxçıvan Muxtar Respublikasının büdcəsinə daxil olmasını təmin edərdi. İkinci mərhələnin icra müddəti 2006-cı il müəyyən olunmuşdur.

Layihənin üçüncü mərhələsində ümumiyyətlə qazlaşdırılmamış yaşayış məntəqələrinin qazlaşdırılması nəzərdə tutulmudur. Bu mərhələdə həmin məntəqələrə, kəndlərə daşıyıcı, paylayıcı və daxili qaz kəmərlərinin çəkilişi, onların üzərində tənzimləyicilərin quraşdırılması və yerdə qalan 11 min 742 fərdi evdə qaz sayğaclarının qoyulması nəzərdə tutulmuşdur. İlkin hesablamalara görə, bu yaşayış məntəqələrinin qazlaşdırılması üçün 61 milyard manat vəsait tələb olunur. Ümumilikdə, təbii qaz təminatının bərpası nəticəsində 67 min 115 abonentin qazla təmin olunması planlaşdırılmışdır.

Təbii qaz ekoloji cəhətdən neft məhsullarından və iqtisadi cəhətdən elektrik enerjisindən daha sərfəlidir. Naxçıvan Muxtar Respublikasının təbii qaz təchizatı bərpa olunduğu təqdirdə enerji daşıyıcısı kimi işlədilən neft məhsullarına və elektrik enerjisinə qənaət ediləcəkdir. Bu da Naxçıvan Muxtar

Respublikasının iqtisadiyyatının inkişafına böyük töhfə olacaqdır. Muxtar respublikanın qaz təminatındakı 15 illik fasilə nəticəsində qarşıya çıxan bir sıra məsələlər də həll olunmuşdur. Belə ki, təbii qaz infrastrukturunun bərpası ilə yanaşı, bu sistemi istismar edəcək strukturlar üçün rayon mərkəzlərində müasir tələblərə cavab verən 8 inzibati binanın, işçi heyətin, qaz təsərrüfatı üçün xüsusi təyinatlı maşın-mexanizmlərin, nəqliyyat vasitələrinin alınması, təbii qazın uçotunun aparılması üçün kompüter sisteminin yaradılması təmin edilmişdir. Eyni zamanda, bütün bu işlərin icrası nəticəsində muxtar respublikanın qaz təsərrüfatında 380 iş yeri bərpa edilmiş və əlavə açılmışdır.

Möhtərəm cənab Prezident!

Bütün çətinliklərə baxmayaraq, Naxçıvan Muxtar Respublikasının qaz təminatının bərpası işləri vaxtında yerinə yetirilib və 15 illik fasilədən sonra muxtar respublika əhalisinin evlərinə mavi yanacaq daxil olur. Cənab Prezident, ümidvaram ki, Sizin daimi qayğınızla Naxçıvan Muxtar Respublikasının qaz təminatı layihəsinin ikinci, üçüncü mərhələləri də həyata keçiriləcək və bütövlükdə, layihədə nəzərdə tutulmuş işlər uğurla başa çatdırılacaqdır.

Diqqətinizə görə sağ olun.X X X

İLHAM ƏLİYEV: Gələn il Naxçıvana nə qədər qaz veriləcək?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, gələn il Naxçıvan Muxtar Respublikasına 200 milyon kubmetr qaz verilməsi nəzərdə tutulmuşdur.

İLHAM ƏLİYEV: Bütövlükdə, əhaliyə 200 milyon kubmetr qaz veriləcək.

ƏLİXAN MƏLİKOV: Ümumilikdə, digər istehlakçılara da. Burada elektrik stansiyası da bərpa olunur.

İLHAM ƏLİYEV: Mən ona görə soruşuram. Çünki, birincisi, o elektrik stansiyası qazla işləyəcək, ikincisi də, modul elektrik stansiyaları quraşdırılacaqdır.

ƏLİXAN MƏLİKOV: İndi elektrik stansiyalarında magistral qaz xətti hazırdır.

İLHAM ƏLİYEV: Elektrik stansiyası nə qədər istehlak edəcəkdir?

ƏLİXAN MƏLİKOV: Bu, mərhələ-mərhələ olacaq, ilk növbədə, birinci blok işə düşməlidir.

İLHAM ƏLİYEV: Bilirəm, orada haradasa 50 meqavat güc olmalıdır.

ƏLİXAN MƏLİKOV: Bəli. Tam gücü ilə işləsə, ümumilikdə illik 150 milyon kubmetr.

İLHAM ƏLİYEV: Bəs, modul tipli stansiya?

ƏLİXAN MƏLİKOV: Modul tipli stansiyanın tələbatını hələ bilmirəm.

İLHAM ƏLİYEV: Hesab edin ki, orada 90 meqavat elektrik enerjisi istehsal olunacaq. Təxminən nə qədər...

ƏLİXAN MƏLİKOV: Bakıda, yəni analoji olaraq, haradasa 150 milyondan 400 milyon kubmetrə qədərdir.

İLHAM ƏLİYEV: Mən elə ona görə soruşuram. Çünki biz bir il bundan əvvəl İranla qaz mübadiləsi haqqında saziş imzalayanda o vaxt nə modul tipli stansiyaların qurulması, nə də elektrik stansiyasının bərpası məsələsi gündəlikdə var idi. Yəni sadəcə olaraq, biz əhalinin tələbatının ödənilməsini nəzərdə tutduq. Amma son bir il ərzində iki böyük layihə üzə çıxdı. Yəni biz onları icra etməyə başladıq. Ona görə gələcəkdə qazın mübadilə həcminin artırılması məsələsi də çıxacaqdır.

VASİF TALIBOV: Cənab Prezident, o stansiyalarda 300 milyon kubmetr işlənəcəkdir.

İLHAM ƏLİYEV: Ancaq hər iki stansiyada 300 milyon?

VASİF TALIBOV: Bəli.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, müqavilənin şərtlərinə əsasən İran tərəfi ilə elə razılığa gəlinibdir ki, biz maksimum 500 milyon kubmetr tələb etmişik. Əgər ikitərəfli razılıq olarsa, tələb etdiyimiz qazdan asılı olaraq, onlara verdiyimiz qazı da artırmalıyıq. 500 milyon kubmetrdən artıq olsa da, biz Naxçıvana əlavə qaz ala bilərik. Bu şərt nəzərə alınıbdır.

İLHAM ƏLİYEV: Əlbəttə, aydındır. Oradan Naxçıvana nə qədər qaz götürəcəyiksə, o qədər də onlara Astaradan ötürəcəyik. Sadəcə olaraq, gərək biz nəzərdə saxlayaq, çünki bu, ən azı haradasa 500 milyon kubmetr olacaqdır.

Bəs, bu boru kəmərinin gücü nə qədərdir?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, Siz keçən il qərar verdiniz ki, həmin boru kəmərinin diametrini artıraq. 500 millimetrdir. Bu bizə imkan verəcək ki, 1 milyard kubmetr qazı nəql edə bilək.

İLHAM ƏLİYEV: Biz gərək gələcəyi fikirləşəcək. Naxçıvanın sənaye potensialı güclənəcək, tələbat artacaqdır. Ona görə 500 milyon kubmetr ancaq bu gün lazımdır. Əgər bu iki stansiya işləsə, əhaliyə birinci mərhələdə 200 milyon kubmetr qaz veriləcəkdir. İkinci mərhələdə nə qədər olacaqdır?

ƏLİXAN MƏLİKOV: Təxminən 300 milyon kubmetr.

İLHAM ƏLİYEV: Yəni biz yaxşı ki, ehtiyat üçün böyük diametrli boru çəkdik.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, istilik qazanxanaları da nəzərə alınmalıdır. Çünki onlar da mavi yanacaqdan istifadə edəcəkdir.

İLHAM ƏLİYEV: Biz "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətini yaratdıq. O, Azərbaycanın bütün istilik sistemini bərpa etməlidir. Əlbəttə, ilk növbədə, Bakının. Çünki Bakıda çoxlu hündürmərtəbəli evlər var. Ondan sonra bütün başqa şəhərlərdə də yeni, müasir məhəllədaxili qazanxanalar tikiləcəkdir. Yəni bunların hamısı qaz tələb edir. Bu, böyük bir layihədir, uzunmüddətli proqramdır. Bu proqramın icrası nəticəsində, əlbəttə, bütün sahələr inkişaf edəcəkdir.

Bəs, sayğaclarla bağlı vəziyyət necədir?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, hər bir mənzildə sayğac quraşdırılır. Yəni sayğacsız qaz vermirik. Artıq digər istehlakçılar da müraciət edirlər - yəni özəl müəssisələr, hansısa qazanxana. Əlbəttə, bizim tələbimiz odur ki, həmin özəl müəssisə sifarişçi kimi obyektin layihəsini verməlidir, sayğac almalıdır və biz də qazı müqavilə şərti ilə verəcəyik. Ancaq ikinci və üçüncü mərhələdə fərdi evlərdə sayğacların "Azəriqaz"ın hesabına quraşdırılması nəzərdə tutulmuşdur.

İLHAM ƏLİYEV: Mən hesab edirəm ki, biz ikinci mərhələyə başlamalıyıq. Bizim planlarımızda bu var idi. Bir daha qeyd etmək istəyirəm, bir il bundan əvvəl biz bu barədə danışırdıq ki, birinci mərhələni icra edək, ondan sonra ikinci mərhələyə keçək. Gərək maliyyə ehtiyatlarını həm "Azəriqaz" özü axtarsın, həm də mərkəzləşmiş qaydada biz axtaraq. Çünki bizim ən böyük problemimiz ondadır ki, yığım çox aşağı səviyyədədir. Bizdə yığım nə qədərdir?

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, yığım 30 faiz təşkil edir.

İLHAM ƏLİYEV: 30 faiz. Dünyada qazın qiyməti qalxır, gələcəkdə daha da kəskin şəkildə qalxacaqdır. İndi görürük ki, bu bölgəyə, buradakı ölkələrə qaz nəql edən, ixrac edən Rusiya qiyməti qaldırıbdır. Onlar tərəfindən verilmiş yeni təklif əvvəlki qiymətdən təxminən iki dəfə bahadır. Əgər biz bu il min kubmetr qazı 60 dollara alırdıqsa, gələn il üçün yeni qiymət 110 dollar təklif olundu. Bizdə isə daxili satış qiyməti 49 dollardır. Onun da cəmi 30 faizi yığılır. Nəzərə alsaq ki, biz ildə Rusiyadan 4,5 milyard kubmetr qaz idxal edirik, deməli, əgər 110 dollardan hesablasaq, ildə Azərbaycan ancaq qazın alınmasına görə Rusiyaya 500 milyon dollar pul ödəyir. Bunun müqabilində nə qədər yığırsınız?

ƏLİXAN MƏLİKOV: 30 faiz.

İLHAM ƏLİYEV: Yox, pul şəklində. Biz 500 milyon dollar ödəyirik.

ƏLİXAN MƏLİKOV: Təxminən 380-400 milyard manat.

İLHAM ƏLİYEV: Yox, dollarla haradasa 80 milyon. Yəni burada yaranan fərq 420 milyon dollardır. Mən hələ ancaq idxal qazını götürürəm. Nəzərə alsaq ki, Azərbaycan özü də qaz hasil edir. Bu il nə qədər qaz hasil etmişik?

NATİQ ƏLİYEV (sənaye və energetika naziri): Cənab Prezident, 4,5 milyard kubmetr.

İLHAM ƏLİYEV: Onun nə qədər hissəsi daxili tələbata getdi?

NATİQ ƏLİYEV: 4,5 milyardın hamısı və hətta əlavə də verilir, haradasa 5 milyard kubmetr.

İLHAM ƏLİYEV: Faktiki olaraq 5 milyard kubmetr də verilir, bunun müqabilində pul ödənilmir. Əgər bunu da dünya qiyməti ilə hesablasaq, bu da 600 milyon dollar edəcəkdir. Yəni Azərbaycan dövləti hər il ancaq qazda əhaliyə və müəssisələrə 1 milyard dollar dotasiya verir.

Bilirsiniz, bizim büdcəmiz 4 milyard dollardır, özü də bu, gələn il olacaqdır. Bu il 2,2 milyard, ondan əvvəlki ildə isə 1,5 milyard dollar olmuşdur. Bunun 1 milyard dollarını əhaliyə dotasiya veririk. Mən hələ elektrik enerjisini götürmürəm. Elektrik enerjisində də vəziyyət buna bənzərdir. Bu il "Azərenerji"yə 2 milyon ton mazut verilmişdir. 2 milyon mazutun dünya qiyməti, tonunu 200 dollardan hesablasaq, 400 milyon dollar edir. Neft Şirkətinə nə qədər pul ödəyiblər?

NATİQ ƏLİYEV: Çox aşağı faizdir.

İLHAM ƏLİYEV: Bunu da əlavə etsək, Azərbaycan ildə təxminən 1 milyard 500 milyon dollar pul itirir. İndi biz deyirik ki, bazar iqtisadiyyatı prinsipləri ilə yaşayırıq. Doğrudan da belədir. İqtisadiyyatımız da bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Özəlləşdirmə prossesi gedir. Ümumi daxili məhsulumuzda özəl sektor, səhv etmirəmsə, 75 faiz təşkil edir. Amma bazar iqtisadiyyatı prinsipi ilə yaşayan hansı ölkədə 1 milyard 500 milyon dollar, - builki büdcənin təxminən 60-70 faizi, - dotasiya verilir?! Mən demək istəyirəm ki, biz hamımız bunları bilməliyik.

Əlbəttə, mən anlayıram ki, insanların bəzilərinin bunu ödəməyə imkanı yoxdur. Biz bunu başa düşürük və bilirsiniz, bu ilin əvvəlində "Azəriqaz"a göstəriş vermişdim, görürsünüz ki, harada imkan

yoxdur, siz insafla yanaşın. Ancaq bu vəziyyət dözülməzdir, belə davam edə bilməz. Bu onu gətirib çıxarır ki, enerji sektorunda qarşılıqlı ödəməmələr yaranır. Neft Şirkəti qazı alıb "Azəriqaz"a verir. "Azəriqaz" onu müəssisələrə, əhaliyə verir, pulunu ala bilmir və Neft Şirkətinə pulu ödəmir. Neft Şirkəti mazutu emal edir, nefti mazuta çevirib "Azərenerji"yə verir. "Azərenerji" onu yandırır, yəni mazut istehlakçılara gedir, əvəzində pul yığa bilmir və Neft Şirkətinə ödəyə bilmir. Ona görə mən Sənaye və Energetika Nazirliyi qarşısında bu vəzifəni qoydum ki, nəhayət, gərək bu məsələdə bir sistem yaradaq.

Düzdür, biz ildən-ilə öz iqtisadi potensialımızı artırırıq. Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşəndən sonra əlbəttə, bizim maddi vəziyyətimiz daha da yaxşı olacaqdır. Amma gərək bu məsələ tənzimlənsin. Çünki bu dotasiyalar çox davam edə bilməz.

Gələn il üçün hər halda sizdə proqram hazırdır. İndi biz baxarıq ki, maliyyə vəsaitini həll edək. Ondan sonra ikinci, sonra üçüncü mərhələni həyata keçirək ki, Naxçıvanda bütün məntəqələr qazla təmin olunsun. Əlbəttə, siz gərək yığımı təşkil edəsiniz ki, bu işdə problem olmasın. Ümumiyyətlə qaz, işıq məhsuldur. Onun qiyməti var. İnsanlar dükana gedəndə çörək, yağ alanda onun pulunu ödəyirlər. Qaz, işıq da məhsuldur, onun da qiyməti var, o da ödənilməlidir. Ona görə siz də çalışmalısınız ki, bu sahədə nizam-intizam daha da güclənsin.

ƏLİXAN MƏLİKOV: Cənab Prezident, aydındır.

İLHAM ƏLİYEV: İndi artıq qazın verilməsi başlayıbdır, mənzillərə verilir?

VASİF TALIBOV: Bəli, 3 minə yaxın mənzilə verilir.

İLHAM ƏLİYEV: Təzyiq necədir, yaxşıdır?

VASİF TALIBOV: Bəli, yaxşıdır.

İLHAM ƏLİYEV: Çox yaxşı.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev müşavirəyə yekun vurdu.

Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqi

-Yenə də deyirəm ki, enerji sektorundakı işlərimiz ölkəmizin iqtisadi inkişafında, sosial məsələlərin həllində böyük əhəmiyyət kəsb edir. Çox önəmli məsələ enerji təhlükəsizliyidir. Azərbaycan bölgədə yeganə ölkələrdən biridir ki, biz öz gücümüzə arxalanaraq, enerji tələbatımızı ödəyə bilərik və ödəyirik. İndi kifayət qədər neft hasil edilir. Əlbəttə, qaz bizim tələbatımızı ödəmir. Amma lap fərz etsək ki, sabah Azərbaycana başqa yerdən qazın nəqli dayandı, biz vəziyyətdən çıxarıq. Sadəcə olaraq, əlavə nefti emal zavodlarımıza verərək daha çox mazut əldə edəcəyik və bununla vəziyyətdən çıxacağıq.

Bizim öz potensialımız da güclənir. Gələn il "Şahdəniz" qaz yatağından ilk qaz hasil ediləcəkdir. İndi bütün bu hadisələrə mən televiziya kanalları ilə baxaraq, bir daha o illəri xatırlayıram. 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı ilə bağlı müqavilə hazırlanarkən xalqımızın ümummilli lideri Heydər Əliyev müşavirə çağırdı. Neft Şirkətinin bütün rəhbər işçiləri iştirak edirdi. Məsələ nədə idi? Azərbaycanın uğurlu inkişafına mənfi yanaşan, yəni bunu istəməyən, indi son parlament seçkilərində özünü növbəti dəfə biabır edən Rəsul Quliyev etiraz məktubu yazmışdı ki, Azərbaycan xarici şirkətlərlə "Şahdəniz" qaz yatağı üzrə müqavilə imzalamamalıdır, bu, bizə lazım deyildir. Yazırdı ki, mən sübut edə bilərəm ki, bu, Azərbaycan üçün sərfəli müqavilə deyildir. Onda ölkə Prezidenti müşavirə çağırdı. Neft Şirkətinin bütün rəhbər işçiləri - prezidenti, vitse-prezidentləri orada idi və geniş müzakirə, fikir mübadiləsi aparıldı. Əlbəttə ki, Neft Şirkətinin bütün nümayəndələri, rəhbər işçiləri elmi əsaslarla, adi məntiqlə və çox belə sadə bir izahatla sübut etdilər ki, "Şahdəniz" üzrə müqavilə məhz 1996-cı ildə imzalanmalıdır. Sonra gec ola bilər. Çünki bu, nəhəng bir rezervuardır, nəhəng bir yataqdır. Onun işlənilməsi, ondan əvvəl kəşfiyyat işlərinin aparılması bir neçə il aparır. O vaxt nəzərdə tutulmuşdu ki, minimum 3-4 il kəşfiyyat işləri aparılacaq, ondan sonra quyular qazılacaq, platformalar tikiləcək və yalnız bundan sonra qaz çıxarılacaqdır, Əgər biz indi vaxt itirsək, onda bu qaz heç vaxt çıxmayacaq. Azərbaycanın isə buna ehtiyacı var.

Yadımdadır ki, o ciddi çıxışlardan sonra Rəsul Quliyev bizə əməli bir izahat da verə bilmədi və müşavirəni tərk etdi. Əlbəttə, o vaxt demək çətin idi ki, bunun belə hərəkətlərinin səbəbi nə idi. Amma indi tarixi təhlil edərkən, onun sonrakı hərəkətlərinə fikir verərkən görürük ki, onun məqsədi sadəcə olaraq ondan ibarət idi ki, Azərbaycan bu inkişaf yoluna çıxmasın. Azərbaycanda vəziyyət daha da pisləşsin.

Çünki o vaxt məkrli planları onun ürəyində var idi. Əgər o vaxt "Şahdəniz" müqaviləsi imzalanmasaydı, bu gün biz doğrudan da çıxılmaz vəziyyətdə olardıq.

İndi isə gələn ildən başlayaraq "Şahdəniz" qaz yatağından qaz çıxacaq və ondan sonra xaricdən gələn heç bir əlavə qaza ehtiyacımız olmayacaqdır. Bu, bir də onu göstərir ki, bizim ulu öndərimiz nə qədər Azərbaycanın gələcəyini düşünürdü. 1996-cı ildə yaxşı başa düşürdük ki, oradan qaz haradasa 8-9 ildən sonra hasil ediləcəkdir. Belə də oldu. 1996-cı ildən artıq on il keçibdir. Yəni gələcəyi düşünmək, öz xalqını düşünmək, gələcək nəsilləri düşünmək – dövlət adamını, dövlət liderini məhz bu amillər səciyyələndirir. Gələn il "Şahdəniz"dən ilk qaz çıxarılacaq, ondan sonrakı illərdə daha da böyük həcmdə olacaq və biz nəinki öz tələbatımızı ödəyəcək, eyni zamanda qaz ixrac edən ölkəyə çevriləcəyik. Müvafiq sazişlər də imzalanıbdır və bizim neft strategiyamız, Heydər Əliyevin neft strategiyası bu gün uğurla icra edilir və bizə imkan verir ki, heç kimdən asılı olmayaq.

MDB ölkələrində baş verən proseslərə baxın. Qaz amili çox ciddi amildir. O, bəzi ölkələri çıxılmaz vəziyyətə salır. Çünki əgər qaz yoxdursa, deməli sənaye dayanacaqdır. Sənaye dayanacaqsa, böhran yaranacaq və bu fəlakətli, faciəvi nəticələrlə sonuclana bilər. Ancaq Azərbaycan bu baxımdan özünü çox əmniyyətli hiss edir. Mən enerji təhlükəsizliyi deyəndə bunu nəzərdə tuturam. Bu uzaqgörənlik əsil dövlət adamını fərqləndirir. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ağır, çətin vəziyyətdə məhz o uzaqgörənliyin, xalqa olan sədaqətin və dövlətçiliyin nümunəsi idi. O müqavilə imzalanandan sonra Azərbaycanda bədnam qüvvələr çevriliş planlarına əl atdılar, sui-qəsd planlarına əl atdılar. Nəyə görə? Çünki bizi istəməyən qüvvələr yaxşı başa düşürdülər ki, neft müqaviləsinin imzalanması, ondan sonrakı müqavilələrin imzalanması Azərbaycanın müstəqilliyini təmin edəcəkdir.

Həmişə deyirəm, bu gün də demək istəyirəm, müstəqillik sadəcə olaraq, bir atribut deyildir. Çox ölkə var ki, onun bayrağı da var, himni də var, amma müstəqil siyasət apara bilmir. Kiminsə təsiri altında yaşayır, kimdənsə asılıdır. Xüsusilə, Azərbaycan kimi ölkələr ki, keçmişdə müstəqillikdən məhrum olmuşdular, müstəmləkə kimi yaşayırdılar. İstər XVIII əsrdə, istər XX əsrdə. XX əsrdə sadəcə, bu, başqa bir formada idi.

Bu gün biz müstəqil dövlət kimi yaşayırıq, güclənirik və öz siyasətimizi ancaq Azərbaycan xalqının milli maraqları üzərində qururuq. Bu gün bu siyasəti aparmaq üçün, əlbəttə, bir daha və bir daha qeyd etməliyik ki, bunun səbəbkarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. O olmasaydı, bu gün Azərbaycanın ümumiyyətlə taleyini təsəvvür etmək çətin olardı. "Əsrin müqaviləsi" imzalanmasaydı, biz bu vəsaiti haradan götürəcəkdik? Haradan Azərbaycana 25 milyard dollar sərmayə qoyulacaqdı? Bu sərmayə qoyulmasaydı, Azərbaycanda evlərmi tikiləcəkdi, xəstəxanalarmı tikiləcəkdi, hotellərmi tikiləcəkdi, müəssisələrmi tikiləcəkdi, iş yerlərimi açılacaqdı? Haradan olacaqdı bunlar? O hadisə, o addım bizim müqəddəratımızı müəyyən etdi və bu gün biz hamımız çalışmalıyıq ki, əldə edilmiş uğurları daha da möhkəmləndirək, Azərbaycanda yaranmış bu əlverişli şəraitdən maksimum dərəcədə istifadə edək. Öz iqtisadi potensialımızı gücləndirək, Heydər Əliyev neft strategiyasını axıra qədər aparaq və bütün çətinliklərə baxmayaraq, onu başa çatdıraq. Azərbaycanda ictimai-siyasi vəziyyəti sabit şəkildə saxlayaq.

Erməni lobbisi və onların havadarları həmişə Azərbaycana düşmənçilik mövqeyində olmuşlar. Bu gün isə bizim gücümüzdən ehtiyatlanaraq, Azərbaycana qarşı çox çirkin kampaniya aparırlar. Azərbaycanı ləkələmək üçün, qeyri-demokratik dövlət kimi təqdim etmək üçün və sübut etmək üçün ki, ermənilər belə bir dövlətdə sərbəst, azad yaşaya bilməzlər. Yəni məqsəd budur. Amma bizim içimizdə də bələləri var. Bu gün Avropa Şurasına məktub yazan müxalifət, onlar kimin dəyirmanına su tökür?

Azərbaycanda parlament seçkiləri keçirildi, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapdı. Amerika Dövlət Departamenti tərəfindən təyin edilmiş şirkət rəy sorğusu, ekzit-pol keçirdi. Onun nəticələri rəsmi nəticələrlə 90-95 faiz üst-üstə düşdü. Yaxşı, hansı ölkədə 100 faiz mükəmməl seçkilər keçirilib? Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxın, görün, orada hansı hadisələr baş verir. Yəni belə olan halda, bütün beynəlxalq birlik bu seçkiləri tanıdığı bir halda, Azərbaycan xalqının iradəsi bu seçkilərdə tam şəkildə əks olunduğu bir halda və bu seçkilərin nəticələri ilə bağlı cəmiyyətdə heç bir mübahisə doğuracaq məsələ üzə çıxmadığı bir halda, o üzdəniraq, dırnaqarası, xəyanətkar siyasətçilər Avropa Şurasına məktub yazırlar ki, Azərbaycana qarşı sanksiyalar tətbiq olunsun. O məqamda ki, Avropa Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə olunacaqdır.

Mən Avropa Şurasında nümayəndə heyətinə rəhbərlik edən zaman biz nail olduq ki, bu məsələ gündəliyə salınsın. Baxmayaraq ki, ermənilər bütün imkanlardan istifadə etmişdilər, bütün lobbisini işə salmışdılar ki, məsələ gündəliyə salınmasın. Alınmadı. Biz onu gündəliyə saldıq. Yaxşı, indi Azərbaycana qarşı sanksiya tətbiq olunacaqsa, - birincisi, bu qeyri-real bir şeydir, amma fərz edək, - kim bundan

faydalanacaq? Ermənilər. Deməli, nədir bu? Bu, milli xəyanətdir. Müxalifətin bütün hərəkətləri bax, bu amillərlə müşahidə ounur. Mən sadəcə olaraq, parlament seçkiləri ərəfəsində bu məsələ ilə bağlı çalışırdım ki, öz fikirlərimi ifadə etməyim. Mən istəmirdim ki, Prezident kimi mənim fikirlərim, yaxud da ki, təhlilim seçkilərin nəticəsinə təsir göstərsin. Mən çalışırdım ki, bütün namizədlərə bərabər şərait yardılsın. Çalışırdım ki, maksimum dərəcədə şəffaflıq olsun. Azərbaycan xalqı özü öz səsini versin və müəyyən etsin ki, kimə səs vermək istəyir.

Bugünkü müxalifətin bütün hərəkətləri Ermənistanın Azərbaycana qarşı etdiyi hərəkətlərlə üst-üstə düşür. Onların prinsipi budur ki, ölkədə nə qədər pis olsa, bizim üçün o qədər yaxşıdır. Daha anlamırlar ki, artıq onlar üçün yaxşı ola bilməz, heç vaxt. Bu son parlament seçkiləri müxalifətin sonudur. Bunu biz də bilirik, xarici təşkilatlar da bilir, onların ümid bəslədiyi dairələr də bilir və onlardan üz döndəriblər. Çünki bu cür ola bilməz, belə yaramaz. Müxalifət olmalıdır və mütləq olmalıdır. Çünki iqtidar-müxalifət münasibətləri nəticəsində ideyalar ortaya çıxır. Düzgün qərarlar ortaya çıxır. Müxalifət bir növ iqtidarı bəzi addımlardan çəkindirir. Amma bizim müxalifət Azərbaycana düşmənçilik mövqeyindədir. Azərbaycana qarşı çox çirkin kampaniya aparır. Erməni lobbisi ilə birləşiblər və Azərbaycana qarşı kampaniya aparırlar. Yenə də deyirəm, Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir.

Mən bu gün tarixdən bəzi hadisələri xatırladarkən, bəzi misalları gətirərkən bir daha demək istəyirəm ki, bizim inkişafımız bundadır. Bu gün ən əlverişli vəziyyət Azərbaycandadır. Bizim iqtisadi potensialımız, enerji siyasətimiz, coğrafi vəziyyətimiz, dünyadakı mövqeyimiz - bütün istiqamətlərdə uğurlar var. Biz bunu qorumalıyıq, saxlamalıyıq. Prezident kimi mən iki il bundan əvvəl bu məsuliyyəti öz üzərimə götürmüşəm. Demişəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti davam etdiriləcək, Azərbaycan xalqının maraqları təmin olunacaqdır. Son parlament seçkiləri onu göstərdi ki, heç bir təzyiq heç bir əhəmiyyət kəsb etmir. Mən öz fəaliyyətimdə xalqın dəstəyinə, iradəsinə arxalanıram. Mənim üçün bundan başqa heç nə yoxdur. Kim nə deyirsə, desin. Bilirəm ki, bu, Azərbaycan xalqı üçün lazımdır, onu edəcəyəm. Seçkilər onu bir daha göstərdi. Biz hamımız çalışmalıyıq ki, Azərbaycanda bu gözəl ab-hava davam etdirilsin. Asayiş, ictimai-siyasi sabitlik pozulmasın. Çünki əgər bu pozularsa, ölkəmiz çox çətin vəziyyətə düşər, sabitlik olmayan yerdə heç bir inkişaf mümkün deyildir. Heç bir vətəndaş cəmiyyəti mümkün deyildir. Biz bu yolun tərəfdarıyıq, biz demokratiyanın, söz azadlığının, plüralizmin, siyasi proseslərin tərəfdarıyıq. Ancaq bütün bunlar bəzi qüvvələr tərəfindən Azərbaycan dövlətçiliyinə qarşı istifadə olunmamalıdır. Bunları sadəcə olaraq, ona görə deyirəm ki, mənim fikirlərimi biləsiniz. Onsuz da bilirsiniz, həmişə bütün tədbirlərdə, toplantılarda, xalqla görüşlərimdə öz ürək sözlərimi deyirəm. Çünki xalq Prezidentin mövqeyini, Prezidentin fəaliyyətini bilməlidir. Mənim fəaliyyətim son iki il ərzində xalqın qarşısında olubdur və bundan sonra da olacaqdır.

Bir sözlə, biz düz yoldayıq, bizim işimiz haqq işidir, nəticələr də onu göstərir. Çalışmalıyıq ki, daha da yaxşı işləyək, daha da səmərəli işləyək. Harada qüsurlar var, çatışmazlıqlar var, onu aradan qaldıraq və güclü dövlət yaradaq. Müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Biz gərək bunu qoruyaq, möhkəmləndirək və Azərbaycanı inamla irəliyə aparaq. Bu işdə sizin hamınıza uğurlar arzulayıram.

AZƏRTAC
2005, 20 dekabr

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
(20 dekabr 2006-cı il)

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Dövlətimizin başçısının şərəfinə Naxçıvan beynəlxalq hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər qarşıladılar. Milli geyimli oğlan və qız Prezidentə gül-çiçək təqdim etdilər.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Hava limanına gəlmiş minlərlə naxçıvanlı Prezident İlham Əliyevi hərarətlə salamladı.

AZƏRTAC
2006, 20 dekabr

Heydər Əliyev su anbarında elektrik stansiyası tikilmişdir
(20 dekabr 2006-cı il)

Dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Su Anbarına gələrək, burada tikilmiş elektrik stansiyası ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, su anbarında tikilmiş 4,5 meqavat gücündə elektrik stansiyasında 17 nəfər daimi işlə təmin edilmişdir. Şahbuz rayonunun elektrik enerjisi ilə təminatında bu stansiya əsas rol oynayacaqdır.

Prezident İlham Əliyev operator otağında stansiyanı işə saldı.

Burada quraşdırılan avadanlıq Almaniyanın məşhur "Siemens" şirkətindən alınmış, turbinlər isə Fransadan gətirilmişdir. Tikinti-quraşdırma işlərini yerli və türkiyəli mütəxəssislər görmüşlər. Heydər Əliyev Su Anbarı Babək rayonunda Pircivar düzənliyində min hektarlarla torpağı suvarmağa imkan verəcəkdir. Bu payız mövsümündə ilk dəfə olaraq 100 hektar sahədə taxıl səpilmişdir.

Dövlətimizin başçısı inşaatçılara və mütəxəssislərə təşəkkürünü bildirdi, ölkəmizin potensial imkanlarının böyük olduğunu və görülən hər bir işin Azərbaycanın inkişafına xidmət etdiyini söylədi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri davam edir.

AZƏRTAC
2006, 20 dekabr

Naxçıvan qaz-turbin elektrik stansiyası Muxtar Respublikanın energetika sisteminə qoşulmuşdur
(20 dekabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də Naxçıvan şəhərində daha bir obyektin - qaz-turbin elektrik stansiyasının işə salınmasında iştirak etmişdir.

Bu stansiya 1992-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən istifadəyə verilmişdi. O vaxt qardaş Türkiyədən gətirilərək quraşdırılmış və dizel yanacağından istifadə olunan stansiya indi təbii qazla işləyir. Bu məqsədlə İtaliya, Avstriya, İsveçrə və Almaniyadan yeni avadanlıq alınıb quraşdırılmışdır.

Prezident İlham Əliyev ulu öndərin iştirakı ilə stansiyanın açılışı zamanı çəkilmiş fotoşəkillərə baxdı, sonra düyməni basaraq, stansiyanı işə saldı.

Dövlətimizin başçısına məlumat verildi ki, stansiyaya 12 kilometr məsafədən təbii qaz kəməri çəkilmişdir. Gücü 50 meqavat olan bu stansiyada 75 daimi iş yeri açılmışdır. Hazırda 35 meqavat elektrik enerjisi istehsal olunur və stansiya muxtar respublikanın energetika sisteminə qoşulmuşdur. Dördüncü turbin işə qoşulduqdan sonra stansiya tam gücündə işləyəcəkdir. Bu stansiyanın işə düşməsi Şahbuz və Babək rayonlarının əksər hissəsinin elektrik enerjisi ilə təmin edilməsinə imkan yaradacaqdır.

Prezident İlham Əliyev stansiyada çalışan işçilərlə görüşdü, onları təbrik edərək dedi ki, indi Naxçıvanın elektrik enerjisinə olan tələbatı daha yaxşı ödəniləcəkdir. Buradakı fotoşəkillərdən göründüyü kimi, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bu stansiya tikilib istifadəyə verilmiş, amma müəyyən səbəblərə görə dayanmışdı. İndi biz bərpa etdik və siz də gərək bunu yaxşı işlədəsiniz.

AZƏRTAC
2006, 20 dekabr

"Cahan Holding" şirkətlər qrupu fəaliyyətini genişləndirir

(20 dekabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də Naxçıvan şəhərində "Cahan Holding" şirkətlər qrupunun istehsal sahələri ilə tanış olmuşdur. Dövlətimizin başçısını burada səmimiyyətlə, böyük hörmət və ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev şirkətlər qrupunun yeni istehsal sahələrinin açılışını bildirən lenti kəsdi.

Şirkətlər qrupunun prezidenti Vüqar Abbasov dövlətimizin başçısına məlumat verərək dedi ki, 10 ildən artıqdır "Cahan Holding" müxtəlif sahələrdə fəaliyyət göstərir. Yeni-yeni layihələr həyata keçirir, ölkənin özəl sektorunun inkişafına töhfəsini verir. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin rəhbərliyi altında başlanmış və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyasından bəhrələnən özəl qurumlardan biri də "Cahan Holding"dir.

"Cahan Holding"ə daxil olan "Cahan Pen" şirkəti plastik qapı-pəncərə profilləri istehsalı və satışı ilə də məşğuldur. Türkiyə və Almaniyadan gətirilən xammal hesabına ayda satışa 350 min metr məhsul çıxara bilir. Məhsul Rusiya, Qazaxıstan və digər MDB ölkələrinə də ixrac edilir. Burada 150 nəfər daimi işlə təmin olunmuşdur.

"Cahan Kommer" ticarət mərkəzinin 248 mağazası və 240 meyvə-tərəvəz satışı köşkü var. "Bank of Azerbaijan" bankının 12 nömrəli Naxçıvan filialı da fəaliyyət göstərir. 9 nəfər işçisi olan bu bank gün ərzində 100 nəfərə xidmət göstərə bilir.

"Cahan Motors" avtomobil şirkətlərinin Azərbaycandakı rəsmi nümayəndəsi kimi də çıxış edir və xarici avtomobillərin satışını da təşkil edir.

Naxçıvan şəhərində fəaliyyət göstərən "Cahan Tobacco" şirkətinin beynəlxalq standartlara cavab verən avadanlığı ilə yüksək keyfiyyətli tütün məhsulları istehsal olunur. Hazırda gündə 150 min qutu məhsul istehsal etmək imkanı var ki, bununla da daxili bazarı təmin etmək mümkündür. Müəssisədə 27 nəfər inzibati işçi, 87 nəfər fəhlə çalışır.

Prezident İlham Əliyev çay, tütün və plastik qapı-pəncərə istehsalı sahələri ilə tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, fabrikdə çayın tərkibinə müalicəvi xarakterli yerli bitkilər də qatılır. Yüksək keyfiyyətli məhsullar "Cahan" markası altında satışa çıxarılır, yaxın gələcəkdə, yerli tələbat ödənildikdən sonra, xarici bazarlara da məhsul göndərmək mümkün olacaqdır.

Yerli iş adamları bu cür istehsal sahələrinin yaradılmasını ölkəmizdə sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsi kimi dəyərləndirdilər.

Prezident İlham Əliyev müəssisənin məhsulundan dəmlənmiş çaydan içdi, məhsullardan ibarət sərgiyə baxdı.

Dövlətimizin başçısı müəssisənin fəaliyyətini yüksək qiymətləndirdi və belə istehsal sahələrinin fəaliyyətinin yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin olunması üçün vacibliyini vurğuladı.

AZƏRTAC
2006, 20 dekabr

7 nömrəli orta məktəb Naxçıvan şəhərinin müasir ümumtəhsil müəssisəsidir
(20 dekabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də Naxçıvan şəhər 7 nömrəli orta məktəbin yeni binasının açılış mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyevi məktəbin qarşısına toplaşan şagirdlər, müəllimlər böyük səmimiyyətlə, alqışlarla qarşıladılar.

Məktəbin müəllimi Xavər Əsədova ölkəmizdə təhsilə, elmə göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Son illərdə Prezident İlham Əliyevin tapşırığı, habelə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə məktəb tikintisinin geniş vüsət aldığını vurğuladı. O, "Tərəqqi" medalı ilə təltif edildiyinə görə dövlətimizin başçısına dərin təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev məktəbin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi, təhsil ocağı ilə tanış oldu.

Məlumat verildi ki, məktəbin 1963-cü ildə tikilmiş binası tam yararsız vəziyyətə düşdüyünə görə, bu ilin mart ayında sökülüb yenidən inşa edilmişdir. 792 yerlik məktəbdə hazırda 700 şagird təhsil alır və onların təlim-tərbiyəsi ilə 140 müəllim məşğul olur. Ötən tədris ilində məktəbi bitirənlərdən 29 nəfəri müxtəlif ali məktəblərə daxil olmuşdur. Üçmərtəbəli binada 40-dan çox sinif otağı, fənn kabinetləri, laboratoriyalar, kitabxana, həkim otağı, idman salonu, bufet, yeməkxana var. Məktəbin kompyuter otağındakı 29 kompyuter internetə qoşulmuşdur. İxtisaslı müəllimlər şagirdlərə kompyuterlərdən istifadə qaydalarını öyrədirlər. Məktəbin idman meydançası da var.

Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına, laboratoriyalara, kitabxanaya, bufet və yeməkxanaya, idman salonuna baxdı, məktəbdə yaradılmış şəraiti yüksək qiymətləndirdi və ölkəmizdə bu prosesin davam etdiriləcəyini bildirdi.

Sonra dövlətimizin başçısı şagirdlərlə səmimi görüşdü, onlara təhsillərində uğurlar arzuladı və bilikli, savadlı böyümələri üçün dövlət tərəfindən hər cür diqqət və qayğı göstəriləcəyini söylədi.

AZƏRTAC
2006, 20 dekabr

Naxçıvan modul tipli elektrik stansiyası istifadəyə verilmişdir
(20 dekabr 2006-cı il)

Dekabrın 20-də Naxçıvan Muxtar Respublikasında modul tipli elektrik stansiyası istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşan energetiklər, inşaatçılar dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladılar. Onların əllərində ulu öndər Heydər Əliyevin, dövlətimizin başçısının portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar var idi.

"Azərenerji" Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, Naxçıvan-Ordubad magistralının 8-ci kilometrində "Azərenerjitikinti" MMC tərəfindən inşa edilən, ümumi gücü 87 meqavat olan modul tipli elektrik stansiya 12 hektar ərazini əhatə edir. Stansiyanın işə salınması muxtar respublikanın elektrik enerjisi ilə təmin olunmasına imkan verəcəkdir. Eyni zamanda, yeni iş yerləri də yaradılır. Əgər sovet dövründə muxtar respublikanın energetika sistemində 200-250 nəfər çalışırdısa, hazırda bu sahədə 1000 nəfərə yaxın işçi çalışır.

Sonra dövlətimizin başçısı düyməni basaraq, elektrik stansiyasını işə saldı.

Prezident İLHAM ƏLİYEV inşaatçılara və energetiklərə müraciətlə dedi:

- Sizi təbrik edirəm!

Bu modul tipli elektrik stansiyası Naxçıvan Muxtar Respublikasının enerji problemini həll edəcəkdir, burada həyat işıqlı olacaqdır. Sizə təşəkkür edirəm ki, belə gözəl iş görmüsünüz, qısa müddət ərzində stansiyanı tikmisiniz. Altı ay ərzində gözəl, müasir obyekt tikilibdir.

Sizə uğurlar arzulayıram.

AZƏRTAC
2006, 20 dekabr

Ümummilli Liderin abidəsinin və Heydər Əliyev Muzeyinin açılış mərasimi
(20 dekabr 2006-cı il)

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 20-də Naxçıvan şəhərinin mərkəzində xalqımızın ümummilli liderinin abidəsinin və Heydər Əliyev muzeyinin açılış mərasimində iştirak etmişdir.

Postamentlə birlikdə hündürlüyü 10 metr olan qranit abidənin müəllifi xalq rəssamı, akademik Ömər Eldarovdur.

Dövlətimizin başçısı abidənin önünə gül qoydu.

Sonra Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin adını daşıyan muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısına məlumat verildi ki, əsası ulu öndərin 75 illiyi ərəfəsində qoyulmuş bu muzey rəsmi olaraq 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır. Lakin 2005-ci ilin əvvəlindən bina əsaslı təmir olunmuşdur və indi istifadəyə verilir. Muzeydə 1103 eksponat nümayiş etdirilir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, eyni zamanda ulu öndər haqqında yazılmış kitablar toplanmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, eləcə də bütün xarici səfərlərini əks etdirən materiallar diqqəti cəlb edir.

Prezident İlham Əliyev muzeyin ekspozisiyası ilə yaxından tanış oldu və xatirə kitabına ürək sözlərini yazdı:

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz həyatını Azərbaycanın inkişafına həsr etmişdir. Bütün dövrlərdə öz xalqına ləyaqətlə xidmət etmiş Ulu Öndər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində xüsusi rol oynamışdır.

70-80-ci illərdə Azərbaycanın rəhbəri kimi, ondan sonra Moskvada Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü kimi Azərbaycanın hərtərəfli inkişafında müstəsna rol oynamışdır.

Naxçıvanda 90-93-cü illərdə ağır, çətin günlərdə naxçıvanlılarla birlikdə Muxtar Respublikanı erməni işğalçılardan müdafiə etmişdir.

Və nəhayət, Azərbaycan dövlətinin Prezidenti kimi Azərbaycanın tərəqqi və çiçəklənmə yoluna qədəm qoymasında əvəzsiz xidmətlər göstərmişdir.

Ulu Öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər.

Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır.

İlham Heydər oğlu Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Naxçıvan, 20.12.2006".

AZƏRTAC
2006, 20 dekabr

Naxçıvanda Diaqnostika-Müalicə Mərkəzi istifadəyə verilmişdir

(20 dekabr 2006-cı il)

Dekabrın 20-də Naxçıvan şəhərində Diaqnostika-Müalicə Mərkəzinin təntənəli açılış mərasimi olmuşdur.

Mərasimə toplaşan minlərlə adam Azərbaycan Prezidenti İlham Əliyevi böyük hörmət və ehtiramla, gül-çiçək dəstələri ilə qarşıladı. Sakinlərin əllərində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar, dövlətimizin başçısını salamlayan şüarlar var idi.

Düz bir il əvvəl təməli Prezident İlham Əliyev tərəfindən qoyulmuş Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin inşası tam başa çatdırılmışdır. "Gəmiqaya" şirkətinin gözəl memarlıq üslubunda inşa etdiyi, ən müasir standartlara cavab verən Diaqnostika-Müalicə Mərkəzinin ümumi sahəsi 1385 kvadratmetrdir. Zirzəmi qatından və beş mərtəbədən ibarət bu səhiyyə müəssisəsi dünyanın qabaqcıl ölkələrində ən son texnologiyalar əsasında istehsal edilmiş cihaz və avadanlıqla, o cümlədən süni böyrək aparatı ilə təchiz olunmuşdur. Burada ən mürəkkəb, o cümlədən mikrocərrahiyyə əməliyyatlarının aparılması mümkündür.

Mərkəzdə 350 nəfər daimi iş yeri ilə təmin olunmuşdur.

Diaqnostika-Müalicə Mərkəzinin istifadəyə verilməsinə həsr olunmuş mərasimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talibovun çıxışı

- Möhtərəm Prezident,

Sizin Vətənimizin ayrılmaz parçası olan doğma Naxçıvana hər birsəfəriniz əsl bayrama çevrilir. Bu səfərlər ümummilli liderimizlə başlanan idarəetmə fəlsəfəsinin, quruculuq və yeniləşmə xəttinin müasir şəraitdə davamı kimi yadda qalır, sosial-iqtisadi inkişafa hər an töhfələr bəxş edir. Ölkə rəhbəri kimi muxtar respublikaya birinci səfəriniz zamanı Naxçıvan beynəlxalq hava limanı, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının binası, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi üçün yeni institut binası, Əlillərin bərpa mərkəzi, Yeyinti-sənaye kompleksi, Naxçıvan şəhərindəki hərbi hissənin yeni korpusu və xidmət infrastrukturları kimi mühüm sosial və müdafiə əhəmiyyətli obyektlərin açılışını etdiniz. Regional mülki müdafiə mərkəzi, Üzgüçülük mərkəzi, Heydər Əliyev adına məktəb qədim diyara ikinci səfərinizin yadigarları kimi fəaliyyət göstərir. Muxtar respublikaya üçüncü səfəriniz dahi rəhbərimizin quruculuq xəttinin daha bir ifadəsi kimi tarixə həkk olundu - muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti olan Heydər Əliyev Su Anbarı, Naxçıvan şəhərində Gənclik mərkəzi, Kitab evi, Şahbuz rayonunun Ayrınc kəndində orta məktəb binası, Naxçıvandakı hərbi hissədə yeni obyektlər istifadəyə verildi. Diaqnostika-Müalicə Mərkəzinin təməlqoyma mərasimi keçirildi. İqtisadi blokada vəziyyətində kəskin enerji qıtlığı şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına Sizin himayənizlə 13 illik fasilədən sonra təbii qazın verilməsi bərpa olundu. Bu, ötən illərin ən mühüm hadisəsi idi. Ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə Naxçıvana əfsanə sayılan qaz kəmərinin çəkilməsini reallaşdırdısa, Siz, bu məktəbin ən layiqli yetirməsi, Heydər Əliyev yolunun ardıcıl davamçısı kimi bu məktəbin, bu yolun tükənməz yaradıcı gücünü bir daha nümayiş etdirdiniz: mürəkkəb geosiyasi şəraitə baxmayaraq, Naxçıvana yeni qaz kəməri çəkməklə qədim yurdun xilasına imza atdınız. Vətənimizin ayrılmaz parçasında Sizin rəhbərliyinizlə həyata keçirilən quruculuq tədbirləri, son 3 ildə yeni yaradılmış və fəaliyyəti bərpa olunmuş sənaye və emal müəssisələri, üzləşdiyimiz energetika problemlərinin həlli, ucaldılan məktəb binaları, səhiyyə, ali təhsil və elm müəssisələri, müharibə əlilləri, qaçqın və məcburi köçkünlər üçün tikilən yaşayış evləri, iqtisadiyyatın bütün sahələrində əldə olunan nailiyyətlər, infrastruktur sahələrində görülmüş işlər, 2003-cü ilin oktyabrından bu günə kimi açılmış 24 min 99 yeni iş yeri Sizin əhalinin rifahına yönəlmiş səmərəli dövlətçilik fəaliyyətinizin yadigarlarıdır. Bütün bunlara görə Sizə dərin minnətdarlığımızı bildiririk, muxtar respublikanın əhalisi daim Sizinlədir.

Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında yeni obyektlərin istifadəyə verilməsi, yeni tikililərin ucaldılması bir daha sübut edir ki, möhtərəm Heydər Əliyevin quruculuq xətti inamla davam etdirilir. Bu siyasi xətt ulu öndərimizin sağlığında insanların rifah halının yüksəlməsinə yönəldilmişdi. Bu gün ölkə rəhbəri hörmətli İlham Əliyev də Azərbaycanda mövcud potensialın insan kapitalına çevrilməsi, başqa sözlə, əhalinin rifahının, sosial vəziyyətinin yaxşılaşdırılması üçün bütün imkanların səfərbər

edilməsini bir nömrəli vəzifə kimi qarşıya qoyur. Yeni şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasını ümummilli liderimiz belə müəyyənləşdirmişdir: strateji xəttimiz sərbəst iqtisadiyyat və sosial inkişaf yoludur. Hörmətli Prezidentimiz də bu xəttin davamı olaraq bildirir ki, Azərbaycanın inkişafı bundan ibarətdir: güclü iqtisadiyyat, güclü infrastruktur və güclü sosial siyasət. Ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramı həyatın bütün sahələrində sürətli inkişafa rəvac vermiş, regionlarda canlanma yaratmışdır. Yeni istehsal sahələrinin istifadəyə verilməsi nəticəsində əhalinin məşğulluğu xeyli dərəcədə təmin olunmuş, elektrik enerjisi, qaz, su, rabitə təminatı kimi sosial problemlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual səviyyəyə yol açmışdır. Göründüyü kimi, proqramın əsas qayəsi insan amilinə, vətəndaşlar üçün əlverişli mühitin yaradılmasına yönəldilmişdir. Bu sırada əsas yerlərdən birini sağlamlığın mühafizəsi, ən müasir standartlara uyğun müalicə-bərpa mərkəzlərinin yaradılması tutur. Blokada vəziyyəti ilə bağlı ölkəmizin əsas ərazisinə gediş-gəlişin çətinliyi ucbatından Naxçıvan Muxtar Respublikasında bu sahədə bir sıra problemlər mövcud idi. Hörmətli Prezidentimiz bu problemlərin həlli ilə bağlı hələ 2004-cü ildə bir sıra tapşırıqlar vermiş, Yaponiya istehsalı olan kompyuter tomoqrafiyası aparatı alınaraq, Naxçıvan respublika xəstəxanasında quraşdırılmışdır. Bununla yanaşı, problemin kompleks həlli məqsədi ilə ölkə rəhbərinin tapşırığı əsasında Naxçıvanda yeni Diaqnostika-Müalicə Mərkəzinin tikintisinə başlanıldı. Düz bir il bundan əvvəl təməlqoyma mərasimində çıxış edən hörmətli İlham Əliyev demişdir: "Qısa müddət ərzində, bir il ərzində bu diaqnostika mərkəzi tikilməlidir və burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Biz xalq üçün yaşayırıq, xalq üçün işləyirik və elə etməliyik ki, xalq bütün məsələlərdə özünü rahat hiss etsin, heç bir çətinliyi olmasın".

Cənab Prezident, Naxçıvanda Sizin daha bir yadigarınız olan yeni obyekt – Diaqnostika-Müalicə Mərkəzi hazırdır. Mərkəzin binasının istər tikinti-memarlıq həlli, istərsə də dünyada mövcud ən yeni avadanlıqların alınıb gətirilməsi və quraşdırılması daim Sizin şəxsi nəzarətiniz altında olmuş, beləliklə, tamamilə yeni bir müalicə-diaqnostika kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi muxtar respublika üçün həyati vacib obyektlərdən biridir. Ümumi sahəsi 14 min kvadratmetrə yaxın olan mərkəz təcili yardım, diaqnostika, hemodializ, ümumi stasionar və kardiocərrahiyyə şöbələrindən ibarətdir. Müasir layihə əsasında inşa olunan bu səhiyyə ocağı yerləşdiyi əraziyə, muxtar respublikanın paytaxtı Naxçıvana yeni yaraşıq gətirməklə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsinə də öz töhfəsini vermişdir. Belə ki, mərkəzin tikintisində 600-700 nəfər işçi çalışmışdır. Mərkəzin istifadəyə verilməsi nəticəsində isə 350 yeni iş yeri açılacaqdır. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi nəinki muxtar respublikada, hətta ətraf regionda bənzəri olmayan səhiyyə-sağlamlıq müəssisəsidir. Mərkəzin istifadəyə verilməsi müalicə və müayinə üçün başqa ölkələrə, Bakı şəhərinə gedib-gəlməyə məcbur olanlara muxtar respublikanın özündə tibbi müayinə və xidmət göstərilməsinə imkan yaradacaqdır. Eyni zamanda, ətraf regionların əhalisinin də burada müalicə almaq imkanı olacaqdır.

Möhtərəm Prezident, Sizin himayənizlə ucaldılan Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi 15 ildən artıq bir müddətdə blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının və əhalinin sağlamlığı, səhiyyə müəssisələrinin fəaliyyəti ilə bağlı problemlərin həllinə həssaslıqla yanaşmağınızın, göstərdiyiniz dövlət qayğısının ifadəsidir. Bu böyük qayğıya və diqqətə görə Sizə muxtar respublikanın əhalisinin, bu sağlamlıq ocağından istifadə edəcək bütün insanların minnətdarlığını çatdırıram.

Diaqnostika-Müalicə Mərkəzinin həkimi Zümrüd Cəfərlinin çıxışı

- Möhtərəm Prezident!

Biz səhiyyə işçiləri Sizi bu qədim Azərbaycan torpağında

salamlamaqdan, Sizinlə bir yerdə olmağımızdan qürur duyuruq. Ölkəmizdə səhiyyənin inkişafı ümummilli liderimizin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu daim səhiyyənin inkişafına çalışmış, bu sahəyə xüsusi qayğı göstərmişdir. Sizin rəhbərliyinizlə bu yol davam etdirilir. İnsanların sağlamlığının möhkəmləndirilməsi daim diqqət mərkəzindədir. Son illər Azərbaycanın müxtəlif bölgələrində yeni tibb ocaqlarının tikilməsi, müasir müalicə-diaqnostika mərkəzlərinin yaradılması, səhiyyə sisteminə ayrılan büdcə vəsaitlərinin ilbəil artırılması, səhiyyə müəssisələrinin müasir tibbi avadanlıqla, texnika ilə təchiz edilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə müəssisələrinin daha səmərəli işləməsi, əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədi ilə köklü islahatlar aparılır, yeni struktur sahələri yaradılır. Ana və uşaqların, ahıl şəxslərin müalicəsi, ixtisaslı kadrların hazırlanması səhiyyədə mühüm istiqamətlərdən birinə

çevrilmişdir. Bu tədbirlər muxtar respublikamızda da ardıcıl həyata keçirilir. Genişmiqyaslı quruculuq işlərinin nəticəsidir ki, təkcə 2006-cı ilin 11 ayı ərzində 11 həkim ambulatoriyası və feldşer-mama məntəqəsi istifadəyə verilmiş, Əziz Əliyev adına Mərkəzi uşaq xəstəxanasının, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin binaları yenidən qurulmuş, Kəngərli rayon mərkəzi xəstəxanasının yeni binası istifadəyə verilmiş, Duzdağ fizioterapiya xəstəxanasının şaxta hissəsində çarpayıların sayı 250-yə çatdırılmaqla yeni, geniş palata yaradılmışdır. Bütün səhiyyə müəssisələri yeni, müasir tibb avadanlığı və texnikası, inventarla təchiz edilmişdir. Səhiyyə sahəsində geniş quruculuq işləri bu gün də davam etdirilir. 100 çarpayılıq Şərur rayon mərkəzi xəstəxanası, 100 çarpayılıq respublika psixi xəstəliklər dispanserinin yeni binalarının tikintisi başa çatmaqdadır. Görülən işlərin fonunda Naxçıvan şəhərində açılışına toplaşdığımız müasir tipli Diaqnostika-Müalicə Mərkəzinin istifadəyə verilməsi xüsusi əhəmiyyət daşıyır.

Hörmətli Prezidentimiz, Sizin himayənizlə inşasına başlanılan bu obyekt naxçıvanlıların sağlamlığının qorunmasında çox mühüm rol oynayacaqdır. Ən müasir dünya standartlarına uyğun mərkəz Naxçıvanın hər bir tibb işçisinin, hər bir vətəndaşımızın qürurunu çevriləcəkdir. Bu mərkəzin istifadəyə verilməsi nəticəsində 350 yeni iş yeri açılır. Yeni işlə təmin olunanlardan biri də mənəm.

Tibb Universitetinin ikinci müalicə-profilaktika fakültəsini bitirmiş, 2003-cü ildən akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasında işləmişəm. Türkiyə Respublikasının Kocaeli Universitetində kurs keçmişəm. Bu müasir tibb müəssisəsində işləmək bizi bir tərəfdən sevindirirsə, digər tərəfdən də, üzərimizə böyük məsuliyyət qoyur. Biz səhiyyə işçiləri bu yüksək qayğıya görə Sizə, dövlətimizin başçısına həmişə minnətdarıq. Bu qayğıya cavab olaraq, Sizə söz veririk ki, əhalinin sağlamlığı naminə bütün qüvvə və bacarığımızı səfərbər edəcək, Sizin etimadınıza layiq olmağa çalışacağıq.

Möhtərəm Prezident, Sizi qarşıdan gələn ad gününüz münasibətilə muxtar respublikanın səhiyyə işçiləri və kollektivləri adından, bütün insanlarımız adından səmimi qəlbdən təbrik edir və Sizə Allahdan uzun ömür və möhkəm cansağlığı arzulayırıq.

X X X

Prezident İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

-Əziz naxçıvanlılar,

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gözəl Diaqnostika-Müalicə Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl mərkəz həm xarici görünüşünə, həm də daxili təchizatına görə dünyanın ən yüksək standartlarına cavab verir. Bu bir memarlıq abidəsidir və əminəm ki, burada göstəriləcək xidmət ən yüksək səviyyədə olmalıdır və olacaqdır. Çünki burada quraşdırılmış avadanlıq dünyanın ən öndə gedən tibb firmalarının istehsalıdır və ən qabaqcıl texnologiyaları əks etdirir. Biz düz bir il bundan əvvəl bu mərkəzin təməlqoyma mərasimini bərabər keçirdik və o vaxt da mən əmin olduğumu bildirmişdim ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcəkdir. Çox şadam ki, düz bir il ərzində biz buna nail ola bildik və bu gün bu mərkəz naxçıvanlıların sərəncamına verilir. Deyə bilərəm ki, Azərbaycanın tarixində buna, bu mərkəzə bərabər tibb ocağı olmamışdır. Ən müasir tibbi mərkəzdir və burada insanlar həm müayinədən keçəcəklər, eyni zamanda, müalicə olunacaqlar.

Azərbaycanda son illər ərzində görülən işlər ən yüksək səviyyədədir və bizim məqsədimiz, istəyimiz ondan ibarətdir ki, dünyada olan ən yüksək texnologiyalar, ən yüksək keyfiyyət Azərbaycana gətirilsin. Çünki Azərbaycan xalqı buna layiqdir. Bizim imkanlarımız artır və artdıqca da, əlbəttə ki, bunu ilk növbədə, sosial məsələlərin həllinə səfərbər edəcəyik.

Mən bu gün Naxçıvan hava limanından ulu öndər Heydər Əliyevin abidəsi önünə gəldim. Heydər Əliyev muzeyinin açılışını qeyd etdik. Heydər Əliyevin həyatı, fəaliyyəti Azərbaycan xalqına xidmət etməkdən ibarət olmuşdur. İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə xalqın lideri öz xalqına sədaqətlə, ləyaqətlə xidmət etmişdir. 1970-80-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafına öz töhfəsini vermişdir. Ondan sonra, Moskvada çalışdığı dövrdə də həmişə Azərbaycana böyük diqqət göstərmişdir. 1969-cu ildə Azərbaycana rəhbərliyə gələndə Azərbaycan

müttəfiq respublikalar arasında ən geridə qalan idi, ən axırıncı yerdə idi. 1982-ci ildə isə Azərbaycan bütün 15 respublika arasında iqtisadi, sosial inkişaf baxımından birinci idi. Eyni zamanda, 1993-cü ildə Heydər Əliyev yenidən Azərbaycana qayıdanda vəziyyət çox ağır idi. Demək olar ki, ölkə parçalanma ərəfəsində idi. Amma rəhbərliyinin 10 ili ərzində onun müdrikliyi, siyasəti nəticəsində, cəsarəti nəticəsində Azərbaycan bu gün iqtisadi inkişaf dinamikasına görə ən qabaqcıl ölkələr sırasındadır.

Naxçıvan Heydər Əliyevin həyatında xüsusi yer tutmuşdur. Naxçıvan Heydər Əliyevin vətənidir, o, burada doğulmuş, oxumuşdur və bütün dövrlərdə daim Naxçıvana böyük diqqətlə yanaşırdı. 1970-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanın sosial-iqtisadi inkişafına böyük töhfələr vermişdir. 1990-93-cü illərdə ağır, çətin şəraitdə naxçıvanlılarla birlikdə blokada şəraitində muxtar respublikanın inkişafına, burada əmin-amanlığın bərqərar olunmasına, təhlükəsizliyin təmin edilməsinə böyük xidmətlər göstərmişdir.

1993-2003-cü illərdə müstəqil Azərbaycanın Prezidenti kimi Heydər Əliyev həmişə Naxçıvanın qayğıları ilə yaşamışdır. Dəfələrlə respublikaya gəlmiş, öz tövsiyələrini vermiş və Naxçıvanın inkişafı üçün çox önəmli qərarlar qəbul etmişdir. Bu gün Naxçıvan çox sürətlə inkişaf edən respublikadır. Sosial-iqtisadi inkişaf çox sürətlidir, abadlıq-quruculuq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar bərpa olunur. Uzun fasilədən sonra Naxçıvana təbii qaz verilməsinin bərpası mümkün olmuşdur və bu, insanların həyat səviyyəsinin yaxşılaşmasına böyük dəstəkdir.

Naxçıvanda elektrik stansiyaları tikilir və bu gün bu tədbirdən sonra biz yeni elektrik stansiyasının açılışında iştirak edəcəyik. Yəni Naxçıvan özü enerjiyə olan tələbatını ödəyəcəkdir. 87 meqavat gücündə modul elektrik stansiyasının tikintisi, 50 meqavat gücündə elektrik stansiyasının bərpası, Heydər Əliyev Su Anbarında tikilmiş 4,5 meqavat gücündə Vayxır elektrik stansiyası - bütün bunlar son müddət ərzində görülmüş işlər, Naxçıvanın enerji təhlükəsizliyini təmin edən məsələlərdir. İnfrastruktur olmayan yerdə heç bir inkişafdan söhbət gedə bilməz. İnfrastrukturun əsas hissəsini elektrik enerjisi və qaz təminatı təşkil edir. Azərbaycan özünün, o cümlədən Naxçıvanın da enerji təhlükəsizliyini təmin edir.

Bizim böyük işlərimiz, böyük planlarımız var. Bu planlar uğurla həyata keçirilir. Naxçıvanın timsalında biz bunu görə bilərik. Qəbul edilmiş qərarların qısa müddət ərzində icrası nəticəsində çox gözəl inkişaf, irəliləyiş var. Mən bir rəqəmi demək istəyirəm ki, Naxçıvanın büdcəsi son dörd ildə beş dəfə artıbdır. Yəni bu, o deməkdir ki, beş dəfə çox işlər görmək mümkündür. Maaşlar artır, pensiyalar artır. Dünən imzaladığım Sərəncamla yanvarın 1-dən minimum əmək haqqı 10 manat artırılacaq və 40 manat səviyyəsinə qaldırılacaqdır. İnfrastruktur layihələri, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası və sosial məsələlərin həlli - demək olar ki, bizim sosial-iqtisadi siyasətimiz sahəsində əsas istiqamətlər bunlardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı da uğurla icra edilir, son üç ildə 500 min yeni iş yeri açılmışdır. İşsizlik aradan qaldırılır, yoxsulluq səviyyəsində yaşayanların sayı kəskin şəkildə azalır. Ünvanlı sosial yardım mexanizmi artıq tətbiq olunur.

Bir sözlə, bizim iqtisadi imkanlarımız, düşünülmüş siyasət, Heydər Əliyevin siyasi xətti imkan verir ki, Azərbaycan öz problemlərini qısa müddət ərzində həll etsin və biz bunu edirik. Bunu etmək üçün başlıca şərt Heydər Əliyev siyasətinin davam etdirilməsidir və bu siyasət indi davam etdirilir. Heydər Əliyevin siyasi irsi qorunur, onun siyasəti davam etdirilir və Azərbaycanda sabitliyin möhkəmlənməsində, sosial-iqtisadi inkişafın güclənməsində, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsində bunun çox önəmli rolu var.

Naxçıvanda yeni aeroport, elektrik stansiyaları, məktəblər tikilmiş, yollar çəkilmişdir. Digər sosial obyektlərin tikintisi sürətlə gedir. Azərbaycanın hər bir bölgəsində biz bunu görürük. Hər bir bölgə inkişafdadır, bizim iqtisadi imkanlarımız buna şərait yaradır. Bu gözəl iqtisadi əsasda, bu gözəl iqtisadi zəmində güclü iqtisadiyyat yaratmaq mümkündür.

Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq fəaliyyətdədir. Məhz ulu öndərin təşəbbüsü ilə biz bu kəmərin tikintisinə nail ola bilmişik. Bir neçə gün bundan əvvəl "Şahdəniz" yatağından ilk qazın hasilatına nail ola bilmişik və Azərbaycanın enerji təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır.

Nəzərə alsaq ki, indi bu məsələ dünyada ön plana çıxıbdır, görərik ki, əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsinə başlanmasaydı, bu gün Azərbaycanın vəziyyəti tam başqa olardı. Bizim iqtisadi vəziyyətimiz imkan verməzdi ki, bu sürətlə inkişafa nail olaq.

Son dörd il ərzində Azərbaycanın dövlət büdcəsi 4 dəfə artıb və Azərbaycanda böyük layihələr, böyük tikintilər dövlət büdcəsi hesabına həyata keçirilir. Bu Diaqnostika-Müalicə Mərkəzi də dövlət vəsaiti

hesabına tikilmişdir. Biz artıq heç yerə müraciət etmirik, kreditlər axtarmırıq, öz imkanlarımızı səfərbər edib, maliyyə nizam-intizamını gücləndirib yeni obyektlərin yaradılmasında iştirak edirik. Gələcəkdə belə mərkəzlər başqa şəhərlərdə də tikiləcəkdir. Artıq bu proses başlanmışdır. Azərbaycanın 10 bölgəsində yeni, müasir diaqnostika-müalicə mərkəzi tikiləcəkdir.

Mən sizi bu soyuq havada çox saxlamaq istəmirəm, görürəm ki, burada gənclər bir az üşüyürlər. Hava doğrudan da soyuqdur, mənfi 6 dərəcədir. Amma nəzərə alsaq ki, yeni xəstəxana tikilib və əgər kimsə xəstələnərsə, əminəm ki, burada yüksək xidmət alacaqdır. Amma arzu edirəm ki, heç kim xəstələnməsin, bütövlükdə, naxçıvanlılar fiziki cəhətdən sağlamdırlar. Bu çətin iqlim onları möhkəmləndirir. Ancaq əgər kimsə xəstələnsə, artıq ən yüksək tibbi xidmət almaq mümkün olacaqdır.

Əvvəllər bəzi hallarda bölgələrdən Bakıya müalicə üçün gəlirdilər, indi də belə hallar var. Amma bölgələrdə yaradılan tibb mərkəzləri bunun qarşısını alacaqdır. Yəni bölgələrdə indi böyük cərrahiyyə əməliyyatları aparılır. Lənkəran şəhərində bu il açdığımız müalicə-diaqnostika kompleksində ürəkdə açıq cərrahiyyə əməliyyatı keçirilmişdir. Yəni bu, imkan verəcək ki, yəqin nə vaxtsa başqa ölkələrdən buraya müalicə üçün gələcəklər. Hər halda, Azərbaycanın bugünkü durumu buna imkan verir.

Azərbaycanın gələcək inkişaf strategiyası da respublikamızı hərtərəfli şəkildə inkişaf etmiş, güclü iqtisadi potensiala, güclü siyasi və beynəlxalq mövqelərə malik ölkəyə çevirəcəkdir. Mən bunu arzulayıram və öz gündəlik fəaliyyətimdə bunu təmin etməyə çalışıram.

Əziz dostlar, sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

AZƏRTAC
2006, 20 dekabr

Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan Ali Məclisində müşavirə

(21 dekabr 2006-cı il)

Xəbər verdiyimiz kimi, dekabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müşavirə keçirilmişdir.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açdı.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- İkinci gündür ki, mən Naxçıvandayam. Burada vəziyyətlə tanış oluram, müxtəlif tədbirlərdə iştirak edirəm. Çox şadam ki, Naxçıvan çox dinamik şəkildə inkişaf edir, muxtar respublikada iqtisadi artım müşahidə olunur. Geniş quruculuq, abadlıq işləri aparılır, sosial infrastruktur yeniləşir. Muxtar respublikanın rayonlarında da böyük işlər görülür və bu gün Ordubad rayonunda olarkən yeni internat məktəbinin açılışında iştirak etmişdim. Gördüm ki, məktəb ən yüksək səviyyədə tikilib istifadəyə verilmişdir. Bu, məni çox sevindirir. Çünki Naxçıvanın möhkəmlənməsi, güclənməsi bizim üçün çox önəmlidir. Naxçıvan Azərbaycanın strateji yeridir, qədim Azərbaycan torpağıdır. Hamımız çalışmalıyıq ki, Naxçıvanda inkişaf daha da sürətlə getsin.

Dünən iki əlamətdar hadisə baş vermişdir. Yeni modul tipli elektrik stansiyasının açılış mərasimi keçirilmişdir. Bu modul stansiyanın işi nəticəsində Naxçıvanın elektrik enerjisinə olan tələbatı xeyli dərəcədə təmin olunacaqdır. 87 meqavat gücündə olan bu stansiya Naxçıvanın enerjiyə tələbatının, demək olar ki, böyük bir hissəsini təmin edəcəkdir. Bu, ən müasir texnologiyadır və bütövlükdə, stansiyanın tikilməsi, işə düşməsi yalnız Azərbaycanla İran arasında imzalanmış qaz mübadiləsi sazişinin həyata keçirilməsindən sonra mümkün olmuşdur. Biz keçən il Naxçıvana qaz verilməsini qeyd etdik. O da çox tarixi hadisə idi. Çünki uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi İranla mübadilə yolu ilə bərpa olundu. Artıq bir ilə yaxındır ki, Naxçıvana qaz verilir. İndi qazlaşdırmanın ikinci mərhələsi icra olunur və əminəm ki, bunun nəticəsində əvvəllər, Sovet İttifaqı zamanı qazlaşdırılmış məntəqələr yenə də qazla təmin ediləcəkdir. Həm əhali qazla təmin edilir, həm də elektrik stansiyasının işə salınması mümkün olmuşdur.

Eyni zamanda, dünən yeni Diaqnostika-Müalicə Mərkəzinin açılışı da olmuşdur. Bu diaqnostika mərkəzi ən yüksək dünya standartlarına cavab verir. Bölgədə ən müasir, ən qabaqcıl tibb mərkəzidir. Ən yeni texnologiyalar tətbiq olunur və yüksək səviyyədə xidmət göstərmək üçün bütün şərait var. Düz bir il bundan əvvəl biz birlikdə o mərkəzin təməlini qoyduq və dünən onun açılışında iştirak etdik. Bu, məni çox sevindirir, çox əlamətdar hadisədir. Bir tərəfdən, ona görə ki, Naxçıvan əhalisi artıq bundan sonra ən yüksək tibbi xidmətlə təmin olunacaqdır. Digər tərəfdən, bu, Azərbaycan dövlətinin imkanlarını, gücünü, potensialını nümayiş etdirən hadisədir.

İndi Azərbaycanın müxtəlif bölgələrində yeni, müasir tibb mərkəzləri istifadəyə verilir. Bu, bizim sosial siyasətimizin, demək olar ki, əsas istiqamətlərindən biridir. Bu, bir daha onu göstərir ki, Azərbaycanın bütün istiqamətlərdə siyasəti, bizim dövlətimizin siyasəti insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilibdir. Əmək haqları artırılır, yanvarın 1-dən minimum əmək haqqı yenə artırılacaq, 40 manata çatacaqdır. Onu da bildirmək istəyirəm ki, minimum əmək haqqını 30 manatdan 40 manata qaldırmaq üçün büdcədə 200 milyon yeni manatdan çox vəsait nəzərdə tutulubdur. Bu, çox böyük məbləğdir. Biz bunu edirik. Çünki bir daha demək istəyirəm, minimum əmək haqqı insanların minimum tələbatını ödəməlidir. Hələlik Azərbaycanda çətin şəraitdə yaşayan insanlar var. Minimum əmək haqqı alan insanların, əhalinin sayı təxminən 630 min nəfərdir. Düzdür, yoxsulluğun səviyyəsi ildən-ilə aşağı düşür, işsizlik aradan qaldırılır, yeni iş yerləri açılır. Amma hələ ki, ehtiyac içində yaşayanlar var. Onların həyat səviyyəsini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görülür. Əlbəttə, ünvanlı sosial yardımın tətbiq olunması bu istiqamətdə önəmli addımdır. Ancaq, ilk növbədə, bizim vəzifəmiz odur ki, minimum əmək haqqı minimum ehtiyacların ödənilməsinə imkan versin. Əlbəttə, sosial məsələlərin həlli gələcəkdə də diqqət mərkəzində olacaqdır. Bu baxımdan Diaqnostika-Müalicə Mərkəzinin açılışı böyük əhəmiyyət kəsb edən bir məsələdir.

Hələ 1992-ci ildə, ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri işlədiyi dövrdə Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəl tərəfindən Naxçıvana qaz-turbin elektrik stansiyası hədiyyə edilmişdi. Stansiya, əsasən, dizel yanacağı ilə işləyirdi. Ancaq müəyyən müddətdən sonra onun işi

dayandırılmışdı. İndi, yenə qeyd etmək istəyirəm, Naxçıvana qaz verilməsinin bərpasından sonra bu stansiya da işə düşdü. Onun istehsal gücü təxminən 50 meqavat olacaqdır.

Heydər Əliyev adına Vayxır Su Anbarında su elektrik stansiyasının tikintisi də həyata keçirildi. Düzdür, yadımdadır, su anbarı tikiləndə bu stansiyanın tikintisi nəzərdə tutulmurdu. Ancaq ondan sonra Vasif Talıbovun təklifi ilə biz layihəyə əlavələr etdik. Düzdür, bəziləri buna müsbət yanaşmırdı. Ancaq mən hesab edirəm ki, maksimum dərəcədə Naxçıvanın öz resurslarına əsaslanıb elektrik enerjisi istehsalına imkan yaratmalıyıq. Su elektrik stansiyası cəmi 4,5 meqavat gücündədir. Az da olsa, yenə də müəyyən ehtiyacları təmin edəcəkdir.

Gələcəkdə Ordubad rayonunda yeni su elektrik stansiyalarının tikintisi də nəzərdə tutulur. Dünən Vasif Talıbov bu barədə mənə məlumat verdi ki, Ordubad rayonunda çaylar üzərində su elektrik stansiyaları tikilməsinə imkan var.

Əlbəttə, gələcəkdə Naxçıvanda enerji təhlükəsizliyi problemləri tamamilə həll olunacaqdır. Elektrik enerjisi baxımından artıq bu il ərzində yaradılan potensial güc buna imkan verir. Təxminən 90 meqavatlıq modul elektrik stansiyası, 50 meqavatlıq qaz-turbin stansiyası, daxili imkanları - Araz su elektrik stansiyası Naxçıvanın tələbatını təxminən ödəyir.

Mən bu barədə nə üçün xüsusi danışmaq istəyirəm? Çünki bütün iqtisadi potensialın təməlində bu məsələlər dayanır. Əgər iqtisadi potensialı artırmaq istəyiriksə, - bunu istəyirik və edirik, - enerji məsələləri mütləq həll olunmalıdır. Bu məqsədlə Azərbaycanda müxtəlif yerlərdə yeni elektrik stansiyaları tikilir. Sumqayıtda 500 meqavat gücündə, Bakıda 400 meqavat gücündə "Şimal-2" elektrik stansiyasının tikintisi nəzərdə tutulubdur. Modul tipli stansiyaların ümumi gücü 450 meqavat olacaqdır. Əli Bayramlıda yeni stansiya tikiləcəkdir. Bütövlükdə, Azərbaycanın energetika sistemi yeniləşir.

Gələcəkdə tələbat daha da artacaqdır. Biz bunu görürük. Görürük ki, Azərbaycan hansı sürətlə inkişaf edir. Dünyada analoqu olmayan iqtisadi artım Azərbaycandadır. Keçən il artım 26 faiz, bu il 34 faiz olub və yəqin ki, gələn il bu yüksək sürət davam edəcəkdir. İqtisadiyyat artır, yeni müəssisələr yaranır, iş yerləri açılır. Yarım milyon iş yerinin açılması özlüyündə əlavə enerji mənbəyinə ehtiyac yaradır. Fərdi tikintilər gedir, yeni müəssisələr yaranır. Bütün bunlar enerji tələb edir. Biz bunu təmin etməliyik və edirik.

Əlbəttə, bütün bölgələrin inkişafı bu baxımdan böyük əhəmiyyət kəsb edir, xüsusilə Naxçıvan Muxtar Respublikası. Blokada şəraitində yaşayan muxtar respublikanın iqtisadi potensialı maksimum dərəcədə yerli resurslar əsasında möhkəmlənməlidir. Ona görə dünən tanış olduğum yeni sənaye müəssisələri də mənə çox müsbət təsir bağışladı. Artıq burada istehlak olunan məhsulların böyük hissəsi Naxçıvanda istehsal olunur və olunacaqdır. Bu, həm muxtar respublikanın tələbatını ödəyir, həm də gələcəkdə Naxçıvanın ixrac potensialını da artıracaqdır. Biz bu məsələlərə xüsusi diqqət göstəririk. Xüsusilə görəndə ki, burada çox böyük quruculuq, abadlıq işləri aparılır, çox böyük məhəbbətlə işlər görülür, əlbəttə, bu, çox sevindirici haldır. Ona görə mən muxtar respublikanın bütün rəhbərliyinə, rəhbər işçilərinə, xüsusilə Vasif Talıbova gördükləri işlərə görə öz təşəkkürümü bildirirəm.

Ulu öndər Heydər Əliyevin vətəni, bizim hamımızın doğma diyarı olan Naxçıvan möhkəmlənməli, güclənməlidir. Bu, bizim borcumuzdur, vəzifəmizdir. Biz hamımız 1990-cı illərin əvvəllərini xatırlayırıq ki, Naxçıvan hansı vəziyyətdə idi. İşıq yox, su yox, iqtisadiyyat dağılmış vəziyyətdə, Ermənistan tərəfindən hücumlar. Ermənistanın işğalçı siyasəti o cümlədən Naxçıvana da istiqamətləndirilmişdi. İndi bəzi hallarda Ermənistanın təbliğatı belə şayiələr yayır ki, guya bu müharibə Qarabağ ermənilərinin iştirakı ilə başlanmışdır. Ancaq belə deyildir. Ermənistan qoşunları Azərbaycanın torpaqlarını xarici qüvvələrlə bərabər, hərbi əməliyyatlarda xarici qüvvələrin bilavasitə iştirakı ilə zəbt edibdir. Biz hamımız bunu bilirik. Amma yaxşı, tutaq ki, onlar bəzi beynəlxalq təşkilatları müəyyən dərəcədə çaşdırmağa müvəffəq olublar. Bəs, Naxçıvana hücumlar haradan gəlirdi? Dağlıq Qarabağ separatçıları tərəfindən? Dağlıq Qarabağ buradan uzaqdadır! Yəni Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçı siyasətin müxtəlif istiqamətləri var idi. O cümlədən məqsədlərin biri də Naxçıvanı işğal etmək idi. İndi Ermənistanın bəzi siyasi dairələrində gedən müzakirələr bunu bir daha sübut edir. Onların orada keçirdiyi tədbirlərdə vurğulanır ki, bəli, biz Naxçıvanda istədiyimizə nail ola bilmədik, Naxçıvanı işğal edə bilmədik. Yəni bu, açıq-aydın göstərir ki, bu, onların planında idi. Əgər o vaxt naxçıvanlılar ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə burada müqavimət göstərməsəydilər, o müdafiəni təşkil etməsəydilər, düşmənə çox sanballı və çox möhkəm zərbə vurmasaydılar, Naxçıvanın taleyi çox təhlükəli ola bilərdi. Ona görə bu strateji diyara, Azərbaycanın strateji məntəqəsinə daim böyük diqqət göstərilməlidir. İqtisadi, sosial, hərbi potensialın möhkəmlənməsi böyük əhəmiyyət kəsb edir.

Mən onu da qeyd etmək istəyirəm ki, Naxçıvanın hərbi potensialı da son illər ərzində böyük dərəcədə möhkəmləndi. Çoxlu sayda lazım olan avadanlıq, texnika gətirildi. Naxçıvan indi tam şəkildə özünü müdafiə etməyə qadirdir və lazım gələrsə, hücum əməliyyyatları da aparmaq mümkündür.

Bilirsiniz ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün danışıqlar aparırıq. Danışıqların ümumi gedişatı müsbət xarakter daşıyır, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində aparılır. Çox sevindirici haldır ki, beynəlxalq təşkilatlar və bu məsələ ilə məşğul olan dövlətlər də artıq yüz faiz mövqe nümayiş etdirirlər ki, məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü dünya tərəfindən tanınır, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır. Əlbəttə, danışıqların əsas məqsədi budur və danışıqlar bu istiqamətdə aparılır. Azərbaycanın ərazi bütövlüyü heç bir şərt qoyulmadan bərpa olunmalıdır.

Danışıqların çərçivələri bundan ibarətdir.

Mən ümid edirəm ki, Ermənistan rəhbərliyi tezliklə Minsk qrupu tərəfindən təklif edilmiş təkliflərə öz razılığını verəcək, vaxt uzatmaqla məşğul olmayacaq, beynəlxalq ictimaiyyəti çaşdırmaqla məşğul olmayacaq, öz daxili, siyasi məsələləri, xüsusilə qarşıdan gələn parlament seçkilərinin təhlükəsizlik şəraitində, - yəni iqtidar üçün, - keçirilməsi üçün danışıqlarda iştirak etmək görüntüsü yox, real iştirak nümayiş etdirəcək və təkliflərə cavab verəcəkdir. Bəzi hallarda Ermənistanda siyasi vəziyyəti nəzərə alaraq, Ermənistan rəhbərliyi çox maraqlı və bəzən gülməli bəyanatlarla çıxış edir. Biz çalışırıq ki, buna əhəmiyyət verməyək. Çünki onun heç bir əhəmiyyəti yoxdur. Amma bəzi hallarda bu bəyanatlar təxribat xarakteri daşıyır. Yalan məlumatlardır və belə olan halda, biz bu yalanları ifşa etməliyik.

Bu yaxınlarda rəsmi dairələr bəyan etmişlər ki, guya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ danışıqları Azərbaycanın ərazi bütövlüyü prinsipindən kənarda aparılır. Bu, tam yalandır. Biz məcburuq ki, onların yalanını ifşa edək. Birincisi, bu, heç vaxt olmayıb və ikincisi, heç vaxt olmayacaq, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Bu, birmənalıdır və bu barədə heç danışmağa da dəyməz. Azərbaycan dövləti heç vaxt buna razılıq verməz. Birincisi, ona görə ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dünya tərəfindən, Birləşmiş Millətlər Təşkilatı və bütün başqa ölkələr tərəfindən Azərbaycan torpağı kimi tanınır. Digər tərəfdən, ona görə ki, Azərbaycanla Ermənistan arasında inkişafda indi böyük fərq var. Əgər Azərbaycanın ən ağır, ən çətin dövründə Ermənistan buna nail ola bilməyibsə, indiki dövrdə bu barədə fikirləşmək belə vaxt itirməkdir. Baxın, Azərbaycanın önəminə və Ermənistanın önəminə. İqtisadi cəhətdən bizim iqtisadiyyatımız onların iqtisadiyyatından 6-7 dəfə böyükdür və yaxın illərdə 10 dəfə böyüyəcəkdir. Bizim büdcəmiz onların büdcəsindən 6 dəfə böyükdür. Bizim hərbi büdcəmiz onların ümumi büdcəsinə bərabərdir. Yəqin ki, xatırlayırsınız, mən bu məqsədi iki il bundan əvvəl qarşıya qoymuşam və bəziləri buna şübhə ilə yanaşırlar, xüsusilə Ermənistanda buna belə istehza ilə yanaşırlar. Amma reallıq budur. Bizim hərbi büdcəmiz 1 milyard dolları ötübdür.

Siyasi çəkimiz artır, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rol oynayır. Bilirsiniz ki, indi Avropanın gündəliyində enerji məsələləri birinci yerdədir. Enerji mənbələrinin şaxələndirilməsi ilə məşğuldurlar. O nəyin hesabına şaxələndirilə bilər? Ancaq Azərbaycanda hasil ediləcək təbii qazın hesabına! Avropaya qaz nəql edən yeni mənbə yoxdur. Hansılar ki, mümkündür, onlar var, oradan da qaz alınır. Yeni mənbə ancaq Azərbaycandır. Sirr deyil ki, biz həm iqtisadi inkişaf üçün, həm də siyasi mövqelərimizin möhkəmlənməsi üçün bundan istifadə edirik və etməliyik. Çünki hər bir ölkə öz imkanlarından istifadə edir. Hər bir ölkə istəyir ki, öz mövqelərini möhkəmləndirsin, daha da önəmli ölkəyə çevrilsin.

Bu gün Azərbaycan nəinki bölgədə liderdir, biz artıq bölgə çərçivələrindən çıxmışıq. Dünya əhəmiyyətli məsələlərdə iştirak edir, dünya üçün əhəmiyyətli olan məsələlərdə təşəbbüs göstəririk. Bölgədə, geniş mənada, qitədə proseslərin inkişafı müəyyən dərəcədə bizim qərarlarımızdan asılı olacaqdır. Yəni sözümü ona gətirirəm ki, bütün bu parametrlərə görə, Ermənistanla Azərbaycan müqayisə edilə bilməz! Heç kim heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır. Yəni onlar bunu unutmalıdırlar. Öz xalqının, erməni xalqının gələcəyini düşünməlidirlər. Hələ ki, biz onlara təklif etdiyimiz variantda müəyyən dərəcədə onların maraqları təmin oluna bilər. Biz bəyan etmişdik və mən indi də deyirəm ki, Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət statusu verə bilərik. Bu hansı status olacaq, onu danışıqlar, bir də dünya praktikası, beynəlxalq hüquq normaları göstərər. Avropada, başqa ölkələrdə muxtariyyətlər var. Muxtariyyət o demək deyil ki, sən yaşadığın ölkədə, özü də qonaq kimi yaşadığın ölkədə, - ermənilər başqa ölkələrdən gətirilib Dağlıq Qarabağda məskunlaşdırılıblar, - sən o ərazini ayırıb orada dövlət yaradasan. Dağlıq Qarabağ 60 minlik əhalisi olan bir dövlətmi olacaq? Bunu heç kim qəbul etməz! İlk növbədə, Azərbaycan heç vaxt qəbul etməz! Sadəcə olaraq, Ermənistanın yüksək vəzifəli

şəxslərinin belə məsuliyyətsiz, yalan üzərində qurulmuş, təxribat xarakterli bəyanatlarından sonra mən məcburam ki, buna aydınlıq gətirim. Hələ ki, gec deyil, Ermənistan rəhbərliyini bir daha düz yola, konstruktivizm yoluna çağırıram. Danışıqlarda səmimiyyətlə iştirak etsinlər, görüntü yaratmağa cəhd göstərməsinlər. Onsuz da beynəlxalq ictimaiyyət artıq bunu görür və bilir ki, Ermənistanın indi əsas məqsədi vaxt udmaq və parlament seçkilərini özləri üçün istədiyi formada keçirməkdir. Yalan, boş-boş bəyanatlar verməklə, sadəcə, özlərini çətin vəziyyətdə qoyurlar.

Onu da qeyd etmək istəyirəm ki, son müddət ərzində Azərbaycanın uğurlu inkişafı, xüsusilə iqtisadi, enerji sahəsində inkişafı, Azərbaycanın uğurlu xarici siyasəti, Ermənistanı bütün cəbhələrdə ifşa etməsi, görünür, onları elə təşvişə salıb ki, onlar bir az çaşıblar. Əgər belə olmasaydı, Dağlıq Qarabağda qanunsuz konstitusiya referendumu keçirməzdilər. Özlərini pis vəziyyətdə qoyublar. Baxın, indi bütün dünya o referendumu və referendumu keçirən o qanunsuz, kriminal rejimi qınadı. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya, habelə Türkiyə referendumun keçirilməsini pislədilər. ATƏT bütövlüklə referendumu pislədi və tanımadı. Avropa İttifaqı bəyanat verdi, referendumu tanımadı, pislədi. Avropa Şurası bəyanat verdi, referendumu tanımadı, pislədi.

GUAM dövlətləri, bizim tərəfdaşlarımız - Gürcüstan, Ukrayna, Moldova referendumu, qanunsuz rejimin hərəkətlərini pislədi. İslam Konfransı Təşkilatı, bütün müsəlman dünyasını birləşdirən təşkilat referendumu pislədi.

Ermənilər belə ağılsız hərəkətlə özlərini pis vəziyyətdə qoyublar, hədəfə çevriliblər. İndi bütün beynəlxalq təşkilatlar onları qınayır, Azərbaycanın haqq işini dəstəkləyir. Onların bu "referendumu" nəticəsində Azərbaycanın ərazi bütövlüyü dünya ictimaiyyəti tərəfindən bir daha tanındı və dəstəkləndi. Bu hadisələr bir də onu göstərir ki, Azərbaycanın məqsədyönlü siyasəti öz bəhrəsini verir. İlk növbədə, iqtisadi potensial möhkəmlənir və bunu möhkəmləndirmişik. Hərbi potensial güclənir və bu da danışıqlarda vacib amildir. Siyasi mövqelərimiz möhkəmlənir. Azərbaycan bölgədə lider dövlətə çevrilibdir, dünya əhəmiyyətli məsələlərdə öz sözünü deyir və Azərbaycanla hesablaşırlar, məsləhətləşirlər. Belə olan halda, tam əminəm, məndə zərrə qədər də şübhə yoxdur ki, biz məsələni öz xeyrimizə həll edəcəyik. Yəni ədalətli, beynəlxalq hüquq və normalara əsaslanmış qaydada.

Mən qeyd etdim ki, Naxçıvanın büdcəsi çox böyük dərəcədə artır, 161 milyon yeni manat təşkil edir. Bu haradasa, 180 milyon dollardır və əlbəttə ki, növbəti illərdə bu büdcə artacaqdır. İstisna olunmur ki, bir neçə ildən sonra Naxçıvanın büdcəsi Ermənistanın büdcəsi ilə müqayisəediləcək səviyyəyə qalxacaqdır.

Əziz dostlar, ona görə mən bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın möhkəmlənməsi hər birimizin işi olmalıdır. Azərbaycanın möhkəmlənməsi hər bir bölgənin, hər bir kəndin, hər bir rayonun möhkəmlənməsindən keçir. Əlbəttə, biz hamımız çalışmalıyıq ki, hərə öz yerində ümumi işimizə töhfə verək. Bu, bizim vətənimizdir, doğma torpağımızdır. Biz elə etməliyik ki, Azərbaycan ən sürətlə inkişaf etsin, müasir dövlətə çevrilsin, öz milli ənənələrinə sadiq, amma dünyaya açıq olan və müasir dövlətə çevrilsin.

Naxçıvanda keçirdiyim iki gündə mən bir daha görürəm ki, bizim bütün planlarımız həyata keçirilir. Mən bir daha demək istəyirəm ki, Naxçıvanda gedən inkişafdan çox razıyam. Mən hər il gəlirəm, 2004-cü ildə iki dəfə olmuşam, 2005-ci ildə, 2006-cı ildə gəlmişəm. Hər dəfə gələndə də burada inkişaf görürəm, yenilik görürəm. Ona görə mən sizi bu yüksək nailiyyətlər, nəticələr münasibətilə bir daha təbrik edirəm. Arzu edirəm, gələcəkdə biz hamımız elə edək ki, ölkəmiz möhkəmlənsin zənginləşsin və ən yüksək zirvəyə qalxsın.

İndi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova söz verilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talibovun məruzəsi

- Möhtərəm Prezident!

Ümummilli liderimiz tərəfindən əsası qoyulan və Sizin rəhbərliyinizlə uğurla davam etdirilən quruculuq xətti ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında böyük dəyişikliyə səbəb oldu. Qəbul etdiyiniz Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası sayəsində əldə olunan uğurlar hər il artan sürətlə davam edir. Siz regionlara ardıcıl səfərlər edib Dövlət proqramının icrası ilə yerindəcə tanış olursunuz. Naxçıvan Muxtar Respublikasına bir il bundan əvvəl etdiyiniz səfərdən sonra görülmüş işlər barədə qısa məlumat vermək istəyirəm.

Hər bir regionun inkişafının miqyası onun büdcəsi ilə ölçülür. Naxçıvan Muxtar Respublikasının büdcəsi Sizin diqqət və qayğınızla hər il artmışdır. 2005-ci ildə muxtar respublikanın büdcəsi 70 milyon

330 min manat, 2006-cı ildə 106 milyon 449 min manat, 2007-ci ildə isə 161 milyon 818 min manat müəyyən edilmişdir. Bununla bərabər, Sahibkarlığa Kömək Fondunun da vəsaiti artmış, bu Fonda büdcədən 2005-ci ildə 3 milyon manat, 2006-cı ildə 6 milyon manat, 2007-ci ildə 6 milyon manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında hər il büdcənin və Sahibkarlığa Kömək Fondunun vəsaitinin həcminin artması inkişafın məntiqi nəticəsi kimi diqqəti cəlb edir. Bu inkişaf dinamikdir, hər il özündən əvvəlki illə müqayisədə artımla xarakterizə olunur.

2005–ci ilin 11 ayında ümumi daxili məhsulun həcmi 267 milyon 955 min manat təşkil etmişdisə, cari ilin 11 ayında bu göstərici 373 milyon 993 min manat olmuş, 33,4 faiz artmışdır. Muxtar respublika üzrə adambaşına düşən ümumi daxili məhsulun həcmi bu il ilk dəfə 1000 ABŞ dolları həddini keçərək, 1100 dollar olmuşdur. Ötən dövrdə əldə olunan mühüm göstəricilərdən biri də sənaye məhsulu istehsalı həcminin artmasıdır. 2005-ci il yanvar-noyabr aylarında 38 milyon 151 min manatlıq sənaye məhsulu istehsal olunmuşdusa, bu il istehsalın həcmi 66,5 faiz artaraq, 66 milyon 121 min manat olmuşdur. 2005-ci ilin müvafiq dövrünə nisbətən sənaye məhsulu istehsalı dövlət sektorunda 10 faiz, qeyri-dövlət sektorunda isə 94 faiz artmışdır. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal obyektlərinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur.

Sizin tərəfinizdən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının qəbulundan ötən müddət ərzində muxtar respublikada 55 yeni istehsal obyekti tikilmiş, yaxud da əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir. Ötən il 15 istehsal müəssisəsi istifadəyə verilmişdisə, bu il 29 yeni müəssisə tikilmişdir.

Bundan başqa, 5 istehsal sahəsinin yaradılması üzrə işlər davam edir. İstifadəyə verilmiş müəssisələr hesabına 851 yeni iş yeri, Sizin bilavasitə himayənizlə tikilən 3 elektrik stansiyası, Diaqnostika-Müalicə Mərkəzi hesabına isə 500 yeni iş yeri açılmışdır. Cari ildə yaradılan iş yerlərinin sayı 7331 olmuşdur. Bütövlükdə, Dövlət proqramının qəbuluna ötən müddət ərzində muxtar respublikada 24099 yeni iş yeri yaradılmışdır ki, bunun da 14698-i daimi iş yerləridir.

Tikinti sektorunda işlərin həcmi hər il çoxalır. Əgər 2005-ci ilin 11 ayında əsas kapitala 101 milyon 358 min manat sərmayə yönəldilmişdisə, bu ilin ötən dövrü ərzində tikintidə bütün maliyyə mənbələri hesabına 157 milyon 468 min manatlıq sərmayədən istifadə olunmuşdur. Göründüyü kimi, tikintidə sərmayənin həcmi 55,4 faiz artmışdır. İlin əvvəlindən 636 obyektdə tikinti–quraşdırma işləri aparılmışdır. 173 obyektdə isə işlər davam etdirilir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafı bir nömrəli sahədir. Bu məsələdə ümummilli liderimizin "Təhsil hər bir millətin gələcəyidir" kəlamını rəhbər tutur, təhsil şəbəkəsinin genişlənməsinə çalışırıq. Bu il 2352 şagird yerlik 8 məktəb binası tikilmiş, 2800 yerlik 6 məktəb binası əsaslı şəkildə yenidən qurulmuşdur. Ümummilli liderimizin adını daşıyan Fondun vəsaiti hesabına ötən il muxtar respublikada 2 məktəb, bu il isə Ordubad rayonunun Biləv kəndində 216 yerlik, Şahbuz rayonunun Mahmudoba kəndində isə 144 yerlik yeni məktəb binaları tikilərək istifadəyə verilmişdir.

Hörmətli Prezident, Sizin sərəncamınıza əsasən, istifadəyə verilən məktəblərin hamısında ən müasir texniki avadanlıq, kompyuterlər quraşdırılır. Bütövlükdə, bu gün muxtar respublikanın ümumtəhsil məktəblərində 1500 ədəd kompyuter vardır. Bu o deməkdir ki, muxtar respublikanın orta ümumtəhsil məktəbələri 75 faiz kompyuterləşdirilibdir. Mövcud kompyuter otaqlarından 68–i internetə qoşulubdur. Bütün bunlar məktəbə yeni səviyyə gətirir, tədrisin yeniləşməsinə, şagirdlərin daha məlumatlı olmasına kömək göstərir. Təhsilin müasir tələblərə uyğunlaşmasının nəticəsidir ki, əgər 2000-ci ildə muxtar respublikadan ali məktəblərə 647 abituriyent qəbul olunmuşdusa, 2005-ci ildə onların sayı 1018 nəfərə, bu il isə 1100 nəfərə çatmışdır. Əgər ötən il ali məktəblərə qəbul imtahanlarında 500-700 bal arasında nəticə göstərənlərin sayı 87 nəfər idisə, bu il 135 nəfər olmuşdur. Bütün bunlar göstərir ki, sosial sahənin inkişafına diqqət və qayğı artan xətt üzrə gedir.

Sağlamlığın mühafizəsi ilə bağlı görülən tədbirlər də artmışdır. Bu il 11 həkim ambulatoriyası, 2 feldşer-mama məntəqəsi, Əziz Əliyev adına 100 çarpayılıq muxtar respublika Mərkəzi uşaq xəstəxanası, 40 çarpayılıq Kəngərli rayon mərkəzi xəstəxanası tikilmiş, 250 çarpayılıq "Duzdağ" fizioterapiya xəstəxanası yenidən qurulmuşdur.

Sizin himayənizlə tikilib istifadəyə verilən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi nəinki muxtar respublikada, o cümlədən ətraf regionda bənzəri olmayan tibb müəssisəsidir. Bu, muxtar respublika

əhalisinə ən böyük töhfədir. Bu töhfəyə görə Sizə bir daha muxtar respublika əhalisinin hədsiz minnətdarlığını çatdırıram.

Aparılan quruculuq tədbirlərinin xarakterik xüsusiyyəti odur ki, bunlar iqtisadiyyatın və sosial həyatın bütün sahələrini özündə birləşdirməklə yanaşı, həm də muxtar respublikanın hər bir rayonunu və kəndini də əhatə edir. Kənd yerlərində əhalinin məşğulluğunun təmin edilməsi, sosial problemlərin aradan qaldırılması sahəsində tədbirlər görülmüş, 117 kilometr uzunluğunda, o cümlədən kəndarası 87 kilometr avtomobil yolu salınmış və ya bərpa olunmuş, 9 kənd mərkəzi, məktəblər, klub müəssisələri tikilmiş, içməli su xətləri çəkilmişdir. Çalışmışıq ki, kəndlərdə ən müasir infrastruktur yaradılsın.

Muxtar respublika əhalisinin təxminən 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Aqrar sektorda işlərin təşkili üçün bütün lazımi tədbirlər görülür. Kənd əhalisinə arı ailələri, meyvə tingləri, toxum sortları, kənd təsərrüfatı alət və vasitələri verilir. Təkcə cari ildə 77 adda yeni texnika, o cümlədən 10 kombayn, 20 traktor, 10 taxılsəpən, gübrəsəpən maşın və digər texnika gətirilərək, lizinq yolu ilə mülkiyyətçilərə verilmişdir. Görülən işlər nəticəsiz qalmamışdır. Hazırda muxtar respublikada il ərzində yaradılan əlavə dəyərin, orta hesabla, üçdə biri kənd təsərrüfatının payına düşür. Cari ilin 11 ayı ərzində 2005-ci ilin göstəricisi ilə müqayisədə 7 milyon 946 min manatlıq çox, yəni 92 milyon 896 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur. Hər il olduğu kimi, bu il də taxılçılığın inkişafı aparıcı sahə kimi qalmış, 100 min tona yaxın dənli və paxlalı məhsul istehsal olunmuşdur. Taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına xüsusi diqqət yetirilir. Bu sahənin inkişafı üçün əlverişli təbii şəraitin olması nəzərə alınaraq, sahibkarlara güzəştli kreditlər verilmişdir. Görülən tədbirlərin nəticəsidir ki, 2005-ci ildə kartof əkini sahələri 2004-cü ilə nisbətən 388 hektar artaraq 1990 hektara, ötən illə müqayisədə isə 471 hektar artaraq 2461 hektara çatdırılmışdır. Kartof əkini sahələrindən 2005-ci ildəki göstəricidən 7188 ton çox, yəni 33 min 506 ton məhsul götürülmüşdür.

Muxtar respublikanın aqrar sektorunda böyük perspektivi olan sahələrdən biri də şəkər çuğunduru yetişdirilməsidir. Cari ildə ötən illə müqayisədə 543 hektar çox, yəni 2090 hektar sahədə şəkər çuğunduru əkilmiş, 30086 ton məhsul götürülmüşdür ki, bu da 2005-ci ildəkinə nisbətən 6577 ton çoxdur. Naxçıvan tarixən öz meyvəsi ilə məşhur olubdur. Meyvəçiliyin əvvəlki şöhrətini qaytarmaq üçün bir sıra tədbirlər görülmüş, yaşıllıqların bərpası işində meyvə ağaclarının əkininə üstünlük verilmişdir. 2006-cı ildə 36 min 956 ton meyvə istehsal olunmuşdur ki, bu da əvvəlki ildəkindən çoxdur.

Muxtar respublikada bitkiçiliyin inkişafında intensiv amillərin rolu böyükdür. Yüksək məhsuldarlığı olan toxum sortlarının, gübrələrin dövlət dəstəyi ilə torpaq mülkiyyətçilərinə çatdırılması, suvarma sistemlərinin müntəzəm əsasda təkmilləşdirilməsi buna misal ola bilər. 100 milyon kubmetr tutumu olan Heydər Əliyev Su Anbarının tikintisinin hörmətli Prezidentimizin himayəsi ilə davam etdirilərək başa çatdırılması nəticəsində 16 min 800 hektara yaxın sahənin suvarılması təmin olunmuş, 619 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir.

Bitkiçiliklə yanaşı, heyvandarlıqda da inkişaf daim artan sürətlə müşayiət olunur. 2006-cı ilin ötən dövrü ərzində qaramalın sayı əvvəlki ilin müvafiq dövründəkindən 10 min 992 baş artaraq 97 min 715 başa, davarın sayı isə 43 min 804 baş artaraq 585 min 60 başa çatmışdır. Bu gün Naxçıvan Muxtar Respublikası taxıl, ət, şəkər, meyvə və onların emal məhsulları ilə özünü təmin edir. Muxtar respublikada istehsal olunmuş meyvə-tərəvəzin yerli tələbatdan çox olması onun ixracına da imkan vermişdir. Cari ilin 11 ayında 1 milyon 100 min manat dəyərində meyvə və tərəvəz ixrac olunmuşdur. Bununla yanaşı, əhalinin tələbatı, təbii ehtiyatlar və istehsal imkanları nəzərə alınmaqla, bir sıra istehsal və emal müəssisələri yaradılmışdır. Bunlar, əsasən, istehlak mallarına daxili tələbatın təmin edilməsində idxaldan asılılığın azaldılmasına yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikası 16-cı ildir ki, blokada şəraitində yaşayır. Belə bir şəraitdə energetika, nəqliyyat və rabitə sektorunda fəaliyyətin təşkilindən çox şey asılıdır. Ölkə Prezidenti hörmətli İlham Əliyevin səyi nəticəsində Azərbaycan və İran arasında bağlanmış müqaviləyə əsasən, Naxçıvana təbii qazın verilməsi 13 illik fasilədən sonra bərpa olunmuşdur. Qısa müddət ərzində ölkə başçısının bilavasitə himayəsi altında qaz xətti çəkilmiş 2005-ci ilin sonlarında Naxçıvana təbii qazın verilməsinə başlanmışdır. Qazlaşdırmanın ikinci mərhələsində işlər sürətlə davam etdirilir. Bu mərhələnin sonunda 53 mindən artıq mənzilin qazla təminatı nəzərdə tutulubdur. Hazırda 18 mindən artıq mənzilə təbii qaz verilir və bunun nəticəsində qış aylarında elektrik enerjisinə olan tələbat xeyli azalmışdır. Qış aylarında muxtar respublikanın elektrik enerjisinə olan tələbatı 250 meqavatdır. İrandan 120-130 meqavat, Türkiyədən 60-70 meqavat elektrik enerjisi alınması üçün texniki imkan vardır.

Hazırda Araz su elektrik stansiyasında 20-22 meqavat, Naxçıvan qaz-turbin elektrik stansiyasında 50 meqavat elektrik enerjisi istehsal olunur. Beləliklə, daxil olan elektrik enerjisinin maksimal gücü 230 meqavat təşkil edir. Naxçıvanın elektrik enerjisinə olan tələbatını tam təmin etmək, idxaldan asılılığı azaltmaq məqsədi ilə tikilib istifadəyə verilən 87 meqavat gücə malik modul tipli elektrik stansiyası energetika probleminin həlli istiqamətində əhəmiyyətli addımdır. İstər modul tipli elektrik stansiyasının, istər Heydər Əliyev Su anbarı üzərində elektrik stansiyasının tikintisi, qaz-turbin elektrik stansiyasında turbinlərin təbii qazla işləmə rejiminə keçirilməsi, istərsə də Naxçıvanın indiki çox çətin şəraitində təbii qazın çəkilməsinə nail olunması muxtar respublikanın xilasına yönəlibdir. Bu mühüm, həyati vacib tədbirlərə görə Naxçıvan Muxtar Respublikasının əhalisi ümummilli liderimizin yolunu davam etdirən Prezident İlham Əliyevə daim minnətdar olacaqdır.

Son illərdə Naxçıvan Muxtar Respublikasında informasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində əhəmiyyətli dönüşə nail olunubdur. 2005-ci ilin 11 ayında əhaliyə və təşkilatlara 8 milyon 421 manatlıq rabitə və poçt xidməti göstərilmişdisə, cari ilin 11 ayında 14 faiz artaraq 9 milyon 572 min manat təşkil etmişdir. Muxtar respublikada ilk dəfə genişzolaqlı mobil üzrə rabitə sistemi yaradılmış, rabitənin təşkilinə digər mobil operatorlar da cəlb edilmişdir. Hazırda muxtar respublikanın bütün ərazisi rabitə xidməti ilə əhatə olunmuşdur. Muxtar respublikada 81 avtomat telefon stansiyası var və bunların hamısı elektron sistemlidir. Naxçıvan fibrooptik kabel xəttinə qoşulub, kompyuter təlim-tədris və internet mərkəzləri fəaliyyət göstərir. 2000-ci ilin əvvəlində hər yüz ailəyə 29 telefon aparatı düşürdüsə, indi bu göstərici 52-yə çatmışdır.

2006-cı ilin yanvar-noyabr aylarında muxtar respublika iqtisadiyyatında çalışan işçilərin orta aylıq əmək haqqı 110 manat olmuşdur. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz çoxdur.

Möhtərəm Prezident, Sizin sərəncamınızla dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən müəssisə, idarə və təşkilatlarda çalışanların əmək haqqının artırılması muxtar respublikada 595 nəfərə, dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışan səhiyyə, təhsil, sosial təminat, mədəniyyət işçilərinin ayrı-ayrı kateqoriya inzibati orqan işçilərinin əmək haqlarının artırılması, yaşa görə əmək pensiyalarının baza hissəsi orta hesabla 17 faiz qaldırılması muxtar respublikada 83 min 544 nəfərə şamil edilmişdir. Hər il pensiya və müavinətlər tam həcmdə verilir, borc yaranmır. Məcburi dövlət sosial sığorta haqlarının yığılması müqayisə olunan dövrlər üzrə 2 milyon 277 min manat artaraq, 10 milyon 774 min manat təşkil etmişdir. Başqa sözlə, pensiya və müavinətlərə ödənilən vəsaitin 45,8 faizi muxtar respublikanın özündə yığılmışdır. Bütün bunlar dolanışıq səviyyəsinin getdikcə artmasını göstərir.

2006-cı ilin yanvar-noyabr aylarında əhalinin pul gəlirləri 325 milyon 79 min manat olmuş, onun nominal həcmi 2005-ci ilin müvafiq dövrünə nisbətən 29,8 faiz artmışdır. Adambaşına pul gəlirləri 2005-ci ilin yanvar-noyabr aylarında 668 manat idisə, bu göstərici cari ilin 11 ayında 28,7 faiz artaraq 860 manat olmuşdur.

Aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin də artmasına səbəb olmuşdur. Əgər 2005-ci ilin 11 ayında xarici ticarət dövriyyəsinin ümumi həcmi 52 milyon 892 min manat ABŞ dolları olmuşdusa, cari ilin müvafiq göstəriciləri 74 milyon 431 min dollar təşkil etmişdir. Bu da 41 faiz artım deməkdir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı büdcə daxilolmalarının həcminə də təsir göstərmişdir. 2006-cı ilin 11 ayında Naxçıvan Muxtar Respublikasının büdcəsinə bütün mənbələr hesabına 23 milyon 673 min manat vəsait daxil olmuşdur ki, bu da 2005-ci ilin müvafiq göstəricisindən 2,2 dəfə çoxdur. Naxçıvan şəhərinin büdcəsi isə artıq yeddinci ildir ki, subsidiyasız planlaşdırılır. Tikinti-abadlıq işlərinin ilbəil artmasına baxmayaraq, Naxçıvan şəhərində quruculuq tədbirlərinin maliyyələşməsində heç bir problem yaranmır.

Görülən işlər, yaradılan infrastruktur sahələri, əhalinin məşğulluğu ilə bağlı aparılan tədbirlər öz bəhrəsini verir. Bu işlərin bir göstəricisi də ondan ibarətdir ki, müxtəlif səbəblərdən muxtar respublikadan gedən 2028 ailə və ya 9386 nəfər son 3 ildə geri qayıtmış, aparılan yenidənqurma tədbirlərində iştirak etməyə başlamışlar. Sosial-iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri də budur ki, 11 ayda muxtar respublika əhalisinin sayı 2005-ci ilin eyni dövrünə nisbətən 3300 nəfər artaraq, 379 min 800 nəfərə çatmışdır. Qeyd olunanlar bir daha onu göstərir ki, çətin blokada şəraitinə baxmayaraq, Naxçıvan Muxtar Respublikası da ölkəmizin digər bölgələri kimi həqiqi inkişafa və dirçəlişə qovuşmuşdur. Bu, hörmətli Prezidentimizin rəhbərliyi ilə davam və inkişaf etdirilən Heydər Əliyev yolunun, Heydər Əliyev quruculuq xəttinin daha bir əyani ifadəsidir. Bu yol davam edəcəkdir. Hörmətli Prezidentimizin dediyi kimi, son üç

ilin təcrübəsi, görülən işlər onu göstərdi ki, biz əməli işlərlə sübut etdik ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və əbədi yaşayacaqdır.

X X X

Dövlətimizin başçısı müşavirəyə yekun vurdu.

Azərbaycan Prezidenti İlham Əliyevin
yekun nitqi

-Vasif Talıbovun məruzəsində Naxçıvanda görülən işlər haqqında geniş məlumat verilibdir. Bu məlumat bir daha onu göstərir ki, muxtar respublikada bütün sahələrdə çox dinamik iqtisadi artım var. Bu, çox sevindirici haldır. Əminəm ki, bu yüksək artım sürəti gələcəkdə də güclənəcək və Naxçıvan Muxtar Respublikası bu ardıcıllıqla inkişaf edəcəkdir.

Bir də demək istəyirəm, bu gün və dünən burada olarkən həm yeni yaradılan müəssisələrlə, obyektlərlə tanış oldum, eyni zamanda, gördüm ki, ictimai-siyasi ab-hava da çox müsbətdir. Çox gözəl ictimai proseslər gedir, siyasi proseslər gedir. Əlbəttə, bu imkan verir ki, bütün islahatlar daha da inamla aparılsın. İqtisadi islahatları, siyasi islahatları aparmaq üçün mütləq və mütləq çox uyğun və müsbət ictimai-siyasi vəziyyət olmalıdır. Bu da ki, Azərbaycanda var. Bunun əsasını 1993-cü ildə ulu öndər Heydər Əliyev qoymuşdur və o vaxtdan bu günə qədər Azərbaycanda bütün proseslər çox müsbət istiqamətdə davam edir. Düzdür, bəzi hallarda Azərbaycanı bu yoldan döndərmək üçün müəyyən cəhdlər olmuşdur, müəyyən səylər göstərilmişdir, amma heç kim buna nail ola bilmədi və heç vaxt nail ola bilməyəcəkdir. Çünki bizim siyasətimiz xalqın iradəsinə, maraqlarına əsaslanır. Bizim siyasətimizin mənbəyi də xalqdır. Bu, Heydər Əliyev yoludur, Heydər Əliyev siyasətidir və biz bu siyasəti Azərbaycanda davam etdiririk.

Mən hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, Azərbaycanda bu siyasətə alternativ siyasət yoxdur. Alternativ siyasət Azərbaycana bəlalar, təhlükə gətirə bilər. Alternativ siyasət aparmaq istəyənlərin indiki gününə baxsaq görərik ki, biz haqlıyıq. Azərbaycan xalqının ümumi fikri belədir, ümumi ovqatı belədir. Bu siyasət yaşayır, bu siyasət bizim işlərimizdə yaşayır, Heydər Əliyev bizim ürəyimizdə yaşayır.

Dünən Heydər Əliyev Muzeyinin açılışında oradakı eksponatlarla tanış olarkən, çox həyəcanlı hisslər keçirdim. Eyni zamanda, çox böyük qürur hissi keçirdim ki, Azərbaycan onun istədiyi, onun qoyduğu yolla getməkdə davam edir. Mən çox fəxr edirəm ki, Azərbaycanda onun siyasəti yaşayır, davam edir, yeni formalar alır.

Əlbəttə, həyat yerində durmur, yeniliklər var, dünya dəyişir, bölgədə gedən proseslər dəyişir. Görürsünüz ki, son illər ərzində Azərbaycanın ətrafında siyasi proseslər çox sürətlə dəyişir. Biz, necə deyərlər, başqa ölkələrin təcrübəsinə də baxırıq, orada baş verən hadisələrə baxırıq, onları görürük. Görürük ki, bəzi hallarda böyük çətinliklər baş verir, bəzi ölkələrdə 1990-cı illərin əvvəllərində yaşanan o qarşıdurma, böhran, hərc-mərclik yenə də başlayıbdır. Təbii ki, bu, Azərbaycanda da var idi.

Əlbəttə, 1993-cü ildə Azərbaycanın müstəqilliyi faktik olaraq əldən gedirdi. Azərbaycanın müstəqil ölkə kimi yaşaması sual altında idi. Əgər o vaxt Azərbaycan xalqının tələbi ilə, xahişi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, bəlkə də, indi Azərbaycan indiki Azərbaycan olmazdı. Əlbəttə ki, bunu güman etmək də çətindir. Amma böyük əminliklə deyə bilərəm ki, Azərbaycan indiki səviyyədə olmazdı. Bunu hamı bilməlidir, heç kim heç vaxt yaddan çıxarmamalıdır.

Düzdür, hər bir yeni uğur, yeni bir nəticə, əlbəttə, artıq bizim meyarlarımızı da dəyişir. Bu da təbiidir və bütün cəmiyyətlər, bütün ölkələr bu qanunlarla işləyibdir. İnkişaf, tərəqqi mərhələdən-mərhələyə qalxır, irəliləyir. Əlbəttə, insanlar artıq mövcud olan vəziyyətə öyrəşirlər. Bəziləri hesab edir ki, belə də olmalı idi, yaxud da, belə də olmalıdır. Əlbəttə, belə olmalıdır. Biz irəliyə gedirik, Heydər Əliyev siyasətini davam etdiririk. Amma həmişə yadda saxlamalıyıq ki, biz haradan gəlmişik, hansı vəziyyətdən çıxmışıq.

Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, hərtərəfli inkişafında Naxçıvanın çox böyük rolu vardır. 1990-cı ilin iyul ayında Heydər Əliyev Moskvadan Bakıya gəlmişdi. Bilirsiniz ki, Qorbaçovun antiazərbaycan siyasətinin nəticəsi olan qanlı Yanvar hadisələrindən sonra, o, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, Qorbaçovun siyasətini, Sovet İttifaqı Kommunist Partiyasının siyasətini açıq şəkildə pisləmişdi. O vaxt bunu etmək böyük cəsarət tələb edirdi. İndi biz demokratiya şəraitində yaşayırıq və müxtəlif partiyalar mövcuddur, söz azadlığı var, demokratiya var və artıq hər kəs buna

öyrəşibdir. O vaxt birpartiyalı sistem idi. Sovet İttifaqı hələ ki, dağılma ərəfəsində deyildi. O vaxt partiya rəhbərinə qarşı açıq etiraz bəyan etmək çox böyük cəsarət tələb edirdi. Ulu öndər Kommunist Partiyasının sıralarından çıxdı və ondan sonra Moskvada təqib olunmağa başladı. Hətta gizlənirdi və məlumat vardı ki, onu həbs etmək istəyirlər.

Bakıya gəldi. Bakının da o vaxtkı satqın rəhbərliyi imkan vermədi ki, burada qalsın. İki gündən sonra doğma vətəninə, Naxçıvana gəldi. Yəqin ki, siz də o günləri - Heydər Əliyevin Azərbaycana qayıdışını və insanların ona olan məhəbbətini, o izdihamlı qarşılanma mərasimini yaxşı xatırlayırsınız. Naxçıvanlılar Heydər Əliyevi qorudular. O isə, öz növbəsində, Naxçıvanı qorudu.

Ona görə əgər bunlar olmasaydı, tarix tam başqa cür inkişaf edə bilərdi. Heydər Əliyevə qədər Azərbaycana rəhbərlik edən şəxslərin hər biri ölkəni qoyub qaçmışdı. Onların hakimiyyətinin maksimum bir il, ilyarım ömrü var idi. Baxmayaraq ki, onların ordusu var idi, polisi, daxili qoşunu var idi. Hətta hamının qanunsuz silahlı dəstələri var idi. O vaxt, bütövlükdə belə hərc-mərclik şəraitində, əli silahlı insanlar şəhərlərimizi dolaşırdılar.

Heydər Əliyev Bakıya gələndə onun heç nəyi - heç bir rəsmi vəzifəsi, yaxud ordusu, yaxud da dəstəsi yox idi. Onun şəxsiyyəti, müdrikliyi Azərbaycan xalqının ona olan məhəbbəti, inamı Azərbaycan xalqını onun ətrafında birləşdirdi. O, iyul ayında Bakıya gələndə şəhərə çıxmışdı və dərhal onun ətrafında yüzlərlə, minlərlə insan toplaşmışdı. O, sadəcə, şəhərə gəzintiyə çıxmışdı. Bakıda çoxdan olmamışdı. Artıq təbii bir mitinq yarandı. O insanları heç kim oraya dəvət etmirdi, heç kim onları, necə deyərlər, xəbərdar etməmişdi. Sadəcə, insanlar onu görüb arxasınca getmişdi. Ölkədə, xalq arasında heç bir nüfuza malik olmayan Azərbaycanın o vaxtkı rəhbərliyi bunu görəndə, əlbəttə ki, çox narahat olmuşdu.

Ondan sonra Naxçıvanda işləməyə başladı, Ali Məclisin sədri seçildi. İlk dəfə Azərbaycanın müstəqil üçrəngli bayrağı Naxçıvanda qaldırıldı. İndi bəziləri sinəsinə döyürlər ki, biz müstəqilliyi əldə etmişik. Onlar o vaxt Azərbaycanda, Bakıda Milli Məclisdə Leninin heykəlinin və Sovet Sosialist Azərbaycanının bayrağı altında oturmuşdular. Özlərini elə bil ki, müstəqilliyin mücahidləri adlandıran həmin şəxslər.

Naxçıvanda üçrəngli bayraq qaldırıldı. Bu, tarixdir. O vaxt muxtar respublikanın adı dəyişildi. Dünən muzeydə o qərarın surətini bir daha gördük. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan Muxtar Respublikası adlandırıldı.

Bütün bunlar bir daha onu göstərir ki, ulu öndərimiz ölkə üçün, xalq üçün hər şeyi edibdir. Müstəqillik sözdə deyil, əməldədir. Azərbaycanın müstəqilliyi bundan sonra əbədi olacaq və daimi olacaqdır. Azərbaycan xalqı müqəddəratını, öz taleyini özü müəyyən edir. Siyasətimizi özümüz müəyyən edirik, heç kimdən asılı olmuruq, asılı olmayacağıq. Öz siyasətimizi özümüz aparırıq və bundan sonra da belə olacaqdır. Əlbəttə, bunu etmək üçün müxtəlif amillər lazımdır. İqtisadi potensial, siyasi mövqe və xalqla iqtidar arasında birlik. Azərbaycan bu baxımdan bölgədə yerləşən ölkələrdən, başqa ölkələrdən çox fərqlənir. Biz də çalışmalıyıq ki, ölkəmizi hərtərəfli möhkəmləndirək. Elə edək ki, Azərbaycan xalqı xoşbəxt yaşasın, hamı işlə təmin olunsun, yoxsulluq aradan qaldırılsın, haqq-ədalət tam şəkildə bərqərar edilsin, ədalətsizlik olmasın, qanunun aliliyi təmin edilsin, vətəndaş cəmiyyəti yaransın və zəngin, müasir dövlət - Azərbaycan uğurla irəliyə getsin. Bu arzularla mən sizinlə xudahafizləşirəm. Sizə xoşbəxtlik, cansağlığı, uğurlar arzulayıram. Doğma diyarımızı – Naxçıvanımızı inkişaf etdirin, möhkəmləndirin. Mən də həmişə bu işdə sizə yardımçı olacağam. Sağ olun!

AZƏRTAC
2006, 22 dekabr

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət
(17 oktyabr 2007-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başlanmışdır.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək gül dəstəsi qoydu.

AZƏRTAC
2007, 17 oktyabr

Azərbaycan Prezidenti Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbində olmuşdur
(17 oktyabr 2007-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, oktyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Kəngərli rayonunun Şahtaxtı kəndində akademik Zərifə Əliyeva adına orta məktəbdə olmuşdur.

2005-ci ildə istifadəyə verilmiş məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil alması üçün hər cür şərait yaradılmışdır. Hazırda burada 530 şagird təhsil alır.

Dövlətimizin başçısı Zərifə xanım Əliyevanın büstü önünə gül dəstəsi qoydu, görkəmli oftalmoloq alimin xatirə muzeyinə baxdı, fənn kabinetləri, kompyuter sinifləri ilə tanış oldu.

Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına baş çəkərək, şagirdlərə dərslərində uğurlar arzuladı.

X X X

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Şərur rayon mərkəzi xəstəxanasının açılışı mərasimində iştirak etdi.

X X X

Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 17-də Naxçıvan Muxtar Respublikasına səfəri başa çatdı.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi muxtar respublika Ali Məclisinin sədri Vasif Talıbov, ictimaiyyətin nümayəndələri yola saldılar.

X X X

Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtdı.

Azərbaycan Prezidentini Heydər Əliyev adına beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhəri İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.

AZƏRTAC
2007, 17 oktyabr

Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin açılışı

(17 oktyabr 2007-ci il)

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, oktyabrın 17-də Azərbaycan ilə İran arasında Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin təntənəli açılış mərasimi olmuşdur.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev mərasimdə iştirak etmək üçün gələn Ali baş komandan, Prezident İlham Əliyevə raport verdi.

Məlumat verildi ki, burada İran ilə Azərbaycan arasında sərhəd-keçid məntəqəsi Araz çayı üzərində ancaq piyadalar üçün nəzərdə tutulan körpüdə yerləşirdi. Yeni körpünün istifadəyə verilməsi ilə həmin məntəqə ləğv olunacaqdır. 2003-cü ildə İranla Azərbaycan arasında Şahtaxtı-Poldəşt körpüsünün tikintisi barədə memorandum imzalanmış və 2005-ci ildə inşaat işlərinə başlanmışdır. Bu ilin avqustun 21-də İran Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfəri zamanı uzunluğu 160 metr olan bu körpüyə beynəlxalq status verilməsi barədə sənəd imzalanmışdır. İran tərəfi bu körpü vasitəsilə Fars körfəzindən Avropaya yük daşımaq niyyətindədir.

İran İslam Respublikasının birinci vitse-prezidenti Pərviz Davudi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ehtiramla qarşıladı. Azərbaycan Prezidenti və İranın birinci vitse-prezidenti körpünün rəmzi açılışını bildirən lenti kəsdilər.

Prezident İLHAM ƏLİYEV xeyir-duasını verərək, mərasim iştirakçılarına müraciətlə dedi: Mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Mən dünən İranda idim, gördüm ki, Tehran şəhərində çox sürətli işlər gedir. Azərbaycanda, Bakıda da bu işlər gedir, çoxlu sayda körpülər tikilir, ancaq onlar şəhər nəqliyyatı üçündür. Bu körpü isə iki ölkəni, iki xalqı birləşdirən körpüdür, insanların gediş-gəlişini asanlaşdıracaqdır. Təxminən iki il bundan əvvəl cənab Mahmud Əhmədinejad və mən İrandan Naxçıvana qazın verilməsini bir yerdə qeyd etdik. Qaz kəməri Arazın altından, bu körpü isə Arazın üstündən keçir. Yenə də deyirəm, bu, təkcə nəqliyyat üçün deyil, bizim ölkələrimizi, insanları birləşdirən körpüdür.

Mən dünən İrandan qayıtdım, indi isə, icazə versəniz, sərhədi bir də keçərəm.

İranın birinci vitse-prezidenti PƏRVİZ DAVUDİ dövlətimizin başçısına təşəkkür edərək dedi: Bu körpü vasitəsilə əziz və hörmətli Naxçıvan əhalisi, eyni zamanda, İranın Qərbi Azərbaycan vilayətinin əhalisi daha çox gediş-gəliş edəcək, ticarət-iqtisadi əlaqələr quracaqlar. Körpü hər iki tərəfin əhalisinin rifahının yaxşılaşmasına, onların yaşayışının daha da rövnəq olmasına kömək göstərəcəkdir.

Mən cənab İlham Əliyevi bu körpünün açılışı münasibətilə Poldəşt ərazisinə dəvət edirəm.

Azərbaycan Prezidenti İlham Əliyev Araz çayı üzərindən piyada İran sərhədini keçdi. Burada dövlətimizin başçısını Poldəşt sakinləri hərarətlə, böyük sevgi ilə qarşıladılar. Prezident İlham Əliyev onlarla səmimi görüşdü, körpünün açılışı münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı İran televiziyasına qısa müsahibə verdi.

Sonra Prezident İlham Əliyev və İranın birinci vitse-prezidenti Pərviz Davudi Azərbaycan tərəfə qayıdaraq söhbət etdilər, bu tarixi hadisəni rəmzi qeyd etdilər.

AZƏRTAC
2007, 17 oktyabr

Naxçıvan şəhərindəki 14 nömrəli orta məktəb müasirliyi ilə seçilir
(17 oktyabr 2007-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də Naxçıvan şəhərindəki 14 nömrəli orta məktəb binasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.

Buraya toplaşanlar - sakinlər, müəllimlər və məktəblilər Prezident İlham Əliyevi böyük hörmət və ehtiramla qarşıladılar.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdikdən sonra bu təhsil ocağı ilə yaxından tanış oldu. Prezidentə məlumat verildi ki, 1404 şagird yerlik bu məktəb son 10 ildə muxtar respublikada əsaslı təmir olunan və yeni tikilən 130-cu təhsil ocağıdır. Dördmərtəbəli binada 78 sinif otağı var və hazırda 830 şagird təhsil alır. Bu il məktəbin 76 məzunundan 34-ü müxtəlif ali məktəblərə qəbul olunmuşdur.

Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına, laboratoriyalara, internetə qoşulmuş kompyuter siniflərinə, yeməkxanaya, kitabxanaya və idman salonuna baxdı, yaradılan şəraitlə maraqlandı.

AZƏRTAC
2007, 17 oktyabr

Olimpiya İdman Kompleksi ilə tanışlıq

(17 oktyabr 2007-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, həmin gün Prezident İlham Əliyev Naxçıvan Olimpiya İdman Kompleksi ilə tanış olmuşdur.

Bu kompleks 2002-ci ildə tikilmiş, sonradan respublika, beynəlxalq səviyyəli yarışların keçirilməsi məqsədi ilə burada yenidənqurma və genişləndirmə işləri aparılmışdır. İndi burada olimpiya idman növləri üzrə yarışların keçirilməsi üçün hər cür şərait yaradılmışdır. İdmançıların və şəhər ictimaiyyətinin arzusu ilə bu qurğuya dövlətimizin başçısının adı verilmişdir və indi İlham Əliyev adına Olimpiya İdman Kompleksi adlanır.

Prezident İlham Əliyev kompleksdə yenidənqurma və genişləndirmə işlərindən məmnunluğunu bildirdi və burada mühüm yarışların keçirilməsinin zəruriliyini vurğuladı.

AZƏRTAC
2007, 17 oktyabr

Naxçıvan Dövlət Universitetinin incəsənət binasının – Konservatoriyasının açılış mərasimi

(17 oktyabr 2007-ci il)

AzərTAc-ın müxbiri xəbər verir ki, oktyabrın 17-də Naxçıvan Dövlət Universitetinin incəsənət binasının – konservatoriyasının açılış mərasimi olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev konservatoriyanın rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə tanış oldu. Məlumat verildi ki, bina "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən inşa olunmuşdur. Prezident İlham Əliyevin Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin qeyd olunması haqqında 2007-ci il 31 mart tarixli Sərəncamına əsasən tikilmiş binada 400 nəfər tələbənin təhsil alması üçün imkan vardır. Hazırda isə burada 221 tələbə təhsil alır. Burada 240 yerlik tamaşa salonu, ayrı-ayrı ixtisaslar üzrə sinif otaqları vardır. Tələbələr 5 fakültədə 9 ixtisas üzrə təhsil alırlar. Naxçıvan Dövlət Universitetində incəsənət fakültəsi 1998-ci ildən fəaliyyət göstərir.

Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqları ilə, burada yaradılan şəraitlə tanış oldu. Sonra tamaşa salonunda rəsmi açılış mərasimi keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz dostlar!

İlk növbədə, mən sizin hamınızı Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi münasibətilə ürəkdən təbrik etmək istəyirəm, universitetə yeni-yeni uğurlar arzulayıram. Bu 40 il ərzində Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Universitetin professor-müəllim heyəti öz biliklərini gənc nəslə yetirir. Gənc nəsil isə, öz növbəsində, yaxşı oxumaq, yaxşı bilik almaq hissləri ilə yaşayır. Bu, Azərbaycanda indi mövcud olan gözəl ab-havanın əlamətidir. Gənc nəsil - yeniyetmələr, tələbələr çox gözəl başa düşürlər ki, yaxşı biliyə malik olmayan insanlar, yəni tələbələr, gənclər həyatda öz yerini tuta bilməyəcəklər. Bugünkü şərait elədir və biz bütün dünyada da bunu görürük yalnız və yalnız bilikli, savadlı kadrlar həyatda öz yerini tuturlar. Azərbaycanda da biz bunu görürük. Mən çox istəyirəm ki, Azərbaycanda çox vətənpərvər, peşəkar, bilikli, savadlı gənc nəsil yetişsin ki, ölkəmizin gələcək inkişafına öz töhfəsini versin. Bunu təmin etmək, buna nail olmaq üçün, əlbəttə ki, Azərbaycanda ali məktəblərdə tədrisin səviyyəsi yüksək olmalıdır. İndi biz bunu görürük, ali məktəblərin həm maddi-texniki bazası möhkəmlənir, həm də tədris proqramları dünya səviyyəsinə uyğunlaşır. Beləliklə, bu iki amili nəzərə alaraq, deyə bilərəm ki, Azərbaycanda təhsil sahəsində bundan sonra da böyük uğurlar əldə olunacaqdır. Bütövlükdə biz təhsil sahəsinə böyük diqqət göstəririk. Azərbaycanın dövlət büdcəsinin xərclərində təhsil məqsədlərinə çox böyük vəsait ayrılır. Ordu xərclərindən sonra, təhsil xərcləri ikinci yerdədir. Gələn il bu xərclər təxminən 1 milyard manat səviyyəsində olacaqdır. Bu, bizə imkan verəcək ki, həm təhsilin maddi-texniki bazası möhkəmlənsin, həm də tədris proqramları ən qabaqcıl dünya səviyyəsinə uyğunlaşdırılsın. Naxçıvan Dövlət Universitetinin də bu işlərdə öz payı, öz əməyi var. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Bu gün açılışına toplaşdığımız yeni konservatoriya binası, deyə bilərəm ki, dünyanın ən yüksək standartlarına cavab verir.

Mən həmişə deyirəm ki, Azərbaycanda görülən bütün işlər, tikilən bütün binalar, istifadəyə verilən bütün müəssisələr Avropa səviyyəsində, dünya səviyyəsində olmalıdır. Bu gözəl binada gördüklərim bu səviyyədən də üstündür.

Mən Avropanın, dünyanın ali məktəblərində dəfələrlə olmuşam. Dünyanın bir neçə aparıcı ali məktəbinin fəxri doktoruyam və müxtəlif ölkələrin ali məktəblərində mühazirələr oxumuşam və onların fəaliyyəti ilə tanışam. Deyə bilərəm ki, burada olan səviyyə, bütövlükdə Azərbaycanda son illər ərzində ali məktəblərdə görülən işlər, tikilən binalar dünyanın heç bir yerində yoxdur. Mən buna çox sevinirəm və sizi bu gözəl nailiyyətlər münasibətilə təbrik edirəm.

Universitetin xarici əlaqələri də çox genişdir. Mən bilirəm ki, universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur və bu da özlüyündə bir göstəricidir. Onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir. Burada görüləcək işlər, yeni fakültələrin açılması və gələcək planlar, əlbəttə,

imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti nəinki regionda, hətta dünya miqyasında tanınmış ali məktəblərin birinə çevriləcəkdir.

Bilirsiniz ki, son illər ərzində Azərbaycanda məktəb tikintisi də çox sürətlə gedir. Son 4 dörd il ərzində 1200 yeni məktəb tikilib, yüzlərlə məktəb təmir olunubdur. Bu proses Naxçıvanda da sürətlə gedir və bu gün mən yeni məktəbin açılışında iştirak edəcəyəm. Demək istəyirəm ki, Azərbaycanda həm iqtisadi, həm siyasi, həm də humanitar sahədə görülən bütün işlər çox təqdirəlayiqdir. Naxçıvanın sürətli inkişafı barədə bu gün Vasif Talıbovun burada dediyi rəqəmlər məni çox sevindirir. İqtisadi inkişaf, sosial məsələlərə verilən diqqət, abadlıq-quruculuq işləri, muxtar respublikada hökm sürən gözəl ab-hava, əlbəttə ki, həm Naxçıvan Muxtar Respublikasının inkişafına öz töhfəsinə verir, həm də bütövlükdə Azərbaycanın inkişafına da böyük töhfədir. Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkəsidir. Bizim ölkəmizdə siyasi sabitlik var. Ulu öndər Heydər Əliyevin yorulmaz səyləri sayəsində 1993-2003-cü illərdə Azərbaycanda aparılan köklü islahatlar nəticəsində ölkəmiz çətin, ağır vəziyyətdən şərəflə çıxa bilmişdir və bu gün sözün əsl mənasında öz inkişaf dövrünü yaşayır. Biz ötən illəri yaxşı xatırlayırıq. 1990-cı illərin əvvəllərində Azərbaycanın və Naxçıvanın üzləşdiyi problemlər bizim ölkəmizi, demək olar ki, uçuruma aparırdı. Məhz ümummilli liderimizin qətiyyəti, onun uzaqgörənliyi, müdrikliyi və siyasi iradəsi sayəsində ölkəmiz bu çətin anlardan şərəflə çıxa bilmişdir. İndi Azərbaycan bütün sahələrdə bir ölkə kimi nümunə olubdur. Azərbaycanda ictimai-siyasi vəziyyət ən yüksək səviyyədədir, xalqla iqtidar arasında inam var, iqtidar tərəfindən aparılan siyasət xalq tərəfindən dəstəklənir. Azərbaycanda iqtisadi islahatlar sürətlə aparılır. Siyasi islahatlar, demokratikləşmə prosesləri sürətlə gedir. Ölkəmiz dünya birliyinə inteqrasiya edir və bu, əlbəttə ki, Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Biz istəyirik ki, dünyada mövcud olan ən müsbət təcrübəni Azərbaycanda tətbiq edək. Əlbəttə ki, Azərbaycanın xüsusiyyətlərini, bizim milli ənənələrimizi nəzərə almaq şərti ilə.

Dünyada ən qabaqcıl təcrübəni Azərbaycanda tətbiq edək, ən qabaqcıl texnologiyaları Azərbaycana gətirək. Bizim iqtisadiyyatımız şaxələndirilsin, Azərbaycanda yoxsulluq, işsizlik aradan qaldırılsın. Humanitar sahədə ən qabaqcıl nailiyyətlər Azərbaycanda da olsun. Məhz buna görə Azərbaycanda tikilən bütün müəssisələr, bütün təhsil, mədəniyyət, səhiyyə ocaqları ən yüksək səviyyəyə cavab versin. Bu gün Vasif Talıbov qeyd etdi ki, keçən il Naxçıvan şəhərində müalicə-diaqnostika mərkəzi istifadəyə verildi. Sizi əmin edə bilərəm ki, dünyada bunun analoqu yoxdur. Belə də olmalıdır, Azərbaycan xalqı buna layiqdir. Azərbaycan xalqı yaxşı yaşamalıdır. Sülh şəraitində yaşamalıdır, sabitlik şəraitində, rifah içində yaşamalıdır. Bunu etmək üçün bizim bütün imkanlarımız var. Ulu öndərin Azərbaycana göstərdiyi xidmətlərin sayəsində əldə edilmiş nəticələri biz bu gün davam etdiririk. Bu siyasəti davam etdiririk, əldə edilmiş nailiyyətləri artırırıq. Əlbəttə ki, həyat yerində durmur. Qarşımıza yeni çağırışlar çıxır və biz onlara hazır olmalıyıq ki, ilk növbədə, ölkəmizin təhlükəsizlik məsələlərini həll edək, davamlı inkişafını təmin edək, iqtisadi inkişafını və sosial məsələlərin həllini də təmin edək.

Faktlar bu istiqamətdə gördüyümüz işləri, əlbəttə ki, hər bir sözdən daha yaxşı göstərir. Son 4 il ərzində Azərbaycanın dövlət büdcəsi təxminən 10 dəfə artıbdır. O cümlədən Naxçıvanın büdcəsi artıb və indi imkan verir ki, muxtar respublikada istənilən məsələ həllini tapsın. Yollar salınır, binalar təmir olunur, məktəblər, xəstəxanalar tikilir, digər məsələlər öz həllini tapır. Bütün bunları etmək üçün, əlbəttə ki, ilk növbədə siyasi sabitlik və iqtisadi siyasət lazımdır. Bunların hər ikisi Azərbaycanda var və ona görə də ölkəmiz gələcəyə inamla baxır. Gələn il Azərbaycanda dövlət investisiya qoyuluşu 3 milyard manat təşkil edəcəkdir. O deməkdir ki, Azərbaycanda bütün infrastruktur layihələri həyata keçirilir. Ölkəmizin qarşısında duran bütün mühüm məsələlər öz həllini tapacaq, insanları narahat edən problemlər aradan qaldırılacaqdır. Elektrik enerjisi təminatı, qaz, su təchizatı, səhiyyənin səviyyəsi, təhsil ocaqlarının şəraiti – biz ilk növbədə bunlara böyük diqqət göstəririk. Azərbaycanda hər bir sahə üzrə düşünülmüş proqram var: iqtisadi inkişaf, sosial məsələlərin həlli, ekoloji proqram, neft-qaz sektorunun inkişafı, regional inkişaf proqramı, səhiyyə proqramı, təhsil proqramı. Elə bir sahə yoxdur ki, orada bizim proqramımız olmasın. Bunlar sadəcə olaraq, bir niyyət sənədi, şüar toplusu deyil, düşünülmüş, konkret tədbirlər planıdır. Onların icra qrafiki, mexanizmləri və maliyyə resursları var. Bütün bunlar bir yerdə olduğu halda, əlbəttə ki, istənilən məsələ öz həllini tapa bilər.

İlk növbədə, düşünülmüş siyasət, iqtisadi islahatlar, ölkəmizin dünya birliyinə inteqrasiya edilməsi prosesi və xalqla iqtidar arasında birlik. Bu amillər olduğu halda, ölkə istənilən məsələni həll edə bilər. Başqa ölkələrin təcrübəsinə fikir versək görərik ki, bu amillər olmadığı təqdirdə ölkədə inkişaf o qədər də sürətlə getmir, bəzi hallarda isə geriləmə də müşahidə olunur.

Azərbaycan isə çox böyük sürətlə inkişaf edir, çox uğurla irəliyə addımlayır. Azərbaycanda bütün regionlarda inkişaf göz qabağındadır. Bu yaxınlarda mənə verilən məlumata görə, regional inkişaf proqramının icrası nəticəsində 2007-ci ilin oktyabr ayına qədər Azərbaycanda 610 min yeni iş yeri açılmışdır ki, bunun da 400 mindən çoxu daimi iş yerləridir. Azərbaycanda yoxsulluq aradan qaldırılır və indi yoxsul adam tapmaq o qədər də asan məsələ deyildir. Azərbaycanda işsizlik aradan qaldırılır. Vaxtilə Azərbaycanın rayonlarından başqa ölkələrə gedən insanlar artıq gəlib öz rayonlarında, ya da Bakıda işlə təmin olunub işləyirlər. Bu da çox müsbət göstəricidir. Artıq Azərbaycandan miqrasiya meyilləri, demək olar ki, yoxdur, əksinə, bizim soydaşlarımız xarici ölkələrdən qayıdırlar. Bir müddətdən sonra Azərbaycanda işçi qüvvəsi qıtlığı yarana bilər. Baxmayaraq ki, bizdə işçi qüvvəsi kifayət qədər çoxdur. Amma biz iqtisadi inkişaf perspektivlərimizi görürük, iqtisadi baxımdan dünyada analoqu olmayan sürətlə inkişaf edirik. Bu ilin 9 ayında iqtisadiyyat təxminən 30 faiz inkişaf edibdir. Keçən il iqtisadi artım 35 faiz, 2005-ci ildə 26 faiz olmuşdur.

Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə

növbəti illərdə böyük həcmdə valyuta axını gözlənilir. Biz artıq bunu hiss etməyə başlamışıq. Bu, əlavə imkanlar, əlavə inam yaradır.

Azərbaycan sözün əsl mənasında müstəqil siyasət aparır. Bizim xarici ölkələrlə münasibətlərimiz yalnız qarşılıqlı maraqlar və qarşılıqlı hörmət əsasında qurulur. Siyasi gücündən, yaxud da ki, böyüklüyündən, ərazilərindən asılı olmayaraq, bütün ölkələrlə bərabər hüquqlu münasibətlər qura bilmişik. İlk növbədə, ona görə ki, biz sözün əsl mənasında müstəqil ölkə olmaq istəyirik. Digər tərəfdən, bizim iqtisadi və siyasi resurslarımız buna imkan yaradıbdır. Biz heç kimdən asılı olmayan, özümüzü tam şəkildə təmin edən ölkəyik. Ancaq dünya xəritəsinə baxsaq görərik ki, bir sıra ölkələr belə nailiyyətlərlə öyünə bilməz. Ancaq biz, ilk növbədə, nəyin hesabına buna nail olmuşuq? Bir də qeyd etməliyik ki, Heydər Əliyevin Azərbaycan xalqına xidmətləri hesabına, onun müəyyən etdiyi yolun hesabına. Azərbaycanda 1993-cü ildən, o ağır vəziyyətdə onun tərəfindən başlanmış neft strategiyasının icrası nəticəsində, dövlətçiliyin, azərbaycançılıq ideyasının möhkəmlənməsi nəticəsində bu gün bizim ölkəmiz dünya birliyində öz yerini tutubdur.

Azərbaycan o ölkədir ki, həm bizim bölgədə, həm Avropa qitəsində, həm də dünya miqyasında onunla hesablaşırlar. Regional əməkdaşlıq işlərində Azərbaycandan çox şey asılıdır. Yəqin ki, Azərbaycan ictimaiyyəti bizim son illər ərzində apardığımız xarici siyasətə də diqqət yetirir və görür ki, xarici siyasətimiz Azərbaycanın milli maraqlarına söykənir, bu maraqların təmin edilməsi üçün aparılır. Digər tərəfdən, bizim dünyadakı rolumuz, önəmimiz, nüfuzumuz artmaqdadır.

Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı sürətlə artır. Bir neçə il bundan əvvəl Azərbaycana bəlkə də o qədər böyük əhəmiyyət verməyən ölkələr indi bizimlə işləməyə çalışır, bizi dəvət edir, bizimlə məsləhətləşirlər. Yəni bu o deməkdir ki, bizim ölkəmizin nüfuzu artır, imici artır və bu, bizə əlavə imkanlar yaradır.

Biz öz siyasətimizi bundan sonra da bu prinsiplər əsasında quracağıq: birinci növbədə, Azərbaycanın milli maraqları, qonşu ölkələrlə mehriban dostluq münasibətləri, Avropa ilə, Avropa İttifaqı ilə, başqa beynəlxalq təşkilatlarla münasibətlərimizin davam etdirilməsi, Azərbaycanda vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi. Bir daha demək istəyirəm ki, bunu etmək üçün bütün imkanlar var: ilk növbədə, düşünülmüş siyasət, güclü siyasi iradə, xalqın bizim siyasətimizə dəstəyi, iqtisadi imkanlarımızın artması, siyasi çəkimizin artması və hüdudlarımızdan kənarda olan məsələlərə Azərbaycanın təsir imkanlarının artması. Bizim təşəbbüsümüz ulu öndər Heydər Əliyevin təşəbbüsüdür. Xalqımız üçün tarixi əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq istismardadır və bizə həm iqtisadi, həm siyasi uğurlar gətirir. Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismardadır və Azərbayca özünü Avropa İttifaqının enerji təchizatı üçün tərəfdaş kimi təqdim edibdir. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə yaxın zamanlarda başlayacağıq. Bu da Azərbaycanı həm tranzit ölkəsinə çevirəcək, həm də ki, ölkəmizi Türkiyə ilə, Azərbaycan vasitəsilə Türkiyəni Orta Asiya ilə, Orta Asiyanı, Çini Avropa ilə birləşdirəcəkdir. Bəlkə də, bunu izah etməyə ehtiyac yoxdur. Ancaq hər halda demək istəyirəm ki, biz bütün bunlara həm düşünülmüş siyasətlə, həm də ki, artan imkanlarımızla nail ola bilirik. Siyasət düzgün ola bilər, ancaq əgər onu icra etmək üçün imkanlar yoxdursa, o, siyasət olaraq qalacaq, boş bir şey kimi qalacaqdır. Bizim isə siyasətimiz də, əməli işlərimiz də, artan imkanlarımız da bütün bu gözəl şəraiti yaradıbdır.

Bizim iştirakımız olmadan regionda heç bir məsələ həllini tapa bilməz. Nə iqtisadi, nə nəqliyyat, nə enerji məsələsi, nə də siyasi məsələ. Bizim mövqeyimiz, məsələlərə baxışlarımız regionda, deyə bilərəm ki, aparıcı rol oynayır. Belə olan halda, əlbəttə, biz hamımız, bütün Azərbaycan xalqı gələcəyə çox böyük

nikbinliklə baxırıq. Bilirik haraya gedirik, nə istəyirik, necə etməliyik, hansı əlavə tədbirlər görməliyik ki, Azərbaycan xalqının daha da yaxşı yaşaması təmin edilsin. Ölkədə hələ kifayət qədər sosial problemlər var. Biz hələ yoxsulluğu tam aradan qaldıra bilməmişik. Baxmayaraq ki, 49 faizdən 20 faizə sala bilmişik. Əminəm ki, bu ilin nəticələrinə görə daha da aşağı olacaqdır. Amma hələ ki, yoxsul təbəqə var.

Hələ ki, Azərbaycanda minimum əmək haqqı onu alan insanın tələbatını ödəmir. Biz buna çalışmalıyıq. Minimum əmək haqqı minimum tələbatı ödəməlidir. Son məlumata görə, Azərbaycanda orta əmək haqqı dollarla hesablasaq, təxminən 220 dollardır. Bir neçə il bundan əvvəl hansı səviyyədə olduğunu müqayisə etsək, postsovet məkanı üçün böyük bir rəqəmdir. Amma dünya miqyasında böyük rəqəm deyildir. Biz indi çalışmalıyıq ki, dünyada ən qabaqcıl texnologiyaları tətbiq edək, eyni zamanda, həyat səviyyəsini də dünyanın aparıcı ölkələrinin səviyyəsinə qaldıraq. Bizim xalqımız yaxşı yaşamalı, zəngin olmalıdır. Hər bir insanın imkanı olmalıdır. Dövlət təşkilatlarında çalışanların maaşı yüksək olmalıdır, özəl sektorda çalışanlar üçün yaxşı şərait yaradılmalıdır ki, sahibkarlıq inkişaf etsin.

Mən saata baxıram, bir az çox danışıram. Amma mən bu əziz gündə istəyirəm öz fikirlərimi sizə bildirəm. Düzdür, mən vaxtaşırı Azərbaycan xalqına müraciətlər edirəm, çıxışlar edirəm, öz mövqeyimi bildirirəm. İstəyirəm ki, bu mövqeni Azərbaycan xalqı bilsin və bunu bilir. Mən həmişə öz fikirlərimi, - həm ölkə daxilində, həm də xaricdə olanda, həm xarici siyasətlə bağlı,- açıq şəkildə ifadə edirəm: nəyi planlaşdırıram, hansı məsələləri həll etmək istəyirəm.

Çünki bizim ölkəmizin gələcəyi bundan asılıdır. İnkişaf etmiş ölkələrdə hər şey qərarlaşıbdır. Bəzi hallarda heç ölkəyə kimin rəhbərlik etməsindən də çox şey asılı deyildir. Çünki güclü - həm demokratik, həm iqtisadi təsisatlar var. İnkişaf etmiş ölkələrdə sənaye istehsalı, iqtisadi inkişaf, yaxud da, humanitar məsələlərin həlli, demək olar ki, heç də həmişə hökumətdən və ya dövlət başçısından asılı deyildir. Orada yaradılmış təsisatlar özləri bu vəzifəni yerinə yetirir. Amma gənc ölkələr də, yəni müstəqilliyini təzə əldə etmiş ölkələrdə, əlbəttə ki, çox şey dövlət siyasətindən asılıdır. Bu siyasət düzgün olmalıdır. Siyasətin düzgün olmasını təmin etmək üçün mütləq daimi məsləhətləşmələr aparılmalıdır. Mən də bu məsləhətləşmələri Azərbaycan xalqı ilə aparıram. Öz fikirlərimi bildirirəm, reaksiyanı görürəm. Bilirsiniz ki, tez-tez regionlarda oluram. Nə üçün? Həm vəziyyətlə tanış oluram, həm gedən işlərə nəzarət etmək, həm də ki, insanların bütün siyasətə münasibətini öyrənmək istəyirəm. Mən bu münasibəti hiss edirəm, görürəm. Görəndə ki, bizim işlərimiz bəyənilir, siyasətimiz dəstəklənir, bu mənə əlavə güc, əlavə ruh yüksəkliyi verir.

Zənnimcə, mən düz edirəm ki, bu məsləhətləşməni ancaq və ancaq Azərbaycan xalqı ilə edirəm. Azərbaycan xalqı müdrik xalqdır, yaxşını pisdən həmişə ayıra bilibdir. Azərbaycan xalqının mənə verdiyi bu kredit, bu mandat, bu səlahiyyət, əlbəttə ki, mənə əlavə güc verir. Bəlkə də mən sizin vaxtınızı bir az çox alıram. Amma istəyirəm ki, siz də həm ölkə haqqında, gələcək haqqında, beynəlxalq münasibətlər haqqında, həm də iqtisadi, siyasi islahatlar haqqında mənim fikirlərimi biləsiniz. Çünki bunlar çox vacibdir. Bizim ölkəmizin gələcəyi çox parlaq ola bilər. Mən buna tam əminəm. Amma bunu təmin etmək üçün biz hamımız işləməliyik. Əldə edilmiş nəticələrlə kifayətlənməməliyik. İqtisadi uğurlar, siyasi müstəvidə aparılan çox düzgün siyasət gərək bizim başımızı gicəlləndirməsin. Biz gərək həmişə ayıq olaq, diqqətli olaq, həmişə işləyək, çalışaq. Bu, daimi prosesdir. Hansı ölkədə arxayınçılıq yaranırsa, ölkənin inkişafı da dayanır, yaxud da durğunluq dövrü başlanır. Azərbaycan dinamik şəkildə inkişaf edir. Bu inkişafda bütün cəmiyyət iştirak edir. Əlbəttə ki, siyasi məsələlərlə məşğul olanlar, iqtisadi məsələlərlə məşğul olanlar, yəni bütün cəmiyyət bu işlərdə fəal iştirak edir. Yəni bizim uğurlarımızın da əsas səbəbi məhz bundadır: birlik, vətəndaş həmrəyliyi, milli maraqlara, milli adət-ənənələrə bağlılığımız və eyni zamanda, müasirlik.

Yenə də qayıdıram günümüzün əsas mövzusuna, Naxçıvan Dövlət Universitetinin fəaliyyətinə. Bu müasirliyi, bu biliyi, savadı da müəllimlər verməlidir və verirlər.

Mən professor-müəllim heyətini, bütün tələbələri bu gözəl yubiley münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Çıxışımı yekunlaşdırmaq istəyirəm, Naxçıvanda hələ başqa işlərim var, proqram kifayət qədər genişdir. Sizi bir daha əmin etmək istəyirəm ki, mən ulu öndər Heydər Əliyevin siyasətinə bundan sonra da sadiq qalacağam. Bu yol haqq yoludur, biz hamımız bu yolla gedəcəyik. Sizə yeni-yeni uğurlar arzulayıram.

Mən Naxçıvan Dövlət Universitetinin əməkdaşlarını yüksək dövlət mükafatları ilə təltif etmişəm. İstəyirəm ki, mənim Sərəncamım indi oxunsun və bu yüksək mükafatları təqdim edim.

AZƏRTAC
2007, 17 oktyabr

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Dövlətimizin başçısının şərəfinə Naxçıvan hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov ehtiramla qarşıladı.

Milli geyimli oğlan və qız Prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim etdilər.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Prezident İlham Əliyev Naxçıvan MR-in rəhbər şəxsləri ilə görüşdü.

AZƏRTAC
2008, 3 iyun

Xarici işlər nazirliyinin Naxçıvan MR-dəkı idarəsinin yeni binası istifadəyə verilmişdir
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 3-də Prezident İlham Əliyev Naxçıvan şəhərinin mərkəzində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etmişdir.

Burada dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, bina ilə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, yeni binanın inşasına ötən ilin mayında başlanmışdı. Konsulluq şöbəsində Sədərək, Culfa, Şahtaxtı sərhəd-keçid məntəqələri və Naxçıvan beynəlxalq hava limanı üzrə viza və pasport məsələləri ilə də məşğul olacaqlar. Binadakı kompyuterlərin hamısı avtomatlaşdırılmış mərkəz axtarışı və mərkəzi pasport sisteminə qoşulmuşdur.

Burada protokol şöbəsi, katiblik, server otaqları və digər bölmələr üçün də rahat şərait vardır.

Müxtəlif ədəbiyyatla təchiz olunan kitabxanada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin xarici siyasəti ilə bağlı keçirdiyi tədbirlərə dair kitablar da toplanmışdır.

Arxiv, konfrans salonu, müxtəlif xidmət otaqları da müasir tələblərə cavab verir.

Binanın ətrafı abadlaşdırılmış, ağac və gül kolları əkilmiş, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

AZƏRTAC
2008, 3 iyun

Dədə Qorqud meydanı və turizm mərkəzi ilə tanışlıq
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Naxçıvan şəhər mərkəzindəki Dədə Qorqud meydanında olmuşlar.

Dövlətimizin başçısına məlumat verildi ki, burada yenidən qurulmuş turizm mərkəzi memarlıq baxımından diqqəti cəlb edir. Keçmiş illərdə burada mədrəsə, sonralar dram dərnəyi fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyev yeniyetmə yaşlarında dərnəkdə iştirak etmişdir. Onun burada "Vaqif" dramında oynayarkən çəkilmiş fotoşəkli və özünün çəkdiyi məktəbli qızın şəkli nümayiş olunur.

Sonra Prezident İlham Əliyev yenidən qurulmuş beşulduzlu "Təbriz" mehmanxanasına baxdı. Məlumat verildi ki, ən müasir üslubda yenidən qurulmuş mehmanxanada yerli və xarici qonaqları qəbul etmək üçün rahat şərait yaradılmışdır.

Prezident İlham Əliyev yenidənqurma işlərini yüksək qiymətləndirdi.

Sonra dövlətimizin başçısı Dədə Qorqud meydanındakı XVIII əsrə aid Şərq hamamına baxdı. Prezident İlham Əliyev bildirdi ki, bu cür abidələrin qorunub saxlanmasına daim diqqət yetirilməlidir.

AZƏRTAC
2008, 3 iyun

Naxçıvan Əyləncə-idman mərkəzinin açılışı
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 3-də Naxçıvan şəhərində Əyləncə-idman mərkəzinin açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişdir.

Əllərində ulu öndərin və Prezident İlham Əliyevin portretləri olan şəhər sakinləri dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Mərkəzlə tanışlıq zamanı bildirlidi ki, müasir standartlara cavab verən mərkəz oyun və bar salonlarından ibarətdir. Burada eyni vaxtda 200 nəfərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Türkiyədən gətirilmiş xüsusi işıq və səs sistemləri quraşdırılmışdır. Oyun salonu da lazımi avadanlıqla təchiz olunmuşdur. Burada iki bilyard stolu, futbol və xokkey oyunları masaları qoyulmuşdur. Muxtar respublikada ilk boulinq salonu da burada yaradılmışdır. Dörd oyun xətlik boulinq sistemi ABŞ-dan gətirilmişdir. Sistemə kompyuter vasitəsilə nəzarət mümkündür. Əyləncə mərkəzinin yerləşdiyi ərazidə yaşıllaşdırma işləri aparılmış, oturacaqlar quraşdırılmışdır.

Sonra Prezident İlham Əliyev salonlara baxdı, bilyard oynadı.

AZƏRTAC
2008, 3 iyun

Naxçıvan tibb məktəbinin binası yenidən qurulmuşdur
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 3-də Naxçıvanda tibb məktəbinin yenidən qurulmuş binasının açılışı olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Şəhər sakinləri və məktəbin kollektivi dövlətimizin başçısını və xanımını səmimiyyətlə qarşıladılar. Mehriban Əliyevaya gül təqdim olundu.

Prezident İlham Əliyev məktəbin açılışını bildirən lenti kəsdi.

Sonra dövlətimizin başçısı və xanımı məktəblə tanış oldular.

Məlumat verildi ki, Naxçıvanda yeganə olan tibb məktəbinin dördmərtəbəli binası yenidən qurulduqdan sonra tamamilə müasir görkəm almışdır. Burada səkkiz mühazirə otağı, yeddi kabinet, üç laboratoriya otağı, kitabxana, akt salonu, kompyuter mərkəzi, idman salonu vardır. Heydər Əliyev lektoriyasında isə ulu öndərin irsinin təbliği və gənc nəslə çatdırılması üçün əyani vəsaitlər, fotoşəkillər və sənədlər toplanmışdır. 300 tələbənin təhsil aldığı, 30 müəllimin çalışdığı tibb məktəbində mamalıq işi, müalicə işi, əczaçılıq və tibb bacısı işi ixtisasları üzrə kadrlar hazırlanır.

AZƏRTAC
2008, 3 iyun

Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin təməli qoyulmuşdur
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 3-də Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin - Doğum mərkəzinin təməlinin qoyulması münasibətilə mərasim keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısına məlumat verildi ki, mərkəzdə hamiləliyin patalogiyası, uşaq neonatalogiyası, reanimasiya və intensiv terapiya, anesteziologiya, fizioloji doğum, ginekoloji şöbələr, əməliyyat bloku, qadın məsləhətxanası və s. fəaliyyət göstərəcəkdir.

Prezident İlham Əliyev gilizi özülə ataraq, beton qarışığı tökdü.

AZƏRTAC
2008, 3 iyun

“N” hərbi hissəsi ilə tanışlıq
(3 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də, Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində “N” hərbi hissəsində olmuşdur.

Naxçıvan qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı hərbi hissənin qərargahı ilə tanış oldu.

Prezident İlham Əliyev əvvəlcə burada yaradılan Heydər Əliyev muzeyinə baxdı. Muzeydə ulu öndərin dövlət quruculuğu sahəsindəki fəaliyyətini, ümummilli liderin və Prezident İlham Əliyevin müxtəlif vaxtlarda hərbi hissələrdə əsgərlərlə keçirdikləri görüşlərini əks etdirən fotoşəkillər toplanmışdır.

Üçmərtəbəli qərargah binasında zabitlərin hər biri üçün zəruri texniki avadanlıqla təchiz olunmuş ayrıca otaqlar vardır.

Ali baş komandan sonra əsgər yataqxanası ilə tanış oldu. Burada
əsgərlərin istirahəti üçün hər bir şərait var.

Daha sonra yeməkxana ilə tanış olan Prezident İlham Əliyev burada əsgərlərlə birlikdə nahar etdi.

AZƏRTAC
2008, 3 iyun

Heydər Əliyev Muzeyi ilə tanışlıq

(4 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 4-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və onların xanımları Naxçıvan şəhərindəki Heydər Əliyev muzeyi ilə tanış olmuşlar.

Geniş sahəsi olan muzey ekspozisiya salonu, kitabxana və fonddan ibarətdir. Ekspozisiya salonunda Heydər Əliyevin ağ mərmərdən yonulmuş büstü qoyulmuşdur. Büstün müəllifi xalq rəssamı, akademik Ömər Eldarovdur. Muzeyin fondunda ulu öndərin həyat və fəaliyyəti ilə bağlı 2400-dək eksponat var, ekspozisiyada bunların yalnız bir hissəsi nümayiş etdirilir. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, habelə ulu öndər haqqında yazılmış kitablar toplanmışdır. Ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, bütün xarici səfərlərini, eləcə də muxtar respublikaya səfərlərini əks etdirən materiallar diqqəti cəlb edir.

Hörmətli qonağa məlumat verildi ki, buradakı kompyuterlər vasitəsilə ulu öndər Heydər Əliyev ilə bağlı istənilən məlumatı əldə etmək mümkündür. Rəssam Aydın Rəcəboğlu tərəfindən klassik üslubda kətan üzərində yağlı boya ilə 2000-ci ildə çəkilmiş "Prezident Heydər Əliyev" portreti muzeyin dəyərli eksponatlarındandır. Muzeydə ulu öndərlə bağlı çoxlu məktub, teleqram, rəsmi sənədlər də geniş yer tutur. Buradakı "Yüksəlişə doğru həyat yolu" adlı xalça da kompozisiyası və nəfis toxunuşu ilə diqqəti cəlb edir. Ekspozisiyada Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvanda işlədiyi dövrü əks etdirən eksponatlar da vardır. Ulu öndərin Naxçıvanda işlədiyi dövrdə iş otağında istifadə etdiyi çıraq, telefon, qələmdan, habelə o vaxtkı geyim əşyaları, saatı da nümayiş etdirilir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana muzeyin kitabxanası və ümummilli lider Heydər Əliyev haqqında çəkilmiş filmlər barədə də ətraflı məlumat verildi.

1930-cu ildə çəkilmiş ailə fotosu əsasında 2000-ci ildə toxunmuş "Tarix" xalçası qonaqlarda böyük maraq doğurdu.

Rəcəb Tayyib Ərdoğan xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin xatirəsini əziz tutan Azərbaycan xalqına ən xoş arzularını yetirdi.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan qarşılıqlı hədiyyələr təqdim etdilər.

AZƏRTAC
2008, 4 iyun

Səfər başa çatdı
(4 iyun 2008-ci il)

İyunun 4-də Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Milli geyimli oğlan və qız Prezidentə və xanımına gül-çiçək təqdim etdilər.

Prezident İlham Əliyevi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov, digər rəsmi şəxslər səmimiyyətlə yola saldılar.

X X X

Azərbaycan Prezidenti həmin gün Bakıya gəldi.

AZƏRTAC
2008, 4 iyun

Babək

2006, 21 dekabr

- "Duzdağ" sanatoriyasının təməli qoyulmuşdur

2008, 4 iyun

- "Duzdağ" fizioterapiya mərkəzinin açılışı

“Duzdağ” sanatoriyasının təməli qoyulmuşdur
(21 dekabr 2006-cı il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, dekabrın 21-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda “Duzdağ” sanatoriyasının təməli qoyulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə sanatoriyanın baş planı ilə tanış oldu. Prezidentə məlumat verildi ki, bir il ərzində tikintisi başa çatdırılacaq sanatoriyanın beşmərtəbəli binasında müalicə, müayinə və istirahət üçün hər cür şərait yaradılacaqdır. “Duzdağ” ərazisi müalicə üçün çox əlverişli yer olduğuna görə, burada yüksək səviyyəli, müasir standartlara cavab verən sanatoriyanın tikilməsi qərara alınmışdır.

Prezident İlham Əliyev burada üzgüçülük hovuzunun, geniş yeməkxanaların və digər lazımi sahələrin yaradılması üçün də müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Sonra dövlətimizin başçısı “Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Babək rayonunda “Duzdağ” sanatoriyasının təməli qoyulmuşdur.

21 dekabr, 2006-cı il” sözləri yazılmış kağız olan gilizi bünövrəyə qoydu və beton qarışığı tökdü.

Prezident İlham Əliyev inşaat işlərinin yüksək səviyyədə aparılması barədə tapşırıqlarını verdi.

AZƏRTAC
2006, 21 dekabr

“Duzdağ” fizioterapiya mərkəzinin açılışı

(4 iyun 2008-ci il)

AZƏRTAC-ın müxbiri xəbər verir ki, iyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan Naxçıvan MR-in Babək rayonunda “Duzdağ” Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişlər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan əvvəlcə Mərkəzin yeraltı hissəsi ilə tanış oldular.

Milli geyimli qız və oğlan Azərbaycan Prezidentinə Türkiyənin Baş nazirinə və onların xanımlarına gül dəstələri təqdim etdilər.

Prezident İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımları Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdilər və bu müalicə ocağı ilə tanış oldular.

Məlumat verildi ki, 1979-cu ildə burada 50 çarpayılıq fizioterapiya xəstəxanası yaradılmışdır. Sonralar müalicəyə gələnlərin sayı artdıqca bura genişləndirilmişdir. Xəstəxana yeraltı və yerüstü şöbələrdən ibarətdir. 2006-cı ilin dekabrında müasir standartlar səviyyəsində “Duzdağ” Fizioterapiya Mərkəzinin tikintisinə başlanmışdır. “Gəmiqaya” şirkəti altımərtəbəli binanı qısa müddətdə inşa etmişdir. Buraya Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan və digər ölkələrdən xəstələr gəlir. Müalicə və istirahət üçün müasir səviyyədə şərait yaradılmışdır. Mərkəzin 324 yerlik beşulduzlu mehmanxanası da var. Mərkəzin xəstəxana hissəsində böyüklər və kiçiklər üçün şöbələr fəaliyyət göstərir. Burada bronxial astma və astmatik komponentli digər xəstələr müalicə olunurlar. Təbii müalicə ilə yanaşı, dərman müalicəsi, fizioteraperiya müalicəsi, müalicəvi bədən tərbiyəsi də tətbiq edilir. Mərkəzdə stolüstü tennis, bilyard stolları, trenajor zalı, sauna, hamam, stadion, üzgüçülük hovuzu da vardır. Uşaqlar üçün “nağıllar aləmi” də yaradılmışdır.

Yerüstü hissədən yeraltı hissəyə 2,4 kilometr məsafə var. Yeraltı hissədə - düz mədəni şaxtasında gecə və gündüz havanın temperaturu 18-20 dərəcəyə yaxın olur. Atmosfer təzyiqi 682 millimetr civə sütunu, nisbi rütubət 24-50 faiz arasındadır. Şaxtada dəm, azot və metan qazı yoxdur, oksigen 20 faizə yaxındır. Burada duz qatının qalınlığı 8,2 metrə çatır. Duzun tərkibində natrium-xlor 98,4 faiz, kalsium 0,04 faiz, maqnezium 0,06 faizdir. Müalicə kursu böyüklər üçün 20-24 seans, uşaqlar üçün 14-18 seansdır. Xəstələr axşam saat 6-dan səhər 8-dək şaxtada olurlar. Şaxtada 2 qadın və 3 kişi palatası var. Bunların 2-sində uşaq palatası da var. Müraciət edənlərin sayı artarsa, gələcəkdə buranın genişləndirilməsi də nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirdilər.

AZƏRTAC
2008, 4 iyun

Culfa

2008, 3 iyun

- Culfa rayon mərkəzi xəstəxanasının açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Culfa rayon mərkəzi xəstəxanasının açılış mərasimi

(3 iyun 2008-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 3-də Culfa rayon mərkəzi xəstəxanasının açılış mərasimində iştirak etmişlər.

Prezident İlham Əliyev xəstəxananın açılışını bildirən rəmzi qırmızı lenti kəsdi, yeni müalicə ocağı ilə tanış oldu. Dövlətimizin başçısı burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.

Sonra xəstəxananın açılışı münasibətilə mərasim keçirildi.

Mərasimi Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

-Möhtərəm Prezident!

2004-cü ildə ölkəmizin regionlarına etdiyiniz səfərlərin birində demişdiniz: "Azərbaycan hərtərəfli inkişaf edir. Mənim vəzifəm, mənim borcum ondan ibarətdir ki, Azərbaycanın hər bir qəsəbəsi, hər bir kəndi, hər bir rayonu inkişaf etsin. Bölgələrə etdiyim səfərlər məhz bu məqsədi daşıyır".

Ölkəmizin digər regionları kimi, Naxçıvan Muxtar Respublikasına da hər səfəriniz əsası ümummilli lider tərəfindən qoyulmuş inkişaf və tərəqqi proqramına mühüm töhfələr verir, irimiqyaslı quruculuq tədbirləri ilə yadda qalır.

Sizin himayənizlə yeni istehsal sahələrinin, elektrik stansiyalarının, təhsil və səhiyyə müəssisələrinin, su anbarlarının, hərbi və digər təyinatlı infrastruktur obyektlərinin tikilməsi və ya əsaslı təmir olunması, uzun fasilədən sonra təbii qaz xəttinin çəkilərək istifadəyə verilməsi Naxçıvan Muxtar Respublikasının xilasına və inkişafına yönəlmiş tarixi missiyanın bəhrələridir. Həyata keçirilmiş tədbirlər nəticəsində Naxçıvan öz tarixində ikinci dəfə intibaha qovuşmuş, sosial-iqtisadi inkişaf yeni mərhələyə çıxmışdır.

Hər bir inkişafın əsasında insan amili, onun tələbatlarının maksimum ödənilməsi dayanır. Bu istiqamətdə görülən tədbirlər sırasında əhaliyə göstərilən səhiyyə xidmətinin təşkilinin böyük əhəmiyyəti vardır. Səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyirdi: "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".

Ümummilli liderimiz 1969-cu ilin avqustunda Azərbaycanın rəhbəri seçiləndən cəmi bir ay sonra səhiyyənin inkişafını prinsipcə dəyişdirmək, müalicə-sağlamlıq işini kökündən yaxşılaşdırmaq barədə tarixi qərarlar qəbul etdi. Bu qərarlar səhiyyədə böyük canlanmaya səbəb oldu. Rayon mərkəzlərində, kəndlərdə xəstəxanalar, poliklinikalar, həkim məntəqələri tikildi, tibbi kadrların hazırlanması sahəsində ciddi nailiyyətlər əldə olundu. Ümumittifaq miqyasında səhiyyənin ayrı-ayrı sahələri üzrə elmi-nəzəri forumların, qurultay, konqres və konfransların Bakıda keçirilməsi ölkəmizi keçmiş Sovetlər Birliyinin mühüm səhiyyə mərkəzlərindən birinə çevirmişdi.

Xalqımızın böyük oğlu siyasi hakimiyyətdən istefa verdikdən sonra yaranmış dağıdıcılıq prosesi səhiyyədən də yan keçmədi. 1993-cü ilin 15 iyunu ölkə həyatının digər vacib sahələri kimi səhiyyənin də xilası günü kimi tarixə düşmüşdür. Bu tarixdən etibarən Azərbaycan səhiyyəsi 1969-cu ildən başlanan inkişaf və quruculuq yoluna qayıtdı. Bu gün ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolla inamla irəliləyən Azərbaycanda sosial problemlərin həlli, o cümlədən səhiyyənin inkişafı bir nömrəli vəzifələr sırasına çıxarılmış, büdcənin böyük bir hissəsi bu sahənin inkişafına yönəlmişdir.

Hörmətli Prezidentimizin qayğısı ilə son üç ildə Naxçıvan Muxtar Respublikasında 36 yeni səhiyyə obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur. Cari ilin beş ayında iki səhiyyə obyekti istifadəyə verilmiş, doqquz obyektdə isə tikinti işləri davam etdirilir. Ölkə rəhbərinin himayəsi ilə 2006-cı ilin dekabrında istifadəyə verilən Diaqnostika-Müalicə Mərkəzi nəinki Naxçıvan Muxtar Respublikasında, eyni zamanda, ətraf bölgədə analoqu olmayan tibb müəssisəsinə çevrilmişdir. Son bir il ərzində burada 370 müxtəlif cərrahi əməliyyat, o cümlədən 30 açıq ürək əməliyyatı aparılmışdır.

Ölkə Prezidentinin tapşırığı ilə muxtar respublikanın bütün rayon mərkəzlərində nümunəvi tibb müəssisələrinin yaradılması davam edir. Ötən il hörmətli Prezidentimizin himayəsi ilə Şərur rayonunda xəstəxana şəhərciyi tikilərək istifadəyə verilmişdir.

Bu qayğının daha bir ifadəsi isə bu gün açılışına toplaşdığımız Culfa rayon mərkəzi xəstəxanasının yeni binasıdır. Zirzəmi qatı ilə birlikdə dördmərtəbəli xəstəxana binası 6810 kvadratmetr sahəni əhatə edir, 62 çarpayılıq xəstəxana əsas və əlavə korpusdan, yardımçı tikililərdən ibarətdir. Burada terapiya, ginekologiya və doğuş, cərrahiyyə, təcili tibbi yardım və poliklinika şöbələri, pediatriya, hemodializ,

reanimasiya və əməliyyat bölmələri fəaliyyət göstərir. Əlavə korpusda isə yoluxucu xəstəliklər bölməsi yaradılmışdır. Xəstəxanada quraşdırılmış avadanlıq müalicə və profilaktika işini müasir tələblər səviyyəsində təşkil etməyə imkan verir. Bu bir daha göstərir ki, Culfa rayon xəstəxanasında tibbi xidmət ən müasir səviyyədə olacaqdır. Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafını daim diqqətdə saxladığına görə ölkə rəhbəri hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildirir və əmin edirik ki, tibb işçilərimiz əhalinin sağlamlığının qorunması naminə bundan sonra da fədakarlıqla çalışacaqlar.

Diqqətinizə görə sağ olun.

X X X

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

-Əziz dostlar,

Əziz bacılar və qardaşlar! Mən sizin hamınızı ürəkdən salamlayır və bu gün bu gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Yeni, gözəl xəstəxanaların açılışı artıq Naxçıvanda gözəl ənənəyə çevrilibdir. Artıq Vasif Talıbov qeyd etdi ki, son müddət ərzində Naxçıvanda 30-dan çox səhiyyə obyekti açılmışdır. Onların hamısı yüksək keyfiyyətlə tikilib, yüksək standartlara cavab verir. Çox sevindirici haldır ki, bütün rayonlarda, Naxçıvanın bütün rayonlarında gözəl, yeni, müasir tibb ocaqları tikilir. Burada quraşdırılan avadanlıq ən yüksək səviyyəyə layiqdir. Həm həkimlər üçün, iş üçün, gözəl şərait var, həm də xəstələrin müalicəsi üçün bütün şərait var. Bax, budur, bugünkü Azərbaycanın inkişafı. Azərbaycanın hər bir bölgəsində sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Çox sevindirici haldır ki, Naxçıvanda da bu sahəyə böyük diqqət göstərilir, sosial məsələlərin həllində böyük uğurlar əldə edilibdir. Yeni xəstəxanalar açılır, yeni məktəblər, sosial obyektlər tikilir, bir sözlə, insanları narahat edən məsələlər həll edilir, insanlara lazım olan bütün işlər görülür. Bu, bir də onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Sosial siyasət hər bir ölkənin ümumi inkişaf potensialını göstərir. O ölkələr ki, inkişaf edib, güclü iqtisadi potensiala malikdir, təbii ki, orada sosial məsələlərə də diqqət göstərilir. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sosial məsələlər tezliklə öz həllini tapsın və Naxçıvanın timsalında biz bunu görürük. Burada həm sosial sahəyə diqqət göstərilir, həm də iqtisadi inkişaf çox sürətlə gedir, - siz bunu yaxşı bilirsiniz, - yeni müəssisələr, fabriklər, zavodlar açılır, quruculuq işləri aparılır. Naxçıvanın büdcəsi ildən-ilə artır və bu imkan verir ki, muxtar respublikada bütün quruculuq-abadlıq işləri yüksək keyfiyyətlə aparılsın.

Bildiyiniz kimi, mən hər il Naxçıvana gəlirəm, vəziyyətlə tanış oluram. Hər dəfə yeni obyektin açılışında iştirak edərkən mən çox sevinirəm, qürur hissi keçirirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvanda belə gözəl işlər görülür. Bu gün bütün Azərbaycanda sosial və iqtisadi inkişafın sürətlə getməsi artıq bütün dünya üçün aydın olan bir məsələdir. Azərbaycanın iqtisadi potensialının artması, enerji təhlükəsizliyi sahəsinə verdiyi töhfələr, bütövlükdə ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi - bunlar artıq reallıqdır. O cümlədən Azərbaycanın bütün bölgələrində, xüsusilə Azərbaycanın əsas hissəsindən ayrı olan Naxçıvanda bu məsələlərin həlli xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, biz Naxçıvanın enerji təhlükəsizliyini təmin etdik və indi bu sahədə heç bir problem yoxdur. Burada yeni tikilən və əvvəl tikilmiş və bərpa olunan elektrik stansiyalarının fəaliyyəti nəticəsində indi Naxçıvan özünü elektrik enerjisi ilə tamamilə təmin edir və hətta elektrik enerjisinin bir hissəsini qardaş Türkiyəyə ötürür. Eyni zamanda, bildiyiniz kimi, uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olunmuşdur və hazırda qazlaşdırma prosesi çox sürətlə gedir. İlk növbədə,1970-80-ci illərdə, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qazlaşdırılmış bölgələrə qaz verilməsi bərpa olunubdur. Sonrakı mərhələ isə əvvəllər qazlaşdırılmayan bölgələrə, kəndlərə, qəsəbələrə qaz verilməsinin təmin olunması idi. Deyə bilərəm ki, bu istiqamətdə artıq böyük işlər görülüb və yəqin ki, yaxın zamanlarda Naxçıvanda qazlaşdırmanın səviyyəsi təxminən 100 faizə çatacaqdır. Onu qeyd etmək istəyirəm ki, ən inkişaf etmiş və qazla zəngin olan və qazı böyük həcmdə ixrac edən ölkələrdə bu səviyyə haradasa, 60 faiz civarındadır. Azərbaycanda, bütövlükdə, qazlaşdırma 80 faiz səviyyəsinə qalxıbdır və bu proses davam etdirilir. Məqsəd ondan ibarətdir ki, Azərbaycan əhalisi təbii qazla maksimum dərəcədə təmin olunsun.

Naxçıvanın enerji təhlükəsizliyi məsələləri xüsusi əhəmiyyət kəsb edir. Çünki buraya birbaşa Azərbaycandan qazın verilməsi hələ ki, mümkün deyildir. Bildiyiniz kimi, İran İslam Respublikası ilə əldə edilmiş razılaşmaya görə, biz mübadilə yolu ilə qaz təminatını təmin etdik, bunun müqabilində Astaradan, Azərbaycandan İrana təbii qaz verilir. Naxçıvanın gələcək iqtisadi inkişafı üçün bu, çox böyük əhəmiyyət kəsb edən məsələdir. Çünki elektrik enerjisi, qaz təchizatı hər bir ölkənin inkişafını şərtləndirir. Hamımız yaxşı xatırlayırıq, - xüsusilə naxçıvanlılar, - keçən qış çox sərt keçmişdir və belə olan halda, müəyyən müddətdə İrandan təbii qazın verilməsi dayandırılmışdı və insanlar burada əziyyət çəkirdilər. Ona görə gələcəkdə bu halların qarşısının alınması üçün mən qərar qəbul etdim ki, Naxçıvanda ayrıca qaz anbarları tikilsin. Dövlət Neft Şirkətinə göstəriş verilibdir, işlər gedir. Qışda əgər təchizatda hanısısa problem yaranarsa, yaz-yay aylarında anbarlara vurulan qazdan istifadə etmək mümkün olacaqdır. Bu, böyük bir işdir, yəni həm maliyyə baxımından, həm də bunun texniki çətinlikləri kifayət qədər çoxdur. Amma biz bunu edirik hava şəraitindən, yaxud da idxaldan asılı olmayaraq, Naxçıvana qaz fasiləsiz verilsin. Bütün bunlar həm insanların normal yaşaması üçün, həm də muxtar respublikanın inkişafı üçün lazımdır.

Muxtar respublikada iqtisadi inkişaf sürəti çox yüksəkdir. Burada yaradılan yeni müəssisələr, yeni obyektlər, əlbəttə ki, əlavə enerji mənbəyini tələb edir və biz də bunu təmin edirik. Gələcəkdə Naxçıvanın və muxtar respublikanın bütün rayonlarının inkişafı üçün lazımi tədbirlər görüləcəkdir.

Ordu quruculuğu prosesi burada çox sürətlə gedir. Bu məsələyə də çox böyük əhəmiyyət verilir. Bilirsiniz ki, bütövlükdə, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət göstərilir. Bu gün Azərbaycanda hərbi sahəyə ayrılan xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Biz bunu edirik, çünki müharibə şəraitində yaşayırıq və hər an torpaqlarımızı hərbi yolla azad etməyə hazır olmalıyıq. Bu baxımdan bu sahədə görülən işlər, əlbəttə ki, bizi qane edir, gələcəkdə isə daha da böyük işlər görülməlidir. Ancaq Naxçıvanın təhlükəsizliyi, müdafiə potensialının möhkəmlənməsi xüsusi əhəmiyyət kəsb edir, çünki siz burada düşmənlə üz-üzəsiniz. Son illər ərzində Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmləndirilib, Naxçıvan özünü müdafiə etməyə qadirdir. Gələcəkdə Naxçıvanın hərbi potensialının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Bu isə, əlbəttə ki, müdafiə potensialını daha da böyük dərəcədə təmin edəcəkdir.

Bir sözlə, əziz dostlar, muxtar respublikanın inkişafı üçün həm yerli rəhbərlik, həm mərkəzi hökumət nə lazımdırsa edir və bundan sonra da edəcəkdir. Bu siyasət bizə ulu öndər Heydər Əliyevdən qalıbdır. Onun fəaliyyəti, siyasəti nəticəsində bütün ölkə inkişaf edib, o cümlədən bütün dövrlərdə. O, həmişə deyirdi ki, Naxçıvana daim xüsusi diqqət göstərilməlidir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır, strateji əhəmiyyətə malikdir və mən çox şadam ki, burada işlər yaxşı gedir.

Bütövlükdə, ölkəmizdə bütün sahələrdə inkişaf göz qabağındadır. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının icrası başa çatır, indi yeni proqram üzərində işləyirik. Əminəm ki, növbəti beş ildə hər bir kəndin, hər bir qəsəbənin problemi həll ediləcəkdir. Hər halda, Dövlət proqramında bu məsələlər qeyd olunacaqdır. Azərbaycanda iqtisadi inkişaf, əlbəttə ki, bundan sonra da uzun illər davam edəcəkdir. Biz iqtisadi artım baxımından üç ildir ki, dünyada ən sürətlə inkişaf edən ölkəyik. Bu sürəti saxlamalıyıq, iqtisadiyyatımızı şaxələndirməliyik ki, Azərbaycanda bütün iqtisadi sektorlar inkişaf etsin.

Bu gün səhər Bakıda 15-ci ənənəvi Xəzər neft, qaz sərgi və konfransının açılışı oldu. Konfransda bu vaxta qədər enerji sahəsində, neft-qaz sahəsində görülən işlər təhlil edildi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla davam etdirilən Azərbaycanın yeni neft strategiyasının nəticələri qeyd olundu. Bütün bu inkişafın - bu gün artan büdcənin, artan iqtisadiyyatın, sosial məsələlərin həllinin təməlində o illərdə ulu öndərin rəhbərliyi ilə neft strategiyasının başlanması dayanır. O vaxt, 1990-cı illərin ortalarında, çox gərgin geosiyasi vəziyyətdə Azərbaycana bütün tərəflərdən təzyiqlər edilirdi. Amma ulu öndər cəsarətli, uzaqgörən addımları atdı, öz prinsipiallığını, uzaqgörənliyini, müdrikliyini bir daha nümayiş etdirərək, neft strategiyasının başlanmasına nail ola bildi və bu gün biz onu uğurla icra edirik. Demək olar ki, qarşıda duran bütün vəzifələr icra olunubdur. Bu bizə imkan verir ki, sosial məsələlərin həllinə daha da böyük diqqət göstərək, belə gözəl xəstəxanalar tikək, iqtisadi inkişaf sürətlə getsin. Bütün bunlar maliyyə imkanlarına söykənir. İndi isə Azərbaycanın maliyyə imkanları çox genişdir. Biz son 4-5 il ərzində dövlət xərclərimizi 10 dəfədən çox artırmışıq. Bu gün icmal büdcə təxminən 16 milyard dollar səviyyəsindədir. Bu, çox böyük rəqəmdir və bizə imkan verir ki, quruculuq işləri, infrastruktur layihələri, sosial məsələlərin həlli ilə daha da ciddi məşğul olaq. Bundan sonra Azərbaycanın imkanları daha da genişlənəcəkdir. Bizim iqtisadi islahatlarımız, siyasi islahatlarımız, dünya birliyinə inteqrasiya siyasətimiz və dünya birliyinə öz töhfələrimiz, xüsusilə enerji təhlükəsizliyi baxımından edilən töhfələr Azərbaycanın

beynəlxalq nüfuzunu qaldırır, beynəlxalq mövqelərini möhkəmləndirir. Biz güclü ölkə qururuq, biz müstəqil ölkə qururuq, biz ulu öndər Heydər Əliyevin yolu ilə gedirik.

Keçən ay ulu öndərin 85-ci ildönümü, yubileyi Azərbaycanda geniş qeyd olunmuşdur. Bütün Azərbaycan xalqı o illəri təhlil edərkən bir daha gördü ki, Azərbaycanın inkişafında, müstəqilliyinin möhkəmlənməsində, qorunub saxlanmasında, bugünkü vəziyyətə gətirilib çıxarılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Əgər o, 1993-cü ildə Naxçıvandan Bakıya qayıtmasaydı, Azərbaycan öz dövlət müstəqilliyini itirə bilərdi. Düzdür, biz hamımız yaxşı xatırlayırıq ki, Naxçıvan üçün ən çətin anlarda Heydər Əliyev burada naxçıvanlılarla bərabər ağır, çətin şəraitdə muxtar respublikanı böhrandan çıxara bilmişdir, erməni qəsbkarlarına tutarlı cavab verilmişdir, Naxçıvanın ərazi bütövlüyü müdafiə olunmuşdur. Baxmayaraq ki, Naxçıvan hər tərəfdən mühasirə şəraitində yaşayırdı və o vaxtkı mərkəzi hökumət çalışırdı ki, Naxçıvanda vəziyyət gərginləşsin, pisləşsin. Çünki onlar istəmirdilər ki, Heydər Əliyev kimi güclü şəxsiyyət Azərbaycanın siyasi səhnəsində fəaliyyət göstərsin. Onlar razı idilər ki, ermənilər gəlib Naxçıvanı işğal etsinlər, nəinki, Heydər Əliyev burada fəaliyyət göstərsin. Amma naxçıvanlılar həmişə olduğu kimi, öz mərdliyini göstərdilər. Həm ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də o vaxt Azərbaycan rəhbərliyi tərəfindən burada dövlət çevrilişi etmək istəyən qüvvələrin cavabını verdilər. Heydər Əliyevin ətrafında sıx birləşərək, onun rəhbərliyi altında Naxçıvanı böyük bəlalardan qurtara bildilər. Biz hamımız xatırlayırıq ki, 1993-cü ildə naxçıvanlılar Heydər Əliyevi buradan Bakıya buraxmaq istəmirdilər və mən bilirəm ki, o da Naxçıvandan böyük narahatlıqla ayrılmışdı. Ancaq o da lazım idi. O vaxt Bakıya gəlməsəydi, bu gün Azərbaycanın müstəqilliyindən söhbət gedə bilməzdi. Ümumiyyətlə, Azərbaycanın gələcəyini təsəvvür etmək mümkün deyildi. Bir adam, ulu öndər hansı ki, nə ordusu var idi, nə dəstəsi var idi, müdrikliyi, təcrübəsi və Azərbaycan xalqının ona olan hədsiz inamı sayəsində ölkəmizi o bəlalardan qurtardı və bu gün Azərbaycan dünya miqyasında önəmli ölkəyə çevrilibdir. Biz dünyada böyük hörmətə malikik, bölgədə liderlik mövqelərimizi möhkəmləndirmişik. Artıq heç kimin buna şübhəsi yoxdur. Biz bölgənin lideriyik, liderliyi möhkəmləndiririk, gücləndiririk və gələcəyə nikbinliklə baxırıq.

Mən bu gözəl gündə, əziz dostlar, bu gözəl xəstəxananın açılışı münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Gələcəkdə belə xəstəxanaların sayı çox olacaq, qarşıda duran bütün vəzifələr uğurla icra olunacaqdır. Sizə cansağlığı və bütün naxçıvanlılara yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

AZƏRTAC
2008, 4 iyun

Ordubad

2006, 21 dekabr

- Ordubad internat-məktəb kompleksinin açılışı: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi
- Akademik Yusif Məmmədəliyevin ev muzeyi ilə tanışlıq
- Ordubad internat-məktəb kompleksinin açılışı

Ordubad internat-məktəb kompleksinin açılışı

(21 dekabr 2006-cı il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Ordubad şəhərində internat-məktəb kompleksinin açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev mərasimə toplaşanlar qarşısında nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Əziz bacılar və qardaşlar!

Sizin hamınızı ürəkdən salamlayıram, bu gözəl internat

məktəbinin açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl məktəbdir. Həm oxumaq üçün, həm də yaşamaq, istirahət etmək, idmanla məşğul olmaq üçün hər cür şərait var. Ona görə əminəm ki, uşaqlar burada çox yaxşı oxuyacaqlar, bilikli olacaqlar və böyüyəndə doğma vətənimizin hərtərəfli inkişafına öz dəstəyini verəcəklər.

Bu məktəbin ikinci mərtəbəsində şərəf lövhəsində ulu öndər Heydər Əliyevin qiymət cədvəli nümayiş etdirilir. Bu, uşaqlar üçün, yaxşı oxumaq üçün ən gözəl örnəkdir. Çünki ulu öndərin bütün fənlərdən qiymətləri "əla"dır. Bütün uşaqlar bunu örnək kimi götürməli və öz milli liderinə oxşamalı, buna çalışmalıdırlar. Biz hamımız bunu etməliyik və edirik. Bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir. Azərbaycan müstəqil ölkə kimi möhkəmlənir, güclənir, öz siyasi və iqtisadi potensialını artırır. Biz bunu Naxçıvanın timsalında, Ordubadın timsalında görə bilərik. Hər yerdə inkişaf var. Yeni binalar tikilir, yeni gözəl məktəblər, sənaye müəssisələri tikilir, yollar çəkilir, abadlıq işləri gedir. Abadlıq işləri, demək olar ki, bütün Azərbaycanda çox geniş vüsət alıbdır. İqtisadi potensial möhkəmlənir, büdcə xərcləri artır, yeni iş yerləri açılır. Əlbəttə ki, insanların həyat səviyyəsi də yaxşılaşır və bundan sonra daha da sürətlə yaxşılaşacaqdır. Maaşlar, pensiyalar, sosial müavinətlər mütəmadi qaydada artırılır. Eyni zamanda, iqtisadi potensialın möhkəmlənməsi üçün geniş iqtisadi islahatlar aparılır. Əgər bu islahatlar aparılmasa, Azərbaycanda geniş quruculuq, abadlıq işləri görmək də mümkün olmayacaqdır. Çünki biz bunu öz daxili imkanlarımız hesabına edirik. Ulu öndər Heydər Əliyevin başladığı və uğurla davam etdirilən inkişaf, iqtisadi siyasət nəticəsində bu imkanları əldə edirik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi nəticəsində bunu edirik. Budur bizim əsas güc mənbəyimiz, iqtisadiyyata təkan verən əsas amillər.

Bununla bərabər, gözəl ictimai-siyasi mühit, gözəl ab-hava, Azərbaycanda sabitliyin möhkəmlənməsi, qorunub saxlanması, əmin-amanlıq, sülh – bunlar da çox qiymətlidir. Azərbaycan müstəqil ölkə kimi 15 ildir ki, yaşayır. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır, çox çətin keçirdi. Azərbaycan böyük çətinliklərlə, təhlükələrlə üzləşmişdi. Eyni zamanda, Naxçıvanda da vəziyyət çox ağır idi və faktik olaraq, blokada şəraitində yaşayan Naxçıvanın gələcəyi də şübhə altında idi. Erməni işğalçıları Naxçıvana hücum etməyə cəhd edirdilər. Amma naxçıvanlılar öz liderinin rəhbərliyi ilə bütün bu cəhdlərə imkan vermədi, ermənilər yerinə oturtdu və Naxçıvanı qoruya bildilər.

Bu, böyük tarixi nailiyyətdir. 1990-93-cü illərdə çətin, ağır şəraitdə Heydər Əliyev naxçıvanlılarla birlikdə burada yaşamışdır, muxtar respublikaya rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə, səyləri nəticəsində "Ümid körpüsü" tikilmiş və demək olar ki, Naxçıvan blokadadan çıxmışdı. Ondan sonrakı illərdə, Azərbaycana rəhbərlik etdiyi dövrdə bütün səylərini ona sərf etmişdir ki, Azərbaycan xaosdan, böhrandan çıxsın, sabitliyə, inkişafa qədəm qoysun.

Bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bizim iqtisadi göstəricilərimiz dünyanın heç bir ölkəsində yoxdur. İqtisadiyyatımız bu il 34 faiz artıbdır və bu, dünyada ən birinci göstəricidir. Biz çalışırıq və çalışmalıyıq ki, bu gözəl iqtisadi göstəriciləri insanların gündəlik həyatında əks etdirək. Hər bir vətəndaş daha da yaxşı yaşasın, işlə təmin olunsun, daha gözəl şəraitdə işləsin, uşaqlar yaxşı məktəbdə oxusunlar, insanlar xəstəxanada yaxşı tibbi xidmət alsınlar. Onu da deməliyəm ki, dünən Naxçıvanda, demək olar ki, ən yüksək dünya standartlarına cavab verən böyük diaqnostika-müalicə mərkəzi açılmışdır. Bunun bölgədə, Cənubi Qafqazda və bəlkə başqa qonşu ölkələrdə də analoqu yoxdur. Ən yüksək səviyyəyə uyğundur. Budur bizim siyasətimiz, budur Heydər Əliyevin qoyub getdiyi siyasət. Bu siyasət yaşayır. Heydər Əliyev bizim ürəyimizdə, qəlbimizdə, işlərimizdə yaşayır. Onun başladığı və bizim tərəfimizdən

davam etdirilən işlərdə, layihələrdə yaşayır. Bu layihələr bütün bölgəyə dəyişiklik gətirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə iqtisadi və yaxud da ki, enerji layihəsi deyildir. Bu, böyük transmilli, iqtisadi və siyasi layihədir ki, bundan sonra uzun müddət, onilliklər ərzində Azərbaycanın sürətli və uğurlu iqtisadi inkişafını təmin edəcəkdir. Enerji təhlükəsizliyini təmin edəcək, müstəqilliyimizi möhkəmləndirəcəkdir.

Müstəqilliyi bərpa etmək Azərbaycan xalqının böyük nailiyyətidir. Müstəqillik bizim üçün ən böyük sərvət, ən böyük dəyərdir. Ancaq müstəqilliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək, əbədi, dönməz etmək daha çətin işdir. Azərbaycanın müstəqilliyi o deməkdir ki, biz müstəqil siyasət aparırıq. Biz Azərbaycan xalqının milli maraqlarını müdafiə edirik. Bu maraqları hər şeydən üstün tuturuq və istər xarici siyasət, istərsə də daxili siyasət, iqtisadi, sosial siyasət olsun, biz, bütün sahələrdə siyasətimizi özümüz müəyyən edirik. Bunu etmək üçün, müstəqil ölkə kimi yaşamaq və müstəqilliyin bəhrəsini görmək üçün mütləq iqtisadi güc lazımdır. Bu iqtisadi gücü biz yaradırıq və bu məktəbin timsalında da bunu görürük. Əgər iqtisadi imkanımız olmasaydı, bu məktəb nəyin hesabına tikilərdi? Yaxud da ki, xəstəxanalar, yollar, müəssisələr? Ancaq və ancaq iqtisadi potensialın möhkəmlənməsi nəticəsində! Onun da təməli 1994-cü ildə qoyulmuşdur. "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulmuşdur və indi Azərbaycan xalqı onun bəhrəsini görür və bundan sonra da görəcəkdir.

Naxçıvanın büdcəsi, - mən dünən bunu qeyd etdim, - son dörd ildə beş dəfə artıbdır. Yəni beş dəfə çox işlər görmək, beş dəfə çox məsələlər həll etmək olar. Azərbaycanın büdcəsi dörd dəfə artmışdır və bu, arta-arta gedəcəkdir. Növbəti illərdə daha da böyük həcmdə vəsait əldə olunacaqdır. Bizim iqtisadi islahatlarımız uğurlar gətirir, insanlarımızın həyat səviyyəsi yaxşılaşır və yaxşılaşmalıdır. İndiki səviyyə bizi qane edə bilməz. Amma müsbət meyil var. İldən-ilə minimum əmək haqqının, pensiyaların artırılması, yoxsulluq içərisində yaşayanların sayının kəskin şəkildə azalması, yeni iş yerlərinin açılması və bununla bərabər, uğurlu neft strategiyamız – budur Azərbaycanın gələcəyini şərtləndirən amillər.

Biz ölkəmizdə böyük işlər görürük və görəcəyik. Azərbaycanın beynəlxalq mövqelərini də möhkəmləndiririk. Daxili ictimai-siyasi vəziyyət də çox müsbətdir, çox sabitdir. Belə olan halda, Azərbaycanın gələcəyi çox parlaqdır.

Naxçıvanın uğurlu inkişafı məni xüsusilə sevindirir. Muxtar respublikanın rayonlarının abadlaşması, yeni-yeni binaların tikilməsi, iş yerlərinin açılması Naxçıvanı möhkəmləndirir. Naxçıvanın yaşaması üçün bütün infrastruktur layihələri həyata keçirilir. Uzun fasilədən sonra qazın verilməsi təmin olunubdur. İndi mən Vasif Talıbovdan soruşdum, deyir ki, Ordubada da təbii qazın verilməsinə başlanmışdır. Növbəti mərhələdə təbii qazın artırılması nəzərdə tutulur. Dünən elektrik stansiyası istismara verilmişdir və artıq Naxçıvan enerji baxımından özünü təmin edəcəkdir. Yeni elektrik stansiyalarının, su elektrik stansiyalarının tikintisi nəzərdə tutulubdur. O cümlədən Ordubadda nəzərdə tutulur ki, burada enerji problemi tamamilə aradan qaldırılsın. Bütün bunlar imkan verir ki, iqtisadi inkişaf sürətlə davam etsin və insanlar daha da yaxşı yaşasınlar.

Mən çox şadam ki, Naxçıvanda və muxtar respublikanın bütün rayonlarında uğurlu inkişaf gedir. Mən hər il Naxçıvana gəlirəm, vəziyyətlə maraqlanıram və öz gözümlə görürəm ki, ildən-ilə vəziyyət yaxşılaşır. Allah eləsin ki, bundan sonra da yaxşılaşsın. Azərbaycanın Prezidenti kimi mən də əlimdən gələni edəcəyəm ki, Naxçıvanın iqtisadi inkişafına daha da böyük kömək göstərilsin.

Əlbəttə ki, yerlərdə çalışan insanlardan da çox şey asılıdır. Mən çox məmnunam ki, Naxçıvan MR-in rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmlənməsinə öz töhfəsini verir. Bütün naxçıvanlılara, bütün ordubadlılara, muxtar respublikanın bütün sakinlərinə öz məhəbbətimi, hörmətimi ifadə edirəm. Arzu edirəm ki, xoşbəxt yaşayasınız və Naxçıvan çiçəklənsin, Azərbaycan çiçəklənsin.

Sağ olun, sizə cansağlığı, uğurlar arzulayıram.

AZƏRTAC
2006, 21 dekabr

Akademik Yusif Məmmədəliyevin ev muzeyi ilə tanışlıq
(21 dekabr 2006-cı il)

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev akademik Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev muzeyi ilə tanış olmuşdur.

Dövlətimizin başçısı görkəmli alimin evin yaxınlığındakı heykəlinin önünə gül dəstəsi qoydu.

Azərbaycan Prezidentinə məlumat verildi ki, bu muzey 1975-ci ildə, ulu öndər Heydər Əliyevin təşəbbüsi ilə yaradılmışdır. İlk vaxtlar burada 407 eksponat olmuşdur. İkimərtəbəli binanın ümumi sahəsi 190 kvadratmetrdir, ekspozisiya 135 kvadratmetr sahədə yerləşir. Burada 10 nəfər işçi çalışır. Hazırda muzeyin dörd otağında Azərbaycan elminin görkəmli nümayəndələrindən biri, dünya şöhrətli kimyaçı alim Yusif Məmmədəliyevin həyat və fəaliyyətini əks etdirən 2000-dən çox eksponat toplanmışdır. Onlardan 350-ni Mədəniyyət və Turizm Nazirliyi bu günlərdə muzeyə hədiyyə etmişdir.

Prezident İlham Əliyev muzeylə böyük maraqla tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

AZƏRTAC
2006, 21 dekabr

Ordubad internat-məktəb kompleksinin açılışı

(21 dekabr 2006-cı il)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Ordubad şəhərində internat-məktəb kompleksinin açılışında iştirak etmişdir.

Mərasimə toplaşmış rayon sakinləri, o cümlədən məktəblilər, müəllimlər dövlətimizin başçısını böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.

Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

1964-cü ildən fəaliyyət göstərən bu internat-məktəbin binası yararsız vəziyyətə düşdüyünə görə, bu il əsaslı şəkildə yenidən qurulmuşdur. 430 şagird yerlik kompleksə yataqxana korpusu, 204 yerlik yeməkxana, idman salonu və meydançası, dərzilik, çəkməçilik, xalçaçılıq sənətlərini öyrənmək üçün peşəyönümlü kabinələr, laboratoriyalar və yardımçı tikililər daxildir. Şagirdlərin təlim-tərbiyəsi ilə 80-nə yaxın müəllim və tərbiyəçi məşğul olur. 2006-cı ildə internat-məktəbi bitirən 10 məzundan 6 nəfəri yüksək balla ölkəmizin müxtəlif ali təhsil ocaqlarına daxil olmuşdur.

Prezident İlham Əliyev sinif otaqlarına, müxtəlif fənn laboratoriyalarına, kompyuter otağına, idman salonuna, yeməkxana və yataqxanaya baxdı. Dövlətimizin başçısı məktəbin Şərəf lövhəsində ulu öndər Heydər Əliyevin orta məktəbdə oxuduğu zaman ona verilən qiymət cədvəlinin vurulmasını müsbət hal kimi dəyərləndirdi və bunun digər məktəblərdə də olmasını tövsiyə etdi. Bildirdi ki, bu, şagirdlərin yaxşı oxumaları üçün nümunə olacaqdır.

Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev mərasimə toplaşanlar qarşısında nitq söylədi.

Mərasimdə çıxış edən məktəbin müəllimi Nuridə Məmmədli dövlətimizin başçısına müraciətlə dedi:

-Möhtərəm cənab Prezident,

Məktəbimizin açılışında iştirakınızla bizə böyük sevinc bəxş etdiyinizə görə kollektivimiz adından, Ordubad ziyalıları adından Sizə öz dərin minnətdarlığımızı və ehtiramımızı bildirir, Azərbaycanın bu dilbər guşəsinə "Xoş gəlmisiniz!" deyirik.

O vurğuladı ki, memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycanımız onun gərgin səyləri sayəsində müasirləşmə və inkişaf yoluna qədəm qoymuşdur. Ulu öndərimizin XXI əsr Azərbaycanının inkişaf strategiyasına çevrilmiş müdrik siyasəti bu gün Sizin tərəfinizdən böyük əzmkarlıqla davam etdirilir. Bu siyasətin təntənəsini Azərbaycanın bütün guşələrində, o cümlədən muxtar respublikamızda görürük. İndi muxtar respublikanın elə bir yaşayış məntəqəsi yoxdur ki, orada Sizin yadigarlarınız olmasın. Torpaqlarımızın qorunması üçün ordumuza göstərdiyiniz diqqəti isə sərhəd bölgələrinin sakinləri kimi biz daha dərindən hiss edirik.

N.Məmmədli daha sonra dedi ki, ulu öndərimiz Heydər Əliyevin təhsilə göstərdiyi qayğı və diqqətin davamı olaraq, son illərdə Ordubad rayonunda 15 müasir məktəb binası tikilmişdir. Bu il ucqar dağ kəndi olan Biləvdə Heydər Əliyev Fondu tərəfindən müasir tipli məktəb binası inşa olunmuşdur. Rayon mərkəzindən 65 kilometr məsafədə yerləşən Bist kəndində yeni məktəb binası istifadəyə verilmişdir.

X X X

Mərasimin sonunda Prezident İlham Əliyev müəllim və şagirdlərə hədiyyə, məktəb forması, çanta təqdim etdi.

AZƏRTAC
2006, 21 dekabr

Şahbuz

2005, 19 dekabr

- Şahbuz rayonunun Ayrinc kəndində orta məktəb binasinin açılışı: Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

2008, 3 iyun

- Şahbuz rayonunda hərbçilər üçün yaşayış binası istifadəyə verilmişdir

Şahbuz rayonunun Ayrinc kəndində orta məktəb binasinin açılışı
(19 dekabr 2005-ci il)

Dekabrın 19-da Şahbuz rayonunun Ayrınc kəndində 144 yerlik orta məktəb binasının açılışı olmuşdur.

Bu münasibətlə keçirilən təntənəli mərasimin iştirakçıları Prezident İlham Əliyevi böyük hörmətlə qarşıladılar.

Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə məlumat verildi ki, Ayrınc kənd məktəbinin məzunları arasında görkəmli insanlar var və onlar Azərbaycan elmi üçün böyük xidmətlər göstərmişlər. Məktəbin bir il ərzində tikilib istifadəyə verilmiş yeni binasında 11 sinif otağı, idman salonu, kitabxana, kompüter otağı, tibb otağı var.

Prezident İlham Əliyev sinif otaqlarını gəzdi, şagirdlərlə görüşüb söhbət etdi, onların təhsilləri ilə maraqlandı. Onların yaxşı oxumalarını arzuladı və bunun üçün hər cür şəraitin yaradılacağını bildirdi.

Müəllimlər Prezidentə təşəkkür edərək, ucqar kəndlərdə belə təhsil ocaqlarının tikilməsini gələcək nəsillərə göstərilən qayğı kimi qiymətləndirdilər.

Prezident İlham Əliyev məktəbin açılışına toplaşan kənd sakinləri ilə görüşdü, onların qarşısında çıxış etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin
çıxışı

- Əziz kənd sakinləri!

Hörmətli dostlar!

Sizi bu gün bu orta məktəbin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu cür orta məktəblərin açılması gələcək üçün, Azərbaycan üçün, uşaqların təhsili üçün faydalıdır və bu, onların dəyərli insanlara çevrilməsi üçün vacibdir. İstəyirik ki, burada gənclər yaxşı təhsil alsınlar və gələcək üçün, Azərbaycan üçün, bizim cəmiyyətimiz üçün dəyərli insanlara çevrilsinlər. Bilik hər şeyi həll edir, savad hər şeyi həll edir. Bu gün oxumaq üçün, yaşamaq üçün bu cür gözəl şəraitiniz var. Ölkəmizdə əmin-amanlıqdır, sülhdür, inkişaf var. İndi Azərbaycanın ən ucqar kəndlərində bu cür gözəl məktəblər, xəstəxanalar, digər binalar tikilir. Bu onu göstərir ki, ölkəmizdə inkişaf var, tərəqqi var. İnsanların həyat səviyyəsi daha da yaxşı olmalıdır, daha da böyük işlər görülməlidir: iqtisadi inkişaf, sosial-iqtisadi inkişaf proqramları, kənd təsərrüfatının inkişafı. Siz yaxşı bilirsiniz ki, kənd yerində əsas məsələ kənd təsərrüfatının inkişafıdır. İndi bu istiqamətdə də vacib qərarlar qəbul edilibdir. Yeni texnika var, gübrələr gətiriləcək, insanlar gərək daha da yaxşı yaşasınlar. Mənim məqsədim budur və hər dəfə belə bir gözəl, yeni məktəbi, xəstəxananı, binanı görəndə ürəyim sevinir. Bu o deməkdir ki, Azərbaycan inkişaf edir, yaşayır, bizim müstəqil dövlətimiz möhkəmlənir.

Bu şəraiti bizə xalqımızın lideri Heydər Əliyev yaratdı. Onun əməyi nəticəsində, onun gördüyü işlər nəticəsində bu gün Azərbaycan, sözün əsil mənasında, müstəqil ölkədir. Yenə də deyirəm, iqtisadi inkişaf var, sabitlik var, əmin-amanlıq var, asayiş qorunur, saxlanılır. Cəmiyyətdə vətəndaş birliyi, həmrəyliyi var. Bundan başqa nə olmalıdır? Bu, hər bir inkişafı təmin edən amillərdir. İndi bizdən asılıdır ki, hərə öz yerimizdə daha da yaxşı işləyək, ümumi işimizə töhfəmizi verək. Hər halda, Azərbaycanın son illərdəki inkişafı deməyə əsas verir ki, biz düzgün istiqamətdə irəliləyirik, ulu öndər Heydər Əliyevin qoyduğu yolla gedirik və bundan sonra da heç kim, heç bir qüvvə, heç bir hadisə bizi bu yoldan döndərə bilməyəcək.

Çox şadam ki, bu gün sizinlə görüşə gəlmişəm. Ümid edirəm ki, bundan sonra da sizin vətəninizdə Azərbaycanda, Naxçıvanda, Azərbaycanın hər bir yerində inkişaf daha da sürətlə gedəcəkdir. Belə gözəl məktəblər tikiləcək, insanları narahat edən başqa məsələlər öz həllini tapacaq, əmək haqları qaldırılacaqdır. Bir sözlə, biz möhkəm, qüdrətli Azərbaycanımızı gərək hərtərəfli inkişaf etdirək. Bu işdə sizə uğurlar arzulayıram, cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun. Uşaqlar yaxşı oxusunlar və heç bir problem olmasın. Hər halda, mən buna çalışıram ki, Azərbaycanda hər bir insan yaxşı yaşasın.

AZƏRTAC
2005, 19 dekabr

Şahbuz rayonunda hərbçilər üçün yaşayış binası istifadəyə verilmişdir
(3 iyun2008-ci il)

Xəbər verdiyimiz kimi, iyunun 3-də Şahbuz rayonunda hərbçilər üçün tikilmiş bina istifadəyə verilmişdir.

Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir.

Bina ilə tanış olan dövlətimizin başçısı, Ali baş komandan İLHAM ƏLİYEV yaradılmış şəraiti yüksək qiymətləndirdi, mənzillərin orderlərini hərbçilərə təqdim etdi və onlara xoş arzularını çatdıraraq dedi:

-Sizi ürəkdən təbrik edirəm. Siz Vətənə xidmət göstərirsiniz. Orduda xidmət etmək çox böyük şərəfdir, böyük məsuliyyətdir. Azərbaycan ordusu günü-gündən güclənir, möhkəmlənir və bu gün qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Bildiyiniz kimi, ordu quruculuğu bizim üçün prioritet məsələdir. Azərbaycanın siyasətində bu sahəyə diqqət həmişə yüksək olubdur. Bu gün də belədir və bildiyiniz kimi, büdcə xərclərində orduya ayrılan xərclər birinci yerdədir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyibdir. Müharibənin birinci mərhələsi bitibdir və biz güclü olmalıyıq. Güclü ordumuz bizim qarşımızda duran bütün vəzifələri həll etməyimizə imkan verəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediləcəkdir. Buna heç kimin şübhəsi olmasın. Biz nə qədər güclü olsaq, o günü bir o qədər yaxınlaşdıracağıq. Mən inanıram və əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edəcək, bütün soydaşlarımız – qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar. Bunu etmək üçün biz, əlbəttə ki, siyasi addımlar atırıq, öz diplomatiyamızı gücləndiririk və beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi böyük üstünlük təşkil edir. Son müddətdə BMT Baş Məclisində işğal olunmuş torpaqlarda yaranmış vəziyyətlə bağlı qətnamənin qəbul edilməsi Azərbaycanın gücünü göstərir. Dünya birliyi bizim haqlı olduğumuzu bir daha təsdiq edir. Ancaq diplomatik və siyasi addımlarla yanaşı, biz torpaqlarımızı hərbi yolla azad etməyə hər an hazır olmalıyıq və bunu etmək üçün bütün imkanlar var. Bir daha demək istəyirəm ki, bizim ordumuz bölgədə ən güclü ordudur. Orduda xidmət edən insanların peşəkarlıq səviyyəsi də günü-gündən artır.

Əlbəttə ki, orduda xidmət edən zabitlərin məişət şəraiti də yaxşı olmalıdır. Bu məqsədlə böyük işlər görülür. Həm zabitlərin sosial məsələləri həll edilir, həm də vaxtaşırı maaşlar artırılır. Bu gün bu gözəl binanın açılışı rəmzi xarakter daşıyır. Bu, Azərbaycan dövlətinin öz ordusuna olan münasibətinin əlamətidir. Burada yaxşı yaşamaq üçün, uşaqları tərbiyə etmək, istirahət etmək üçün bütün, gözəl şərait var. Mən əminəm ki, siz bu gözəl binada yaxşı yaşayacaqsınız, daha da yaxşı xidmət edəcəksiniz. Çünki mənə verilən məlumata görə, əvvəllər zabitlər kirayədə yaşayırdılar və hətta bəziləri hər gün Naxçıvandan buraya gəlirdilər. Bu, xərc idi və əlavə əziyyət idi. Burada isə bütün şərait var. Ona görə sizdən yalnız və yalnız bir şey tələb olunur - Vətənə sədaqətlə xidmət etmək.

Naxçıvan Azərbaycanın qədim torpağıdır, onun Azərbaycan tarixində və müasir həyatında xüsusi yeri vardır. Siz burada düşmənlə üz-üzəsiniz. Sizin üzərinizə çox böyük və şərəfli missiya, məsuliyyət düşür. Mən çox şadam ki, siz bütün işlərin öhdəsindən şərəflə gəlirsiniz.

Mən sizi bu gözəl binanın, istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

Hərbçi ailələri adından təşəkkürünü bildirən SAMİRƏ ORUCOVA dedi: - Cənab Ali baş komandan, biz zabit və gizir ailələrinə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bundan sonra da çalışacağıq ki, Sizin bizə göstərdiyiniz bu etimadın, dövlətimizin bizə göstərdiyi bu qayğının müqabilində Vətən qarşısında borcumuzu layiqincə, daha yüksək səviyyədə xidmətimizlə doğruldaq. Çox sağ olun.

AZƏRTAC
2008, 3 iyun

Şərur

2007, 17 oktyabr

- Şərur rayon mərkəzi xəstəxanasının təntənəli açılış mərasimi: Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Şərur rayon mərkəzi xəstəxanasının təntənəli açılış mərasimi

(17 oktyabr 2007-ci il)

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 17-də Şərur rayonunda mərkəzi xəstəxananın təntənəli açılış mərasimində iştirak etmişdir.

Mərasimə toplaşan səhiyyə işçiləri, rayon sakinləri Prezident İlham Əliyevi böyük ehtiramla, hərarətli alqışlarla qarşıladılar.

Dövlətimizin başçısı İlham Əliyev xəstəxananın açılışını bildirən lenti kəsdi və bu səhiyyə obyekti ilə tanış oldu.

Ümumi sahəsi 10 min kvadratmetr olan yeni səhiyyə ocağı 1972-ci ildə tikilmiş, lakin sonralar tamamilə yararsız vəziyyətə düşmüş xəstəxanın yerində inşa olunmuşdur. Tikinti işlərində 500 nəfər çalışmışdır. Xəstəxana 81 çarpayılıqdır. Burada ümumi cərrahiyyə, reanimasiya, terapiya, stomatologiya, qanköçürmə, pediatriya, rentgen şöbələri, poliklinika, fəaliyyət göstərir. 80 nəfərlik müasir yeməkxana da vardır.

Dövlətimizin başçısı ayrı-ayrı şöbələrdə yüksək səviyyəli tibbi xidmət göstərilməsi üçün zəruri olan ən müasir xarici tibbi avadanlığa baxdı. Bildirildi ki, Şərur, Sədərək, Kəngərli rayonlarında böyrək çatışmazlığından əziyyət çəkən xəstələr də burada müalicə olunacaq, qonşu İran və Türkiyəyə, Naxçıvan şəhərinə və Bakıya getməyə ehtiyac qalmayacaqdır.

Sonra xəstəxananın açılışına həsr olunmuş mərasim keçirildi.

Mərasimi Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov açdı.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

-Möhtərəm Prezident!

Sizin Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hər səfəriniz əsl bayrama çevrilir. Ötən 4 il ərzində Naxçıvan Muxtar Respublikasına etdiyiniz səfərlər ümummilli liderimizlə başlanan ənənənin, quruculuq və yeniləşmə xəttinin müasir şəraitdə davamı kimi yadda qalmış, diyarımızın sosial-iqtisadi inkişafına əvəzsiz töhfələr bəxş etmişdir. Naxçıvana yaraşıq verən müasir memarlıq nümunələri, muxtar respublikanın rayonlarında, kənd yerlərində inşa olunan məktəblər, kənd mərkəzləri, səhiyyə, sağlamlıq və elm müəssisələri, əlil və qaçqın-köçkünlər üçün yaşayış evləri, inzibati binalar Sizin yadigarlarınızdır və uğurla davam etdirdiyiniz Heydər Əliyev quruculuq xəttinin bəhrələridir. Bu gün onların sırasına daha bir obyekt - Şərur rayon xəstəxana şəhərciyi daxil olur. Əhalinin sağlamlığına layiqli töhfə olan xəstəxana şəhərciyinin istifadəyə verilməsinə görə hörmətli Prezidentimizə dərin minnətdarlığımızı bildiririk.

Şərur rayon xəstəxana şəhərciyinin tikilib tamamlanması, müasir avadanlıqla təmin olunması ölkə rəhbərinin əhalinin sağlamlığına, insanların ömrünün uzadılmasına, sosial problemlərin həllinə həssaslıqla yanaşmasının daha bir ifadəsidir. Milli səhiyyəmizin bugünkü inkişafı ötən əsrin 70-ci illərindən yaradılmış möhkəm bazaya istinad edir. Ümummilli liderimizin apardığı məqsədyönlü siyasət nəticəsində həyatın bir çox sahələri kimi, tibb elmi və səhiyyə də sürətlə inkişaf etmiş, səhiyyə şəbəkələri genişlənmiş, tibbi kadrların hazırlanması sahəsində ciddi nailiyyətlər qazanılmışdı. Həmin dövrdə Azərbaycan səhiyyəsi canlanmış, sahənin maddi-texniki bazası güclənmiş, təkcə Bakıda yox, rayonlarda, ən ucqar kəndlərdə belə xəstəxanalar, dispanserlər və tibb məntəqələri yaradılmışdı.

Möhtərəm Heydər Əliyev səhiyyənin inkişafına daim xüsusi diqqət, qayğı göstərərək deyirdi: "Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən, cəmiyyət üçün, dövlət üçün, hər bir insan üçün çox lazımlı sahədir. Ona görə bu sahənin inkişafı üçün bu gün lazımi tədbirlər görülür, gələcəkdə də görüləcəkdir".

Ümummilli liderimizin çox böyük uzaqgörənliklə müəyyənləşdirdiyi inkişaf xətti əsas götürülərək, doğma Azərbaycanımız yenidən qurulur, inkişaf etdirilir. Sosial problemlərin həlli, o cümlədən səhiyyənin inkişafı bir nömrəli vəzifələr sırasına çıxarılmış, büdcənin böyük bir hissəsi sosial məsələlərin həllinə yönəldilmişdir. Bu siyasətin davam etdirilməsinin vacibliyindən danışan hörmətli Prezidentimiz İlham Əliyev demişdir: "Azərbaycanın iqtisadi potensialı çox sürətlə güclənəcəkdir. Bu da öz növbəsində imkan verəcəkdir ki, sosial məsələlərə daha böyük diqqət göstərilsin. Bizim məqsədimiz budur, Heydər Əliyev siyasəti budur, biz bu siyasətə sadiqik".

Ulu öndərimizin quruculuq xəttinə sadiqliyin ən mühüm göstəricilərindən biri də ölkə Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramıdır. Proqramda digər sahələrlə yanaşı, sosial problemlərin həlli də öz əksini tapmış, səhiyyə

şəbəkələrinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində konkret vəzifələr müəyyənləşdirilmişdir. Ölkə rəhbərinin qayğısı sayəsində təkcə son iki ildə Naxçıvan Muxtar Respublikasında 43 yeni səhiyyə obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur. 2006-cı ildə 18, cari ildə isə 20 səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilmişdir. Hazırda 5 səhiyyə obyektində tikinti işləri davam etdirilir. Bir qayda olaraq, yeni tikilən kənd mərkəzlərində, məktəblərdə tibb məntəqələri də istifadəyə verilir.

Muxtar respublikada tikilən səhiyyə obyeklərinin fəaliyyətindən danışarkən, hörmətli Prezidentimizin himayəsi ilə ucaldılan Müalicə-Diaqnostika Mərkəzini xüsusi qeyd etmək istəyirəm. Mərkəz öz fəaliyyətini genişləndirir, muxtar respublikanın tarixində ilk dəfə olaraq, burada açıq ürək üzərində əməliyyatlar aparılmışdır. Bu səhiyyə ocağı blokada vəziyyəti ilə bağlı ölkəmizin digər ərazilərinə gediş-gəlişin çətin olduğu bir dövrdə muxtar respublikanın özündə pulsuz və ixtisaslı müalicə almağa imkan verir.

Səhiyyənin təkcə bu gününü yox, həm də gələcəyini düşünən ölkə rəhbəri demişdir: "İnsanlar yüksək səviyyəli tibbi xidmət almalıdırlar, xəstəxanalar gözəl olmalıdır, hər yerdə avadanlıq müasir olmalıdır. Çox gözəl şərait yaradılmalıdır, peşəkar kadrlar olmalıdır". Muxtar respublikada görülən işlərdə, həyata keçirilən bütün tədbirlərdə hörmətli Prezidentimizin bu tələbləri fəaliyyətimizin mühüm meyarı kimi götürülür, işlər buna uyğunlaşdırılır.

Zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olan xəstəxana 65 çarpayılıq əsas korpusdan və ayrılıqda yerləşən 16 çarpayılıq yoluxucu xəstəliklər şöbəsindən ibarətdir. Xəstəxanada 10 şöbə, 7 kabinə və 1 bölmə fəaliyyət göstərəcəkdir. Ümumi cərrahiyyə, göz, lor və ginekoloji əməliyyatların aparılması üçün otaqlar, reanimasiya otaqları vardır. Buradakı 431 min manat dəyərində avadanlıq müalicə və profilaktika işini müasir tələblər səviyyəsində qurmağa imkan yaradır. Bu avadanlığın alınması üçün vəsaitin 206 min manatını Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən verilmişdir.

Möhtərəm Prezident, Sizi əmin edirik ki, muxtar respublikanın tibb işçiləri əhalinin sağlamlığının qorunması naminə bundan sonra da fədakarlıqla çalışacaqlar.

Diqqətinizə görə sağ olun.

X X X

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

Azərbaycan Prezidenti İlham Əliyevin
nitqi

-Əziz dostlar, əziz şərurlular!

Mən sizin hamınızı ürəkdən salamlayıram, bu gözəl xəstəxananın açılışı münasibətilə sizi təbrik edirəm.

Çox şadam ki, Şərurda belə gözəl səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Mən xəstəxana ilə indi tanış oldum, gördüm ki, sözün əsl mənasında, bütün dünyada mövcud olan yüksək standartlara cavab verən bir tibb ocağıdır. Burada insanlar yaxşı tibbi xidmət alacaq, müalicə olunacaq, müayinədən keçəcəklər. Burada ən gözəl, ən müasir tibbi avadanlıq quraşdırılıbdır. Bir sözlə, bu xəstəxana ən yüksək dünya standartlarına cavab verir. Bizim də məqsədimiz məhz bundan ibarətdir ki, Azərbaycanda yaradılan bütün müəssisələr, bütün infrastruktur obyektləri, sosial infrastruktur obyektləri ən yüksək səviyyədə olsun və biz buna nail oluruq.

Azərbaycanda son illər ərzində çox geniş quruculuq-abadlıq işləri aparılır. Yeni fabriklər, zavodlar, məktəblər, ali məktəblər, xəstəxanalar, poliklinikalar tikilir. Ölkəmizin bütün şəhər və rayonlarında bu inkişaf göz qabağındadır. Bunun əsas səbəbi ondan ibarətdir ki, 1990-cı illərin ortalarında başlanmış və bu gün uğurla davam etdirilən iqtisadi islahatlar Azərbaycana bu şəraiti yaradıbdır. Ulu öndər Heydər Əliyevin siyasi baxışları, siyasi xətti, onun tərəfindən qəbul edilmiş qərarlar, verilmiş sərəncamlar, aparılan çox köklü iqtisadi islahatlar bu gün ölkəmizin hərtərəfli inkişafı üçün gözəl əsas yaradır. Bu möhkəm təməl üzərində biz ölkəmizi daha da inkişaf etdirir, qarşımızda duran bütün məsələləri həll edirik. İqtisadi islahatlar davam etdirilir, regional inkişaf proqramının birinci mərhələsi başa çatır və indidən demək olar ki, nəzərdə tutulmuş əksər məsələlər artıq həll edilmişdir. Nəzərə alsaq ki, proqramın başa çatmasına hələ bir il vaxt var, deyə bilərik ki, onun bütün əsas müddəaları həyatda öz əksini tapacaqdır. Beləliklə, Azərbaycanın regionları inkişaf edəcək, ölkəmizdə qeyri-neft sektoru inkişaf edəcək, iqtisadiyyatımız

çoxşaxəli olacaq, neft-qaz amilindən asılı olmayacaq və sosial infrastruktur da yeniləşəcəkdir. Azərbaycanda son illərdə gedən bütün işləri Naxçıvanın timsalında görmək olar. Biz bunu görürük.

Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Mən hər il Naxçıvana gəlirəm, keçən ilin dekabr ayında olmuşam və bu qısa müddət ərzində burada çox böyük dəyişikliklər görürəm. Bəlkə də, siz, burada yaşayanlar bunu görmürsünüz. Amma mən 10 ay bundan əvvəl burada idim və bu gün Naxçıvanda bir neçə tədbirdə iştirak etmişəm. Naxçıvan Dövlət Universitetinin yeni korpusunun açılışında, yeni məktəbin açılışında bu yaxınlarda Şahtaxtı kəndində tikilmiş məktəbdə olmuşam. Şəhərdə gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar məni çox sevindirir. Bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini verirlər.

Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm. Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə ulu öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu, çox böyük nailiyyətdir.

Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin və biz bunu görürük. Xüsusilə Naxçıvanın inkişafına böyük diqqət göstərilir. Çünki uzun illər ərzində, 20 ilə yaxındır Naxçıvan blokada şəraitində yaşayır. Nəzərə alsaq ki, iqlim də çox sərtdir, bu ağır şəraitdə burada görülən işlər doğrudan da təqdirəlayiqdir. Mən hər dəfə burada yenilikləri, inkişafı görəndə çox sevinirəm. Çox şad oluram ki, Naxçıvanda işlər yaxşı gedir və muxtar respublika iqtisadi göstəricilərinə görə də qabaqcıl yerdədir. Naxçıvanda ümumi daxili məhsulun artımı bütövlükdə ölkədəki artımla eynidir, iqtisadiyyat təxminən 30 faiz artır. Əhalinin pul gəlirləri artır, yeni iş yerləri açılır, zavodlar, fabriklər, məktəblər tikilir, xəstəxanalar tikilir.

Mənə bu gün Vasif Talıbov məlumat verdi ki, hər bir rayon mərkəzində belə gözəl xəstəxanalar tikiləcəkdir. Bu onu göstərir ki, Naxçıvanın sosial infrastrukturu qısa müddət ərzində dünyanın ən yüksək standartlarına cavab verəcəkdir və biz bunu istəyirik. Biz istəyirik ki, dünyadakı ən yüksək səviyyə, ən yüksək standartlar Azərbaycanın hər bir yerində tətbiq olunsun. Hər bir kənddə, yaşayış məntəqəsində, qəsəbədə onun əhalisinin sayından asılı olmayaraq, gözəl məktəb, tibb ocağı, sosial infrastruktur, iş yerləri, yollar olsun. Bütün bunlar insanın həyatını təmin edir. Naxçıvanın bütövlükdə infrastruktur layihələri də çox böyük əhəmiyyət kəsb edir.

Bu gün biz Şahtaxtıda yeni körpünün açılışında iştirak etmişik. O körpünün də çox böyük əhəmiyyəti var, insanların gəliş-gedişini asanlaşdıracaqdır. Bir müddət bundan əvvəl Naxçıvanda tikilmiş yeni modul elektrik stansiyası, demək olar, respublikanın elektrik enerjisinə olan tələbatını nəinki ödəyir, hətta əlavə imkanlar yaradır ki, gələcəkdə Naxçıvan elektrik enerjisini ixrac edə bilsin. Görün, biz nəyə nail olmuşuq. Vaxtilə qaranlıqda yaşayan Naxçıvan elektrik enerjisini ixrac edə biləcək, biz buna nail olacağıq.

İrandan çəkilən qaz kəməri Naxçıvanın qazlaşdırılmasını da sürətləndirir. Vaxtilə, 1970-80-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın təxminən hər bir rayonu qazlaşdırılmışdı. Amma sonra Naxçıvana qazın verilməsi kəsilmişdi və 13 ildən sonra biz bunu bərpa edə bildik. İndi biz İranla mübadilə yolu ilə Naxçıvanı qazla təmin edirik. Eyni zamanda, Azərbaycan tərəfindən Astarada böyük qaz-kompressor stansiyası tikilibdir ki, biz İrana eyni həcmdə qaz nəql edək. Beləliklə, artıq Naxçıvanın əhalisinin böyük hissəsi təbii qaz alır. Ancaq bu, hələ birinci mərhələdir. Biz qazlaşdırmanın birinci mərhələsini başa vurduq, indi ikinci mərhələnin icrası davam etdirilir. Bu yaxınlarda əlavə vəsait də ayrılacaq və vaxtilə, 1970-80-ci illərdə qazlaşdırılmış bütün məntəqələrə təbii qaz veriləcəkdir. Amma hələ bu da son məqsəd deyildir. Bizim istəyimiz ondan ibarətdir ki, vaxtilə qazlaşdırılmamış məntəqələrin də qaz təminatını təşkil edək. Bu, işin üçüncü mərhələsidir və mən əminəm ki, biz buna da nail olacağıq.

Beləliklə, insanların rahat yaşaması, yeni müasir infrastrukturun yaradılması, səhiyyə, təhsil ocaqlarının tikintisi, yeni zavod və fabriklərin işə düşməsi Naxçıvanın potensialını möhkəmləndirir. Naxçıvanın büdcəsi ildən-ilə, təxminən Azərbaycanın büdcəsinin artım dinamikası ilə bərabər səviyyədə artır. Sosial Müdafiə Fondunun ayrılmaları ilə birlikdə, gələn il Naxçıvanın büdcəsi təxminən 280 milyon manat olacaqdır. Bu, çox böyük göstəricidir, çox böyük nailiyyətdir. Bir neçə il bundan əvvəl Naxçıvanın büdcəsi cəmi 70 milyon manat idi. Yəni bu, əlavə imkanlar yaradır. Gözəl xəstəxanalar, gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir.

Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır.

Mən sizi əmin edə bilərəm ki, belə gözəl xəstəxanalar inkişaf etmiş ölkələrin böyük şəhərlərində də tikilmir. Belə gözəl məktəblər, hansı ki, biz bu gün Naxçıvanda onun açılışını etdik, heç bir ölkədə tikilmir. Mən bunları bilən adam kimi sizə deyirəm. Naxçıvan Dövlət Universitetinin yeni binası mənim dünyada olduğum, gördüyüm bütün ali məktəblərdən üstündür. Bu, real həqiqətdir. Bir daha onu göstərir ki, bizim siyasətimiz öz nəticələrini verir.

Mən deyəndə ki, hər bir sahədə yüksək səviyyə olmalıdır, biz indi bunu həyatda icra edirik, həyatda bunu görürük və bu, insanların yaxşı yaşamasına xidmət edir. Burada müalicə olunacaq insanlar yaxşı, yüksək tibbi xidmət alacaqlar. Burada süni böyrək cihazları quraşdırılıbdır. Böyrək çatışmazlığından əziyyət çəkən insanlar vaxtilə qanı təmizləmək üçün Naxçıvandan ya İrana, ya Türkiyəyə, yaxud da Bakıya gedirdilər. Naxçıvanda Müalicə-diaqnostika mərkəzinin istifadəyə verilməsindən sonra orada müalicə olunurlar. İndi bu aparatlar, cihazlar burada, Şərurda da quraşdırılıbdır. Şərurda olan xəstələr heç Naxçıvana da getməyəcəklər, burada müalicə alacaqlar. Biz bunu nə üçün edirik? Onun üçün edirik ki, xəstələr yaxşı tibbi xidmət alsınlar. Xəstə adam onsuz da xəstəliyindən əziyyət çəkir, biz ona əlavə əziyyət verməməliyik. Yol xərci, yolda çəkdiyi əziyyət onun xəstəliyini daha da dərinləşdirir, ona mənəvi sarsıntılar gətirir. Xəstə insan gərək qayğı ilə əhatə olunsun. Ona görə biz çalışırıq ki, bütün müasir avadanlıq, texnologiya, binalar yüksək səviyyədə olsun. Ancaq həkimlərdən də çox şey asılıdır. Mən ümid edirəm ki, bizim həkimlərimiz də öz peşəkarlıqlarını artıracaqlar, dünyada gedən yenilikləri də öyrənəcəklər və yaxşı təcrübə toplayıb xəstələrə tibbi xidmət göstərəcəklər.

Mən həkimlərin işini də çox yüksək qiymətləndirirəm. Bu, çox ağır, eyni zamanda, çox xeyirxah peşədir. Biz çalışırıq ki, həkimlərin sosial problemlərinin həlli üçün də əlimizdən gələni edək. Səhiyyə mərkəzlərinə ayrılan büdcə vəsaiti ildən-ilə artırılır, gələn il də artırılacaqdır. Bu vəsaitlə yeni xəstəxanalar tikilir və bu vəsaitdən istifadə edib biz gələn il də həkimlərin əmək haqlarını qaldıracağıq. Biz bunu etməklə həkimlərin həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Onların gördüyü işlərə, fədakarlığına öz münasibətimizi bildirməliyik.

Bir sözlə, Azərbaycanda və Naxçıvanda həm iqtisadi inkişaf, həm sosial məsələlərin həlli, həm də gözəl ictimai-siyasi vəziyyət mövcuddur. Bu, bizim uğurlarımızın təməl prinsipləridir. Məhz bu möhkəm təməl əsasında biz irəliyə gedirik. Bu möhkəm təməl əsasında Azərbaycan bölgədə öz mövqelərini möhkəmləndirir. Azərbaycan müasir ölkəyə, dünya üçün çox əhəmiyyətli ölkəyə çevrilir.

Biz hamımız müstəqilliyimizin ilk illərini xatırlayırıq və siz də yaxşı xatırlayırsınız ki, Azərbaycan xalqı hansı böyük çətinliklərlə üzləşmişdi. O cümlədən Naxçıvan. O vaxt, 1990-cı illərin əvvəllərində Bakıda rəhbərlikdə olan qüvvələrin antinaxçıvan siyasətini biz yaxşı xatırlayırıq. Onlar nəinki Naxçıvana kömək etmir, hətta Naxçıvanı da işğala məruz qoymağa hazır idilər. Nəyə görə?! Çünki Naxçıvana o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi. Əlbəttə, onun xalq arasında olan nüfuzu, onun biliyi Bakıda oturanları çox narahat edirdi. Ona görə nəinki Naxçıvana kömək etmirdilər, hətta bütün səylərini Naxçıvanı boğmağa yönəltmişdilər. Bir tərəfdən, ermənilər, erməni qəsbkarları Naxçıvana hücum edirdilər. Digər tərəfdən, Azərbaycan rəhbərliyində oturan xainlər, milli satqınlar istəyirdilər ki, Naxçıvanı Azərbaycandan tamamilə ayırsınlar. Amma naxçıvanlılar öz liderləri ətrafında, Heydər Əliyevin ətrafında birləşmişdilər. Naxçıvanlılar ermənilərə tutarlı cavab verdilər, onları yerində oturtdular, öz torpaqlarını müdafiə etdilər. Azərbaycanın ərazi bütövlüyünü Azərbaycanın bu hissəsində müdafiə etdilər və öz lideri ətrafında birləşərək, o vaxt Naxçıvanı faktik olaraq, blokadadan çıxara bildilər. Məhz o illərdə, Heydər Əliyev burada rəhbərlikdə olduğu dövrdə Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid" körpüsü tikilmişdi. O vaxt Sədərəkdə böyük mərasim keçirilmişdi. O körpü elə bil ki, Naxçıvan üçün bir nəfəs borusu idi. Ancaq o, birinci mərhələ idi. Yenə də çətinliklər var idi.

Ondan sonrakı illərdə Azərbaycanda Heydər Əliyev siyasəti başlayanda, Heydər Əliyevin rəhbərliyi altında aparılan bütün işlər Azərbaycanı çətin vəziyyətdən çıxardı. Biz nəinki o böhranın acı nəticələrini aradan qaldırdıq, o tənəzzülün qarşısını aldıq, biz həm də dirçəldik, Azərbaycan özünə gəldi və Heydər Əliyevin rəhbərliyi ilə ölkə inkişaf etməyə başladı. 1996-cı ildən başlayaraq, 2004-cü ilə qədər iqtisadiyyat hər il orta hesabla on faiz artırdı. Bu bizə imkan verdi ki, güclənək, maliyyə resurslarımızı işə salaq, Heydər Əliyevin neft strategiyasından əldə olunan vəsaitdən səmərəli istifadə edib, onu Azərbaycan xalqının inkişafına yönəldək.

2004-cü ildən sonra isə iqtisadiyyat daha da yüksək sürətlə inkişaf etməyə başladı: 2005-ci ildə 26 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin doqquz ayında təxminən 30 faiz. Heç bir başqa ölkədə belə göstəricilər yoxdur. Bu, təkcə statistik rəqəmlər deyil, biz bunu hər gün həyatda görürük. Bax, bu gözəl xəstəxanalarda görürük, tikilən məktəblərdə, salınan yollarda, tikilən elektrik stansiyalarında, qaz xətlərində, su kəmərlərində, mədəniyyət ocaqlarında, Azərbaycanın inkişafında görürük.

Mən əminəm ki, Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir. Bizim qarşımızda üfüqlər açıqdır. Necə ki, Naxçıvanın səması həmişə açıq-aydın olur, - burada heç vaxt nə tüstü, nə buludlar olur, Naxçıvanın səması həmişə çox təbii rəngdə, çox açıq olur, - eləcə də Azərbaycanın gələcəyi açıqdır, aydındır və biz bu gələcəyə doğru gedirik. Mən bu yolda sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun.

AzərTAc
18 oktyabr 2007-ci il